Əhli Sünnə Vəl Cəmaat
Sələfi Salihin Əqidəsi

# SƏLƏF İMAMLARININ HƏYATI

Bu Kitab, Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 08 İyun 2012-ci İl Tarixli İcazəsi Əsasında Çap Edilmişdir № DK-223/Q

TOPLAYAN VƏ TƏRTİB EDƏN: K.HÜSEYN
KİTABIN BÜTÜN HAQLARI QORUNUR

بسم الله الرحمن الرحيم

إنَّ الحَمْدَ لله ، نَحْمَدُهُ ونَسْتَعِينُهُ ونَسْتَغْفِرُهُ، ونَعوذُ باللهِ مِنْ شُرورِ أنفُسنا ، ومِنْ سيِّئاتِ أعمالنا ، مَنْ يَهده اللهُ فلا مُضلَّ لَهُ ، ومَن يُضلل فَلا هَادي لَهُ ، وأشهدُ أنْ لاَ إله إلاَّ اللهُ وحدَهُ لاَ شَريكَ لَهُ ، وأَشْهَدُ أَنَّ مُحَمَّداً عبدُهُ ورسولُهُ.

﴿يا أيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ وَلاَ تَمُوتُنَّ إلاَّ وأنتُم مُسْلِمونَ﴾ سورة آل عمران : الآية ، ١٠٢.

﴿يا أيُّها النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذي خَلَقَكُم مِّن نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْها زَوجَها وَبَثَّ مِنهُما رِجَالاً كَثيراً وَنسَاءً واتَّقُوا اللهَ الَّذي تَسَاءَلُونَ بِهِ وَالأَرْحامَ إنَّ اللهَ كانَ عَلَيكُم رَقيباً﴾ سورة النساء : الآية ، ١.

﴿يا أيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَولاً سَديداً ، يُصلِحْ لَكُمْ أعمالَكُمْ ويَغفِر لَكُمْ ذُنُوبَكُم ومَن يُطعِ اللهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوزاً عَظيماً﴾ سورة الأحزاب : الآية ، ٧١.

أما بعد : فإنَّ أصْدَقَ الحديثِ كلامُ اللهِ ، وخَيرَ الهَدْي هَدْيُ مُحَمَّد – صلَّىٰ اللهُ عليه وعلىٰ آله وسلَّم – وشرَّ الأُمورِ مُحْدَثاتُها وكلَّ مُحْدَثةٍ بِدعةٌ ، وكلَّ بدعةٍ ضلالةٌ ، وكلَّ ضلالةٍ في النَّار(*).

---

(*) هذه الخطبة ؛ تسمَّىٰ : «خطبة الحاجة» وهي تُشرع بين يدي كلِّ حاجة ، والتي كان رسول الله ﷺ يعلِّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ، في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة أو محاضرة ، أو غير ذلك ، وهي في : «سنن ابن ماجه» و «سنن الترمذي» و «سنن أبي داود» و «سنن النسائي» ، وورد ذكر طرف من هذه الخطبة في : «صحيح مسلم».

# Ön Söz

***Xutbətul Hacə***

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq ilah (məbud) yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və Elçisidir.

***"Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün". (Ali İmran 102).***

***"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan da zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun. (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir". (ən-Nisa 1).***

***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz) Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə (Cənnətə) nail olar". (əl-Əhzab 70-71).***[1]

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmmədin – *sallallahu aleyhi və səlləm* – yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl bidətdir, hər bir bidət isə zəlalətdir. Hər bir zəlalət isə oddadır.[2]

---

[1] ***Xutbətul Hacə*** adı ilə məşhur olan bu duanı cümə və s. xütbələrdə Peyğəmbər ﷺ oxumuşdu. Səhabələrinə də bunu əmr etmiş və özü də onları öyrətmişdir. Hədisin ilk hissəsini bizə Əhməd 1/392, 293, 432, Əbu Davud 2188, Tirmizi 1105, İbn Macə 1892 və başqaları rəvayət etmişlər.

[2] ***Hədisin İkinci Hissəsini***: Muslim "Şərhu Nəvəvi" 6/153-156, Əhməd 3/319, 371, Nəsəi 3/188, 189 və digərləri rəvayət etmişlər. Hədis alimi Muhəmməd Nəsirəddin əl-Albani hədisin bütün rəvayətlərini bir yerə toplayaraq "Xutbətul-Hacə" adlı bir kitab yazmışdır. İstəyənlər bu kitaba baxa bilərlər. Hədis Şeyx əl-Albani tərəfindən səhih hesab olunur.

***“Ey Rəbbim! Köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar!” (Taha 25-28).***

Möhtərəm müsəlman bacı və qardaşlarımız! İlk öncə hamınızı Allahın salamı ilə salamlayıram. Allahın Kitabına və Allah Elçisinin – *sallallahu aleyhi və səlləm* – yoluna tabe olaraq bu əməli “***Bismilləh***” ilə başlayıram. Çünki, Allah Rəsulu – *sallallahu aleyhi və səlləm* – də öz məktublarını "***Bismilləh***" ilə başlamış və buyurmuşdur: "Hər mühüm bir işə "***Bismilləh***" ilə başlanılmazsa, o işin sonu kəsikdir"[3].

Hər əsrdə dinini təzələyəcək bir imam izhar etməklə qullarının sağlam əqidə üzərə qalmalarına imkan yaradan Allaha sonsuz həmd sənalar olsun, Onun Rəsuluna, Rəsulunun zovcələrinə, ailəsinə, səhabələrinə və Qiyamətə qədər onların haqq yolu üzərə gedənlərin üzərinə Allahın salamı olsun. Ümmətin üzərində icma etdiyi əsil və ümmətin bir-birinə sarılmasının əsası – Əqidə birliyidir. Sərhədləri, dilləri, ölkələri ayrı olsada paylaşdıqları ortaq bir əqidə ilə tək bir ümmətdirlər. Lakin dilləri, ölkələri, tarixləri və sərhədləri eyni olub əqidələri fərqli olarsa ixtilaf və düşmənlik içində olarlar.

Etiqad birliyi Əhli Sünnətin özəlliklərindəndir. Çünki onlar heç bir ixtilafın olmadığı İlahi vəhyə tabe olurlar. Allahın vəhyində isə heç bir ziddiyət yoxdur. ***“Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar”. (ən-Nisa 82).*** Əhli Sünnə imamları haqq üzərində yeriyir və haqq üzərə birləşirlər. Onların zəlalət üzərində bir yerə cəm olmaları mümkün deyildir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Şübhəsiz ki, Allah mənim ümmətimi sapıqlıq üzərində bir yerə cəm etməz. Allahın əli cəmaat üzərindədir. Kim ayrılarsa atəşə doğru ayrılmış olar»[4]. İmam Əsfəhani – *rahmətullahi aleyhi* - deyir ki: “Müxtəlif zaman və

---

[3] Əbu Davud, əl-Albani “Zəif”.

[4] əl-Albani «Səhih Sünnən Tirmizi».

məkanlarda yaşamış Əhli Sünnət alimlərinin etiqad (əqidə) barəsində yazdıqları kitabları incələndikdə görülən bu kitabların üslubları, sözləri, mövzuları eynidir və az bir şey olsada qəti aralarında heç bir fərq yoxdur. Bunlar sanki tək bir qələmdən çıxmış kimidir"[5]. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: "Allahın bu rəhmətidir ki, bu ümmətin imamları, dörd imam və digərləri öz sözlərində doğru dürüstdülər. Hamı tərəfindən tanınmış imamlar Allahın sifətlərini təsdiq edərək deyirlər: "Həqiqətən Quran Allahın Kəlamıdır və o məxluq deyildir". Onlar həmçinin deyirlər: "Allah Qiyamət günü (Cənnətdə möminlərə) görünəcəkdir, bu da səhabələrin və müsəlmanların məzhəbidir hansıki Peyğəmbərinin – *sallallahu aleyhi və səlləm* – yolu ilə ixlasla getmişlər. (Dinin əsaələrında bu imamlar arasında heç bir ayrılıq olmamışdır). Bu həmçinin müsəlmanların yolunu izlədikləri imamlar olan: İmam Məlik, əs-Sovri, Leys İbn Sad, əl-Əuzai, Əbu Hənifə, İmam Şəfii və Əhməddir – *Allah onlardan razı olsun* -[6]. Şeyxulİslam Əbu İsmail əs-Sabuni – *rahmətullahi aleyhi* - "Əqidətus Sələf" s. 111 adlı əsərində imamların etiqadı ilə bağlı bəzi cümlələri zikr etdikdən sonra deyir ki: "Nəql etdiyim bu cümlələr bütün imamların etiqadıdır və bu barədə aralarında ən kiçik bir ayrılıq da yoxdur". İmam Lələkai – *rahmətullahi aleyhi* - öz kitabında bu imamların etiqadlarını zikr etdi: Sevri, Əvzai, İbn Uyeynə, İmam Əhməd, İbn Mədini, Əbu Sevr, Buxari, Əbu Zura, Əbu Xatim, Tisteri, Təbəri – *Allah onlardan razı olsun* -. Hamısının etiqadı da eynidir"[7]. Çünki onlar Quranın nazil olmasına şahidlik edən, mənasını Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – öyrənən, doğru yolla yeriyən səhabə, onlara tabe olan Tabiin, Əhli hədis və imamlara uyan cəmaatdır. İttifaq və birlik, əhli sünnətin özəlliklərindən olduğu kimi, ixtilaf, ayrılıq və təkfir də bidət əhlinin özəlliklərindəndir. İmamların Peyğəmbərdən – *sallallahu*

---

[5] "əl-Huccə Fil Bəyanil Məhaccə" 2/224,225.
[6] İbn Teymiyyə "İman" s. 350-351, "Məcmuul Fətava" 5/256, "Minhəc Sunnə" 2/106.
[7] "Şərh Usuli Etiqadi" 1/151.

*aleyhi və səlləm* – alaraq üzərində birləşdikləri etiqadları qorunmuşdur. Çünki Allah bu etiqadın qaynağını qorunma altına almışdır. ***“Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”. (əl-Hicr 9).*** Allah hər dövürdə batil və zərərləri aradan qaldıracaq sadiq möminlər var etmişdir. Elm əhli deyir ki: Bizdən əvvəlki ümmətlərin dövründə din pozulduğu zaman Allah haqqı bəyan edən yeni Peyğəmbərlər göndərmişdir. Bu ümmətin isə Peyğəmbərindən sonra başqa bir Peyğəmbəri olmayacaq, lakin Allah Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – dinini qoruma və bəyan edəcək saleh alimlər var etmişdir. ***“Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onun istədiyi (özünün yönəldiyi) yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir.”. (ən-Nisa 115).*** Qiyamət gününə qədər bu etiqad üzərə qalan möminlər olacaqdır və onlar bidət əhlinə qarşı daima mübarizə aparacaqlar. İbn Məsud – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın məndən əvvəlki ümmətlərə göndərdiyi hər Nəbinin öz ümmətindən sünnətini alan və əmrlərinə uyan bir çox həvvariləri və səhabələri vardır. Sonra onların ardından etməyəcəkləri şeyləri söyləyən və əmr olunmadıqları işləri edən bir çox nəsillər zühur edər. Kim onlara qarşı əli ilə mübarizə apararsa o, bir mömindir. Onlara qarşı kim diliylə mübarizə apararsa o, da bir mömindir. Onlara qarşı kim qəlbi ilə mübarizə apararsa o, da mömindir. Amma bundan aşağı (imandan) bir xardal dənəsi qədər də iman yoxdur»[8]. Səvban – *radıyallahu anhu* – dən gələn rəvayətdə Rəsulullah - *sallallahu aleyhi və səlləm* - buyurur: «Ümmətimdən bir qrup insanlar olacaq ki, Qiyamətin qopacağı vaxta qədər haqq üzrə gedəcəklər. Heç nə və heç kim onlara zərər vura bilməyəcək. Allahın əmri gəlincəyə qədər»[9]. İmran İbn Hüseyn - *radıyallahu anhu* – rəvayət edir ki,

---

[8] Müslim.

[9] Buxari, Müslim.

Rəsulullah – *sallallahu aleyhi və salləm* – buyurdu: «Ümmətimdən Qiyamət saatı gəlincəyə qədər haqq üzərə savaşacaq olan kimsələr olacaqdır. Onlarla döyüşənlərə qarşı müzəffərdilər (yenilməz). Onların sonuncuları Məsih Dəccəllə qarşı döyüşən (cəmaatdır)»[10].

Dini zərurətlərdən biri də etiqadın sadəcə Allah və Rəsulundan – *sallallahu aleyhi və salləm* – alınmasını bilməkdir. Bu baxımdan Əhli Sünnətin yolu, səhih dəlildən ayrılmamaq, filan və filankəsin sözüdür deyə dəlilə müxalif olmamaqdır. Buxari – *rahmətullahi aleyhi* - deyir ki: "İmam Həmidinin belə dediyini eşitdim: İmam Şəfiinin – *rahmətullahi aleyhi* - yanında idim. Bir nəfər gəlib bir məsələ haqqında soruşdu. İmam Rəsulullahın – *sallallahu aleyhi və salləm* – bu məsələdə belə dediyini höküm verdi. Adam: "Bəs sən nə deyirsən?" dedi. İmam: "Subhənəllah! Məni kilsədəmi görürsən? Məni sinaqoqdamı görürsən? Mən sənə Rəsulullahın – *sallallahu aleyhi və salləm* – hökm verdiyini deyirəm, sən isə: Bəs sən nə deyirsən" deyə soruşursan" [11]. İslam dinində Allah və Rəsulunun – *sallallahu aleyhi və salləm* – sözündən sonra bir başqasının sözünə yer yoxdur. ***"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!". (əl-Əhzab 36).*** İmam Şəfii – *rahmətullahi aleyhi* - deyir ki: "Peyğəmbərin – *sallallahu aleyhi və salləm* – sünnəti bəyan olan bir kimsənin başqasının sözünə uymasının caiz olmadığında alimlər icma etmişlər"[12].

Usulud Din mövzusunda sadəcə dörd imam deyil, bütün imamlar və ümmətin Sələfi eyni haqq etiqad üzərindədirlər. Çünki onların hamısı bu mövzuda elmlərini Peyğəmbərdən – *sallallahu aleyhi və salləm* – alan səhabələrin məzhəbi üzərindədirlər. Səhabələr isə Peyğəmbərin – *sallallahu aleyhi və salləm* – zamanında

---

[10] Əbu Davud "Cihad" 4, 2484, İmam Əhməd.

[11] Şərh Təhaviyyə 336, Hilyətul Əvliya 9/106, Mənakibul Beyhəqi 1/474.

[12] İlamul Muvakkin 2/282, Fəthul Məcid 555, ər-Risalə 539, 541, 598.

tək bir etiqad üzərə idilər. Çünki onlar vəhyi və səhabə olma şərəfini idrak etmişlər[13]. Etiqadlarını tək bir qaynaqdan, vəhy qaynağından aldılar. Başqa maddələr ilə bu qaynağı kirləmədilər. Buna görə də: Allaha həmd olsun İsimlər, Sifətlər, Qəza və Qədər, İman, Səhabələr və s. məsələsində ixtilaf etmədilər. Ümmətin sonra gələn Sələfləri və imamları da ehsan üzərə onlara tabe oldular. Bütün bu imamların etiqadları səhabə və ehsan ilə onlara tabe olanların etiqadlarının eynisidir. Bu da Kitab və Sünnətin gətirdiyi etiqaddır[14]. Ümmət tərəfindən qəbul olunan heç bir alimin Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – ən kiçik bir sünnəti olsun müxalif olması mümkün deyildir. Çünki onlar Peyğəmbərə – *sallallahu aleyhi və səlləm* – ittibanın vacib olduğu və Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – başqa hər kəsin sözünün qəbul və rəd edilə biləcəyi üzərində yəqin idilər. İmam Məlik – *rahmətullahi aleyhi* - deyir ki: "İmamlar bidət yoluna deyil ittiba yoluna tabe oldular. Onlar özlərinə nümunə Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* – seçdilər. Bir qul Allahın əzabından ancaq bu iki şey ilə qurtula bilər. Allahı birləmək və göndərdiyi elçiyə uymaq. Müsəlman Allah və Rəsulunun hökmündən başqa hökm qəbul etməz". Allah və Rəsulunun əmr və xəbərlərini tətbiq etmək və təsdiq etmək üçün şeyxindən, imamından və ya böyük qəbul etdiyi kimsələrdən izn alamağa lüzum görməz. Qulun Rəbbinin hüzuruna – şirk xaric – bütün günahlarla getməsi belə bir şeylə getməsindən daha xeyirlidir. Müsəlmanın üzərinə düşən səhih bir hədis eşidər eşitməz onu sanki Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – dilindən eşitmiş kimi həmən qəbul edər. Yoxsa onun məzhəbinə uyğun deyildir deyə bu dəlilləri təvil və rədd etməz. Əksinə başqalarının sözləri dəlilə uymadığı zaman rədd edilməlidir. Vacib olan xəbər verdiyi şeyləri təsdiq edərək, əmr etdiklərinə uyaraq, qadağalarından çəkinərək və Allaha onun kimi ibadət edərək tam mənasıyla Rəsulullaha – *sallallahu aleyhi və səlləm*

---

[13] Miftahus Saadət 22-23.

[14] Fətava 5/525.

– təslim olmaqdır. Necə ki, ***Lə İləhə İllələh*** şəhadətinin tələb etdiyi Allahı Rububiyyətində, Uluhiyyətində, İsim və Sifətlərində birləməkdirsə, Muhəmmədur Rəsulullah şəhadətinin tələb etdiyi də budur. Peyğəmbərə – *sallallahu aleyhi və səlləm* – ittiba və təslim olmağın ən mükəmməl şəkili budur.

İmamlar etiqadda ittifaq etmişlər. Sələf imamlarının etiqadları barəsində bir çox kitablar yazılmışdır. Hər biri də Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – sünnətinə etimat etdiklərini göstərir. Onlar daima: Mənim məzhəbim Quran, Sünnə və səhabələrin fəhmidir" deyərdilər. Onlardan biri deyir ki: "Etiqad – nə məndən, nə də məndən daha böyüklərdən alınmaz. Əksinə Allah və Rəsulundan – *sallallahu aleyhi və səlləm* – alınır. Quranda olan və ümmətin Sələfinin üzərində ittifaq etdiləri Buxari, Müslim kimi səhih hədislərdə gələn xüsuslara iman etmək vacibdir"[15]. Sünnət - imamlardan birinin məzhəbinə uymaqla deyil, Quran və Sünnətə uymaqla gerçəkləşir. Kim ki, Mən fiqhdə Şəfiiyəm, etiqadda Əşariyəm deyərsə açıq bir şəkildə ziddiyətə düşmüşdür. Çünki İmam Şəfii – *rahmətullahi aleyhi* - heç bir zaman Əşari deyildir. Həmçinin fiqhdə Hənəfi olub, əqidədə Mətrudi olan da açıq bir ziddiyətdədir. Çünki İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* - heç bir zaman Mətrudi olmamışdır. Kim Quran, Sünnə və icmaya tabe olarsa o imamlardan birinə uymasa da belə Əhli Sünnə Vəl Cəmaatdır. Ona görə də etiqadi məsələrdə imamlar kimsəni hər hansısa məzhəbə çağırmazdılar. Onlardan biri deyir ki: "Həyatım boyu bu ana qədər Usulud Dində insanları Hənbəli, (Hənəfi, Şəfii) və s. Məzhəblərə çağırmadım. Əksinə ümmətin Sələfinin üzərində ittifaq etdikləri xüsuslara çağırdım" [16] . İbn Teymiyyədən – *rahmətullahi aleyhi* - bir nəfər etiqadı Şəfii məzhəbinə görə xəbər verməsini istədi. Şeyx: "Bu barədə Şəfii məzhəbi digər imamların məzhəbləri ilə eynidir. İmamların məzhəbləri isə səhabə və ehsan üzərə olanlara tabe olan Tabiinin məzhəbidir ki, onlar da

---

[15] "Təzkiratu Huffaz" 3/1132, "Tabaqatuş Şafiiyyə" 4/8-16.
[16] İbn Teymiyyə "Məcmuul Fətava" 3/161.

məzhəblərini Kitab və Sünnətdən almışlar. Bu müzakirə əsnasında ondan: "Sən İmam Əhmədin – *rahmətullahi aleyhi* - etiqadını daşıyırsan" deyə soruşurlar. Şeyx: "Bu imamlar və ümmətinin Sələfinin Peyğəmbərdən aldıqları Muhəmmədin – *sallallahu aleyhi və səlləm* – əqidəsidir"[17].

***<u>Peyğəmbərlərin Də Etiqadları Birdir:</u>*** Bütün bunlardan dörd imamın və hətta bütün imamlar və ümmətin fəqih sələfinin etiqadlarının eyni olduğu alnaşılır. Çünki onlar eyni qaynaqdan götürmüşlər ki, o qaynaqda Peyğəmbrimizdir. Peyğəmbərimizin etiqadı isə digər Peyğəmbər qardaşlarının etiqadları ilə eynidir. Şəriətləri ayrı olsa da belə bütün Peyğəmbərlərin dinləri birdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Peyğəmbərlər ata bir qardaşdılar. Anaları ayrıdır. Dinləri isə birdir. Mən Məryəm oğlu İsa – *əleyhissəlam* – a ən yaxın olanam. Çünki mənimlə onun arasında Peyğəmbər yoxdur»[18]. İmam Nəvəvi – *rahmətullahi aleyhi* - deyir ki: "Cumhur deyir ki, Peyğəmbərlərin iman və şəriət üsulları birdir. Onlar Tövhid üsulunda müttəfiq lakin şəriətdə müxtəlifdirlər"[19]. İbn Həcər – *rahmətullahi aleyhi* - deyir ki: "Şəriətdə müxtəlif olsalarda dinlərinin əsli eynidir mənasındadır"[20]. Allah Qurani Kərimdə bir çox ayələrdə bunu açıqlamışdır: ***<u>"(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" – deyə vəhy etməyək". (əl-Ənbiya 25). "Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu!". (ən-Nəhl 36). "(Ya Peyğəmbər!) Allah: "Dini doğru-dürüst tutun (qoruyub saxlayın),</u>***

---

[17] "Fətava" 3/170.
[18] Buxari «Ənbiya» 48, Əhməd 2/437, Təbəri «Cəmiul Bəyan» 4/22,23,
[19] Şərh Səhih Müslim 15/120.
[20] Fəthul Bəri 6/489.

***onda ayrılığa düşməyin!" – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin (tövhid dini) müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni özünə (peyğəmbər) seçər və tövbə edib Ona tərəf qayıdan kimsəni də doğru yola yönəldər!". (əş-Şura 13).*** Allahın, Muhəmmədin ümməti üçün seçdiyi İslam Dini bütün Peyğəmbərlərin dinidir. ***"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!...". (Ali İmran 19).*** Allah daha öncə Nuh, İbrahim, Musa, İsa və digər Peyğəmbərlərə verdiyi dinin eynisini Muhəmmədə vermişdir. ***"Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik...". (əl-Maidə 48).*** Peyğəmbərlər – etiqadda, eyni din üzərə idilər. Etiqadi olaraq – Allaha, Peyğəmbərlərinə, Axirət gününə iman kimi. Əməli olaraq isə - Ənam, Əraf və İsrail oğlulları surələrində zikr edilən əməlləri misal verə bilərik. ***"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!". (əl-İsra 23). "De: "Rəbbim ədaləti əmr etdi. Hər səcdədə (namaz vaxtı) üzünüzü (bütlərə deyil, Ona tərəf və ya qibləyə) tutun. (Allah) dini yalnız Ona məxsus edərək ibadət edin. Sizi (yoxdan) yaratdığı kimi, yenə Onun hüzuruna qayıdacaqsınız!". (əl-Əraf 29). "De: "Rəbbim yalnız aşkar və gizli alçaq işləri (zana etmək, lüt gəzmək və s.), hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur". (əl-Əraf 33). "(Ya Rəsulum!) De: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) bunları sizə***

***tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız! Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi (dini vəzifələrinizi, andlarınızı) yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz! Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın. (Allah) sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!". (əl-Ənam 151-153).*** Zikr edilən bu xüsuslar üzərində bütün Peyğəmbərlər müttəfiqdirlər. Bütün Peyğəmbərlərin üzərində müttəfiq olduqları bu din İslam dinidir. ***"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!...". (Ali İmran 19).*** Allah əvvəl və sonrakılardan heç kimsədən bu dindən başqa bir din qəbul etməz. ***"Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar". (Ali İmran 85).*** Nuhdan - *əleyhissəlam* - Peyğəmbərimiz Muhəmmədə – *sallallahu aleyhi və salləm* – qədər bütün Peyğəmbərlər eyni İslam üzərə idilər. Nuh - *əleyhissəlam* - haqqında: ***"(Ya Rəsulum!) Müşriklərə Nuhun xəbərini söylə. Bir zaman o öz ümmətinə belə demişdi: "Ey ümmətim! Əgər aranızda qalmağım və Allahın ayələri ilə öyüd-nəsihət verməyim sizə ağır gəlirsə, mən (sizin mənə qarşı bütün pis niyyətlərinizdən) Allaha təvəkkül edirəm. Şəriklərinizlə birlikdə (mənim barəmdə) nə edəcəyinizi qərarlaşdırın. Görəcəyiniz iş gizli qalmasın (onu mənə də bildirir), sonra mənə heç möhlət də verməyib haqqımda istədiyinizi edin (istədiyiniz hökmü çıxarın!). Əgər siz (mənim öyüd-nəsihətimdən, dəvətimdən) üz çevirsəniz, (bilin ki) mən (bunun müqabilində) sizdən heç bir mükafat istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. Mənə müsəlmanlardan (özünü Allaha təslim edənlərdən) olmaq əmr edilmişdir!". (Yunus***

*71-72).* İbrahim - *əleyhissəlam* - haqqında: ***"(Ya Rəsulum!) Özünü səfehliyə qoyanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Həqiqətən, Biz onu dünyada (peyğəmbərlik və Kəbəni təmir etmə üçün) seçdik. Şübhə yoxdur ki, o, axirətdə də əməlisaleh olanlardandır. Rəbbi İbrahimə : "(Əmrimə) təslim ol!" – dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum (müsəlman oldum)!" – deyə cavab vermişdi. İbrahim və (sonra da) Yəqub bunu (müsəlman olmağı) öz oğlanlarına vəsiyyət edib (hər biri dedi) : "Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz". (əl-Bəqərə 130-132).*** Musa - *əleyhissəlam* - haqqında: ***"Musa dedi: "Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!". (Yunus 84).*** İsa - *əleyhissəlam* - haqqında: ***"Xatırla ki, o zaman həvarilərə (İsanın on iki əshabəsinə): "Mənə və peyğəmbərimə iman gətirin!" – deyə əmr etmişdim. Onlar isə: "Bizim (Sənə və peyğəmbərinə) itaətkar kəslər olmağımıza şahid ol!" – deyə cavab vermişdilər". (əl-Maidə 111). "Şübhəsiz ki, Tövratı da Biz nazil etdik. Onda haqq yol və nur vardır. (Allaha) təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla (Tövratdan ələ gəlib çatan ayələrlə) hökm edərdilər. Onlar (peyğəmbərlər, din alimləri və fəqihlər) ona (Tövratın ilahi bir kitab olmasını) şahiddirlər. (Ey yəhudi alimləri və rəisləri!) İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!". (əl-Maidə 44).*** Bilqeys haqqında: ***"(Bəlqəsin əqlini, zəkasını yoxlamaq məqsədilə) ona belə deyildi: "Saraya daxil ol!" (Süleymanın sarayı büllurdan tikildiyi və altına su buraxıldığı üçün Bəlqis) sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və (paltarı islanmasın deyə) atəyini qaldırdı (baldırlarını açdı). O (Süleyman): "Bu (su deyil) büllurdan tikilmiş (şəffaf) bir saraydır!" – dedi. (Bəlqis) dedi: "Ey Rəbbim! Mən (günəşə sitayiş etməklə) özümə zülm etmişdim. Mən artıq***

***Süleymanla (Süleymanın sayəsində) aləmlərin Rəbbi olan Allaha təslim oldum". (ən-Nəml 44).*** İslam sadəcə Allaha təslim olmaq deməkdir. Həm Allaha həm də bir başqasına təslim olan müşrikdir. Allaha təslim olmayan Ona ibadət etməkdən təkəbbürlənmişdir, Ona şərik qoşan və Onun ibadətinə qarşı təkəbbürlənən kimsə kafirdir. Bu İslam dinidir ki, Allah Ondan başqa din qəbul etməz. Bütün Peyğəmbərlərin etiqadları eyni olduğu kimi dəvətlərinin əsası və dəvət etdikləri təməl də eynidir ki, bu da ortağı olmayan bir və tək olan Allaha ibadət etməkdir. Hər bir Peyğəmbər dəvətini bu cümlə ilə başlayırdı: "Allaha ibadət edin, sizin ondan başqa İlahınız yoxdur". Allah xəbər verir ki, Nuh, Hud, Saleh, Şueyb, və digər bütün Peyğəmbərlər – *Allahın onlara salamı olsun* - dəvətlərini bu kəlimə yəni Tövhid ilə başlamışlar. Dinin təməli də budur. Günümüzdə də dəvətin bu əsas üzərində edilməsi və insanları sadəcə Allaha qulluq etməyə çağırmaq lazımdır. "Biz Nuhu - *əleyhissəlam* - öz xalqına elçi göndərdik. O dedi: ***"Biz Nuhu öz tayfasına (peyğəmbər) göndərdik. O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Mən (müsibəti) böyük günün (qiyamət gününün) sizə üz verəcək əzabından qorxuram!". (əl-Əraf 59), "Ad tayfasına da qardaşları Hudu (peyğəmbər göndərdik). O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir tanrınız yoxdur. Məgər (Allahın əzabından) qorxmursunuz?". (əl-Əraf 65), "Səmud tayfasına da qardaşları Salehi (peyğəmbər göndərdik). O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Allahın bu dişi (maya) dəvəsi sizin üçün (peyğəmbərliyimi təsdiq edən) bir möcüzədir. Buraxın Allahın torpağında otlasın, ona pislik etməyin, yoxsa çox şiddətli bir əzaba düçar olarsınız!". (əl-Əraf 73).***

Allaha həmd olsun ki, verdiyi nemətlər sayəsində: "Sələf İmamlarının Etiqadı" adlı kitabı da toplaya bildik. Bu kitabı tərcümə edib toplamaqda məqsədimiz də birdi: Dörd imam və

digər sələf imamlarının etiqadlarının eyni olduğunu və bir qaynaqdan Quran və Sünnədən qaynaqlandığını müsəlmanlara çatdırmaqdır. Çox az bir qism insanlar bu imamların etiqadlarından xəbərləri vardır. Burada olanlar həm də Mənim Allahın qulu K. Hüseynin etiqadıdır. Allahdan bizləri bu doğru etiqad üzərə yaşatmasını və bu etiqad üzərə sabit etməsini diləyirəm. Dua edirəm ki, Allah bu kitabı İslam ümməti üçün xeyirli və faydalı etsin!

İlk növbədə Allahdan bu işimin dolğun, düzgün şəkildə toplayıb başa çatdırılmasını diləyirəm. Allahdan əməlimi onun üçün ixlaslı olmasını, məndən qəbul edib onunla müsəlmanları faydalandırmasını diləyirəm. Əgər haradasa xəta etmişəmsə bu nəfsimdən və şeytandandır. Şeytandan və çarəsizlikdən Allaha sığınıram. Burada düzəldilməsi mühüm olan yerləri tapdıqdan sonra mənə öyüd-nəsihət verəndən, səhvlərimi və xətalarımı mənə bəyan edəndən Allah razı olsun. Allah onu xeyirlə mükafatlandırsın! Mən ona əvvəlcədən öz təşəkkürümü bildirirəm.

Güvəndiyim Allahdır, işlərimi Ona həvalə edirəm və Ona arxalanıram. Həmd və nemət yalnız Onadır. Müvəffəqiyyət bəxş edən və xətalardan qoruyan da Odur. ***"Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək, sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur! Ey Rəbbim! Mənə hikmət bəxş et və məni salehlərə qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət et! Məni Nəim Cənnətlərinin varislərindən et".*** *(əş-Şuəra 78-85).*

Allahın salavat və salamı onun Peyğəmbəri Muhəmmədə – *sallallahu aleyhi və səlləm –*, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun!

***Bitirdim*: Miladi 2012-ci il 16 Fevral**
***Hicri*: 1433-cü il Rabiul Əvvəl 23**
***Həmd Olsun Aləmlərin Rəbbi Olan Allaha! (Yunus 10)***

# İmam Əbu Hənifə
***- rahmətullahi aleyhi -***

ən-Numan İbn Sabit İbn əl-Mərzuban. Bəzi məlumatlara görə H. 80/700-ci illərdə Əfqanıstanın paytaxtı Kabulda, digər rəvayətə görə isə Kufədə Abdulməlik İbn Mərvanın xəlifəliyi dövründə dünyaya gəlmişdir. Ərəb olmasada, ərəblər arasında böyüyüb böya başa çatmışdır. Fars ya da Türk olması haqda bir çox məlumatlar vardır. Kufədə tanınmış bir ailədə böyüyüb başa çatmışdır. Kiçik yaşlarından Quranı hifz etmiş. Atası ilə bir neçə dəfə Məkkə və Mədinəni ziyarət etmişdir. Yaşadığı dövürdə kəlam elmi geniş yayıldığı üçün bu elmi öyrənmiş lakin sonradan kəlamı tərk edərək Şeyx Həmmədin yanında fiqh öyrənməyə başlamışdır. İmam Əbu Hənifə - *rahmətullahi aleyhi* - atasıyla 16 yaşında Həccə getdikdə orada Tabiinlərdən olan Ata İbn Əbu Rəbah, İkrimə, Nəfi, Qatadə və s. ilə görüşərək onlardan hədis dinlədiyi də rəvayət olunur[21] Özü Tabiinlərdən sayılır və Ətbau Tabiinlərin böyüklərindəndir. 18 il İraqın böyük alimi olan Həmməd İbn Əbu Suleymanın dərslərində iştirak etmişdir. Müəllimləri İbrahim ən-Nəhai, əş-Şabi kimi böyük fiqh alimləridir. Özü deyərdi ki: «Ömərin, İbn Abbasın, İbn Məsudun və Əlinin fiqhini onların əshabından aldım»[22]. Əbu Hənifənin - *rahmətullahi aleyhi* - minlərcə tələbəsi olmuşdur ki, bunlardan 40 yaxını müctəhid mərtəbəsinə çatmışdır ki, bunlardan: Əbu Yusuf, Muhəmməd İbn Həsən əş-Şeybani, Davud ət-Tai, Əsəd İbn Amr, Həsən İbn Ziyad, Qasım İbn Maan, Əli İbn Muhsir, Hibban İbn Əli və s. Əməvi və Abbasilərin idarəçiliyi dövülərində yaşamış, hər iki dövürdə də ona təklif edilən vəzifə təkliflərini rədd etmişdir. Lakin ikinci Abbasi xəlifəsi Əbu Cəfər Mənsurun təklifini qəbul etmədyi üçün həbsə atılmışdır. Bağdada 15 günlük həbs müddətindən sonra Əbu Hənifə - *rahmətullahi aleyhi* - 150/770-

---

[21] İbnul Əsir "Usdul Ğabə" 3/133.

[22] İmam Zəhəbi "Mənakibul İmam Əbu Hənifə və Sahiheyn Əbu Yusuf və Muhəmməd İbn Həsən", Misir. Əbu Zəhra, Əbu Hənifə 44.

ci illər arası Yetmiş yaşında şəhidlər kimi ölmüşdür. Zəhərləndiyi də rəvayət edilir. Bağdatda Hayruzan qəbristanlşığında dəfn edildi[23].

Ölmündən sonra dərsləri Əbu Yusuf - *rahmətullahi aleyhi* - davam etdirdi. Fətvaları toplanılaraq kitablar halına salındı. Məzhəbi sistematik hala gətirən Muhəmməd İbn əş-Şeybanidir. "Əl-Asl", Camius Sağir", "Camiul Kəbir", "əz-Ziyadət", "Siyerul Kəbiri" yazan da odur. Məzhəbin ana kitabları "Zahirur Rivayə", "Məsailul Usul". Tələbələrinin topladığı "Fiqhul Əkbər", "Fiqhul Əbsat", "Kitabul Alim vəl Mutəallim", "Kitabur Risalə", "əl-Vasiyyə", "əl-Qəsidətul Numaniyyə", "Mərifətul Məzahib", "Musnədul İmam Əbu Hənifə" və s. Bir çox şeyxlərdən dərs almış onlardan İbrahim İbn Muhəmməd əl-Muntəşir əl-Kufi, İbrahim İbn Yəzid ən-Nəhai əl-Kufi, İsmail İbn Xammad İbn Əbu Süleyman əl-Kufi, Əyyub əş-Şaxtiyani əl-Basri Salim İbn Abdullah İbn Ömər İbn əl-Xəttab və s. Şeyx Əhməd əl-Məkki əl-Xarəzmi deyir ki, tələbələrinin sayı 700 çatırdı. Hər biri də müsəlmanların şeyxləri idi. H. 150/767-ci ildə dünyasını dəyişmişdir.

## FİQHUL ƏBSAT

Bu Kitab "Fikhul Əkbər" kitabının başqa bir versiyasıdır. Çünki bu kitabdan bir çox Sələf alimləri öz kitablarında sitatlar gətirmişlər. Məs: İbn Teymiyyə "Əqidətul Həməviyyə", İbn Qudəmə "əl-Ulum", İbn Qeyyim "İctima Cuyuşul İsləmiyyə", İmam Zəhəbi "əl-Uluv". Hər biri də bu kitabdan sitat gətirdikdə adını "Fiqhul Əkbər" deyərdilər. "Fiqhul Əbsat" adı sonradan Hənəfilər tərəfindən verilmişdir. Bunu oğlu tərəfindən rəvayət edilən "Fiqhul Əkbər" kitabından ayırmaq üçün idi. "Fiqhul Əbsat" kitabını Əbu Hənifədən - *rahmətullahi aleyhi* – rəvayət edən Əbu Mutidir. Əbu Muti kimdir? Muhəddislərdən Əbu Davud, İbn

---

[23] ən-Nəməri "əl-İntiqa" 170.

Hibban, Əbu Hətim bu ravini zəif ravi adlandırmışlar. Əbu Davud - *rahmətullahi aleyhi* - deyir ki: "Onun hədisləri Mətrukdur və Cəhmi[24] olmuşdur". Əbu Hətim - *rahmətullahi aleyhi* - deyir ki: "Murciyə[25] olmuşdur və hədisləri də qəbul edilmir". İbn Hibban - *rahmətullahi aleyhi* - deyir ki: "Murciyənin başçılarından olmuşdur". Hər iki kitab Hənəfilərdə və Mətrudilərdə əsas mənbə kitablardan sayılır. Onlar bu kitablara əsaslanır, söykənirlər. Lakin bu kitablar onların əleyhlərinə olan bir kitabdır. Çünki Hənəfilərin və Mətrudilərin etiqadi məsələlərdə bir çox görüşləri bu kitabla üst-üstə düşmür. Onların Allahın İsimləri barəsində olan etiqadlarına ziddir. Bu kitab Əbu Mutinin İmam Əbu Hənifənin - *rahmətullahi aleyhi* - sözlərindən çıxardığı bir nəticədir. Əgər biz görsək ki, nəsə bu kitabda - İmam Təhavinin - *rahmətullahi aleyhi* - qeyd etdiklərinə

---

[24] ***<u>Cəhmilər kimlərdir? –</u>*** Özlərini İslama nisbət edən, Kəlam əhlinin bir qoludur. Onlar Allahın gözəl İsimləri və İman barəsində küfr etiqaddadırlar. Bu etiqadın başçısı Cəhm İbn Saffandır. Əbu Muxriz kimi tanınır. İlk dəfə H. 102-ci ildə bu etiqadını yaymağa başlayır. Qədər barəsində insanın seçimini, iradəsini inkar edir, ilk olaraq Quranın yaradılmış olması fikirlərini ortaya atır və Allahın İsim və Sifətlərini təmamilə inkar edirdi. Onlar deyirlər ki: İman yalnız Allah barəsində bilməkdir, küfr isə - Allah barəsində bilməməkdir. Söz və əməllər imana daxil deyildir. Ona görə də onlar deyirlər ki, əgər insan Allahı tanıdısa və sonra dili ilə inkar etdisə kafir olmur. Onlar həmçinin etiqad edirlər ki, iman hər kəsdə eynidir. Peyğəmbərlərdən və sıravi müsəlmanlara qədər. Ona görə də imanın artıb azalmasını da qəbul etmirlər. Həmçinin: Qiyamət günü Sıratın olmasına, Tərəzinin olmasına, Allahı görməyi, Qəbr əzabnın olmasını, Cəhənnəm və Cənnətin əbədi olmasını, Allahın kəlamını, Allahın Ərşin üzərinə İstiva etməsini və s inkar edirlər. Küfr olan etiqadları özlərində daşıyırlar.

[25] ***<u>Murciyə Kimlərdir? -</u>*** Murciyə qolları çoxdur. İbn Teymiyyə "İman", İbnul Cevzi "Şeytanın Hiylələri" kitabında 12 qolunu zikr edirlər. Ğulət Murciə deyirlər ki: İman – tək qəlbin bilmsidir. Onlara görə İblis, Firon bilirdi. Küfr isə Allahı bilməməkdir. Əməllər iman məfhumunun içərisinə daxil deyildir. Bu zaman həm zahiri, həm də qəlbi əməllər qəsd olunur. Onlar hər ikisini də imandan görmürlər. Sələflər isə tək qəlbi əməlləri imandan görməyəni küfr etmiş saymışlar. Murcuyə Fuqaha (Yəni: İmam Əbu Hənifə - *rahmətullahi aleyhi* - və yoldaşları) belə demir. Murciyə Fuqaha – qəlb ilə təsdiq, dil ilə iqarar. Zahiri əməllər iman məfhumuna daxil deyil. Gulət Murciyələrdən fərqli olaraq əməlləri bütünlüklə inkar da etmirlər. Zahiri əməllərin olmaması imana təsir etmir. Sənin qəlb ilə bilib təsdiq etməyin və dil ilə iqrar etməyin onu göstərir ki, sənin imanın Peyğəmbərlərin, Mələklərin imanı kimidir. İmanın bütöv bir şey olduğunu qəbul etdikləri üçün artıb azalmasını da qəbul etmirlər. Kafirə yaxşı əməllərin xeyiri olmadığı kimi, möminə də günah əməllərin təsiri yoxdur.

ziddir, çünki bəzi alimlər imamların etiqadi məsələlərdə sözlərini bir yerə toplamışlar. Məs: Həllal, İmam Əhmədin - *rahmətullahi aleyhi* - etiqadını toplayarkən bir kitaba, Beyhəqi "Cəmiun Nusus Min Kəlamiş Şəfii" adlı əsərində İmam Şəfiinin - *rahmətullahi aleyhi* - sözlərini toplamışdır[26]. Bundan sonra İmam Əbu Cəfər ət-Təhavi - *rahmətullahi aleyhi* - bütün ümmətin təqdirini qazanan nəfis bir risalə yazaraq Sələfin, İmam Əbu Hənifə və tələbələri Əbu Yusuf və Muhəmməd əş-Şeybaninin əqidəsini "Əqidətul Təhaviyyə" və ya "Bəyanus Sunnə" kitabında bəyan etdi. "Usulud Din" məsələsində Əbu Hənifənin etiqadı digər imamlardan İman məsələsi xaric heç bir fərqi yoxdur. Təhavi şərhinə görə isə iman məsələsində ixtilaf Ləfzi ixtilafdır[27]. - deməli İmamın sözləri deyil ona nisbət edilən sözlərdir.

## Əqidəni Bilmək Ən Böyük Fiqhdir

Həmd aləmlərin Rəbbinə, Salat və salam Peyğəmbərimiz Muhəmmədə – *sallallahu aleyhi və səlləm* – və onun ailə və əshabına olsun.

İmam Əbu Bəkr Muhəmməd İbn Muhəmməd əl-Qasani, Əbu Bəkr Alaud-Din Muhəmməd İbn Əhməd əs-Səmərqəndidən rəvayət etdi: Bizə Əbul Muin Meymun İbn Muhəmməd Məqhuli ən-Nəsəfi, ona əl-Fadl ləqəbli Əbu Abdullah əl-Huseyn İbn Əli əl-Qaşqari, ona Əbu Malik Nasran İbn Nasr əl-Huttəli, ona Əli İbn Həsən İbn Muhəmməd əl-Qazzal, ona Əbul Həsən Əli İbn Əhməd əl-Farisi, ona Nusayr İbn Yəhyə əl-Fəqih xəbər verdi və dedi: Əbu Muti Həkəm İbn Abdullah əl-Bəlxinin belə dediyini eşitdim: Əbu Hənifəyə - *rahmətullahi aleyhi* - Fiqhul Əkbəri (Böyük Fiqh) haqqında soruşdum o da:

---

[26] "Ləvamiul Ənva" 1/66.

[27] Daha geniş məlumat üçün bax: Muhəmməd əl-Xumeyyis "Əqidətu İmam Əbu Hənifə Fi Usulud Din".

Əbu Hənifə dedi: Qiblə Əhlindən olan bir kimsəni hər hansı bir günahına görə təkfir etməmək, o kimsəni imandan uzaqlaşdırmamaq, mərufu (yaxşılığı) əmr edib, munkərdən (qadağalardan) çəkindirmək, sənin üçün təqdir edilən şeyin sənə mütləq şəkildə icabət edəcəyinə, sənin üçün təqdir olunmayanın da sənə icabət etməyəcəyini bilməyin, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrindən heç birini inkar (nifrət) etməmək, birini sevib digərini sevməməyin, Osman və Əlinin – *radıyallahu anhum* – durumunu Allaha həvalə etməyindir.

Əbu Hənifə dedi: Dində (etiqadda) fiqh, əhkamda fiqhdən daha üstündür. Kişinin (insanın) necə ibadət edəcəyini öyrənməyə çalışması və ya bilməsi onun üçün bir çox elmləri toplamasından daha xeyirlidir.

Əbu Muti dedi: Mənə dinin ən fəzilətli olanından xəbər ver.

Əbu Hənifə dedi: Fiqhin ən fəzilətlisi, kişinin (insanın) Uca Allaha imanı, şəriəti, sünnətləri, hədləri, ümmətin ittifaq və ixtilafını bilməsidir.

Əbu Muti: İmanın nə olduğunu mənə açıqla.

Əbu Hənifə: Mənə Əlqəmə İbn Mursəd, Yəhyə İbn Yamərdan rəvayət etdi və dedi: İbn Ömərə – *radıyallahu anhu* – mənə din (İslam) nədir xəbər ver dedim. O da imana sarıl və onu öyrən – dedi. Mən iman nədir? Mənə öyrət – dedim. O: "...Əlimdən tutub məni yaşlı bir insanın yanına apardı. Yanında oturddu və: Məndən imanın nə olduğunu soruşur – deyərək bu kimsənin Peyğəmbərlə – *sallallahu aleyhi və səlləm* – birlikdə Bədr döyüşündə iştirak edənlərdən olduğunu söylədi. İbn Ömər – *radıyallahu anhu* – sözünə davam edərək dedi: Mən Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – yanında idim, bu kimsədə bizimlə bərabər idi. Bu vaxt gözəl saçları, başında əmmamə, çöl bədəvilərindən zənn etdiyimiz bir nəfər qarşımıza çıxdı. İnsanların arasından keçərək Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – önündə oturdu. Ey Allahın Elçisi! İman nədir? Deyə soruşdu. Peyğəmbər: "İman – Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin

Allahın qulu və Rəsulu olduğuna şəhadət gətirmək, mələklərə, kitablara, peyğəmbərlərinə, Axirət gününə, Xeyir və şərrin Uca Allahdan olduğuna inanmaqdır" deyə buyurdu. O, kimsə: "Doğru söylədin" dedi. Biz bu çöl bədəvilərini cahil olmalarına baxmayaraq Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – sözlərini təsdiq etməsinə heyrət etdik. Sonra o kimsə: "Ey Allahın Rəsulu! İslamın əlamətləri nədir?" dedi. Peyğəmbər: "Namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq, gücü çatan kimsə üçün Həccə getmək və cünubdan dolayı qüsl etmək" deyə buyurdu. O, kimsə: "Doğru söylədin" dedi. Biz yenə də bədəvinin soruşduğunun cavabını bilir kimi Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* – təsdiq etməsinə heyrət etdik. O, kimsə: "Ey Allahın Rəsulu! Ehsan nədir?" deyə soruşdu. Peyğəmbər: "Ehsan – Allahı görür kimi ona ibadət etməyindir, Sən Onu görməsən də belə O səni görür" deyə buyurdu. O, kimsə: "Doğru söylədin – dedi və ardıyca Qiyamətin nə zaman qopacağı barədə soruşdu. Peyğəmbər: "Bu haqda soruşan soruşulandan çox bilmir" deyə buyurdu. Sonra o, kimsə ayağa qalxaraq insanlar içərisində itdi və biz onu bir daha görmədik. Peyğəmbər: "Bu gələn Cəbrail - *əleyhissəlam* - idi. Sizə dininizi öyrətmək üçün gəlmişdi" deyə buyurdu.

## Allahin Xəlq Etdiklərindən Bir Şeyi İnkar Edən Və Ya Dində Zəruri Bilinən Bir Şeyi İnkar Edən Barəsində Hökm

Əbu Muti: Bütün bunlara qəti olaraq inanan və (dili) ilə iqrar edən mömin olurmu? Deyə soruşdum.

Əbu Hənifə: Bəli, Bunu iqrar edən (inanan) bütün İslamı iqrar etmiş və inanmışdır və o kimsə mömindir.

Əbu Muti: Əgər Allahın xəlq etdiklərindən bir şeyi inkar edib: "Mən bilmirəm bunun xaliqi kimdir?" deyərsə nə olar? Deyə soruşdum.

Əbu Hənifə: O, kimsə: ***"Allah hər bir şeyin xaliqidir...". (əl-Ənam 102)*** ayəsinə görə kafir olar. Sanki o, kimsə Allahdan başqa yaradıcı vardır – deyir. Necə ki, bir kimsə: Allahın mənə namazı, orucu və zəkatı fərz etdiyini bilmirəm" deyərsə yenə kafir olar. Çünki Allah: ***"(Müsəlmanların namazı kimi) namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!". (əl-Bəqərə 43, 83, 110). "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!". (əl-Bəqərə 183). "Elə isə axşam-səhər (axşama yetişəndə, səhərə çıxanda) Allahı təqdis edib şəninə təriflər deyin! (Axşam, gecə və sübh namazlarını qılın!) Göylərdə və yerdə həmd (şükür və tərif) yalnız Ona məxsusdur. Gün batanda da (günün sonuna yetişəndə də), gündüz də Onu təqdis edib şəninə təriflər deyin! (Zöhr və Əsr namazlarını qılın!)". (ər-Rum 17-18)*** deyə buyurmuşdu. Əgər o kimsə: "Mən bu ayəyə iman gətirirəm, lakin Təvil və Təfsirini bilmirəm" deyərsə kafir olmaz. Çünki o kimsə ayənin Allah tərəfindən nazil edildiyinə iman etmiş, lakin təfsirində xəta etmişdir (Təfsirində xəta etmək insanı kafir etməz)". Sirk diyarında yaşayan cahil kafir olmaz.

Əbu Muti: Şirk diyarında yaşayan, İslamı ümumi olaraq qəbul edən, lakin (Allahın əmr etdiyi) fərzlərindən və əməllərindən heç birini bilməyən, Kitabı və İslamın ayinlərindən heç birini iqrar etmədiyi halda, lakin bununla bərabər Allahı və imanı qəbul edən, lakin imanın ayinlərini iqrar etməyərək ölən kimsə mömin olurmu? Deyə soruşdum.

Əbu Hənifə: Bəli – dedi. Mən: Hətta heç bir şey bilməyib, əməl etməyib, yalnız İmanı qəbul edib ölürsə? Deyə soruşdum. Əbu Hənifə: O, mömindir – dedi.

## İmam Əbu Hənifənin İmana Verdiyi Tərifi Və Əməllərin Allahın İstəməsinə Bağlı Olması

Əbu Muti: "Mənə imanın nə olduğunu açıqla?" dedim.

Əbu Hənifə: "İman – Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Onun tək olub şəriki olmadığına, mələklərinə, kitablarına, Peyğəmbərlərinə, Cənnətə, Cəhənnəmə, Qiyamətə, Qədərin Xeyir və Şərinə, heç kimsəyə öz əməlini yaratmaq gücünün verilmədiyinə, Əməllərin bütünlüklə insanın istəyi altında olmadığına, insanlar onlar üçün yaradılmış sonluğa və onlar üçün nə təqdir olunmuşsa ona doğru hərəkət etmələrinə şəhadət etməyindir" dedi.

Əbu Muti: Əgər bunun hamısını qəbul edib, lakin hər bir şey mənim öz istəyimlədir: ***"İstəyən iman etsin, istəyən kafir olsun"*** ayəsinə görə: İstəsəm iman edərəm, istəsəm iman etmərəm" deyərsə nə olar? Deyə soruşdum.

Əbu Hənifə: "O, kimsə iddiasında yalançıdır. Allahın: ***"Xeyr, bu (Quran) bir öyüd-nəsihətdir! İstəyənlər ondan öyüd alar. Bununla belə, Allah istəməsə, onlar əsla öyüd ala bilməzlər. Qorxub çəkinməyə də, bağışlamağa da layiq olan ancaq Odur!". (əl-Mudəssir 54-56), "(Ey insanlar! Onu da bilin ki) Allah istəməsə, siz (bunu) istəyə bilməzsiniz. (Ancaq Allah istəsə, istəyə bilərsiniz). Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!". (əl-İnsan 30)*** ayətlərini görmürsənmi? O, ki qaldı: ***"Və de: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)". (əl-Kəhf 29)*** ayəsi Vaid (Təhdid, hədə) üçündür. O, kimsə bu sözü ilə ayəni inkar etmədiyi üçün kafir olmaz. Ayənin nazil olmasını rədd etməmiş, fəqət Təvilində (təfsirində) xəta etmişdir.

Əbu Muti: Əgər bir kimsə başına gələn müsibətdən dolayı bu sənə Allahdan olan bir imtahandır, yoxsa əməllərinə görə olmuşdur" deyə soruşarsa. Bu Allahdan mənə olan bir imtahan deyildir – deyərsə kafir olurmu?

Əbu Hənifə: Xeyr – dedi. Əbu Muti: "Nə üçün?" deyə soruşdu. Əbu Hənifə: "Çünki Allah: ***"(Ey insan!) Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir...". (ən-Nisa 79)*** buyurur. Yəni, pislik günahın səbəbilədir, mən də onu

günahın səbəbilə sənə təqdir etdim deməkdir. Necə ki, Allah buyurur: ***“Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər”. (əş-Şura 30).*** Yəni, günahlarınızın səbəbilədir. Necə ki: ***“Əgər Allah istəsəydi, sizi (eynilə dində olan) tək bir ümmət edərdi. (Allah) dilədiyini zəlalətə salar, dilədiyini isə doğru yola yönəldər. Sözsüz ki, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız”. (ən-Nəhl 93).*** Lakin o, kimsə təvildə xəta etmişdir. ***“Bilin ki, Allah insanla onun qəlbi arasındadır...”. (əl-Ənfal 24).*** Yəni, mömінlə küfr arasına, kafirlə iman arasına girər deməkdir (Yəni, onun istəyinə çatmasına mane ola bilər).

## İstitaa (Bacarıq, Qüdrət) Haqqında Söz

Əbu Hənifə: “İstitaa (bacarıq, güc) – insanın onun səbəbilə günahları etməsidir. Həmçinin qulun xeyirli işləri etməsi üçündə səbəbdir. Qul, Allahın onda xəlq etdiyi İstitaaya görə cavabdehlik daşıyır. Hansıki ondan pis işlərə deyil, xeyirli işlərə sətf etməsini əmr etmişdi.

Əbu Muti: “Əgər o: “Allah qullarını günah etməyə məcbur edir, daha sonra onları günaha görə cəzalandırır - deyərsə necə cavab verilir” deyə soruşdum.

Əbu Hənifə: O, kimsədən: Qul özü üçün fayda və zərər vermyə qadir ola bilərmi? Deyə soruş. Əgər xeyr, çünki onlar itaət və asiliklərdən başqa özləri üçün fayda və zərər (onun istəyi olmadan baş verir) mövzusunda məcburdular” deyərsə, ona: Allah şəri yaratdımı?” deyə soruş. O buna: “Bəli” deyərsə öz iddiasından vaz keçmiş olar. Əgər: Xeyr” deyərsə, bu zaman de: ***“De: "Sığınıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən...”. (əl-Fələq 1-2)*** ayəsinə görə kafir olur. Çünki bu ayə Allahın şəri yaratdığından xəbər verir.

Əbu Muti: Əgər o: Siz, Allah küfrü və imanı dilədi (küfr və iman Allahın diləməsi ilədir) demirsinizmi?" deyərsə və ona: Bəli, desək. O, Yenə də: Allah: ***"Mütləq qüdrətindən qorxub çəkinməyə layiq olan da, bağışlamağa qadir olan da Odur!". (əl-Mudəssir 56)*** buyurmurmu? Deyə soruşarsa və ona: Bəli, desək. O, da: Bu zaman Allah küfrə layiqdirmi? (ona qarşı bu qədər küfrlər edilir)" deyərsə, biz o kimsəyə qarşı nə cavab verə bilərik? Deyə soruşdum.

Əbu Hənifə: "O itaət etmələrini dilədiyi kimsələrin itaətinə layiqdir, asilik etmələrini dilədiyi kimsələrin asiliklərinə isə layiq deyildir". Əgər o: Allah özünə qarşı yalan (şirk və küfr) söylənilməsini diləmədi" deyərsə, ondan soruş: "Allaha qarşı iftira (şirk, küfr) insan kəlamıdır, yoxsa yox? Əgər o: Bəli, deyərsə ona: "Adəmə bütün şeylərin adlarını öyrədən kimdir?" deyə soruş. Əgər o: "Allah" deyərsə ona: Küfr - kəlamdır, yoxsa yox?" deyə soruş. Əgər o: "Bəli, deyərsə ona: Kafiri kim danışdırdı? (Ona danışmaq imkanını, qüdrətini verən kimdir?)" Deyə soruş. Əgər o: "Allah" deyə cavab versə öz fikrinə qarşı çıxmış olar. Çünki Şirk kəlam növündəndir. Əgər Allah diləsəydi onlara şirk sözünü danışdırmazdı. Əbu Muti: Əgər o: Bir kimsə istəsə edər, istəsə etməz, istəsə yeyər, istəsə yeməz, istəsə içər, istəsə içməz" deyərsə, ondan: Allah İsrail övladları üçün dənizi keçmələrini, Fironun boğulmasını təqdir etmədimi? Deyə soruş. Əgər o: "Bəli, deyərsə ondan: Ola bilərdimiki Firon dəstəsilə birlikdə Musanın - *əleyhissəlam* - ardıyca getməsin, özü və dəstəsi suda boğularaq tələf olmasınlar?" deyə soruş. Əgər: Bəli, deyərsə kafir olar, Xeyr – deyərsə əvvəlki sözünə cavab vermiş olar. Bizə Əli İbn Əhməd, Nusayr İbn Yəhyədən, o da Əbu Mutunin belə dediyini nəql etdi. Əbu Hənifə deyir ki, bizə Həmməd, o da İbrahimdən, o da Əbu AbdurRahmən Abdullah İbn Məsud - *radiyallahu anhu* – rəvayət edir ki, doğru sözlü və doğruluğu təsdiq olunan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - bizə buyurdu: «Sizdən hər birinizin yaradılışı anasının bətnində qırx gün nütfə[28] şəklində olaraq bir

---

[28] ***Nütfə –*** məni mənasındadır. Nütfə bəzən də saf su adlanır.

yerə toplanılır. Sonra bu müddət qədər aləqa[29]. Sonra bir o, qədər də mudğa[30] şəklində bir yerə cəm olunur. Sonra onun (yanına) bir mələk göndərilir və (mələk) ona ruh üfürdükdən sonra dörd şeyi: "Ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını» yazmaqla əmr olunur. Ondan başqa heç bir haqq ilah olmayan Allaha and olsun ki, sizlərdən biri Cənnət əhlinin əməli ilə əməl edər və onunla Cənnət arasında bir arşınlıq məsafə qalarkən, kitab(-da olan qədər) onun əlehinə irəli keçər o, da Cəhənnəmliklərin əməli ilə əməl edib Cəhənnəmə düşər. Həmçinin sizdən biri Cəhənnəmliklərin əməli ilə əməl edər və onunla Cəhənnəm arasında bir arşınlıq məsafə qalarkən kitab(-da olan qədər) onun leyhinə irəli keçər o, da Cənnət əhlinin əməli ilə əməl edib Cənnətə düşər»[31].

## Allahın Diləməsi

Əbu Muti: "(Kovni və Şəri istək) Allah bir şeyi yaratmağı dilədiyi halda onu əmr etmiş, lakin bir şeyi əmr etmədiyi halda onu diləmiş və yaratmışdırmı?" Deyə soruşdum.

Əbu Hənifə: "Bəli" dedi. Mən: "Bu necə olur?" dedim. O: "Allah kafirə müsəlman (təslim) olmağı əmr etmişdir, lakin kafir üçün müsəlmanlığı (təslimiyəti) yaratmağı diləməmişdir. Kafir üçün küfrü diləmiş, lakin kafirə küfrü əmr etmədiyi halda yaratmışdır" deyə cavab verdi. Mən: "Allah əmr etməmiş olduğu bir şeydən razı olurmu?" dedim. O: "Bəli, nafilə ibadətlər buna misaldır" dedi. Mən: "Allah bir şeyi əmr etdiyi halda ondan razı olmaması ola bilərmi?" dedim. O: "Xeyr" dedi. Mən: "Nə üçün?" dedim. O: "Çünki Allah əmr etdiyi hər şeydən razı olur (Allahın əmr etdiyi şeylər razı olduqları şeylərdir)" dedi. Mən: "Allah qullarını razı

---

[29] ***Aləqa –*** laxtalanmış qan, ziyil deməkdir: ***«O, insanı laxtalanmış qandan yaratdı». (əl-Ələq, 2).***

[30] ***Mudğa –*** çeynənilmiş ət parçasına oxşadığı üçün ona bu ad verilmişdi.

[31] Buxari 3208, Müslim 2643.

olduğu şeylərdən dolayımı, yoxsa razı olmadığı şeylərdən dolayımı əzaba çəkər?” deyə soruşdum. O: “Allah qullarını razı olmadığı şeylərdən dolayı əzaba çəkər. Onların: Küfrü, üsyanı, razı olmadığı məsələlərdə əzab edər” dedi. Mən: “Allah onlara dilədiyi üçün, yoxsa diləmədiyi üçün əzab edər?” deyə soruşdum. O: “Allah onlar barəsində dilədiyi üçün əzab edər. Çünki Allah qullarından asi üçün üsyanı, kafir üçün küfrü dilədiyi halda, küfr və asilikdən dolayı əzab edər” dedi. Mən: “Allah onlara İslamı əmr etmiş, sonra da onlar üçün küfrü diləmişdirmi?” deyə soruşdum. O: “Bəli” dedi. Mən: “Allahın diləməsi əmrinimi keçmişdir, yoxsa əmri diləməsini keçmişdir” deyə soruşdum. O: “Allahın diləməsi əmrini keçmişdir” dedi. Mən: “Allahın diləməsi onun rızasıdırmı?” deyə soruşdum. O: “Diləməsi – rızası və əmr etdiyi xüsusda itaət və əməl edən kimsə üçün Allah rızası vardır. Allahın əmr etdiyinin əksinə əməl edən kimsə onun diləməsi ilə işləmiş olur, lakin onun rızası olmadan etmiş olar. Ona qarşı asilik etmiş olar. Asilik isə Allahın rızasının xilafdır” dedi. Mən: “Rızası olan şeylərdə Allah qullarını əzaba çəkərmi?” deyə soruşdum. O: “Allah qullarını razı olmadığı küfrdən dolayı əzaba çəkər, lakin onların itaəti tərk etmələri və asiliklər etməlrindən dolayı onlardan intiqam alıb, əzab etməyə rızası vardır” dedi. Mən: “Allah möminlər üçün küfrü diləmişdirmi?” deyə soruşdum. O: “Xeyr, lakin möminlər üçün imanı diləmişdir. Həmçinin kafirlər üçün küfrü, zina edənlər üçün zinanı, oğurluq edənlər üçün oğurluğu, elm əhli üçün elmi, xeyir sahibləri üçün də xeyri diləmişdir. Allah kafirləri yaratmadan öncə onların kafirlər və sapıqlar olmasını diləmişdir”. Mən: “Allah kafirləri razı olduğu şeyi yaratdığından dolayımı, razı olmadığı şeyi yaratdığından dolayımı əzab edər” deyə soruşdum. O: “Allah kafirləri yaratmağa razı olduğu şeydən dolayı əzaba uğrar” dedi. Mən : “Nə üçün?” dedim. O: “Allah küfrü yaratmağa rızası olduğu halda onları küfrlərindən dolayı əzab verər. Lakin Allahın küfrə rızası yoxdur” dedi. Mən: ***“Əgər küfr etsəniz (Allahın nemətlərini dansanız, bunun zərəri Allaha yox, ancaq sizin özünüzə olar).***

***<u>Çünki Allah sizə (sizin ibadətinizə) əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz...”. (əz-Zumər 7)</u>*** buyurduğu halda necə olur da küfrü yaratmağa rızası olur?” deyə soruşdum. O: “Allah onlar haqqında dilər, lakin razı omaz” dedi. Mən: “Nə üçün?” dedim. O: “Çünki Allah İblisi yaratmışdır. İblisi yaratmağa rızası vardır, lakin İblisin özünə rızası yoxdur. Həmçinin Allah içki və donuzu yaratmışdır. Onları yaratmağa rızası olduğu halda bu kimi şeylərdən razı deyildir”. Mən: “Nə üçün?” dedim. O: “Allah içkinin özünə rıza göstərsəydi (razı olsaydı) onu içən Allahın razı olduğu şeyi içmiş olardı. Lakin onun içkiyə və küfrə, İblisə və əməllərinə rızası yoxdur. Lakin Muhəmmədə – *sallallahu aleyhi və səlləm* - şəxsən rızası vardır” dedi. Mən: “Yəhudilər: ***<u>“Allahın əli bağlıdır...”. (əl-Maidə 64)</u>*** deyirlər. Onların bu sözünə Allahın rızası varmıdır?” deyə soruşdum. O: “Xeyr” dedi. Mən: Əgər o, kimsə: “Allah bütün insanları Mələklər kimi itaətkar yaratmaq istəsəydi buna qadir olurdumu? Kimsə desə ki: Xeyr, Allahın özünü vəsf etdiyindən başqa bir vəsf ilə vəsfləndirmiş olar. Çünki Allah Quranda: ***<u>“O Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır”. (əl-Ənam 18). “Əgər küfr etsəniz (Allahın nemətlərini dansanız, bunun zərəri Allaha yox, ancaq sizin özünüzə olar). Çünki Allah sizə (sizin ibadətinizə) əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz...”. (əz-Zumər 7). “De: “Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinizin zorunu daddırmağa qadirdir!” Gör ayələrimizi onlara nə cür izah edirik ki, bəlkə, başa düşsünlər!”. (əl-Ənam 65).</u>*** Yox, əgər: “Qadirdi” deyərsə ondan: “Əgər Allah İblisin Cəbrail - *əleyhissəlam* - kimi itaətkar olmasını diləsəydi buna qadir olmazdımı?”. Əgər: “Xeyr” deyərsə öz sözünü tərk etmiş və Allahı sifətlərindən başqası ilə vəsfləndirmiş olar. Əgər: “Qulun zina etməsi, içki içmsi, namuslu insanlara dil uzatması Allahın izni ilə deyilmidir?” deyə söyləyərsə: “Bəli” deyilir. Yaxşı, bu zaman o

kimsəyə nə üçün hədd cəzası tətbiq edilir" deyərsə: "Allahın əmr etdiyi şeyi tərk etməməsi üçün" deyilir. Çünki o, kimsə kölәsini öldürsə, bu Allahın diləməsi ilə olur, insanlar da o kimsəni pisləyərlər. Əgər köləsini azad edərsə insanlar da etdiyi əmələ görə onu tərif edərlər. Bunların hər ikisi də Allahın diləməsi ilə baş verir. O, kimsə bu əməlləri Allahın diləməsi ilə etmiş olur. Lakin qul Allahın diləməsi ilə asilik edərsə bu kimsənin əməlində Allahın rızası yoxdur və əməlində doğruluq yoxdur. "Nə üçün ona hədd cəzası tətbiq edilir?" sualına gəldikdə isə sual düzgün verilməmişdir. Çünki onlar bir çox asiliklərdə də Allahın diləməsini qəbul etmirlər. Ona görə içki içmək kimi bir əmələ hədd cəzası yoxdur. O, isə etdiyi bütün işləri Allahın diləməsi ilə etmişdir".

## İman Babı

Əgər: "İmanın yeri haradır?" deyə soruşularsa onun qaynağı və yerinin qəlb olduğu, budaqları (şöbələri) isə bədəndədir deyilir. Əgər: "O, barmağındadırmı?" deyə soruşarsa, Bəli – de. Əgər: "Barmaq kəsildikdə iman hara gedər?" deyə soruşarsa ona: "Qəlbə" de[32]. Əgər: "Allah qullarından bir şey tələb edərmi?" deyə soruşarsa ona: "Xeyr, onlar yalnız Allahdan istəyərlər" de. Əgər: "Allahın qulları üzərində olan haqqı nədir?" deyə soruşarsa ona: "Ona ibadət edib, heç bir şeyi Ona şərik qoşmamaqlarıdır. Bunu etdikləri zaman onların Allahdan gözldikləri (onların Allah üzərində olan haqqı), Allahın onları əff etməsi və mükafatlandırmasıdır. Çünki Allah Quranda: ***"(Ya Peyğəmbər!) And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. (Allah) onların ürəklərində olanı (sənə sadiq qalacaqlarını, əhdə vəfa edəcəklərini) bildi, onlara (öz dərgahından) arxayınlıq (rahatlıq, səbir, səbat, mənəvi***

---

[32] Görünür ki, bu sözlər İmamın söz və cavabından deyildir. Çünki Sələflər belə danışmayıblar. Allah daha doğru bilir!

***qüvvə) göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə (Xeybərin fəthi) ilə mükafatlandırdı". (əl-Fəth 18).*** Allah möminlərdən razı olur. Allah iblisə qəzəb edər. ***"İstədiyinizi edin!". (Fusillət 40).*** Ayəsi Allahın təhdidini ifadə edər. ***"Səmud qövmünə gəlincə, Biz onlara haqq yolu göstərdik, amma onlar korluğu (küfrü) doğru yoldan üstün tutdular. Beləliklə, onları qazandıqları günahların ucbatından zəliledici ildırım əzabı yaxaladı". (əl-Fusillət 17).*** Yəni, onlara hidayəti göstərmiş və açıqlamışdır deməkdir. ***"Kim istəyir inansın, kim də istəyir inanmasın". (əl-Kəhf 29).*** Ayəsi Vaid ifadə edər. ***"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım". (əz-Zariyat 56).*** Yəni, Mənim təkliyimi (birliyimi) qəbul etsinlər deməkdir. Lakin bu fellərin hamısı, xeyri, şəri, şirini (xoş gün), acısı (çətin gün), zərəri, faydası hamısı Allahın təqdirilədir. ***"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq islamı təbliğ etməkdir)". (Yunus 99). "Əgər Biz (istədikləri kimi) mələkləri onlara göndərsəydik, ölülər onlara danışsaydı və hər şeyi dəstə-dəstə toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər. Lakin onların əksəriyyəti (bunu) bilməz". (əl-Ənam 111). "Heç kəs Allahın izni olmadan iman gətirə bilməz (buna görə də əbəs yerə özünü yorma). Allah (Özünün öyüd-nəsihətlərini, hökmlərini) anlamayanları əzaba (kəsafətə) düçar edər". (Yunus 100). "Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa. Allah onları bunun üçün yaratdı. Rəbbinin: "Mən Cəhənnəmi bütün günahkar cinlər və insanlarla dolduracağam!" Sözü yerinə yetəcək". (Hud 118-119). "Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı***

***hesab edənlərin axırı necə oldu!". (ən-Nəhl 36). "Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir!". (İnsan 30).*** Yəni, Allah təqdiri ilə diləmədikcə siz diləməzsiniz. Şueyb - *əleyhissəlam* - buyurdu: ***"Allah bizi sizin (batil) dininizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, (sizin bütpərəst dininizin haqq olduğunu etiraf etməklə) Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməsə, biz əsla sizin dininizə dönə bilmərik. Rəbbimiz elm ilə (Öz əzəli elmi ilə) hər şeyi ehtiva etmişdir. Biz yalnız Allaha təvəkkül emişik. Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!". (əl-Əraf 89).*** Nuh: ***"Əgər Allah sizi (haqq yoldan) sapdırmaq (və ya məhv etmək) istəyirsə, mən sizə nəsihət vermək istəsəm də, heç bir faydası olmaz. O sizin Rəbbinizdir və siz Onun hüzuruna qaytarılacaqsınız!". (Hud 34).*** Yenə, Allah buyurdu: ***"Doğrudan da (qadın) ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini (xəbərdarlığını) görməsəydi, (Yusif də) ona meyl edərdi. Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir!". (Yusuf 24).*** Həmçinin Allah buyurdu: ***"And olsun ki, Biz Süleymanı (etdiyi bir xəta üzündən) imtahana çəkdik. Taxtının üstünə (ruhsuz) bir cəsəd atdıq (və ya: taxtının üstünə bir cin oturtduq). Sonra o (peşman olub tövbə etdi və yenidən öz mülkünə, öz taxtına) qayıtdı". (Sad 34).***

## İmama Qarşı Üsyan Və Çıxış

Əbu Muti: Yaxşılığı əmr edib, pislikdən çəkindirən, insanlar arasında tərəfkeşlərini tapan sonra da cəmaata qarşı çıxan kimsə barəsində sözün nədir? Bu əməli doğru sayırsanmı? Deyə soruşdum.

Əbu Hənifə: "Xeyr" dedi. Mən: Nə üçün? Axı, Allah və Rəsulu yaxşılığı əmr edib, pislikdən çəkindirməyi əmr etməmişdirmi? Bu vacibdir" dedim. Əbu Hənifə: Bəli, lakin bu kimsələrin ifsat

etdikləri şeylər islah etdiklərindən daha çoxdur (çünki əmirlərə qarşı çıxmağın zərərləri faydasından çoxdur). Qan tökmək, haramı halal saymaq, malları qəsb etmək vardır. Belə ki, Allah Quranda buyurmuşdu: ***“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər!”. (əl-Hucurat 9).***

Əbu Muti: “Təcavüz edən zümrəyə qarşı qılınclamı vuruşaq?” deyə soruşdum.

Əbu Hənifə: Bəli, ilk növbədə yaxşılığı əmr edib, pislikdən çəkindirərsən. Əgər qəbul edərlərsə nə gözəl, əgər qəbul etməzlərsə onlarla döyüşərik. Sən adil zümrə ilə bərabər ol! İmam zalım olsa da belə. Çünki Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: «Sizə zalım olanın zülmü, adil olanın ədaləti zərər verməz. Sizin əcriniz sizə, onların günahı da özlərinə aiddir”[33].

Əbu Muti: Hökm verən Xəvariclər barəsində sözün nədir?” deyə soruşdum.

Əbu Hənifə: Onlar Xəvariclərin ən pisləridir” deyə cavab verdi. Onları təkfir edə bilərikmi?” deyə soruşdum. O: “Xeyr, lakin Əli və Ömər İbn AbdulƏziz – *radıyallahu anhu* - kimi xeyirli imamların etdikləri şəkildə onlarla hərb edə bilərik” dedi. Mən: “Axı, Xəvariclər təkbir gətirir, namaz qılır, Quran oxuyurlar. Məgər sən Əbu Umamənin hədisini xatırlamırsanmı? O, Şam məscidinə daxil olduqda orada Xəvariclərin kəsilmiş başları ilə qarşılaşdı. Əbu Ğalib əl-Humsiyə: Ey Əbu Ğalib! Bunlar sənin məmləkətinin insanlarıdır. Onların kim olduqları barəsində sənə xəbər vermək istəyirəm. Onlar Cəhənnəm əhlinin köpəkləridir. Onlar səma altında öldürülənlərin ən şərliləridir” deyər və ağlayardı. Əbu Ğalib: “Ey Əbu Umamə! Səni ağladan nədir? Onlar müsəlmandırlar, sən isə onlar haqqında belə sözlər deyirsən” dedi.

---

[33] İbn Məcə “Fitən” 9.

Əbu Umamə: Onlar Allahın onlar haqqında buyurduğu: ***“Bəzi üzlərin ağ, bəzi üzlərin isə qara olacağı gündə (qiyamət günündə), üzü qara olanlara: “İman gətirəndən sonra kafirmi oldunuz? İndi, kafir olduğunuza görə dadın əzabı!” – deyiləcəkdir”. (Ali İmran 106)*** kimsələrdir. Bunun üzərinə Əbu Ğalib: “Bunlar sənin öz sözlərindir, yoxsa Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* - eşitdiyin sözlərdir”. Əbu Umamə: “Əgər mən bunu Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* - bir, iki, üç və yeddi dəfə eşitməmiş olsaydım sizcə xəbər verərdimmi?” dedi və Xəvariclərin küfrü Allahın nemətlərinə qarşı küfr etmələridir – dedi[34].

Əbu Muti: Xəvariclər üsyan edir, hərb edir, hücüm edir sonar da sülh bağlıyırlar. Onlar (sülhdən) öncə etdikləri əməllərinə görə mühakimə olunurlarmı? deyə soruşdum. Əbu Hənifə: “Hərb bitdikdən sonra onlar üçün bir zarar yoxdur. Onlara hədd tətbiq olunmaz, qan tökdükləri üçün qisas da alınmaz” dedi. Mən: “Nə üçün?” dedim. O: “Osmanın – *radıyallahu anhu* - öldürülməsindən sonra insanlar arasnda ortaya çıxan fitnədən dolayı səhabələr: Təvil nəticəsində qana bulaşanlara qisas olunmayacaq, təvil nəticəsində haram yolla qadınlara təcavüz edənlərə hədd cəzası tətbiq olunmayacaq və təvil yolla bir mala sahib çıxan kimsə üçün də bir cəza yoxdur, yalnız haqsız yerə kimdənsə nə isə götürbsə o müstəsnadır. Sahibinə geri qaytarılacaqdır” deyə ittifaq etmişlər.

## İmanında[35] Şübhə Edən Kimsə Barəsində[36]

---

[34] Tirmizi 3000, İmam Əhməd “Musnəd” 5/250, əl-Albani “Həsən Səhih”.

[35] ***İmanda İstisna Etmək «İnşəallah, Mən Mömінəm» Demək -*** Əhli Sünnə vəl Cəmaat imanda istisna etmək – yəni «İnşəallah, mən mömінəm» deməyin və özləri haqqında yəqin olaraq «Mən mömінəm» deməyin əleyhinədir. Bu isə onların Allahdan qorxmaları və qədərə iman etmələrinə görədir. Çünki heç kəs yəqin olaraq deyə bilməz ki, «mən mömінəm». Mütləq iman bütün itaətləri etməyi və bütün qadağaları tərk etməyi əhatə edir. İnsan bütün bunları etdikdə də yəqin olaraq bu kəlməni söyləməz. Əgər belə etsə onda özünü tərif etmiş, təmizə çıxarmış və özünü Allahdan haqqıyla qorxan, yaxın kimsələrdən olduğunu irəli sürmüş olur. Beləliklə də özünə yəqin olaraq mömin deyən kimsə özünün Cənnət əhlindən olduğunu da irəli sürməlidir. Bu isə mümkün deyildir. ***«Özünüzü təmizə çıxartmayın. O, Allahdan qorxub pis əməllərdən çəkinənin kim olduğunu daha gözəl bilir». (ən-Nəcm 32).***

***İstisna Etmək –*** «İnşəallah, mən mömінəm» demək haqqında üç rəy vardır. Kimisi bunun vacib olduğunu, kimisi bunun haram olduğunu, kimisi də bu məsələdə orta yolu tuturlar. Müxaliflərin qeyd etdiyinə görə iman tək bir şey olub əməl və sözdən ibarət deyildir. İman qəlbdəki təsdiqdir. Əgər qəlb təsdiq edirsə o, özünün mömin olduğunda da heç bir şəkk-şübhə etməməlidir. Onlara görə şahadət kəlməsini söylədiyimi bildiyim kimi, mömin olduğumu da bilirəm. Onların «Mən mömінəm» deməyi, «Mən müsəlmanam» deməyi kimidir və bu məsələdə «İnşəallah, mən mömінəm» deyənlərə də ***Şəkkak*** – şübhəçi adını verirlər. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – də imanda inşəallah, mən mömінəm deməyin haram olduğu fikrindədir. O, deyir: «Mömin yəni inanan kimsə həqiqətən mömindir, kafir də həqiqətən kafirdir. Küfrdə şübhə olmadığı kimi imanda da şübhə yoxdur». Allah buyurur: ***«Onlar həqiqi möminlərdir». (əl-Ənfal 4). «Bütün bunlar həqiqətən kafirdilər». (ən-Nisa 151).*** Muhəmməd - *sallallahu aleyhi və səlləm* – in ümmətinin günahkar olan kimsələrinin hamısı həqiqətən mömin olub, kafir deyillər». əl-Vəsiyyə s.87, əl-Fikhul Əbsat s. 41,43,52. İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* –, Harisi və Haskəfinin rəvayətinə görə belə demişdir: «Alqamə ilə birlikdə Ata İbn Əbi Rəbahın yanında idik». Alqamə ona: «Ey Əbu Muhəmməd! Ölkəmizdə imanlarını özlərinə nisbət etməyə və mən mömінəm deməyi xoş qarşılamayan bir qrup vardır» dedi. Ata İbn Əbi Rəbah: «Onlara nə olur ki, bunu söyləmirlər?» deyə qarşılıqlı sual verdi. Alqamə sözünə davam edərək: «Deyirlər ki, mömin olduğumuzu söylədikdə özümüzü Cənnət əhlindən olduğumuzu da qeyd edirik». Ata onlara: «Allah! Allah! Bu şeytanın hiylələrindən biridir. Şeytan onları Allahın onlara verdiyi ən böyük nemət olan İslamı tərk etməyə və bu xüsuslarda Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – ə müxalif olmalarını vəsvəsə edir. Mən səhabələrin və eyni zamanda da Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in də bunu etdiyinin şahidi olmuşam». Xarizmi «Cəmiul Məsanid» 1/182, Aliyyul Qari "Şərhu Musnədi Əbu Hənifə" s. 378. Digər bir qrup isə hər bir şeydə istisna etməyə başladılar və bu məsələdə həddi aşmışlar. Məs: Onlar etdikləri bütün saleh əməllərdə də istisna etməyə başladılar. «İnşəallah mən namaz qıldım, inşəallah oruc tutdum» və s. sözlər söyləməyə başladılar. Yenə onlardan bir çoxu hər şeydə istisna etməyə başladılar. «İnşəallah bu paltardır, inşəallah bu ayaqqabıdır» və s. Lakin ən gözəl mövqe isə Sələfin mövqeyidir. Allah Qurani Kərimdə yəqin olaraq baş verən bəzi işləri Allahın diləməsinə bağlayaraq ifadə edildiyini açıq göstərən bir sıra ayələr vardır. Məs: ***«And olsun ki, Allah öz peyğəmbərinin (Məkkə fəthi) röyasının çin olduğunu təsdiq etdi. (Ey möminlər!) Siz, inşəallah əmin-amanlıq içində, (bəziniz) başınızı qırxdırmış, (bəziniz) saçınızı qısaltmış halda və (müşriklərdən) qorxmadan Məscidulhərama daxil olacaqsınız». (əl-Fəth 27). O, yürüyüb-qaçmaq və atasına kömək edə bilmək çağına (on üç yaşında) çatdıqda (İbrahim) dedi: «Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən! O, dedi: «Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşəallah məni səbrlilərdən olduğumu görəcəksən». (əs-Saffat 102). Və heç bir şey barəsində: «Mən onu sabah edəcəyəm! demə. Ancaq: «İnşəallah edəcəyəm» de. (əl-Kəhf 23-24). (Yəqub və ailəsi) Yusifin hüzuruna daxil olduqda o, ata-anasını bağrına basıb: «İnşəallah əmin-amanlıqla Misirə daxil olun» dedi. (Yusif 99).*** Aişə – *radıyallahu anhə* – rəvayət etdi ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – gecənin sonunda Bəqi qəbrsanlığına girər və deyərdi: «Ey möminlər topluluğunun yurdu! Salam üzərinizə olsun. Sizə vəd olunmuş (ölüm) gəlmişdir. İnşəallah biz də sizə qovuşacağıq. Allahım! Bəqi qəbrsanlığında yatanları bağışla!». Başqa rəvayətdə Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ey möminlərin və müsəlmanların yatdığı yurdun sakinləri! Salam üzərinizə olsun! İnşəallah biz də sizə qovuşacağıq!». Müslim, İmam Əhməd

6/71,111,180, Nəsəi 4/93,94, İbn Məcə 1546, əl-Albani «Əhkəmul-Cənaiz» s. 239, «İrvəul Ğəlil» 3/236. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və sәlləm* – buyurdu: «Hər Peyğəmbərin qəbul edilmiş duası vardır. Hər peyğəmbər bu duasını etmişdir. Lakin mən duamı Qiyamət günündə ümmətimə şəfaət etmək üçün saxladım. Artıq ümmətimdən Allaha heç bir şeyi şərik qoşmamış olan kimsələr inşəallah bu şəfaətə nail olacaqlar». Buxari, Müslim. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və sәlləm* – buyurdu: «Süleyman b. Davud (Allahın salamı iksinin də üzərinə olsun): «Şübhəsiz bu gecə yetmiş (Bəzi rəvayətlərdə **90**, bəzilərində **99**, bəzilərində **100**) zövcəmi (xanımlarımı) dolaşacağam. Zövcələrimdən hər biri Allah yolunda vuruşacaq bir süvari doğacaq» dedi. Bu an yoldaşı (olan mələk) Ona: «İnşəallah de!» dedi. Lakin o, İnşəallah deməyi unutdu. Bunundan sonra o, qadınlardan biri xaric, heç biri hamilə olmadı. O, da xəstə olan bir uşaq doğdu». Sonra Peyğəmbər - *sallallahu aleyhi və sәlləm* – buyurdu: «Nəfsim əlində olan Allaha and olsun ki, əgər ***<u>İnşəallah</u>*** demiş olsaydı hər biri Allah yolunda vuruşacaq süvarilər doğardılar (Başqa rəvayətdə: Əgər ***<u>İnşəallah</u>*** demiş olsaydı vədini yerinə yetirmiş olardı və öz istəyinin yerinə yetməsi üçün daha çox ümüdü olardı)». Buxari 5242, Müslim 1654, Nəsəi 7/30,31, İmam Əhməd 2/229,275,506, Tirmizi 1532. Səhabələrdən gələn rəvayətlərdə: Əbul-Vahterinin (Səid İbn Feyruz) rəvayətinə görə Əli – *radıyallahu anhu* – demişdir: «Bir kimsənin mən mömінən deməsi bidətdir». İmam Əhməd «əs-Sünnə» 643, əl-Laləkai 1778. İbn Məsud – *radıyallahu anhu* – deyir: «Hər kim mömin olduğuna dair şahitlik edərsə, özünün Cənnətdə olduğuna da şahidlik etsin». İmam Əhməd «əs-Sünnə» 711,721, əl-Laləkai 1779. Bir nəfər İbn Məsud – *radıyallahu anhu* – nun yanında şübhəsiz ki, mən mömінəm dedikdə İbn Məsud ona: «Onda mən Cənnətliyəm də de!» dedi. Sonra İbn Məsud – *radıyallahu anhu* – o, adama: «Lakin biz Allaha, Mələklərinə, Kitablarına, Peyğəmbərlərinə inanırıq». Əbu Ubeyd «İman» 11, İmam Əhməd «əs-Sünnə» 655,668, Təbərani «əl-Kəbr» 9/8792, əl-Laləkai 1780. Bir nəfər İbn Məsud – *radıyallahu anhu* – nun yanında şübhəsiz ki, mən mömінəm deyir: «Ey Əbu Abdurrahmən! Bu adam mömin olduğunu iddia edir». İbn Məsud – *radıyallahu anhu* – onların bu sözlərinə: «Ondan bir soruşun görün o, Cənnətlikdir yoxsa Cəhənnəmlik?» Onlar həmin şəxsdən bunu soruşurlar. Adam da onlara: «Allah ən doğrusunu bilir». Adamın bu cavabından sonra İbn Məsud – *radıyallahu anhu* – ona: «İkincisini (yəni Cənnətlik və ya Cəhənnəmlik olduğunu) Allaha həvalə etdiyin kimi birincisini də Allaha həvalə etsəydin?» dedi». əl-Albani – Əbu Ubeydin «İman» kitabında səhih olduğunu qeyd edir. S. 67. İmam Əhməd – *rahmətullahi aleyhi* – imana dair sual verildikdə o: «İman - söz, əməl və niyyətdir!» deyə cavab vermişdir. Bu dəfə ona: «Adam sən mömінsən?» deyə soruşarsa, o: «Bu bir bidətdir!» deyə cavab vermişdir. Bu səfər ona: «Yaxşı, beləsinə necə cavab verilir?» deyilincə, «İnşəallah, mömінəm!» deyilir, deyə cavab vermişdir. Peyğəmbər - *sallallahu aleyhi və sәlləm* – qəbr əhlini ziyarət etdikdə buyurdu: «İnşəallah, biz də sizə qovuşacağıq!». O, burda istisna etdi. O, isə yəqin olaraq öləcəyini bildiyi halda istisna etdi». əl-Laləkai «əs-Sunnə» 1798. Vəlid İbn Müslim: «Əvzai, Məlik İbn Ənəs və Səid İbn AbdulƏzizin kişinin mən mömінəm deməsini inkar etdiklərini, inşəallah mən mömінəm deməsinə isə izn verdiklərini eşitdim». İmam Əhməd «əs-Sünnə» 687,744. İmam Beyhəqi – *rahmətullahi aleyhi* – deyir ki: «Bunu – imanda istisna etməyi – səhabədən bir qrupdan, tabiinlərdən və sələfi salihdən rəvayət etdik». İbrahim ən-Nəhai – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsənin bir nəfərə – Sən mömінsən – deyə soruşması bidətdir». Beyhəqi «Şuabul İman» 1/212. Sufyan İbn Uyeynə – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsəyə sən mömінsən deyə soruşulduğu zaman istəyirsə cavab verməsin və belə

desin: «Sənin mənə belə bir sual verməyin bidətdir, mən imanımdan şübhə etmirəm. İman artar və əskilər. Mən mömінəm inşallah deyəni isə tənqid etmə». İbn Batta «əl-İbanə» 2/881 (1213). İmam əl-Acurri – *rahmətullahi aleyhi* – deyir ki: «Sözünü etdiyimiz elm adamlarından həqiqət əhlinin bir özəlliyi də imanda istisna etmələridir. Bu şübhə üzərində edilən bir istisna deyildir – imanda şübhədən Allaha sığınırıq – Lakin imanda kamil bir mənaya gələ biləcək şəkildə nəfislərini təzkiyə etməkdən qorxduqları və imanın həqiqətinə layiq kimsələrdən olub-olmadıqlarını bilmədikləri üçün edilən bir istisnadır. Bu səhabələrin və onlara gözəl bir şəkildə uyanların yoludur». əl-Acurri «Kitabuş Şəriya» 2/656. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Mütləq iman Allahın quluna əmr etdiyi şeylərin hamısını etməyi və haramları tərk etməyi əhatə edir. Bir kimsə: «Kimsə özünə mən mömінəm dediyi zaman əmr edilən bütün şeyləri yerinə yetirən və qadağaları tərk edən təqva sahibi yaxşılardan olduğuna şahidlik etmişdir. O, artıq Allahın vəlilərindən olur. Bu insanın bir növü öz nəfsini təzkiyə etməsi və bilmədiyi bir şeylə öz lehinə şahidlik etməsi deməkdir. Əgər bu şahidlik səhih olsaydı insanın bu hal üzərə ölməsi onun Cənnətlik olmasına da şahidlik etməsi lazım gəlir. Özünün Cənnətlik olmasına şahidlik edən heç kimsə yoxdur. Öz nəfsi üçün imanla şəhadət etməsi, bu hal üzərə ölürsə Cənnətlik olacağına şahidlik etməsi kimidir". Məcmul Fətava 7/446. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «İbn Məsud və səhabələr, Sevri, İbn Uyeynə, Kufə alimlərindən bir çoxu, İmam Əhməd və sünnə imamları – *Allah onlardan razı olsun* - kimi hədis alimləri də imanda istisna edərdilər. Bu onlardan mütəvatir olaraq gəlmişdir». İbn Teymiyyə «İman» s. 375, 394, «Məcmuul Fətava» 7/438-460. Həmçinin səhabələrdən: «Ömər, İbn Məsud, Əli, tabiinlərdən - İbn Əbi Muleykə, Tavus, Həsənul-Basri, Məhəmməd İbn Sirin, İbrahim ən-Nəhai, Səid İbn Feyruz, Dəhhak İbn Məşriki, İsmail İbn Əbu Xalid, Muğirə İbn Miksəm, fikhçilərdən Abdullah İbn Şübrümə, Mamər İbn Rəşid, Sufyan əs-Səvri, Sufyan İbn Uyeynə, Abdullah İbn Mubərək, İmam Məlik, İmam Əhməd – *Allah onlardan razı olsun* - və s. rəyləridir». İmam Əhməd «əs-Sünnə» 307-384, əl-Laləkai 5/967,968, Nəvəvi «Şərh Səhih Müslim» 1/150, Bəğavi «Şərhi Sünnə» 1/41.

[36] ***İslamda İstisna Etmək «İnşəallah, Mən Müsəlmanam» Demək -*** İslamda istisna etmək bir kimsənin – ***İnşəallah Mən Müsəlmanam –*** deməsidir. Əhli Sünnə vəl Cəmaat istisnanı imanda caiz görürlər. İslamda isə caiz görməzlər. Çünki bildiyimiz kimi İslam iman deyildir. İmanın dərəcələri vardır. İnsanlar iman mərtəbəsində dərəcə-dərəcədirlər. Onlardan bir qrupu ehsan dərəcəsindədir, bir qrupu mömindirlər, bir qrupu da müsəlmandırlar. Bu da dərəcənin ən aşağısıdır. Ondan aşağı küfürdən başqa bir şey deyildir. Bir kimsə müsəlman deyilsə kafirdir. Lakin müsəlman olmayan kimsə müsəlman ola bilir. Çünki şəhadət kəlməsini söyləyən kimsə müsəlman olur və digər kafirlərdən fərqlənir. Beləcə onun haqqında İslamın hökümləri işlədilir. Şəri dəlillər İslamda istisna etmədən – *Mən müslmanam* – deməyə dəlalət edir. ***«Allaha tərəf çağıran, yaxşı iş görən və mən müsəlman-lardanam deyən kəsdən daha gözəl danışan kim ola bilər» (əl-Fussilət 33). «Bədəvi ərəblər: «Biz iman gətirdik!» dedilər. (Ya Peyğəmbər! Onlara) De ki: «Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: «Biz İslamı qəbul etdik!» deyin. Hələ iman qəlblərinizə daxil olmamışdır. Əgər Allah və Peyğəmbərinə itaət etsəniz O, sizin əməllərinizdən heç bir şeyi əskiltməz. Həqiqətən Allah bağışlayan və rəhm edəndir». (əl-Hucurat 14).*** İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Bu ayə İmam Əhməd – *rahmətullahi aleyhi* – və s. İslamda deyil, imanda istisna edilməsinin və böyük günah edənlərin iman mərtəbəsindən çıxıb islam mərtəbəsinə girdiklərinə dair sürdükləri dəlillərdəndir». əl-Meymuni dedi ki: «İmam Əhməddən - ***Mən İnşəallah Mömінəm –*** sözü haqqında fikrin nədir». O: «İnşəallah mömінəm deyirəm. Müsəlman

Əbu Muti: “Mən kafiri kafir olaraq tanımıram” deyərsə.

Əbu Hənifə: “O, kafir kimidir” dedi. Mən: “Əgər kafirin son gedəcəyi yer hara olduğunu bilmirəm deyərsə?” deyə soruşdum. O: “Allahın kitabını inkar etmiş və kafir olmuş olar” dedi. Mən: “Sən mömінsənmi? Deyə soruşulan kimsə: Allah daha doğru bilir! deyə cavab verərsə bu kimsə barəsində nə deyirsən? deyə soruşdum. O: “Onun imanında şübhəsi vardır” dedi. Mən: “Məgər İman və Küfr arasında üç haldan biri olan münafiqlikdən başqa bir hal varmı? O, kimsə ya mömin, ya kafir, ya da münafiq olur dedim. O: “Xeyr, İmanında şübhə olan kimsə münafiq deyildir” dedi. Mən: “Nə üçün?” dedi. O: “Muaz İbn Cəbəl və İbn Məsudun – *radıyallahu anhum* - hədisinə görə. Mənə Həmməd, Həris İbn Məlikdən xəbər verdi ki, Muaz İbn Cəbələ – *radıyallahu anhu* - ölüm gəldiyi zaman tələbəsi Həris ağladı. Muaz, Hərisdən nə üçün ağladığını soruşdu. O, da: “Ölümünə görə ağlamıram. Çünki bilirəm ki, Axirət sənin üçün dünyadan daha xeyirlidir. Fəqət səndən sonra bizim müəllimmiz kim olacaqdır?” dedim. Başqa rəvayətdə: Səndən sonra dini bilən kim? Muaz: “Tələsmə. İbn Məsuda – *radıyallahu anhu* - tabe ol!” dedi. Daha sonra Həris, Muaza: “Mənə vəsiyyət et!” dedi. O, da Allahın dilədiyindən vəsiyyət etdi və: “Alimin səhfindən çəkinməyi tövsiyə etdi” dedi. Muaz – *radıyallahu anhu* - vəfat etdikdən sonra Həris Kufədə İbn Məsudun – *radıyallahu anhu* - tələbələrinin yanına gəldi. Namaz üçün azan verildiyi zaman Həris: “Bu dəvətə cavab verin, bunu

---

deyərkən istisna etmərəm. Mən: «Sən, islam və iman arasında ayrım edirsən?» dedim. O: «Bəli» dedi. Mən: «Hansı dəlilə əsasən» dedim. O: «Bədəvilər biz iman etdik» dedilər. De ki: «Siz iman etmədiniz, müsəlman olduz deyin». Məcmuu Fətava 7/253 – İman məxluqdur, yoxsa məxluq deyildir? Məsələsi haqqında: «Bu məsələ bidətçilərin və hava əhlinin çıxardığı ***Xalqul-Quran*** (Quran yaradılması) məsələsindən törənmişdir. Əhli Sünnə Quran Allahın kəlamı olduğuna, məxluq olmadığı görüşündə ittifaq etmişlər. Onun kəlamının sonu yoxdur. İman ilə ***Lə İləhə İlləllah –*** sözü kimi Allahın sifətindən və kəlamından bir şey qəsd edilirsə iman məxluq deyildir. İman ilə qulların əməllərindən və sifətlərindən bir şey qəsd edilirsə onda bütün qulları məxluqdur və onların bütün əməlləri də sifətləri də məxluqdur Məcmuu Fətava 6/313, 7/652, 8/422.

dinləyib cavab vermək hər bir mömin üçün haqdır” dedi. Tələbələr ona baxaraq: “Sən həqiqətən möminsənmi?” deyə soruşdular. O, da: “Bəli, möminəm” dedi. Onlar bir-birilərinə baxdılar və İbn Məsud – *radıyallahu anhu* - gəldikdə halı ona söylədilər. O, da Hərisə onların söylədiyi kimi söylədi. Bundan sonra Həris başını əydi və ağladı. Allah Muaza – *radıyallahu anhu* - rəhmət etsin! dedi və İbn Məsuda – *radıyallahu anhu* - vəziyyəti başa saldı. İbn Məsud: “Sən həqiqətən Möminsənmi?” deyə soruşduqda. O da: “Bəli, dedi. İbn Məsud: “Sən özünün Cənnət əhlindən olduğunumu söyləyirsən” dedi. Həris: “Allah Muaza rəhmət etsin! Mənə alimin səhfindən və münafiqin də verdiyi hökmlərdən çəkinməyi vəsiyyət etdi” dedi. İbn Məsud: “Sən mənim səhfimimi gördün?” dedi. Həris: “Allah xatirinə de görüm, Peyğəmərin – *sallallahu aleyhi və səlləm* - zamanında insanlar gizli və aşkar (zahir və batin) hallarında mömin, gizli və aşkar hallarında kafir, gizli hallarında münafiq və aşkarda mömin olmaqla üç qrupdan ibarət deyildilərmi? Sən bu üç qrupun hansındansan? dedi. İbn Məsud: “Madam ki, Allah üçün and verdin, söyləyərəm: Mən zahirən və batinən də möminəm” dedi. Həris: “Onda məni mömin dediyimə görə nə üçün tənbeh etdiniz” dedi. İbn Məsud: “Bəli, bu mənim səhfimdir. Haqqını halal et! Allah Muaza rəhmət etsin!” dedi.

Əbu Muti: “Mən Cənnət əhlindənəm deyən kimsənin durumu nədir?” dyə soruşdum. Əbu Hənifə: “Yalan söyləmişdir, onun bu haqda biliyi yoxdur.

## Mömin Günahlarına Görə Cəzalandırıla Bilər

Əbu Hənifə: “Mömin imanı səbəbilə Cənnətə girən, etdiyi günahına görə Cəhənnəmdə əzab görə bilər” dedi.

Əbu Muti: “Əgər özünün Cəhənnəm əhli olduğunu söyləyərsə” dedim. O: “Yalan söyləmişdir, onun bu haqda biliyi yoxdur (çünki qeybi olan bir şeydir). Heç şübhəsiz ki, o Allahın rəhmətindən ümüd kəsmişdir. Mömin bir kimsənin həqiqi mömin olduğunu

deməsi lazımdır. Çünki o, imanında şübhə etməyəndir. Mən: "Onun imanı mələklərin imanı kimi olurmu? Deyə soruşdum. O: "Bəli" dedi [37]. Mən: "Əməldə qüsur etsədə belə həqiqi mömindirmi?" deyə soruşdum. O: "Mənə Hərisənin hədisini danışdılar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - ona: "Necə sabahladın?" deyə buyurdu. O, da: "Həqiqi mömin olaraq sabahladım" dedi. Peyğəmbər: "Söylədiyinə diqqət et, çünki hər haqqın bir həqiqəti vardır, sənin imanının həqiqəti nədir?" deyə buyurdu. Hərisə: "Bu dünyadan vaz keçdim, gündüzlərim susuz, gecələrimi isə yuxusuz qaldım. Mən sanki Rəbbimin Ərşinə baxıram, sanki Cənnətdə bir-birilərini ziyarət edən Cənnət əhlini görürəm, sanki Cəhənnəmdə toplanan insanları görürəm". Peyğəmbər: "Haqqa icabət etdin, davam et! Haqqa icabət etdin, davam et" dedi və sonra: "Kim Allahın qəlbini nurlandırdığı kimsəyə baxmaq istəyərsə Hərisəyə baxsın" deyə buyurdu. Hərisə: "Ey Allahın Rəsulu! Mənə şəhid olmağım üçün dua et!" dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - onun üçün dua etdi və sonda Hərisə şəhid oldu"[38].

# Kafirlər Haqqı Gördükləri Zaman İman Edəcəklər

Əbu Muti: "Bəzilərinə nə olur ki, Mömin atəşə girməz deyirlər? Deyə soruşdum. Əbu Hənifə: "Cəhənnəmə girən hər bir kəs iman etmişlərdir" dedi. Mən: "Kafir nəcə?" dedim. O: "Onlar da o, Günü iman edərlər" dedi. Mən: "Bu necə olur?" dedim. O: ***"Onlar əzabımızı gördükdə dedilər: "Biz yalnız Allaha iman gətirdik, (Rəbbimizə) qoşduğumuz şərikləri (bütləri) isə inkar etdik! Amma əzabımızı gördükləri zaman iman gətirmələri – Allahın Öz***

[37] Əsl olan bu kitab zəif bir ravi tərəfindən rəvayət edildiyi üçün etimad edilməz. Bu Hənəfi məzhəbinin etiqadıdır ki, Əhli Sünnətə, Sələflərin etiqadına ziddir. Ağla sığan bir şey deyil ki, fasiqin, günahkarın imanı mələklərin imanı kimi olsun. Onlar deyirlər ki: "İmanın əslində onlar eynidirlər". Mümkün deyil ki, iki kimsənin imanı eyni olsun.
[38] Hədis Zəifdir.

***bəndələri barəsində öncə olub-keçmiş (tətbiq edilmiş) adətinə (qayda-qanununa) müvafiq olaraq heç bir fayda vermədi. (Əzab gəlməmişdən əvvəl iman gətirmək lazımdır, əzabı gördükdə gətirilən imanın heç bir faydası olmaz). Kafirlər elə oradaca ziyana uğradılar (məhv oldular)". (əl-Mumin 84-85).*** Əbu Hənifə: "Kim haqsız yerə bir cana qəsd edərsə, oğurluq edərsə, quldurluq edərsə, fasiqlik edər və ya günah işlərsə, zina edərsə, içki içərsə bu kimsə günahkar mömindir, kafir deyildir. Bu halda onlar etdiklərindən dolayı Cəhənnəmdə əzaba məruz qalırlar, lakin imanları səbəbilə Cəhənnəmdən çıxarılırlar. İman edilməsi lazım olan hər bir şeyə iman edən, lakin İsa və Musa - *əleyhimussəlam* - peyğəmbərdimi, peyğəmbər deyilmi? deyən kimsə kafir olur. Həmçinin kafir Cənnətəmi, yoxsa Cəhənnəməmi gedər bilmirəm deyən kimsə də: ***"Kafir olanları cəhənnəm odu gözləyir. Orada nə onların ölümünə hökm olunar ki, ölüb canlarını qurtarsın, nə də əzabları yüngülləşər. Biz hər bir kafiri belə cəzalandırırıq". (Fatir 36). "İman gətirib yaxşı əməllər edən kimsələri isə (ağacları) altından çaylar axan cənnətlər gözləyir. Bu, böyük qurtuluşdur (uğurdur)!". (əl-Buruc 11). "...Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır...". (Ali İmran 4).*** Ayələrinə görə kafir olur. Əbu Hənifə: "Səid İbn Museyyibdən mənə çatdığına görə kafirləri haqq etdikləri Cəhənnəmə aid etməyən özü də onlar kimidir". Əbu Muti: "İman edən, fəqət namaz qılmayan, oruc tutmayan, bu əməllərin heç birini etməyən kimsəni iman qurtarırmı?" deyə soruşdum. Əbu Hənifə: "Onun işi Allahın diləməsinə bağlıdır. Dilərsə əzab edər, dilərsə rəhm edər. Allahın kitabından hər hansı bir şeyi inkar etməyən kimsə mömindir. Mənə elm əhlindən birinin xəbər verdiyinə görə Muaz İbn Cəbəl – *radıyallahu anhu* - Hums şəhərinə gəldiyi zaman insanlar onun ətrafında toplandılar. Bir gənc ona: "Namaz qılan, oruc tutan, Beyti həcc edən, Allah yolunda cihad edən, kölə azad edən, zəkatı verən və lakin Allah və Rəsulundan şübhə edən kimsə barəində sözün nədir?" deyə soruşdu. Muaz: "Onun üçün atəş vardır" dedi. Gənc:

“Namaz qılmayan, oruc tutmayan, Beyti Həcc etməyən, zəkatını verməyən lakin Allah və Rəsuluna inanan kimsə necə?” dedi. Muaz: “Onun üçün Allahdan əff edildiyini ümüd edər, əzaba uğramasından da qorxarıq” dedi. Bunun üzərinə gənc: “Ey AbdurRahmanın atası! Şübhə ilə yanaşı əməl fayda vermədiyi kimi, iman ilə bərabər hər hansı bir (günah) da zərər verməz” dedi və getdi[39]. Muaz: “Bu bölgədə bu gəncdən biliklisi yox” dedi[40].

## Cəmaata Qarşı Çıxan Dəstə

Əbu Hənifə: “Həddi aşan tayfa ilə küfrlərindən dolayı deyil, həddi aşdıqları üçün döyüşün. Sultan zalım olsa da belə adil zümrə ilə bərabər ol! Lakin həddi aşanlarla bərabər olma. Cəmaat əhlindən fasiq və zalımlar olsa da belə onların içində sənə yardımçı olacaq saleh insanlar da vardır. Əgər cəmaatı təşkil edənlərin çoxu zalım və həddi aşanlar olarlarsa onlardan ayrıl. Çünki Allah: ***“Mələklər öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: “Siz (hicrət zamanı) nə işdə idiniz?” Onlar söyləyəcəklər: “Biz yer üzərində zəif (aciz) kəslər idik.” (Mələklər də onlara: ) “Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz?” – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir!”. (ən-Nisa 97). “Ey mömin qullarım! Şübhəsiz ki, Mənim bu yerim genişdir. Elə isə yalnız Mənə ibadət edin”. (əl-Ənkəbut 56)*** buyurur. Əbu Hənifə: “Bizə Həmməd, o da İbrahimdən, o da İbn Məsud – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu*

---

[39] Bu həddi aşan Murciyə əqidəsində olanların etiqadıdır. Murciyə əqidəsinə görə İman – qəlb ilə təsdiq, dil ilə söyləməkdir. Əməllər imandan deyildir. Yəni insanın əməl etməməsi onun imanına təsir etməz. İmanın əslində onlar mələklərin imanı kimidir. Nə Muaz İbn Cəbəl, nə də Əbu Hənifə bu sözləri deyə bilməz. Onlar bu şeylərdən uzaqdırlar. Çünki bundan öncəki başlıqda İmam özü dedi ki: Əbu Hənifə: “Mömin imanı səbəbilə Cənnətə girən, etdiyi günahına görə Cəhənnəmdə əzab da görə bilər” dedi. Ola bilməz ki, burada onun əksi deyilsin. Çünki Əbu Muti özü Murciyə əqidəsində idi.

[40] Zəif.

*aleyhi və salləm* - buyurdu: "Əgər bir yerdə günahlar zühr edib onu dəyişdirməyə gücün çatmazsa oradan başqa yerə get və Rəbbinə ibadət et!". Mənə elm əhlindən birinin Peyğəmbərin – *sallallahu aleyhi və salləm* - səhabələrindən birinin verdiyi xəbərə görə Peyğəmbər: "Fitnədən qorxaraq o yeri tərk edib fitnə olmayan əmin bir yerə gedən kimsə üçün Allah yetmiş siddiq əcri yazar".

## Allahın Ucalığının İsbatı

Əbu Hənifə: "Bilmirəm Rəbbim səmadadır, yoxsa yerdədir?" deyən kimsə kafir olur. Həmçinin Allah Ərşin üzərindədir, lakin bilmirəm Ərş səmadadır, yoxsa Əbu Hənifə – *rahmətullahi aleyhi* - dən: "Mən Rəbbimin səmada, yoxsa yerdə olduğunu bilmirəm deyən kimsə kafir olur. Allah Ərşin üzərindədir dediyi halda, bilmirəm Ərş səmadadır, yoxsa yerdədir" desə? Yenə o, kimsə kafirdir. Allaha dua edərkən yuxarıya yönəlinir, aşağıya deyil. Çünki aşağını Uluhiyyət və Rububiyyət ilə heç bir əlaqəsi yoxur. Necə ki, hədisdə rəvayət edildiyi kimi: "Bir adam Peyğəmbərin yanına qara dərili bir cariyə gətirir və mənim üzərimə mömin bir kölə azad etmək vacib olmuşdu. Mən onu azad edə bilərəmmi? Allah Rəsulu – *sallallahu aleyhi və salləm* - buyurdu: «Cariyəni yanıma çağır». Cariyə gəldikdə, Rəsulullah – *sallallahu aleyhi və salləm* - buyurdu: «Sən möminəsən?» O, da bəli dedikdə Rəsulullah – *sallallahu aleyhi və salləm* - buyurdu: «***Əynəallah*** – Allah haradadır?». Cariyə əli ilə səmaya doğru işarə etdi. Peyəmbər: "Bu cariyə möminədir, onu azad et" deyə buyurdu[41].

---

[41] Müslimdə hədis bu ləfzlə keçir: Müaviyə İbn əl-Həkəm əs-Sələmi – *radıyallahu anhu* – rəvayət edir ki, bir cariyəm var idi. Çöldə qoyun otarırdı. Bir gün canavar qoyunlardan birini yediyinə görə çox qəzəbləndim. Hətta cariyəyə sillə də vurdum. Peşmançılıq çəkdim və hadisəni Rəsulullah – *sallallahu aleyhi və salləm* - ə danışdım. Allah Rəsulu buyurdu: «Cariyəni yanıma çağır». Cariyə gəldikdə, Rəsulullah – *sallallahu aleyhi və salləm* - buyurdu: «Sən möminəsən?» O, da bəli dedikdə Rəsulullah – *sallallahu aleyhi və salləm* - buyurdu: «***Əynəallah*** – Allah haradadır?». Səma üzərində. Bəs mən kiməm? Cariyə: «Sən Allahın Rəsulu». Müslim 537.

## Qəbr Zabının Olmasının İsbatı

Əbu Hənifə: "Qəbr əzabının olduğuna inanmıram (yoxdur)" deyən kimsə həlaka uğrayan Cəhmidir. Çünki o Allahın: ***"Onlara iki dəfə (dünyada və qəbr evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar". (ət-Tövbə 101)*** ayəsində qəbr əzabı qəsd olunmalıdır. ***"Şübhəsiz ki, zalımları (kafirləri) hələ bundan başqa da (dünyada və qəbir evində) əzab gözləyir. Lakin onların əksəriyyəti (bunu) bilməz!". (ət-Tur 47).*** Yəni qəbr əzabı olan ayələri inkar etmiş olar. Əgər: Mən ayəyə inanıram, lakin Təfsir və Təvilinə inanmıram" deyərsə kafir olar. Çünki Quranda elə ayələr vardır ki, onlar özləri təfsirdirlər (açıq-aydındırlar). Əgər bunu inkar edərsə kafir olar. Mənə bir nəfər Mihləl İbn Amrdan, o da İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Mənim ümmətimin ən şərliləri mən atəşdə deyil Cənnətdə olacağam deyənlərdir".

## Allahın Adından And İçməyin Qadağan Olunması

Əbu Zubyan – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Ümmətimdən Mutəalli olanların vay halına". Biz: "Mutəalli olanlar kimdir?". Peyğəmbər: "Onlar filan kimsə Cənnətdə, filan kimsə də Cəhənnəmdədir dey and içənlərdir" deyə buyurdu. Mənə Nəfi, o da İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Allah Qiyamət günü hökm edənə qədər ümmətimin Cənnətdə və ya Cəhənnəmdə olduğunu söyləməyin". Mənə Əban, O da Həsən – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - Rəbbindən buyurdu: "Qiyamət günün qullarımın arasında hökm edib yerlərinə (Cənnət

və Cəhənnəmə) göndərmədən siz onları Cənnət və Cəhənnəmə göndərməyin".

Əbu Muti: "Mənə qatildən və onun arxasında qılınan namazdan bəhs et!" dedim.

Əbu Hənifə: "Hər bir təqva əhli və günahkar bir kimsənin arxasında namaz qılmaq caizdir. Sənin əcrin sənə, onun günahı da özünə aiddir (bu həmçinin cənazə namazının qılınmasına da aiddir)". Mən: "Mənə İnsanlara qılıncı ilə qarşı çıxan, onlarla döyüşən və onlardan bir çox şeyləri qəsb edən kimsələrdən danış" dedim. O: "Onlar bir neçə zümrədirlər, hamısı da Cəhənnəmdədir" dedi. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və sələm* - buyurdu: "Yəhudilər yetmiş iki firqəyə ayrıldılar, mənim ümmətim də yetmiş üç firqəyə ayrılacaqdır. Böyük bir cəmaatdan başqa[42] hamısı atəşdədir". Mənə Həmməd, o da İbrahimdən, o da İbn Məsuddan – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - buyurdu: "Kim İslama qarşı cinayət edərsə həlak olar, bidət çıxaran sapıqlığa düşər. Sapıqlığa düşən də Cəhənnəmdədir". Bizə Meymun, o da İbn Abbasdan – *radıyallahu anhu* - rəvayət edir ki, bir nəfər Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - yanına gələrək: "Ey Allahın Rəsulu! Məni öyrət" dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - üç dəfə: "Get Quran öyrən" deyə buyurdu. Dördüncü dəfə: "Haqq sevdiyin kimsədən gəlsə, Sevmədiyin birisindən də gəlsə qəbul et! Quranı öyrən, onun yönəldiyi tərəfə yönəl" deyə buyurdu. Bizə Həmməd, O da İbrahimdən, o da İbn Məsuddan – *radıyallahu anhu* - rəvayət edir ki: "Şübhəsiz ki, ən şərli şeylər sonradan ortaya çıxarılanlardır. Sonradan ortaya çıxarılan şey bidət, hər bidət zəlalət, hər bir zəlalətdə Cəhənnəmdədir". Allah buyurur: ***"Ona günahları və Allahdan qorxmağı təlqin edənə!". (əş-***

---

[42] İbn Ömər - *radıyallahu anhu* – nun rəvayətində isə səhabələr Cənnətə düşən firqə haqqında soruşdular. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Onlar mənim və səhabələrimin yolu ilə gedənlərdir». Başqa rəvayətdə: Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «O, da cəmaatdır». Tirmizi, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1348, İmam Əhməd «Musnəd» 4/102, əl-Albani «Ziləlul Cənnə», əl-Albani «Səhih Tirmizi» 2/333.

*Şəms 8).* Allah Musaya - *əleyhissəlam* - buyurdu: ***"(Allah: ) "Səndən sonra ümmətini imtahana çəkdik. Samiri onları yoldan çıxartdı (buzova sitayiş etdilər)" - deyə buyurdu". (Ta ha 85).***

# Günah Edən Kimsənin Kafir Olduğu İddiasının Rəddi

Əbu Muti: "Əgər bi kimsə - Günah edən kimsə kafirdir" deyərsə, onun sözünü boşa çıxaracaq dəlil nədir?" deyə soruşdum.

Əbu Hənifə ona Allahın ayəsi ilə cavab verilir: ***"Zün-Nunu (balıq sahibi Yunisi) da xatırla! Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxıb getmiş və (Bizə xoş gəlməyən bu səbirsizliyinə görə) onu möhnətə düçar etməyəcəyimizi (gücümüz, yaxud hokmümüzün ona yetməyəcəyini) güman etmişdi. Amma sonra qaranlıqlar içində (balığın qarnında; gecənin, yaxud dənizin zülmətində): "Səndən başqa ibadətə layiq heç bir ilahı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm eləmişəm)",-deyib dua etmişdi". (əl-Ənbiya 87).*** Yunus - *əleyhissəlam* - özünə zülm etsədə mömin idi, kafir və münafiq deyildir. Yusufun - *əleyhissəlam* - qardaşları: ***"(Oğlanları ona: ) "Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz, doğrudan da, günahkar olmuşuq!" dedilər". (Yusuf 97)*** dedilər. Bu hallarıyla onlar günahkardılar, lakin kafir deyildilər. Uca Allah Peyğəmbəri Muhəmməd – *sallallahu aleyhi və səlləm* - haqqında: ***"Allah (bununla) sənin əvvəlki sə sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir!". (əl-Fəth 2)*** günahlarını demiş, küfrünü deməmişdir. Musa - *əleyhissəlam* - Qibtini öldürməsiylə günah etmiş, lakin kafir deyildir. Əgər bir kimsə: "Mən İnşəallah möminəm" deyərsə: ***"Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın". (əl-Əhzab 56).***

Əgər möminsənsə salavat gətir, əgər mömin deyilsənsə salavat gətirmə" deyilir. Allah: ***"Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!". (Cumə 9).*** Muaz – *radıyallahu anhu* - dedi: "Bir kimsənin Allah haqqında şübhə etməsi onun bütün yaxşılıqlarını puç edər. Allaha iman etdiyi halda günah edən kimsənin əff edilməsi umulur, əzab görməsindən də qorxulur". Ondan: "Şübhə yaxşılıqları sildiyi kimi, iman etmək də pislikləri daha çox silər" dedi. Muaz: "Vallahi, bu kimsədən daha çox heyrət ediləcək bir kimsə görmədim" dedi. Ondan "Sən müsəlmansan?" deyə soruşdu. O: "Bilmirəm" dedi. O, kimsəyə: "Bilmirəm – sözün haqqamı, yoxsa yalanamı aiddir" deyə soruşdu. O: "Haqqa" deyərsə, ondan: "Dünyada doğru olan bir şey Axirətdə doğru deyilmi?". Əgər o: "Bəli" deyərsə. Ondan: "Qəbr əzabına, sorğu-suala, Xeyir və şərin Allahdan olmasına iman edirsənmi?" deyə soruş. Əgər o: "Bəli" deyərsə, ondan: "Sən möminsən?" deyə soruş. O yenə də: "Bilmirəm" deyərsə, o zaman: "Bilmədin, anlamadın, qurtulmadın" de.

Əbu Muti: Əgər bir kimsə: "Cənnət və Cəhənnəm yaradılmış deyildir" deyərsə? deyə soruşdum.

Əbu Hənifə: "Onlar şeydir, yoxsa şey deyildir" deyə soruş. Çünki Allah Quranda: ***"Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir!". (əz-Zumər 62). "Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq". (əl-Qəmər 49). "Onlar (ölən gündən qiyamətə qədər qəbir evində) səhər-axşam (gündə iki dəfə) odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): "Firon əhlini ən şiddətli əzaba salın!". (əl-Mumin 46).*** Buyurur. Mən: Əgər o: "Cənnət və Cəhənnəm Fanidi (bir gün yox olacaqlar)" deyə soruşarsa". Əbu Hənifə: "Allah Quranda Cənnət nemətlərini: ***"Tükənməz və qadağan edilməyən meyvələr içində". (əl-Vaqiə 33).*** Olaraq vəsf etmişdir. Cənnət və Cəhənnəmliklər öz yerlərinə girdikdən sonra Cənnət və Cəhənnəm yox olacaqdır deyən kimsə orada əbədi qalmağı inkar etdiyi üçün kafir olur".

# Allahın İsim Və Sifətləri

Əbu Hənifə: "Allah məxluqatının sifətləri ilə vəsf edilməz. Onun qəzəbi və rızası keyfiyyəti bilinməyən sifətlərindəndir. Bu Əhli Sünnə vəl Cəmaatın görüşüdür. O, (Allah) qəzəb də edər və Razı da olur. Onun qəzəbi cəzalandırması, rizası da mükafatlandırması kimi deyilməz. Biz Onu özünü vəsf etdiyi kimi vəsf edərik. O, birdir. Heç bir şeyə möhtac deyildir, doğmamış və doğulmamışdır, heç bir tayı, bərabəri (şəriki) də yoxdur. Həyy, Qayyum, Qadir, Səmiun, Bəsir, Alim. Onun əli onların əlləri üzərindədir. Lakin qulların əlləri kimi bir üzv deyildir. O, əllərin yaradıcısıdır. Onun üzü yaratdıqlarının üzü kimi deyildir. O, bütün üzlərin yaradıcısıdır. Onun nəfsi yaratdıqlarının nəfsi kimi deyildir. Bütün nəfslərin yaradıcısı Odur. ***"…Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11).***

Əbu Muti: "Əgər Allah haradadır?" deyə soruşularsa.

Əbu Hənifə: "Maxluqatdan heç kim, (heç nə) yoxkən, məkan yoxkən, "Harada" məfhumu yoxkən Allah vardı. O, hər şeyin yaradıcısıdır" deyə cavab ver[43]. Əgər: "Diləyən, diləmiş olduğu şeyi nə ilə dilədi?" deyilərsə. Ona: "Sifətlə" de. O, qüdrətilə Qadir, elmi ilə Alim, mülkü ilə Malikdir. Əgər: "Məşiətləmi dilədi, məşiətlə təqdir edilib, elmləmi dilədi?" deyə soruşarsa. Ona: "Bəli" deyə cavab ver. İmamın sözləri deyil. Çünki Sələflər belə etməzdilər.

---

[43] Bu sözlərdən görünür ki, bu cavab İmam Əbu Hənifənin – *rahmətullahi aleyhi* - cavabı və sözləri deyil. Əbu Mutinin öz sözləridir. Çünki bu kitabda bir az öncəki fəsildə İmam: "Mən bilmirəm Allah yerdədir. Yoxsa göydədir" deyən kimsənin kafir olduğunu söyləmişdir. Və Orada Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - cariyəyə: Allah haradadır? Hədisini də dəlil olaraq gətirir ki, Cariyənin cavabı onun möminə olmasına dəlil idi. Hətta biz bu sözləri İmama nisbət etsəkdə belə burada Allah hər yerdədir deyənlər, Allah barəsində Allah haradadır? Soruşmaq olmaz deyənlər üçün heç bir dəlil yoxdur. Ümumiyyətlə ***Məkan –*** sözü Sələflərdən heç kəs işlətməyib. Allah haradadır? Soruşulduqda, cavab olaraq: Səmadadır – deyərdilər. . Əgər siz Məkan deməklə Allahın məxluqatı ilə bərabər olmadığını qəsd edirsinizsə biz də onu deyirik ki, Allah münəzzəhdir. Yox, əgər məkan deməklə Allahın harada olduğunu inkar edirsinizsə biz deyirik: Allah Səmadadır.

# FİQHUL ƏKBƏR

*Rahmən Və Rəhim Olan Allahın Adıyla*:

Bu kitab İmamın oğlu Həmməd İbn Əbu Hənifə ən-Numan tərəfindən rəvayət edilmişdir. İbni Hilkən onun haqqında deyir ki: “Atasının yolunu tutar, saleh və xeyirxah bir kimsə idi”. Bəzi Mühəddislər isə onu zəif ravi saymışlar. Bu kitabda İmamın elə görüşləri zikr edilmişdir ki, görünür ki, bu sonradan kitaba əlavə edilmişdir. Nəyə əsasən biz bunu deyirik: Çünki İmam Təhavi öz kitabında “Təhavi Əqidəsi” imamın əqidəsini zikr etmişdir. Orada olan sözlər bu kitabda olana uyğun deyildir.

Tövhidin əsli bir kimsənin mən: Allaha, mələklərə, Kitablara, Peyğəbərlərinə, öldükdən sonra dirilməyə, Xeyir və şərin Qədərdən olmanasına, hesaba, mizana, Cənnət və Cəhənnəmə - iman etdim deməsidir. Bunların hamısı haqdır. Allah birdir (təkdir), say etibarıyla deyil, ortağı və şəriki olmaması etibarıyla birdir. O, birdir. Heç bir şeyə möhtac deyildir, doğmamış və doğulmamışdır, heç bir tayı, bərabəri (şəriki) də yoxdur. O, yaratdıqlarından heç birinə bənzəməz, yaratdıqlarından da heç bir şey Ona bənzəməz. O, İsimləri, Zatı və Feli sifətlərilə hər zaman var olmuş və olacaqdır. Allahın zatı sifətləri: Həyat, Qudrət, Elm, Səmi, Bəsir və İradə sifətləridir. Feli sifətlər isə: Təhliq (Yaratmaq), Tərziq (Ruzi vermək), İnşa (Yaratmaq), İbda (Bənzərsiz yaratmaq), Suna (Qüsursuz Yaratmaq) və s. Feli sifətləri. Allah İsim və Sifətlərilə hər zaman var olmuş və var olacaqdır. Onun İsim və Sifətlərindən heç biri sonradan var olmuş deyildir. Allah elmilə daima Alimdir, Elm Onun əzəli sifətidir, O qüdrətilə daima Qadirdi, Qudrət Onun əzəli sifətidir, Kəlam ilə (Mutəkəllim) danışandır, Kəlam Onun əzəli sifətidir, Yaratması ilə daima Xaliqdir, Yaratmaq Onun əzəli sifətidir, Feli ilə daima faildir, Feli Onun əzəli sifətidir. Fail Allahdır, feli isə Onun əzəldə sifətidir.

Yaradılan şey məxluqdur, Uca Allahın feli isə məxluq deyildir. Allahın sifətləri əzəlidir, məxluq və sonradan var olmuş deyildir. Allahın sifətlərinin məxluq və sonradan var olduğunu söyləyən, bunda tərəddüd və ya şübhə edən kimsə Uca Allahı inkar etmiş kafirdir.

Qurani Kərim Allahın kəlamıdır, mushaflarda yazılmış, qəlblərdə hifz edilmiş, dil ilə oxunur və Peyğəmbərə – *sallallahu aleyhi və səlləm* - nazil olmuşdur. Bizim Qurani Kərimi tələffüzümüz məxluqdur (insanın felidir), yazmağımız və oxumağımız məxluqdur, fəqət Quran məxluq deyildir. Allahın Quranda Musa - *əleyhissəlam* - və digər Peyğəmbərlər barəsində bəhs etməsi, Firon və İblisdən xəbər verməsi bunların hamısı Allahın kəlamıdır, onlar barəsində xəbərlərdir. Allahın kəlamı məxluq deyildir, lakin Musa - *əleyhissəlam* - və digər yaradılmışların kəlamı məxluqdur. Quran isə Allahın kəlamı olub Qədim və əzəlidir[44], onların kəlamı isə qədim deyildir. Musa - *əleyhissəlam* - Allahın kəlamın eşitmişdir: ***"Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı". (ən-Nisa 164).*** Allah Musanı xəlq etməmişdən öncə də Kəlam sifətinə sahib idi. Allah məxluqatı xəlq etməmişdən öncə də Xaliq (yaradıcı) idi. Allah Musaya - *əleyhissəlam* - xitab etdiyi zaman əzəli sifəti olan Kəlam sifəti ilə danışdı. Onun heç bir sifəti məxluqlarının sifətlərinə bənzəməz (yaratdıqlarının sifətləri kimi deyildir). Onun bilməsi bizim bilməyimiz kimi deyil. Qüdrəti var, lakin bizim qüdrətimiz kimi deyil. O Görür, lakin görməsi bizim görməyimiz kimi deyil. O

---

[44] ***Qidəm –*** qədim sözündəndir. Bəqa - əbədilikdir. Sələflər bu ismi qəbul eməmişlər. Çünki Quranda dəlili yoxdur. Allah barəsində Xəbər formasında gəlmişdir. Əsməul Husnədən deyildir. Allahın İsimi olan Əvvəl və Əxir vardır ki, bu daha gözədlir. Əzəli - Əbədi - əvvəli olmayana deyilir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "...Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumu ödə və məni yoxsulluqdan qurtarıb zənginləşdir!". İbn Məcə 3831, Tirmizi 3481, İbn Hibban 966, əl-Albani "Səhih". Çünki Qədim köhnə olan bir şeyə də deyilir. ***"Nəhayət, o tədricən dönüb xurma ağacının qurumuş (Urcunul Qadim) budağı kimi əyri olur". (Yəsin 39)*** İkincinin varlığı zamanına qədər qala bilər, yenisi ortaya çıxan kimi birincisinə qədim deyilir. ***"Onlar bununla doğru yola gəlmədikləri üçün: "Bu, köhnə yalandır!"– deyəcəklər". (əl-Əhqaf 11).*** Bu söz ən çox kəlam əhli arasında məşhur olan bir kəlimədir. Sələflər bu sözü işləməyiblər.

Eşidir, lakin eşitməsi bizim eşitməyimizə bənzəməz. O Danışır, lakin danışması bizim danışığımız kimi deyildir. Biz (qulları dil və dodaq) kimi üzvlərlə və hərflərlə danışırıq. Allah isə üzvsüz və həriflərsiz danışır. Hərflər məxluqdur, lakin Allahın kəlamı məxluq deyildir[45]. O, şeydir, lakin digər şeylər kimi deyildir. Allah haqqında şeyin mənası: Cism, Cövher (özəyi, əsli), Araz (keçici, müvəqqəti), ziddi, oxşarı və bənzəri olmaqdan uzaqdır[46]. Allahın Quranda zikr etdiyi kimi Əli, üzü və nəfsi vardır. Allahın Quranda zikr etdiyi kimi əl, üz və nəfs kimi şeylər Onun keyfiyyəti bilinməyən sifətlərindəndir. Onun əli qüdrətdir və ya nemətdir deyilməz. Çünki bu zaman sifəti inkar (ləğv) etmiş olur. Bu da Qədəriyyə[47] və Mötəzilə görüşüdür. Onun əli keyfiyyəti bilinməyən sifətlərdən olduğu kimi, qəzəbi və rızası da Allahın keyfiyyəti bilinməyə sifətlərindən iki sifətidir.

Allah hər bir şeyi yoxdan yaratmışdır. Allah hər bir şeyi onu yaratmamışdan öncə əzəldən bilirdi. O hər bir şeyi təqdir və qəza edəndir. Dünya və Axirətdə Allahın diləməsi, Elmi, qəzası, təqdiri və Lövhi Məhfuzda yazısı olmadan baş verməz. Lakin Onun Lövhi Məhfuzdakı yazısı hökm (əmr) olaraq deyil, vəsif olaraq yazılmışdır. Qəza, Qədər və diləmək Onun necəliyi (keyfiyyəti) bilinməyən əzəli sifətlərindəndir. Allah, yox olan bir şeyi yox ikən də bilir, onu yaratdığı zaman necə olacağını da bilir. Var olan bir şeyi var ikən də bilir, onun yoxluğunun necə olacağını da bilir. Allah ayaqda duranın ayaqda durmaq halını, oturduğu zaman

---

[45] Bu söz Qurana məxluqdur deyənlərin dinə əlavə etdikləri çirkin bidətlərdəndir. İmamın sözlərindən deyildir. Çünki İmamın zamanında hələ bu bidət Quran məxluqadur bidəti ortaya çıxmamışdır. Qurani Kərimin mənası yaradılmş deyildir, lakin hərfləri yaradılmışdır. Sələfləin etiqdıdır ki: Quran – hərfləri, mənası, sözlərilə Allahın kəlamıdır. Allah söz və hərflərlə buyurmuşdur.

[46] Kəlam əhlinin gətirdiyi nə Qurandan, nə Sünnədən heç bir məna kəsb etməyən sözlərdi.

[47] ***Qədərilər kimlərdir?*** – Qədərilər insanın öz əməllərinin yaradıcısı olmasına və Allahın istəyi olmadan öz əməllərini etməsini etiqad edən bir təriqətdir. Onlar deyirlər ki, Allah bilir, qeyd edir, istəyir və yaradır əməlləri onlar baş verəndən sonra. Bu təriqətin başçısı Məbəd İbn Cuhənidir. Xəlifə Abdul Məlikin əmri ilə H. 80-ci ildə çarmıxa çəkilmişdir. Onun tələbəsi Ceylan İbn Dəməşqi də Xəlifə Hişamın əmri ilə əl və ayaqları kəsiləndən sonra çarmıxa çəkilmişdir. Bütün bu etiqadları Xiristianlıqdan alınmışdır. Çünki özləri də Ərəb olmamışlar.

oturuş halını bilir. Bütün bu hallarda Allahın elmində nə bir dəyişmə, nə də sonradan olma (elmləşmək kimi) bir şey hasil olmaz. Dəyişmə yalnız məxluqlarda olur.

Allah insanları küfr və imandan səlim (xali) olaraq yaratmışdır. Sonra onlara xitab edərək (iman və itaət etmələrini) əmr etmiş və (küfr və üsyandan) nəhy etmişdir. Kafir olan – öz feli, haqqı inkar və rədd etməsi, Allah (onlardan) yardımını kəsməsiylə küfrə düşmüşdür. İman edən – öz feli, iqrarı, təsdiqi və Allahın müvəffəqiyət və yardımı ilə iman etmişdir. Allah Adəmin nəslini belindən çıxarmış, onlara ağıl vermiş, xitab etmiş, imanı əmr edib, küfrü qadağan etmişdir. Onlar da Onun Rəbb olduğunu iqrar etmişlər. Bu da onların imanıdır. Onlar da bu fitrət üzərə doğularlar. Bundan sonra kim küfrə saparsa (kafir olan) bu fitrəti dəyişdirib pozmuş olar. Kim də İman edər və haqqı təsdiq edərsə fitrəti üzərində durmuş olar. Allah qullaının heç birini iman və küfrə məcbur etməmişdir, onları mömin və kafir olaraq yaratmamışdır. Lakin onları şəxs olaraq yaratmışdır. İman və küfr qulların felləridir. Allah küfrə sapanı, küfrü əsnasında kafir olaraq bilir, O kimsə daha sonra iman edərsə, imanı halında mömin olaraq bilir və onu sevir. Onun Elmində və sifətində heç bir dəyişiklik olmaz. Qulların hərəkət və sükunət halında olan bütün felləri onların öz əldə etdikləridir. Onların yaradıcısı isə Uca Allahdır. Onların hamısı Allahın diləməsi, elmi, hökmü və qədəri ilə olur. İtaətlərin hamısı – Allahın əmri, məhəbbəti, Rızası, elmi, diləməsi, qəzası və təqdiri ilə vacib edilmişdir. Masiyətlərin hamısı da – Allahın elmi, Qəzası, Təqdiri və diləməsi olmaqla bərabər, Sevgisi, Rızası və əmri deyildir.

Peyğəmbərlərin hamısı kiçik, böyük günahlardan, küfr və çirkin hallardan münəzzəhdirlər. Lakin onların səhf və xətaları olmuşdur (lakin dərhal Allah tərəfindən düzəldilmişlər). Muhəmməd – *sallallahu aleyhi və səlləm* - Allahın həbibi, Rəsulu, Nəbisi, seçilmiş (Xəlilullah) quludur. O, heç bir zaman bütə tapınmamış, bir göz qırpımı belə Allaha şərik qoşmamışdır. O, kiçik və böyük heç bir

günah etməmişdir. Peyğəmbərlərdən sonra insanların ən fəzilətlisi Əbu Bəkr əs-Sıddıq, sonra Ömər əl-Farruq, sonra Osman İbn Əffan Zin Nureyn, daha sonra Əli Murtəzadır – *Allah onlardan razı olsun* -. Onlar doğruluq üzərə Allaha ibadət edən, haqdan ayrılmayan haqla bərabər olan kimsələrdi. Hamısını sevir və böyük hörmət edərik. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - səhabələrinin hamısını yalnız xeyirlə yad edərik.

Bir müsəlmanı halal saymadığı müddətdə, böyük günahlardan birini etmiş olarsa kafir sayılmaz. Bu halda bir kimsədən İman adını qaldırmarıq, ona həqiqi mənada mömin deyərik. Bir kimsənin kafir olmamaqla bərabər günahkar mömin olması caizdir. Xuf üzərinə məst etmək sünnədir, Ramazan gecələrində qılınan Təravih sünnədir[48]. Saleh və günahkar hər bir kəsin (müsəlmanın) arxasında namaz qılmaq caizdir. Günahlar möminə zərər verməz deməri̇k, günah edən kimsə Cəhənnəmə girməz də deməri̇k. Dünyada mömin olaraq ayrılan kimsə fasiq olsada belə Cəhənnəmdə əbədi qalacaqdır deməri̇k. Murciə etiqadında olanların söylədikləri kimi yaxşılıqlarımız qəbul, pisliklərimiz əff edilmişdir demirik. Kim yaxşı bir əməl edib bütün şərtləri yerinə yetirərsə (saleh niyyət, ixlas), bu əməli batil edən küfr və dindən dönmək (mürtəd) olmaq kimi şeylərdən çəkinərək dünyadan mömin olaraq ayrılarsa şübhəsiz Allah onun əməlini zay etməz, əksinə qəbul edib və əmələ görə savab yazar.

Allaha şərik qoşmaq və küfrdən başqa, böyük və kiçik günah edən, fəqət tövbə etmədən mömin olaraq ölən kimsənin halı Allahın diləməsinə bağlıdır. Diləsə ona Cəhənnəmdə əzab edər, diləsə əff edər və heç əzaba məruz qoymaz. Hər hansı bir əmələ riya qarışıdığı zaman o, əməlin əcrini yox edər. Həmçinin Ucub (əməli, özünü bəyənmək) də belədir.

Peyğəmbərlərin möcüzələri və övliyaların kəraməti haqdır. Lakin Allahın düşmənlərinin: İblis, Firon və Dəccal kimilərinin

---

[48] Nə üçün fiqhi bir məslələr Əqidə kitabına salınmışdır. Çünki bu məslələr Əhli Sünnəti digər bidət əhlindən fərqləndirən ən böyük xüsusiyyətlərdəndir.

göstərdikləri qeyri adi şeylərə nə möcüzə, nə də kəramət demirik. Bu onların ehtiyaclarının ödənilməsidir İstidracdır. Allah düşmənlərinin ehtiyaclarını, onları dərəcə-dərəcə əzaba yaxınlaşdırmaq və əzab vermək üçün ehtiyaclarını görür. Onlar da buna aldanaraq azğınlıq və küfürdə həddi aşırlar. Bunların hamısı caiz və mümkündür.

Uca Allah yaratmadan öncə də yaradıcı, ruziləndirmədən öncə də ruzi verəndir. Allah, axirətdə görüləcəkdir. Möminlər Allahı Cənnətdə aralarında heç bir məsafə olmadan, təşbihsiz və keyfiyətsiz olaraq baş gözlərilə görürlər. İman – dil ilə iqrar, qəlb ilə təsdiqdir[49]. Göydə və yerdə olanların imanı, iman edilməsi lazım olan şeylər tərəfdən artmaz və azalmaz, fəqət yəqin və təsdiq tərəfdən artar və azalar[50]. Möminlər İman və Tövhid məsələlərində bir-birinə bərabərdilər[51]. Lakin əməl etibarıyla bir-birlərindən fərqlənirlər. İslam – Allahın əmirlərinə təslim olmaq və itaət etmək deməkdir. Lüğət etibarıyla iman və İslam arasında fərq vardır. Lakin İslam olmadan iman, İman olmadan da islam olmaz. Onların ikisi də bir şeyin daxili və çölü (zahiri İslam, batini İman) kimidirlər. Din isə - iman, islam və şəriətin hamısını özündə əhatə

---

[49] Murciyə qolları çoxdur. İbn Teymiyyə "İman", İbnul Cevzi "Şeytanın Hiylələri" kitabında 12 qolunu zikr edirlər. Ğulət Murciə deyirlər ki: İman – tək qəlbin bilmsidir. Onlara görə İblis, Firon bilirdi. Küfr isə Allahı bilməməkdir. Əməllər iman məfhumunun içərisinə daxil deyildir. Bu zaman həm zahiri, həm də qəlbi əməllər qəsd olunur. Onlar hər ikisini də imandan görmürlər. Sələflər isə tək qəlbi əməlləri imandan görməyəni küfr etmiş saymışlar. Murcuyə Fuqaha (Yəni: İmam Əbu Hənifə və yoldaşları) belə demir. Murciyə Fuqaha – qəlb ilə təsdir, dil ilə iqarar. Zahiri əməllər iman məfhumuna daxil deyil. Gulət Murciyələrdən fərqli olaraq əməlləri bütünlüklə inkar da etmirlər. Zahiri əməllərin olmaması imana təsir etmir. Sənin qəlb ilə bilib təsdiq etməyin və dil ilə iqrar etməyin onu göstərir ki, sənin imanın Peyğəmbərlərin, Mələklərin imanı kimidir. Kafirə yaxşı əməllərin xeyiri olmadığı kimi, möminə də günah əməllərin təsiri yoxdur.

[50] İman artıb azalması məsləsində İmamın etiqadı Məlik, Şəfii, Əhməd, Buxari – *Allah onlardan razı olsun* - və s. Sələf imamlarının etqadına müxalif olmuşdur. Əbu Hənifənin – *rahmətullai aleyh* - görüşü doğru olmaqdan uzaqdır. Lakin hər iki halda da imam əcr almışdır. İbn Abdul Bərr "Təmhid" 9/247, İbn Əbil İzz əl-Hənəfi "Şərh Əqidətul Təhaviyyə" s. 395, İmamın bu görüşündən döndüyünü hiss etdirən ifadələr nəql etmişlər. *Doğrusunu bilən Allahdır*.

[51] Bu söz xətadır. Çünki Peyğəmbərlərin, Mələkərin imanı adi insanların iman kimi ola bilməz.

edənə verilən isimdir. Biz Uca Allahı kitabında Özünün vəsf etdiyi bütün sifətləriylə haqqıyla tanıyırıq. Heç bir kimsə Allaha, Onun şəninə layiq şəkildə haqqıyla ibadət etməyə qadir deyildir. Lakin insan ancaq Allahın Kitabında, Rəsulunun bildirdiyi şəkildə Allaha ibadət edir. Bütün möminlər (imanın əslində) – mərifət, yəqin, təvəkkül, məhəbbət, Rıza, qorxu, ümüd və imanda bərabərdilər. Bütün bu şeylərdə fərqlidirlər hansı ki, imana daxil deyildir[52].

Uca Allah qullarına qarşı lütfkardır, adildi, qulun haqq etdiyi savabı lütfüylə qat-qat artıqlamasıyla verir. Qulunu ədalətli olaraq etdiyi günahdan dolayı cəzalandıran, Özündən bir lütf olaraq bağışlayandır.

Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - şəfaəti haqdır, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - günahkar möminlərə və onlardan əzabı haqq etmiş böyük günah sahiblərinə şəfaəti haqdır və sabitdir. Qiyamət günü əməllərin mizanda çəkilməsi haqdır, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - hovuzu haqdır. Qiyamət günü rəqiblər arasında yaxşılıqlar alınaraq qisas və haqq-hesab haqdır. Yaxşılıqları bitdiyi zaman (haqlarını tapdaladığı insanların) günahlarıyla yüklənməkdə haqdır. Cənnət və Cəhənnəm yaradılmışdır, əbədiyyən də yox olmayacaqlar. Hurilər əbədiyyən ölməzlər. Allahın əzabı da, savabı da əbədidir. Allah dilədiyi qulunu bir lütf olaraq hidayətə yönəldər, dilədiyini də ədalətli olaraq sapıqlığa yönəldər. Allahın azdırması Hizlanıdır. Hizlanın mənası: Allahın razı olacağı şeylərdə onu müvəffəq etməməsi, yardımını ondan kəsməsidir. Bu da Allahın ədalətidir. Həmçinin günahkarları üsyanları səbəbiylə cəzalandırması da ədalətilədir. Şeytan imanı insandan zorla çəkib alar deməyimiz caiz deyildir. Daha doğrudur demək: Qul imanı tərk etdikdən sonra şeytan ondan alar deyərik. Qəbirdə Munkər və Nəkirin sorğusu haqdır, qəbirdə ruhun cəsədə qayıtmas haqdır, Qəbr sıxıntısı və əzabı

[52] Bu söz xətadır. Çünki bizim təvəkkülümüz, məhəbbətimiz, qorxumuz, ixlasımız Peyğəmbərlərin təvəkkül, məhəbbət, qorxu və ixlasları kimi ola bilməz.

haqdır, bütün kafirlər və asi möminlər üçün qəbr sıxıntısı və əzabı haqdır.

Alimlərin – Allahın sifətlərini Farsca söyləmələri caizdir. Lakin ***Əl –*** kəlməsi Allahın sifəti olaraq Farsca söylənilməz[53]. Lakin Farsca ***Pərvəi Xuda –*** Uca və Böyük olan Allah demək caizdir. Təşbihsiz və keyfiyyət vermədən. Allahın yaxınlıq və uzaqlığı, məsafənin uzunluq və qısalığı kimi (mənasında) deyildir. Allahın yaxınlıq və uzaqlığı (qulunu) ucaltması, kəramətli etməsi və ya zəlil edib alçatmasıdır. İtaətli olan qul Allaha keyfiyyətsiz olaraq yaxın, asi olan qul isə keyfiyyətsiz olaraq Allahdan uzaq olur. Yaxınlıq, uzaqlıq və (Allaha dua edənin) yönəlməsi, Cənnətdə qonşuluq və Allahın qarşısında durmaq keyfiyyəti bilinməyən şeylərdir.

Qurani Kərim Allahın Rəsuluna nazil olmuş, mushaflarda yazılmışdır. Quran ayələrinin hamısı Allahın kəlamı olduğuna görə fəzilət və əzəmət baxımından bir-birinə bərabərdirlər. Fəqət bəzisində zikr və zikr edilənin fəziləti vardır. Ayətul Kursi buna misaldır. Burada zikr edilən Allahın ucalığı, əzəməti və sifətləridir. Bu ayədə iki fəzilət: Həm ayənin (Allahın kəlamı olduğu üçün) zikri, həm də orada zikr edilənin fəziləti bir yerə cəm olmuşdur. Digər ayələrdə isə yalnız ayənin fəziləti vardır, orada zikr edilənin fəziləti yoxdur. Kafirlərin qissələri kimi. Bu ayələrdə zikr olunanların heç bir fəziləti, dəyəri yoxdur. Həmçinin Allahın İsim və Sifətləridə əzəmət və fəzilət baxımından bərabərdilər, onlar arasında fərlilik yoxdur.

(Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - ana və atası İslam gəlmədən öncə vəfat etmişdilər. Əmisi Əbu Talib, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – dinini qəbul etməyərək ölmüşdür). Qasım, Tahir və İbrahim Allah Rəsulunun oğulları, Fatimə, Ruqiyyə, Zeynəb və Ummu Gülsüm qızlarıdır. İnsan Tövhid elminin incəlikərindən birində çətinliklə qarşılaşarsa (hər hansısa bir məsələ ona qaranlıq qalarsa), soruşub öyrənəcəyi bir alim

[53] Fars dilində *Əl* – Dəst deməgdir. Dəst - ərəb dilində qazan, qab deməkdir.

tapana qədər: "Bu məsələdə Allah qatında doğru olana inandım" deməsi lazımdır. Belə bir kimsənin axtarıb tapmaqda gecikməsi (bu məsləni öyrənməkdə gecikməsi) caiz deyildir. (Bu məsələ ona bəyan olduqdan sonra qəbul edib etməməkdə) tərəddüd edərək gözləmək üzürlü sayılmaz. Əgər tərəddüd edərək gözləyərsə (qəbul etməzsə) kafir olar. Merac xəbəri haqdır, Onu rədd edən sapıq bir bidət əhlidir. Dəccəl, Yəcuc və Məcucun çıxması, günəşin batdığı yerdən doğması, İsanın - *əleyhissəlam* - göydən enməsi və səhih hədislərdə bildirilən Qiyamətin əlamətlərinin hamısı haqdır. Uca Allah dilədiyi doğru yola yönəldər.

# əl-VASİYYƏ (TÖVHİD VƏSİYYƏTİ)

***Rahmən Və Rəhim Olan Allahın Adıyla*:**

İman - dil ilə iqrar, qəlb ilə təsdiqdir. Sadəcə iman iqrar olmaz. Çünki sadəcə iqrar iman olsaydı bütün münafiqlərin mömin olmaları lazımdır. Həmçinin sadəcə təsdiq də iman olmaz. Əgər sadəcə təsdiq iman olsaydı bütün Kitab əhli mömin olması lazımdır. Halbuki Allah: ***"(Ya Peyğəmbər!) Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: "Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk! – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbər olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir". (əl-Munafiqun 1)*** və ***"Kitab (Tövrat və İncil) verdiyimiz şəxslər onu (Muhəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. (Buna baxmayaraq) onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir". (əl-Bəqərə 146)*** buyurur. İman artmaz və azalmaz. Çünki imanın artması yalnız küfrün azalmasıyla, əskilməsi də küfrün artmasıyla təsəvvür oluna bilər. Bir şəxsin eyni halda mömin və kafir olması necə mümkün ola bilər? Mömin həqiqi iman edən, kafir də həqiqi inkar edəndir. İmanda şübhə olmaz. ***"Onlar həqiqi möminlərdir". (əl-Ənfal 4)*** və ***"Bütün bunlar, həqiqətən, kafirdirlər. Biz (axirətdə) kafirlərdən ötrü alçaldıcı əzab hazırlamışıq!". (ən-Nisa 151).*** Əməl imandan

ayrı, iman da əməldən ayrı şeylərdir. Möminin bir çox vaxt bəzi əməllərdən azad olması (onları etməməsi) bunun dəlilidir. Bu halda mömindən imanın getdiyi söylənilməz. Heyz halında olan qadın namazdan azaddır. Lakin ondan imanın qaldırıldığını, yaxud imanın tərk edilməsinin əmr edildiyini söyləmək caiz deyildir. Şəriət o, kimsəyə: "Orucu tərk et, sonra da qəza et" demişdir. Lakin: İmanı burax, sonra da qəza et" deyilməsi caiz deyildir. Fəqirə zəkat yoxdur – demək caizdir. Lakin fəqirin iman etməsi lazım deyil demək caiz deyildir.

Xeyrin və Şərin təqdiri Allahdandır. Əgər bir kimsə xeyir və şərin təqdirinin Allahdan başqasının olduğunu söyləyərsə, o kimsə Allahı inkar və Tövhidini puç etmiş olar. Əməllər: Fərzlər, fəzilət və Masiyət (günahlar) olmaq üzərə **3** qismə bölünürlər. Fərzlər: Allahın əmri, diləməsi, məhəbbəti, rızası, qəzası, qüdrəti, elmi, müvəffəq etməsi, yaratması və Lövhi Məhfuzda yazmasıdır. Fəzilət (Sünnətlər): Allahın əmri olan əməllər deyildir. Əgər belə olsaydı fərzlər olardı. Lakin fəzilət olan əməllər Allahın diləməsi, məhəbbəti, rızası, qəzası, hökmü, elmi, müvəffəq etməsi, yaratması və Lövhi Məhfuzda yazmasının nəticəsidir. Masiyət (günahar): Allahın əmri nəticəsi deyildir. Lakin Allahın məhəbbəti, rızası və müvəffəq etməsi olmadan: Diləməsi, qəzası, təqdiri, Hızlanı (yardıma ehtiyac duyduğu anda yardımı kəsmək), elmi və Lövhi Məhfuzda yazmasıdır.

Allahın ehtiyacı olmadan Ərşin üzərinə İstiva və İstiqrarı vardır. Möhtac olmadan Ərşi və başqalarını mühafizə edər. Əgər Allahın ehtiyacı olsaydı məxluqlar kimi aləmi icad və tədbirə qadir olmazdı. Oturmaq və qərar tutmağa möhtac olsaydı Əşin yaradılmasından öncə Allahın harada olduğu sualı ortaya çıxardı. Uca Allah bundan Münəzzəhdir.

Quran – Allahın kəlamıdır, məxluq deyildir. Allahın vəhyi, nazil etdiyi, ilahi zatının eyni olmayan, zatından da ayrı düşünülməyən sifətidir. O, mushaflarda yazılmış, dillə oxunan, qəlblərdə yer tutmaqla mühafizə edilir. Mürəkkəb, kağız və yazıların hamısı

məxluqdur. Çünki bunlar qulların fellərinin nəticəsidir. Lakin Allahın kəlamı məxluq deyildir. Yazılar, hərflər, kəlimələr, işarələr qulların başa düşməkləri üçün mənaya dəlalət edən şeylərdir. Allahın kəlamı zatıyla qaim olup, mənası bu şeylerle başa düşülür. Allahın kəlamının məxluq olduğunu söyləyən kimsə kafir olur. Allah daima Ona ibadət ediləndir. Kəlamı isə Ondan ayrılmadan oxunan, yazılan və hifz olunandır.

Peyğəmbərimiz Muhəmməddən – *sallallahu aleyhi və səlləm* - sonra bu ümmətin ən fəzilətli olanı Əbu Bəkr əs-Sıddıq, sonra Ömər, sonra Osman, sonra da Əlidir – *Allah onlardan razı olsun* - . ***“Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər! Onlar Allaha yaxın olanlar, Nəim bağlarında qalacaq kimsələrdir”. (əl-Vaqiə 10-12)*** bunu ifadə edər. Kim daha öndə olarsa o, daha fəzilətlidir. Onları hər bir mömin və müttəqi sevər, nifrət edənlər isə münafiq və pis kimsələrdir. Qullar əməlləri, iqrarları və marifətləri ilə məxluqdurlar. Fail məxluq olduqda onun felinin də məxluq olması lazımdır. Allah məxluqatı aciz və zəif olduqları halda gücləri olmadan yaratmışdır. Onların yaradanı və ruzi verəni Allahdır: ***“Sizi (yoxdan) yaradan, sonra sizə ruzi verən, sizi öldürən və daha sonra (Qiyamət günü) dirildəcək məhz Allahdır…”. (ər-Rum 40).*** Halal qazanc və halalından mal yığmaq halaldır. Haramdan mal yığmaq isə haramdır. İnsanlar **3** qismə ayrılırlar: İmanında səmimi olan mömin, küfründə dirənən inkarçı kafir və nifaqda sabit olan ikiüzlü müanfiq. Allah möminə əməli, kafirə imanı, münafiqə isə ixlası fərz etmişdir. ***“Ey insanlar! Rəbbinizdən qorxun!...”. (əl-Həcc 1)*** ayəsində: “Ey möminlər! Allaha itaət edin”, “Ey kafirlər! Allaha iman edin”, “Ey münafiqlər! Allaha ixlaslı və səmimi olun” mənası vardır.

İstitaa (əməli etmək üçün güc) feildən əvvəl və sonra deyildir, yalnız fellə bərabərdir. Əgər İstitaa feldən əvvəl olsaydı, qul ehtiyacı anında Allahdan mustəğni olardı. Bu isə: ***“Allah zəngin, siz isə yoxsulsunuz (Allah sizə möhtac deyildir, siz Ona möhtacsınız)...”. (Muhəmməd 38)*** ayəsinə müxalif olardı. İstitaa

feldən sonra olması felin gücsüz və istitaatsız meydana gəlməsi olurdu.

Məstlər üzərinə məsh etmək varid olan hədisə görə caiz olub: Muqim üçün bir gün bir gecə, səfərdə olan üçün üç gün üç gecədir. Hədis mütəvatirə yaxın olduğu üçün inkar edənin küfründən qorxulur. Səfərdə namazları qısaltmaq və oruc tutmamaq rüxsətdir. ***"(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar...". (əl-Bəqərə 184)*** ayəsi bunu ifadə edər.

Allah "Qələmə" yazmağı əmr etmişdir. Qələm də: "Nə yazım Ya Rəbbim!" demişdir. Allah: "Qiyamətə qədər olacaq şeyləri yaz!" buyurmuşdu [54] . ***"Onların etdiyi hər şey əməllərinin yazıldığı kitablarındadır. Hər bir kiçik və böyük əməl yazılmışdır". (əl-Qəmər 52-53)*** ayəsi bunu açıqlayır.

Heç şübhəsiz ki. Qəbr əzabı vardır. Munkər və Nəkir sorğu sualı haqdır. Bu haqda hədislər varid olmuşdur. Cənnət və Cəhənnəm haqdır və əhli üçün yaradılmışdır. Allah möminlər üçün Cənnəti: ***"Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!". (Ali İmran 115).*** Kafirlər üçün də Cəhənnəmi: ***"Madam ki, bele bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı (günahkar) insanlardan və kibrit daşlarından ibarət olan oddan (Cəhənnəmdən) həzər edin!". (əl-Bəqərə 24)*** ayələrində yaratdığını göstərmişdir. Allah Cənnət və Cəhənnəmi mükafat və cəza üçün yaratmışdır. Mizan haqdır. ***"Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik". (əl-Ənbiya 47)*** ayəsi bunu ifadə edir. İnsanın kitabını (əməl dəftərini) oxuması haqdır. ***"(Və ona belə deyərik: ) "Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə (özün öz***

---

[54] Əbu Davud, Tirmizi.

***əməllərinin şahidi olmağa) kifayətsən!". (əl-İsra 14)*** ayəsi buna dəlildir.

Allah bu nəfsləri ölümlərindən sonra əlli min il ötsədə belə cəza, savab və haqlarını qaytarması üçün dirildir. ***"Bu (həm də belə bir danılmaz həqiqətə inanmağınız üçündür ki) o saat (qiyamət günü) mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları diriləcəkdir!". (əl-Həcc 7).*** Cənnət əhlinin Allahı keyfiyət, təşbih və cihət olmadan görmələri haktır. Peyğəmbərimizin – *sallallahu aleyhi və səlləm* - böyük günah etsə də belə Cənnət əhli olan mömin üçün şəfaəti haqdır. Aişə - *radıyallahu anhə* - , Xədicədən - *radıyallahu anhə* - sonra qadınların ən fəzilətlisi, möminlərin anası, zinadan uzaq, bidət əhlinin iftira və iddialarından uzaqdır. Kim ona zina deyə iftira yaxarsa özü zina məhsuludur. Cənnət əhli Cənnətə, Cəəhənnəm əhli də Cəhənnəmdə əbədi qalacaqdır. Allah möminlər üçün: ***"Onlar Cənnətlikdirlər, orada əbədi qalacaqlar".*** Kafirlər üçün isə: ***"Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar". (Ali İmran 116)*** buyurur.

## Şəri Təvəssül Və Bidət Təvəssül Barəsində Etiqadı

Əbu Hənifə - *rahmətullahi aleyhi* - dedi ki: "Bir kimsənin Uca Allaha yalnız Onu vəsilə edərək və yalnız Uca Allahın buyurduğundan başa düşüldüyü kimi əmr edilmiş və izn verilmiş şəkildə dua etməsi lazımdır. ***"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri (əziz sözündən Uzza, Allah sözündən əl-Lat, mənnan sözündən Mənat kimi adlar düzəldib haqq yoldan azanları) tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!". (əl-Əraf 180)[55].***

[55] "Durrul Muxtar Məa Haşiyəti Rəddil Muxtar" 6/396-397.

Əbu Hənifə - *rahmətullahi aleyhi* - dedi ki: "Dua edən kimsənin filankəsin haqqı üçün, və ya Peyğəmbərlərinin, Rəsullarının haqqı üçün Beytul Haramın və Məşərul Haramın haqqı üçün səndən diləyirəm deməsi məkruhdur"[56].

Əbu Hənifə - *rahmətullahi aleyhi* - dedi ki: "Hər hansı bir kimsənin yalnız Allahı vəsilə edərək dua etmsi lazımdır. Bir kimsənin Sənin Ərşinin izztəti haqqı, məxluqatının haqqı üçün deməsini məkruh görürəm"[57].

## Allahı İsim və Sifətləri Barəsində Etiqadı

Əbu Hənifə - *rahmətullahi aleyhi* - deyir ki: "Hər hansı bir kimsə Allahın zatı haqqında özündən bir şeylər söyləməsi düzgün deyildir. Əksinə o, Allahı özünü vəsf etdiyi vəsflərlə vəsf edər. Özündən Onun haqqında heç bir şeylər söyləməz. Aləmlərin Rəbbi olan Allah bundan Uca və Böyükdür"[58].

Əbu Hənifədən: "Uca Allah (dünya səmasına) nazil olması (ən-Nuzul) barəsində - sual verildikdə o: "O, necəliyi (barəsində sual verilmədən) bizə bilinməyən bir şəkildə" deyə cavab vermişdir[59].

Əbu Hənifə - *rahmətullahi aleyhi* - deyir ki: "Allahı insanlara aid hər hansı bir özəlliklə vəsf edən (oxşadan) bir kimsə kafir olar"[60].

Əbu Hənifədən: "İbadət etdiyin İlahın haradadır? Deyə soruşan bir qadına bu cavabı vermişdir: «Allah səmadadır, yerdə deyil».

---

[56] "Şərh Əqidətul Təhaviyyə" s. 234, "İthaafus Saadətil Muttəqin" 2/285, Aliyyul Qari "Şərh Fiqhul Əkbər" s. 198.
[57] "Təvəssul vəl Vəsilə" s. 82, "Şərh Fiqhul Əkbər" s. 198.
[58] "Şərh Əqidətul Təhaviyyə" 2/427, "Cəlaul Ayneyn" s. 368.
[59] "Əqiətus Sələf Əshəbul Hədis" s. 42. Beyhəqi "Sifət" s. 456, "Şərh Əqidətul Təhaviyyə" s. 245, Qari "Şərh Fiqhul Əkbər" s. 60.
[60] "Əqidətul Təhaviyyə" əl-Albani s. 25.

Bəs Allah: ***«Siz harda olsanız, o sizinlədir». (əl-Hədid 4)*** sözünə nə deyirsən?» sualına isə belə cavab verdi. «Bu sənin bir kimsəyə məktub yazıb mən səninlə bərabərəm deməyin kimidir. Halbuki sən onun yanında deyilsən»[61].

## Səhabələr Barəsində Etiqadı

Əbu Hənifə - *rahmətullahi aleyhi* - səhabələr barəsində deyir ki: "Onlardan hər hansı birinin Rəsulullah ilə birlikdə keçirdiyi bir an (saat) belə, bizdən hər hansı bir kimsənin nə qədər uzun olursa olsun ömür boyu əməlindən daha xeyirliir"[62].

Əbu Hənifə - *rahmətullahi aleyhi* - deyir ki: "Rəslullahdan – *sallallahu aleyhi və səlləm* - sonra insanların ən fəzilətlisi Əbu Bəkr, Ömər, Osman və Əlidir. Ayrıca Peyğəmbrin bütün səhabələri haqqında onları xeyirlə yad etməkdən başqa bir şeylər söyləmərik"[63].

---

[61] Beyhəqi «əl-Əsma və əs-Sifət» 429, 2/170, Zəhəbi « Müxtəsər Uluv» s. 135.
[62] Məkki "Mənakibu Əbu Hənifə" s. 76.
[63] "Nurul Lami" 119.

## Kəlam Barəsində Sözləri

İmam Əbu Hənifə - *rahmətullahi aleyhi* - deyir ki: "Bəsrədə həva (bidət) sahibləri çoxdur. Oraya iyirmiyə yaxın dəfə girib çıxdım. Kimi zaman bir il, kimi zaman da daha çox və daha az qaldım. O, Zamanlar kəlam elminin elimlrin ən üstünü olduğunu zənn edirdim"[64].

Əbu Hənifə - *rahmətullahi aleyhi* - dedi ki: "Allah Amr İbn Ubeydə lənət etsin. Çünki o, isanlar üçün heç bir faydası olmayan kəlam elminə gedən yolu açmışdır"[65].

Bir nəfər İmama: "İnsanların əl-Araz (bir şeyin təsadüfi, keçici, müvəqqəti, əhəmiyyətsiz xassəsi) və Cisimlər haqqında sonradan ortaya atdıqları söz və açıqlamalar haqqında nə deyirsən?". İmam: "Bunlar fəlsəfəçilərin görüşüdür. Sən rəvayətlərə (hədislərə) və Sələfin yoluna tabe ol. Sonradan ortaya çıxarılmış hər bir şeydən uzaq dur. Çünki sonradan çıxarılanlar bidətdir"[66].

Əbu Hənifə - *rahmətullahi aleyhi* -, Əbu Yusuf - *rahmətullahi aleyhi* - deyir ki: "Dinin əsasları ilə bağlı məsələlərdə insanlarla Kəlam əsaslarına görə nə badə danışasan. Çünki onlar səni təqlid edən bir topluluqdur. O, Təqdirdə onlar da kəlamla məşğul olurlar"[67].

Əbu Hənifə - *rahmətullahi aleyhi* - oğlu Həmmada - *rahmətullahi aleyhi* - dedi ki: "Bir gün atam yanma gəldi. Yanımda kəlam ilə məşğul olan bir toplum adam da vardı. Bu vaxtı bir məsələ barəsində mübahisə edirdik. Mübahisə əsnasında səsimizi qaldırdıq. Onun evdə olduğunu bildikdə yanına çıxdım. Mənə: "Ey

---

[64] əl-Kürdi " Mənakibu Əbu Hənifə" s. 137.
[65] əl-Hərəvi "Zəmmul Kəlam" s. 28-31.
[66] əl-Hərəvi "Zəmmul Kəlam" vr. 194 b.
[67] əl-Məkki "Mənakibu Əbu Hənifə" s. 183-184.

oğlum! Yanında kimlər var?" deyə soruşdu. Mən: "Filan, filan və filan deyərək yanımda olanların adlarını dedim". Nə barədə danışırsınız. Filan məsələ barəsində danışırıq – dedim. O: "Ey Həmmad! Kəlamı burax" dedi. Mən: "Mən atamın işləri bir-birinə qarışdırdığını görmədiyim kimi (yəni: öz sözlərinə müxalif olduğunu), bir işi əmr edib sonra da o işi qadağan etdiyini də görməmişdim". Mən: "Ata, sən bundan öncə mənə kəlam ilə məşğul olmağı əmr etmirdinmi?". O: "Bəli, lakin bu gün mən sənə kəlam ilə məşğul olmağı qadağan edirəm". Mən: "Nə üçün?" dedim. O: "Övladım kəlam məsələləri barəsində ixtilafa düşdüyünü gördüyün bu kimsələr bir görüş ətrafında birləşmiş və tək bir din üzərə idilər. Nəhayət şeytan onları bir-birilərindən uzaqlaşdırdı, aralarına düşmənçiliyi və ayrılığı saldı, onlar da sonunda ayrılığa düşdülər"[68].

İmam Əbu Hənifə - *rahmətullahi aleyhi* - deyir ki: "Mən müşahidə etdim ki, kəlam əhlinin ardıcılları sərtləşmiş və kobudurlar. Quran və Sünnədən uzaqlaşmalarına iki barmaq arası baxardılar və buna görə də əxlaq və təqvadan məhrum oldular"[69].

## Təqlid Barəsində Sözləri

İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «Hədis səhih olduğu zaman mənim görüşüm odur»[70].

Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «Haradan aldığımızı bilmədikcə heç kimsəyə bizim görüşümüz ilə əməl etmək olmaz»[71].

---

[68] əl-Məkki "Mənakibu Əbu Hənifə" s. 373.
[69] İmam Zəhəbi "Siyer" 6/399.
[70] İbn Abbidin «Haşiyə» 1/63, «Rəsmul Muftu, Məcmuatur Rəsail» 1/4.
[71] İbn Abdil Bərr «İntiqa fi Fəzailil Səlasətil Əimmətil Fuqaha» səh. 145, İbn Qeyyim «İlamul Muvakkin» 2/309, İbn Abidin «Haşiyə» 6/293, Rəsmul Muftu s. 29-32, Şarani «Mizən» 1/55.

Əbu Hənifə – *rahmətullahi aleyhi* –deyir ki: «Dayandığım dəlili bilmədikcə mənim görüşüm ilə fətva vermək haramdır. Biz bir insanıq. Bu gün bir söz deyirik, sabah isə ondan əl çəkirik».

Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «Ey Yaqub! Məndən hər eşitdiyini yazma. Çünki mən bu gün bir görüşü mənimsəyib, səhəri isə onu tərk edə bilərəm. Sabah bir görüş sahibi oluram, o biri gün isə onu da tərk edə bilərəm»[72].

Əbu Hənifə – *rahmətullahi aleyhi* – deyir ki: «Allahın Kitabı və Rəsulunun Sünnəsinə tərs olan bir söz söylədiyim zaman mənim görüşümü tərk edin»[73].

## Abu Amr AbdurRahman İbn Amr Əl-Əvzai
***- rahmətullahi aleyhi -***

İmam Nəvəvi "Təhzib" AbdurRahman İbn Mehdidən rəvayət edir ki: "Hədisdə İmam kişilər dörddür: "Əvzai, Məlik, Sufyan əs-Sovri və Həmməd İbn Zeyd". H. 88-də düyaya gəlmiş, H. 157-də dünyasını dəyişmişdir[74].

Lələkai - *rahmətullahi aleyhi* - deyir ki, bizə Həsən İbn Osman xəbər verdi ki: Bizə Əhməd İbn Hamdan xəbər verdi ki: Bizə Bişr İbn Musa xəbər verdi ki: Bizə Muaviyə İbn Amr xəbər verdi ki: Bizə Əbu İshaq xəbər verdi ki: əl-Əvzaidən soruşdum o, da belə dedi: "Sən Sünnət üzərində sabit ol. Sünnət sahiblərinin durduğu yerdə sən də dur. Onların dediklərini danış. Onların haqqında danışmadıqları məsələlərdə sən də danışma. Səndən öncəki Saleh Sələfin yolunu izlə. Çünki onlara bəs edən sənə də bəs edər"[75]. Sam (Suriyə) əhalisi bu bidətdən – Quranın məxluq olması - xəbərsiz

---

[72] Şarani «Mizən» 1/55, Əbul Həsənət «Nafiul Kəbir» s. 135.
[73] Şarani «Mizən» 1/26.
[74] "Şəzəratuz Zəhəbi" 1/241-242.
[75] Lələkai "Şərhu İtiqadi Əhli Sunnə Vəl Cəmaa" 2/174.

idilər. Bu bidəti İraqlılardan bir kimsə gətirərək (insanlar) arasında yaydı. Halbuki Şamın fuqahası və alimləri bu görüşlərini rədd edib cavab vermişlər. Bununla belə Şam əhalisinin bir qrup kimsələrinin qəlblərində bu bidət yer tutdu. Bu bidət dillərinə şirin gəldi və nəhayət bu məsələdə başqaları ixtilafa düşdükləri kimi olar da ixtilafa düşdülər. Əgər bu bir xeyir olsydı sizin Sələfləriniz dura-dura bu özəl olaraq sizə verilməzdi. Çünki onlar Uca Allahın seçdiyi Peyğəmbərinin – *sallallahu aleyhi və səlləm* - səhabələridir. Peyğəmbərini – *sallallahu aleyhi və səlləm* - oların arasından seçib göndərdi və onları müəyyən bir xüsusiyyətlə qiymətləndirərək buyurdu: ***"Muhəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru alınlarındakı möhür yeri ilə tanınırlar). Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbihi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!". (əl-Fəth 29).***

## Abu Abdullah Sufyan İbn Səid əs-Sovri

***- rahmətullahi aleyhi -***

Sufyan əs-Sovri - *rahmətullahi aleyhi* - dövrünün fəqihlərindəndir. İmam Əhməd - *rahmətullahi aleyhi* - deyir ki: "Mənim qəlbimdə kimsə Sufyanın önünə keçə bilməz". Şöbə, Yəhyə İbn Məin -

*rahmətullahi aleyhi* - və s. Demişlər ki: "Sufyan hədisdə möminlərin əmiridir". Bəsrədə H. 161-ci il 66 yaşında dünyasını dəyişmişdir[76].

Lələkai - *rahmətullahi aleyhi* - deyir ki, bizə Muhəmməd İbn AbdurRahman İbn əl-Abbas xəbər verdi ki: Bizə Əbul Fadl Şuayb İbn Muhəmməd İbn ər-Rciyan dedi ki: Bizə Əli İbn Hərb əl-Məvsili dedi ki: Bizə Şuayb İbn Hərb belə deyərkən dinlədim. Mn Sufyan əs-Sovriyə - *rahmətullahi aleyhi* - dedim ki: "Mənə Sünnətə uyğun bəzi şeylər söylə ki, Əziz və Cəlil olan Allah onunla məni faydalandırsın. Mən Uca və Böyük olan Allahın hüzurunda durduğum zaman O mənə: "Sən bunu haradan öyrəndin?" deyə soruşarsa mən: "Rəbbim, mənə bu hədisi Sufyan əs-Sovri - *rahmətullahi aleyhi* - nəql etdi və mən onu ondan öyrəndim deyim və qurtulum. Mənə görə cavabdeh sən olasan". Sufyan - *rahmətullahi aleyhi* - dedi ki: "Ey Şuayb! Bu ağır, həm də nə ağır bir istəkdir". Yaz: "Rahmən və Rahim olan Allahın adı ilə! Quran Allahın kəlamıdır, məxluq deyildir. Ondan gəldi, Ona da dönəcəkdir. Kim bundan başqa bir söz söyləyərsə o, kafirdir. İman – söz, əməl və niyyətdir. Artar və əskilər. İtaətlə artar, asiliklərlə azalar. Əməl olmadan sözün dəyəri olmaz. Söz və əməldə yalnız niyyətlə dəyər tapar. Sözün, əməlin və niyyətin də caiz olması yalnız sünnətə uyğun olması ilə dəyər tapar". Şuayb dedi: "Ey Abdullahın atası, sünnətə uyğunluq nə deməkdir?". O: "İki şeyxi – Əbu Bəkr və Öməri – *radıyallahu anhum* - önə keçirməkdir. Ey Şuayb! Osman və Əlini – *radıyallahu anhum* - onlardan sonra gələnlərdən önə keçirmədikcə yazdıqlarının sənə faydası olmaz. Ey Şuayb İbn Hərb! Rəsulullahın – *sallallahu aleyhi və səlləm* - Cənnətlik olduqlarına şahidlik etdiyi, hamısı da Qureyşdən olan on nəfər müstəsna hər hansı bir kimsə Cənnətlik və ya Cəhənnəmlik olduğuna şahidlik etməyi tərk etmədikcə sənə yazdırdıqlarımın faydası olmaz. Ey Şuayb İbn Hərb! (ayaqlarını) ayaqqabıdan çıxarmadan üzərinə məsh etməyi, ayaqlarını yumaqdan daha uyğun görmədiyin müddətdə yazdırdıqlarımın sənə faydası

---

[76] "Şəzəratuz Zəhəbi" 1/250.

olmaz. Ey Şuayb İbn Hərb! Namazda "Bismilləhir Rahmənir Rahimi" gizli oxumağı açıqdan oxumaqdan daha üstün görmədikcə yazdırdıqlarımın sənə faydası olmaz. Ey Şuayb İbn Hərb! Xeyriylə şəriylə, acısı və şirini ilə qədərə və hamısının Allahdan gəldiyinə iman etmədiyin müddətdə yazdırdılarımın sənə faydası olmaz. Ey Şuayb İbn Hərb! Allaha and olsun ki, Qədəriyyənin söylədiklərini Allah da söyləməmiş, mələklər də söyləməmiş, Peyğəmbərlər də söyləməmiş, (Cənnət əhli də söyləməmiş), Cəhənnəm əhli də söyləməmiş, onların qardaşları olan lənətlik İblis də söyləməmişdir. Allah: ***"(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız? (Haqqı bildiyi halda küfr edənin cəzası, haqqı bilmədən, cahilliyi üzündən küfr edənin cəzasından daha ağırdır. Çünki alimlə cahilin məsuliyyəti eyni ola bilməz!)". (əl-Casiyə 23). "Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir!". (İnsan 30).*** Mələklər: ***"Onlar: "Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", - dedilər". (əl-Bəqərə 32).*** Nuh: ***"Əgər Allah sizi (haqq yoldan) sapdırmaq (və ya məhv etmək) istəyirsə, mən sizə nəsihət vermək istəsəm də, heç bir faydası olmaz. O sizin Rəbbinizdir və siz Onun hüzuruna qaytarılacaqsınız!". (Hud 34).*** Şuayb: ***"Allah bizi sizin (batil) dininizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, (sizin bütpərəst dininizin haqq olduğunu etiraf etməklə) Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməsə, biz əsla sizin dininizə dönə bilmərik. Rəbbimiz elm ilə (Öz əzəli elmi ilə) hər şeyi ehtiva etmişdir. Biz yalnız Allaha təvəkkül emişik. Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!". (əl-Əraf 89).*** Cənnət əhli: ***"Biz***

***onların (cənnət əhlinin) ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların (qaldıqları yerin) altından çaylar axar. Onlar (Rəbbinin bu lütfünü gördükdə) deyərlər: "Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişdilər!" Onlara: "Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!" – deyə müraciət ediləcəkdir". (əl-Əraf 43).*** Cəhənnəm əhli: ***"Onlar deyərlər: "Ey Rəbbimiz! Rəzil taleyimiz (bədbəxtliyimiz) bizə qələbə çaldı və biz haqq yoldan azan bir camaat olduq!". (əl-Muminun 106).*** Qardaşları İblis: "İblis dedi: ***"Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə...". (əl-Hicr 39).*** Ey Şueyb! Yaxşı və günahkar hər bir kəsin arxasında namazın səhih olduğuna, cihadın Qiyamətə qədər davam edəcəyinə, istər zalım, istər adil olan hər bir əmirin bayrağı altında səbr etməyi uyğun görmədiyin müddətdə yazdıqrdıqlarımın sənə faydası olmaz. Şueyb: "Ey Əbu Abdullah! Bütün namazlar üçün (bunu deyirsən)" dedim. O: "Xeyr, yalnız Cümə və iki bayram namazı üçün bunu deyirəm. Bu namazları kimin arxasına yetişsən qıl. Bunlardan başqa qalan namazlara gəldikdə isə sən azadsan. Yalnız güvəndiyin və Əhli Sünnə vəl Cəmaatdan olduğunu bildiyin kimsələrin arxasında qıl. Ey Şueyb! Əziz və Cəlil olan Allahın hüzurunda durduğun zaman səndən bu sözlər barəsində soruşarsa: Rəbbim! Bu sözləri mənə Sufyan söylədi de! Sonra da məni Rəbbimlə tək burax!".

## Məlik İbn Ənəs

*- rahmətullahi aleyhi -*

Əbu Abdullah Məlik İbn Ənəs İbn Məlik İbn Əbu Amir əl-Əsbahi. Dörd imamdan biridir. İmam, Hafiz, ümmətin fəqihi, ŞeyxulİSlam, Hicrət yurdunun imamı H. 93/711-cü ildə Mədinə şəhərində dünyaya gəlmişdir. Ailəsi əslən Yəmənli olub, babası Zu Əsbəh qəbiləsinə mənsub olan Məlik b. Əbu Amr əl-Əsbəhi Yəmən

vəlisindən aldığı zülmə dözməyərək Mədinəyə hicrət edir. Anası da Yəməndən olan Əzd qəbiləsindəndir. Aliyə İbn Şureyk əl-Əzddir. Babası Məlik İbn Əbu Amr Tabiinlərin böyüklərindən olub Ömər, Osman, Təlhə və Aişə - *Allah onlardan razı olsun* - hədis rəvayət etmişdir. Mədinənin böyük və məşhur alimlərindən sayılan Rabia İbn Abdurrahmanın dərslərində iştirak etmişdir. Ayrıca İmam Məlik, Cəfər Sadiqin dərslərini heç bir zaman qaçırmazdı. O, deyərdi: «Dəstəmazı olmadan hədis rəvayət etməz, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – adı xatırlandığında üzü saralardı». Tam yetişdikdən sonra məsciddə dərs verməyə başlamışdır. O, deyərdi: «Hər kəs məsciddə oturub dərs verməz. Alimlərdən **70** nəfərin məni hazır görməsinə qədər mən dərs və fətva verməkdən çəkindim». Dərslərini Məscidul Nəbəvidə verməyə başlamışdır. Sonralar isə xəstələndiyi üçün dərslərini evində deyərdi. Bu xəstəliyini hər bir zaman hər kəsdən gizlədirdi. Xəstəliyi ağırlaşıb vəfat edəcəyini başa düşdüyü zaman gizlətdiyi xəstəliyini və gizlətmə səbəbini dostlarına belə bəyan etmişdir: «Əgər həyatımın son günləri olmasaydı sizə bildirməzdim. Məni xəstəliyim sidiyi saxlayamamağımdır. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – məscidinə tam dəstəmazlı olmadan gəlmək istəmədim. Rəbbimə şikayət olmasın deyə xəstəliyimi də kimsəyə demədim». Həm Əməvilərin, həm də Abbasilərin hakimiyyəti illərində yaşamış və bir çox işkəncələrə də məruz qalmışdır. İmam Şafii - *rahmətullahi aleyhi* - onun haqqında demişdir: «Məlik, Allahın tabiinlərdən sonra ümmətinə hüccət olaraq göndərdiyi bir insandır». **900** yaxın alimlərdən dərs almış. Müəllimlərindən İbn Ömərin köləsi Nəfi, Abdurahman İbn Hurmuz, Muhəmməd İbn Müslim İbn Şihab əz-Zuhri, Yəhyə İbn Səid və s. Tələbələrindən Muhəmməd əş-Şafii olmuşdur. əl-Muvatta əsərinin müəllifidir. H. 179/795-cu ildə Rəbiul Əvvəl ayının 14 Mədinə də dünyasını dəyişmişdir. Cənnətul Bəqi qəbristanlığında dəfn edilmişdir. Bu uzun ömründə **7** Əməvi, **5** Abbasi xəlifəsi, **30** Mədinə vəlisi görmüşdür. «Muvatta» – İmam Məlikin zamanında yazılmış

kitabların ən yaxşısı və ən çox faydalısı hesab olunur. İmam Şafii - *rahmətullahi aleyhi* - deyir ki: «Yer üzündə Allahın kitabından sonra Məlikin Muvatta əsərindən üstün kitab yoxdur». Çünki İmam hədis haqqında kitab yazan ilk alimlərdən idi. Bu kitabı toplamağına səbəb: Xəlifə Mənsur həcc etdiyi zaman İmamın dərslrində iştirak etmiş və ondan Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – gələn səhih hədislərin bir yerə cəm edilməsni xahiş etmişdir. İmam da bu tələbə uyğun olaraq «Muvatta» kitabını toplayır. Bəzi məlumatlara görə bu kitabı **40** il ərzində toplamışdır. əl-Əvzai - *rahmətullahi aleyhi* - Muvatta əsərini **40** günə əzbərləmişdir. İmam deyir ki: «Mənim **40** il ərzində yazdığım əsəri **40** günəmi əzbərlədiniz?» Ona «Darul Hicrənin İmamı» Mədinə şəhərinin alimi adı verilmişdir.

## Tövhid Barəsində Etiqadı

əl-Hərəvi rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - dedi ki, İmam Məlikdən - *rahmətullahi aleyhi* - Kəlam və Tövhid barəsində sual soruşuldu. İmam: "Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – ümmətinə İstincanın (ayaqyolundan sonra təmizlənmə) necə edilməsini öyrətdiyi halda Tövhidi öyrətməməsi imkansızdır. Tövhid Peyğəmbərin: "Mən Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur – deyincəyə qədər insanlarla döyüşməyə əmr edildim" sözləriylə ifadə etdiyi şeydir[77]. Malın və qanın qorunma altına alınması Tövhidin həqiqətini ifadə edər"[78].

Daraqutninin - *rahmətullahi aleyhi* - rəvayətinə görə əl-Vəlid İbn Müslim dedi ki: "Mən Məlikə, Sovryə, Əvzəyiyə və Leys İbn Sada (Allahın) sifətlərinə dair rəvayət edilmiş xəbərlər haqqında

---

[77] Buxari 1399, Müslim 324.
[78] "Zəmmul Kəlam" vr. 210, s. 63.

soruşdum. Onların hamısı: "Onları gəldikləri kimi də qəbul edin (onlarla əlaqəli keyfiyyət düşünməyin)" dedilər[79].

İbn Abdil Bərr - *rahmətullahi aleyhi* - deyir ki: "Məlikdən: "Allah Qiyamət günündə görüləcəkmi?" deyə soruşuldu. O: "Bəli" dedi. Allah: ***"O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!". (əl-Qiyamə 22-23)*** deyə buyurmuşdur. Bir başqa topluluq haqqında da belə buyurmuşdu: ***"Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!". (əl-Mutaffifin 15)[80].***

Qadi İyad, İbni Nəfidən[81] və Əşhəbdən[82] rəvayət edir ki: "Ey Abdullahın atası! Allah: ***"O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!". (əl-Qiyamə 22-23)*** deyə buyurmuşdur. Onlar Allahamı baxacaqlar? Məlik: "Bəli, bu iki gözləriylə" dedi. Mən: "Bəziləri iddia edirlər ki, Allaha baxmayacqlar. burada baxmaq (Nazira) "Savabı (mükafatı) gözləmək – Muntazira İləs Savab" mənasındadır" dedim. Məlik: "Yalan söyləmişlər. Əksinə Allaha baxılacaqdır. Sən Musanın: "Musa dedi: ***"Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım". (əl-Əraf 143)*** dediyinə diqqət etmirsənmi? Məgər Musa - *əleyhissəlam* - Rəbbindən imkansız bir şeymi istəmişdir? Allah ona: ***"O dedi: "Sən məni görə bilməzsən...". (əl-Əraf 143)*** yəni dünyada (görə bilməzsən) deyə buyurdu. Çünki dünya fani olduğu üçün fani olan bir şeylə Əbədi olana baxılmaz. Buna görə də əbədi diyara girdiyin zaman Əbədi olana baxa

---

[79] Darakutni "Sifət" s. 75, əl-Acurri "əş-Şəriə" s. 314, Beyhəqi "əl-İtiqad" s. 118, Ubn Abdil Bərr "Təmhid" 7/149.

[80] əl-İntiqa s. 36.

[81] İmam Məlikdən "İbn Nəfi" adı ilə rəvayət edən iki nəfərdir. 1) Abdullah İbn Nəfi İbn Sabit əz-Zubeyri Əbu Bəkr əl-Mədəni. İbn Həcər - *rahmətullahi aleyhi* - onun haqqında deyir ki: "Doğru sözlü bir kimsədir". H. 216-cı ildə vəfat etmişdir. 2) Abdullah İbn Nəfi İbn Nəfi əl-Məhzumi, kunyəsi Əbu Muhəmməd əl-Mədənidir. İbn Həcər - *rahmətullahi aleyhi* - deyir ki: "Siqa (etibarlı) bir kimsədir. Yazdıqları səhihdir. Lakin hifzində bir az zəiflik vardır". H. 206 vəfat etmişdir". "Taqribut Təhzib" 1/445-456, "Təhzibut Təhzib" 6/50-51.

[82] Əşhəb İbn AbdulaAziz İbn Davud əl-Qeysi Əbu Ömər əl-Misri. İbn Həcər - *rahmətullahi aleyhi* - deyir ki: "Siqadır, fəqihdir". H. 204 vəfat etmşdir". "Taqribut Təhzib" 1/80, "Təhzibut Təhzib" 1/359.

biləcəklər. Digər yerdə Allah: ***“Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!”. (əl-Mutaffifin 15)*** deyə buyurmuşdu[83].

Əbu Nuaym, Cəfər İbn Abdullahdan belə rəvayət edir ki: Məlik İbn Ənəsin - *rahmətullahi aleyhi* - yanında idik. Yanına bir bəfər gələrək: Ey Abu Abdullah! Rahman olan Allah Ərşə İstiva etdi (deyə buyurur). Bəs, necə İstiva etdi?” dedi. İmam Məlik - *rahmətullahi aleyhi* - bu suala qəzəb etdiyi qədər heç bir suala bu cür qəzəb etməmişdir. Yerə baxaraq əlində olan çubuq parçası ilə yerə vurmağa başladı. Nəhayət onu tər bürüdü. Daha sonra başını qaldıraraq əlindəki çubuq parçasını tulladı və dedi: “Onun keyfiyyəti/necəliyi ağılla dərk olunmaz, İstiva Allah üçün məlumdur (yəni bilinməz deyildir), Ona iman etmək vacib, bu haqda sual vermək bidətdir. Səni də bir bidətçi kimi görürəm və bu adamın qovulmasını əmr etdi”[84].

Əbu Nuaym, Yəhyə İbn Rabidən rəvayət edir ki, İmam Məlikin - *rahmətullahi aleyhi* - yanında idim. Yanına bir nəfər daxil oldu və: “Ey Abu Abdullah! Quran məxluqdur – deyən bir kimsə haqqında nə deyirsən” deyə soruşdu. İmam: “O, zındıqdır (dinsiz), onu öldürün” deyə cavab verdi. Adam: “Ey Abu Abdullah! Mən yalnız eşitdiyim bir sözü deyirəm” dedi. İmam: “Mən bu sözü heç kəsdən eşitmədim, yalnız səndən eşidirəm” dedi və bu sözün nə qədər təhlükli olduğunu vurğuladı[85].

İbn Abdil Bərr, Abdullah İbn Nəfidən rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - deyirdi: “Hər kim Quran məxluqdur

---

[83] “Tərtibul Mədarik” 2/42.

[84] əl-Hilyə 6/235-236, Sabuni “Aqidətus Sələf Ashabil Hədis” s. 17-18, İbn Abdil Bərr “Təmhid” 7/151, Beyhəqi “Əsma” s. 408. İbn Həcər “Fəthul Bəri” 13/406-407, Zəhəbi “Uluv” s. 103.

[85] “əl-Hilyə” 6/929, Ləlakai “Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaa” 1/249, Qadi İyad “Tərtibul Mədaik” 2/44.

deyərsə o kimsə bədəni ağrıyana qədər döyülür və ölənə qədər (ömürlük) həbs edilir"[86].

Əbu Davud, Abdullah İbn Nəfidən rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi ki: "Allah göydədir, elmi isə hər yerdədir"[87].

## Qəza və Qədər Barəsində Etiqadı

Əbu Nuaym, İbn Vəhbdən rəvayət edir ki, İmam Məlik bir nəfərə bunları söyləyərkən dinlədim. İmam: "Sənmi dünən mənədən Qədər barəsində (filan şeyləri) soruşmuşdun?". Adam: "Bəli" dedi. İmam: "Uca Allah buyurur: ***"Əgər Biz istəsəydik, hər kəsi doğru yola salardıq (imana müvəffəq edərdik). Lakin Mən: "Cəhənnəmi mütləq bütün (günahkar) cinlər və insanlarla dolduracağam!" sözünü gerçək olaraq demişəm! (Bizim bu hökmümüz labüddür. Bu sözün, bu hökmün doğruluğunu sübut etmək üçün əzəldən günahkar, kafir, yaxud müşrik olacağını bildiyimiz şəxsi doğru yola salmadıq. Çünki həmin şəxs Bizim ona bəxş etdiyimiz ağılla yaxşını pisdən ayırıb doğru yolu özü tutmalı idi. Dində heç bir məcburiyyət yoxdur!)". (əs-Səcdə 13).*** O, halda hər bir şey Uca Allahın dilədiyi kimi qaçınılmaz baş verəcəkdir"[88].

Qadi İyad deyi ki, İmam Məlikdən: "Qədəriyyə kimlərdir?" deyə soruşuldu. İmam: "(Allah) günahları yaratmamışdır deyən kimsələrdir" deyə cavab verdi. Yenə ona Qədəriyyənin kimlər olduğu barəsində sual verildi. İmam: "İstitaa (güc, əməli etmək) onlara verilmişdir. Dilərlərsə itaət edərlər (Allaha), diləyərlərsə üsyan edərlər deyən kimsələrdir" deyə cavab verdi[89].

---

[86] "əl-İntiqa" s. 35.
[87] Əbu Davud "Məsailul İmam Əhməd" s. 263, 363, İbn Abdl Bərr "Təmhid" 7/138.
[88] "əl-Hilyə" 6/326.
[89] "Tərtibul Mədarik" 2/48, Ləkai "Şərhu Usuli Etiqadi" 2/701.

İbn Əbi Asim, Səid İbn AbdulCəbbardan rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - belə deyərkən dinlədim: “Qədəriyyə haqqında görüşümə görə onlardan tövbə etmələri istənilməlidir. Tövbə edərlərsə problem yox, əksi təqdirdə öldürülürlər”[90].

İbn Əbi Asim rəvayət edir ki, Mərvan İbn Muhəmməd ət-Tatari demişdir ki, İmam Məlikdən - *rahmətullahi aleyhi* - Qədəriyyəyə mənsub bir kimsəyə qız vermək barəsində sual verilmişdir. İmam dedi: ***“Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir…”. (əl-Bəqərə 221)*** və ayəni oxudu[91].

Qadi İyad dedi ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: “(Bidətinə) dəvət edən Qədəriyyənində, Xəvaricində, Bidət əhlinin də şahidliyi caiz (qəbul) deyildir”[92].

Qadi İyad deyir ki, İmam Məlikdən: “Qədəriyyə mənsubları ilə söhbəti kəsimmi” deyə sual verildi. İmam: “Əgər getdiyi yolu bilən bir kimsədirsə (alimdirsə) kəs”. Başqa rəvayətdə: “Onların arxasında namaz qılınmaz, Onların nəql etdikləri hədis qəbul edilməz, hər hansı bir əreazidə onları görsəniz oradan onları çıxarın”[93].

İbn Abdil Bərr rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: “Mən Qədərilər qədər ağılsız, yüngülxasiyyət və düşüncəsiz kimsə görmədim”[94].

---

[90] İbn Əbi Asim “Sunnə” 1/87-88, Əbu Nuaym “əl-Hilyə” 6/326.
[91] İbn Əbi Asim “Sunnə” 1/88, əl-Hilyə 6/326.
[92] “Tərtibul Mədarik” 2/47.
[93] “Tərtibul Mədarik” 2/47.
[94] “əl-İntiqa” s. 34.

# İman İlə Bağli Etiqadı

İbn Abdil Bərr, AbdurRazzaq İbn Həmmamdan rəvayət edir ki: Mən İbn Cureyci[95], Sufyan əs-Sovrini, Mamər İbn Raşidin, Sufyan İbn Uyeynənin və İmam Məlikin: "İman söz və əməldir, artar və əskilər" dediklərini dinlədim[96].

Əbu Nuaym, Abdullah İbn Nəfidən rəvayət edir ki, İmam Məlik: "İman söz və əməldir" deyərdi[97].

İbn Abdil Bərr, Əşhəb İbn AbdulAzizdən rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: "Müsəlmanlar on altı ay Beytul Məqdisə doğru namaz qılmışdılar. Daha sonra onlara Beytul Harama doğru dönmələri əmr edilmişdir. Allah: ***"Allah sizin imanınızı (bundan əvvəl Beytulmüqəddəsə üz tutaraq qıldığınız namazlarnızı) əvəzsis buraxmaz. (əl-Bəqərə 143)*** deyə buyurmuşdu. Burada məqsəd Beytul Məqdisə doğru qıldığınız namazadır. İmam: "Mən bununla Murciə etiqadında olanların: Namaz imandan deyildir – sözlərinə diqqət çəkirəm[98].

# Səhabələr Barəsində Etiqadı

Əbu Nuaym, Abdullah əl-Anbərdən[99] rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: "Kim Rəsulullahın səhabələrindən hər hansı birisinin şanını əskiltərsə və ya qəlbində onlara qarşı bir

---

[95] Abdullah İbn AbdulAziz İbn Cureyc ər-Rumi əl-Umevi əl- Məkki. Zəhəbi - *rahmətullahi aleyhi* - deyir ki: "İmam, Hafiz, Haram bölgəsinin Fəqihi Əbul Vəlid kunyəlidir". H. 150-də vəfat etmişdir. "Təzkiratul Huffaz" 1/169, "Tarixu Bağdad" 10/300.

[96] "əl-İntiqa" s. 34.

[97] "əl-Hilyə" 6/327.

[98] "əl-İntiqa" s. 34.

[99] Abdullah İbn Səvvar İbn Abdullah əl-Anbəri əl-Bəsridir. Qazı olmuş, İbn Həcər - *rahmətullahi aleyhi* - deyir ki: "Siqa (etibarlı) kimsədir, H. 228-də vəfat etmişdir". "Taqribut Təhzib" 1/421, "Təhzibut Təhzib" 1/327.

kin bəslərsə müsəlmanlara aid olan (Fey) qənimətdən onun heç bir haqqı yoxdur. Daha sonra bu ayəni oxudu: "Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "***Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!". (əl-Həşr 10).*** Buna görə də kim onların şanını əskiltərsə və ya qəlbində onlara qarşı kin bəslərsə o kimsənin Feydən hər hansı bir haqqı yoxdur"[100].

Əbu Nuaym, Zubeyrin övladlarından[101] birinin belə dediyi rəvayət edilir: Bizlər İmam Məlikin - *rahmətullahi aleyhi* - yanında idik. Rəsulullahın səhabəsinin şanını əskiltən bir nəfərdən söz açdılar. İmam bu ayəni oxudu: "***Muhəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru alınlarındakı möhür yeri ilə tanınırlar). Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbihi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!". (əl-Fəth 29).*** Hər kimin qəlbində Rəsulullahın səhabələrinə qarşı kin və qəzəb olarsa o, bu ayənin müsibətinə uğrayar"[102].

---

[100] "əl-Hilyə" 6/327.
[101] İmam Mlikdən - *rahmətullahi aleyhi* - dərs alan Abdullah İbn Sabit İbn Abdullah İbn əz-Zubeyr İbn Avvamdır.
[102] əl-Hilyə 6/327.

Qadi İyad, Əşhəd İbn AbdulAzizdən rəvayət edir ki, İmam Məlikin - *rahmətullahi aleyhi* - yanında idik. Bu vaxt Ələvilərdən bir nəfər onun yanında durdu. Onun məclisinə gəlib gedənlərdən idi. Bu adam imama: "Ey Abdullahın atası" deyə cağırdı. İmam ona tərəf baxdı. O adam: "Sabah Rəbbimin qarşısında durduğum zaman məndən soruşduqda, mən də: "Mənə Məlik" dedi – deyərək səni özümlə Allah arasında bir huccət (dəlil) etmək istəyirəm". İmam: "Soruş" dedi. Adam: "Peyğəmbərdən sonra insanların ən xeyirlisi kimdir" deyə soruşdu. İmam: "Əbu Bəkr" dedi. O: "Sonra kimdir?" dedi. İmam: "Ömər" dedi. O: "Sonra kimdir?" dedi. İmam: "Haqsız öldürülən Osman" dedi. O: "Allaha and olsun ki, bundan sonra əbədiyyən səninlə oturmaram (sənin məclisində)" dedi. İmam: "Seçim etmək sənin haqqındır" deyə cavab verdi[103].

## Kəlam Barəsində Sözləri

Əbu Nuaym, Abdullah İbn Nəfidən rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: "Bir kimsə Allaha şərik qoşmaqdan başqa digər bütün günahları edərsə, lakin həva və bidətlərdən uzaq olarsa (kəlamı da zikr etdi) Cənnətə girər"[104].

əl-Hərəvi, İshaq İbn İsadan[105] rəvayət edir ki, İmam Məlik - *rahmətullahi aleyhi* - dedi: "Kim kəlam yoluyla dini öyrənməyə çalıarsa zındıqlaşar, kim kimya yolu ilə mal əldə etməyə çalışarsa iflasa uğrayar, kim də hədisin qərib ləfsini öyrənmək istəyərsə yalan danışr"[106].

---

[103] "Tərtibul Mədarik" 2/44-45.
[104] əl-Hilyə 6/325.
[105] İshaq İbn İsa İbn Nəcih əl-Bağdadi. İbn Həcər - *rahmətullahi aleyhi* - deyir ki: "Doğru sözlüdür. H. 214-də vəfat etmişdir". "Taqribut Təhzib" 1/60, "Təhzibut Təhzib" 1/245.
[106] "Zəmmul Kəlam" vr. 173 a.

əl-Hərəvi, AbdurRahman İbn Mehdidən rəvayət edir ki, İmam Məlikin - *rahmətullahi aleyhi* - yanına daxil oldum. Yanında ona sual verən bir kimsə vardı. İmam: "Deyəsən sən Amr İbn Ubeydin adamlarındansan. Allah Amr İbn Ubeydə lənət etsin. Çünki o, Kəlam ilə Dinə yeni bidət gətrmiş bir kimsədir. Əgər kəlam bir elm olsaydı səhabə və tabiin əhkam və şəri məsələlər haqqında danışdıqları kimi onun haqqında da bir şeylər deyərdilər"[107].

əl-Hərəvi, Əşhəd İbn AbdulAzizdən rəvayət edir ki, İmam Məlikin - *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Bidətlərdən çəkinin». Ona: "Ey Abdullahın atası, Bidət nədir?" deyə soruşuldu. O: «Bidətçilər Allahın isimləri, sifətləri, kəlamı, elmi və qüdrəti haqqında danışan, səhabələrin və gözəl bir şəkildə onlara tabe olanların susduqları (mövzuda) yerdə susmayan kimsələrdir»[108].

Əbu Nuaym, İmam Şafii - *rahmətullahi aleyhi* - rəvayət edir ki, İmam Məlikin - *rahmətullahi aleyhi* - yanına (mübahisə üçün) sapıq bir firqə mənsubu gəldiyi zaman ona: "Mən Rəbbimdən və Dinimdən açıq-aydın bir dəlil üzərindəyəm (şübhə etməyən). Sən isə şübhə içində olan bir kimsəsən. Bu səbəblə də şübhə edən bir kimsənin yanına get və onunla da mübahisə et"[109].

## Təqlid Barəsində Sözləri

İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «Mən bir bəşərəm doğrunu da söyləyə bilərəm, xəta da edə bilərəm. Sizlər mənim görüşümə baxın. Allahın Kitabı, Rəsulunun sünnətinə uyğun gələni götürün, uyğun gəlməyəni buraxın»[110].

---

[107] "Zəmmul Kəlam" vr. 173 b.
[108] Bəğavi «Şəhu Sunnə» 1/217, «Zəmmul Kəlam» vr. 173 a.
[109] əl-Hilyə 6/324.
[110] İbn Abdil Bərr «Cəmi» 2/32, İbn Həzm «İhkam» 6/149.

İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən başqa bəzi insanların sözü alına da bilər, tərk edilə də bilər»[111].

## Abdullah İbn Mubarək
### *- rahmətullahi aleyhi -*

Əbu AbdurRahman Abdullah İbn Mubarək əl-Hanzali. Hişam İbn Urvə və Humeyd İbn Tavildən hədis dinləmişdir. Fudeyl İbn İyad - *rahmətullahi aleyhi* - deyir ki: "Bu evin (Kəbə) Rəbbinə and olsun ki, iki gözüm İbn Mubarək kimisini görmədi". H. 181-ci il Ramazan ayında vəfat etmişdir". Şöbə - *rahmətullahi aleyhi* - deyir ki: "Yanımıza onun kimisi gəlmədi". İmam Əhməd - *rahmətullahi aleyhi* - deyir ki: "Dönəmində elm tələb etmək üçün ondan daha çox çalışan heç kimsə yoxdur"[112].

İbni Mubarək - *rahmətullahi aleyhi* - deyir ki: "Məkkədə, Mədinədə, Kufədə, Bəsrədə, Misirdə və Xorasanda insanların sünnət və cəmaat üzərə olmalarını açıqlayarkən ittifaq etdiklərini gördüm: Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin Onun qulu və Rəsulu olduğuna şəhadət edən, bütün işləri Əziz və Cəlil olan Allaha həvalə edib, hər bir şeyin xeyrin və şərin, küfrün və imanın Allahın qəza və qədəri ilə olduğuna, Allahın Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* - üçün səhabə olmaları üçün seçdiyi keçmiş Sələfin haqqını etiraf edib qəbul edən, Əbu Bəkr əs-Sıddıq, Ömər İbn Xattab, Osman İbn Əffan, Əli İbn Əbu Talibi (fəzilətdə) irəli keçirən, istər kiçik, istərsə də böyük olsun səhabələrin hamısına rəhmət oxuyan, onların fəzilətindən danışan və aralarında baş verən anlaşılmazlıqları danışmayan, iki bayram namazını, Ərafatda qılınan namazı və cəmaatla qılınan namazları yaxşı və ya günahkar olan hər bir imamın arxasında qılan, Quranı Allahın kəlamı və Onun nazil etdiyi kitab olaraq bilib

---

[111] İbn Abdil Hədi «İrşadus Salik» s. 227/1, Təqiyyiddin əs-Subki «Fətva» 1/148.
[112] İbnul İmad "Şəzəratuz Zəhəbi" 1/295-297.

məxluq olduğunu söyləməyən, imanın – söz, əməl və niyyət olub, sünnətə uyğun hərəkət etmk olduğuna, imanın qəlb və əzaların (əməli) ilə artıb əskildiyini qəbul etmək, cihadın Muhəmmədin Allah tərəfindən Peyğəmbər olaraq göndərildiyi zamandan etibarən Dəccəl ilə savaşacaq son mömin topluluq gələnə qədər davam edəcəyinə, zalım bir kimsənin zülmünün (buna) zərər verə bilməyəcəyinə, qəbr əzabına, Munkər və Nəkira, Hovuza, şəfaətə, mizana, Cənnət əhlinin Əziz və Cəlil olan Rəblərini görəcəklərinə iman edəndir. Peyğəmbərlərin və Rəsulların gətirdiklərinə iman edərik. Bu xüsusda onlara qarşı misallar gətirmərik. Əhli Sünnətin xüsusiyyətindən: Allahın kitabını, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* - hədislərini və səhabələrinin sözlərini qəbul etmək, Fərdi görüşü və qiyası tərk eməkdir. Köhnə (qədim) alimlrimizin üzərində ittifaq etdiklərini gördüyüm budur. Allah bizlərə də, sizlərə də (doğru yolda olmağı) İstiqamət və Salehlərə qovuşmağı nəsib etsin". Bizlər Yəhudi və Xristianların sözlərini nəql edirik, lakin Cəhmilərin sözlərini nəql etmirik".

## Sufyan İbn Uyeynə
***- rahmətullahi aleyhi -***

Əbu Muhəmməd Sufyan İbn Uyeynə əl-Hiləlidir. Kufəlidir. Şəfii - *rahmətullahi aleyhi* - deyir ki: "Əgər Məlik və Sufyan olmasaydı Hicazın elmi yox olardı". İbn Vəhb - *rahmətullahi aleyhi* - deyir ki: "İbn Uyeynədən daha çox təfsiri yaxşı bilən bir kimsə tanımıram". İmam Əhməd - *rahmətullahi aleyhi* - deyir ki: "İbn Uyeynədən daha çox Sünnəti bilən tanımıram". H. 198-ci ildə Rəcəb ayının əvvələrində vəfat etmişdir[113].

Ləlakai - *rahmətullahi aleyhi* - deyir ki: "Bizə Ubeydullah İbn Muhəmməd İbn ət-Tuci xəbər verdi ki: Bizə Muhəmməd İbn İshaq İbn Abbad ət-Təmmar dedi ki: Bizə AbdulAziz İbn Muvaiyə dedi

---

[113] İbn Həcər "Təhzibut Təhzib" 4/105, Şəzəratuz Zəhəbi" 1/354-355.

ki: Bizə Muhəmməd İbn AbdulCəbbar əs-Suləmi dedi ki: Bizə Bəkr İbn əl-Fərrac Əbu Ala dedi ki: Mən Sufyan İbn Uyeynənin - *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: Sünnətə uyğun etiqad on xüsusdur. Hər kimdə bu on xüsus olarsa o, sünnəti tamamlamış olar. Onlardan bir şeyi tərk edən isə Sünnəti tərk etmiş olar: Qədəri qəbul etmək, Əbu Bəkr və Ömərnu hamıdan önə keçirmək, Hovuz, Şəfaət. Mizan və Sıratı qəbul etmək. İman – söz və əməldir, Quran Allahın kəlamıdır, qəbr əzabı və qiyamət günü dirilmək haqdır, heç bir müsəlman haqqında (Cənnətlik və ya Cəhənnəmlik olduğu barəsində) qəti şəhadət etməyin". Sufyan İbn Uyeynə, Bişr əl-Mərisinin Quranın məxluq olduğuna dair olan kitabını gördükdə dedi: "Bu Xristianların sözlərinə nə qədər də bənzəyir"[114].

## Muhəmməd İbn İdris Əş-Şəfii
***- rahmətullahi-aleyhi -***

Əbu Abdullah Muhəmməd İbn İdris İbn əl-Abbas İbn Osman İbn Şəfii İbn əs-Saib İbn Ubeyd İbn Abd Yəzid İbn Hişam İbn AbdulMuttalib İbn AbdulManaf əl-Qureyşi əl-Məkki. Nəsli Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – nəsli ilə AbdulMənaf İbn Kusayda birləşməkdədir. İmam Şəfiinin babalarından Səid əl-Muttalibin anası Şifa bint Ərkam İbn Nadlə isə Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – babası AbdulMuttalibin qardaşı idi. Bundan başqa Şəfiinin babalarından Şafi İbn Said səhabə olduğu da söylənilir[115]. H. 150-ci ildə Qəzada (bəzi rəvayətlərə görə isə: Qəzadan 6 km aralıda yerləşən Əskələndə) dünyaya gəlmiş. Böyük İslam alimlərdən biridir. Məkkədə dövrünün ən məşhur alimləri olan Sufyan İbn Uyeynə, Fudeyl İbn İyad və s. dərs almışdır. İmam Məlikdən - *rahmətullahi aleyhi* - də dərslər almış və demişdir: «Allahın kitabından sonra ən faydalı kitab Məlik İbn Ənəsin kitabıdır». H. 204-cü ildə Misirdə dünyasını dəyişmişdir.

---

[114] İbn Teymiyyə "Şərh Əsbəhaniyyə" s. 65.
[115] İmam Zəhəbi «Siyer» 10/9.

## Tövhid Barəsində Etiqadı

Beyhəqi, ər-Rabi İbn Suleymandan, o da İmam Şəfiidən - *rahmətullahi aleyhi* - nəql edir ki: "Kim Allaha və ya Onun isimlərindən birinə and içər və andını pozarsa kəffarə verməsi lazımdır. Kim: Kəbənin haqqı üçün, atamın haqqı üçün, filankəsin və filankəsin haqqı üçün deyə Allahdan qeyrisinə and içər və andını pozarsa kəffarə verməsi lazım deyil. Həyatına and içmək də bu qəbildəndir. Beləsinin də kəffarə verməsi lazım deyildir. Allahdan qeyrisinə and içmək məkruhdur (haramdır). Peyğəmbər tərəfindən qadağan edilmişdir. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Diqqət edin! Allah atalarınıza and içməyi qadağan edir. Kim and içərsə ya Allaha and içsin, ya da sussun"[116].[117]

İmam Şəfii - *rahmətullahi aleyhi* - bunula Allahın İsimlərinin yaradılmış (məxluq) olmadığını vurğulamaq istəmişdir. Buna görə də kim Allahın adı ilə and içərsə sonra da andını pozarsa kəffarə ödəməlidir"[118].

İmam Şəfii - *rahmətullahi aleyhi* - deyir ki: "Mənim izlədiyim Sünnət ilə gördüyüm və elm öyrəndiyim yoldaşlarım Sufyan, Məlik və s. Kimsələrin izlədikləri sünnət: Allahdan başqa ibadətə layiq haqq ilah olmadığıana, Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadəti iqrar etmək, Allahın göydə və Ərşi üzərində olduğuna və dilədiyi şəkildə yaatdıqlarına yaxınlaşdığına, Uca Allahın dünya səmasına dilədiyi şəkildə endiyinə inanmaqdır"[119].

---

[116] Fəthul-Bəri 11/ 530, Müslim 3/1266, 1646.

[117] "Mənakibuş Şafii" 1/405, İbn Əbi Hatim "Adabuş Şafii" s. 193, Əbu Nuaym "Hilyə" 9/112-113, Beyhəqi "Əsma" s. 255-256, Bəğavi "Şərhu Sunnə" 1/188, "Uluv" s. 121, "Muxtəsər Uluv" s. 77.

[118] İbn Əbu Xatim "Ədəb əş-Şəfii" s. 193, Abu Nuaym "əl-Hilyə" 9/112-113, Beyhəqi "Sunnən Kubra" 10/28, "İsim" s. 225-226, Bəğavi "Şərh Sunnə" 1/188, Zəhəbi "Uluv" s. 121.

[119] İbn Qeyyim "İctimaul Cuyuşil İslamiyyə" s. 165, İsbatu Sifətul Uluv s. 124, Məcmuul Fətava 4/181-183, Zəhəbi "Uluv" s. 120, "Muxtəsər Uluv" s. 176.

Zəhəbi "Siyer" adlı əsərində İmam Şəfiinin - *rahmətullahi aleyhi* - belə dediyini nəql edir: "Quranın söz açdığı və Sünnətdə varid olmuş (Allahın) sifətlərini qəbul edər və eyni zamanda Allahın zatı haqqında Təşbihin (bənzətmənin) mümkün olmadığı kimi (məxluqa) bənzətməni biz də qəbul etmərik. Çünki: ***"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11)[120].***

İbn Əbdil Bərr, ər-Rabi İbn Suleymandan rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - Uca Allahın: ***"Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!". (əl-Mutaffifin 15)*** buyurduğu haqqında bunları deyərkən dinlədim: Bu buyurduqla Allah bizlərə qarşı pərdələnməyəcəyini, Ona baxacaq və Onu görməkdə hər hansı bir çətinliklə qarşılaşmayacaq bir topluluq olacağını bildirmişdir"[121].

Lələkai, ər-Rabi İbn Suleymandan rəvayət edir ki, mən Muhəmməd İbn İdris əş-Şəfiinin - *rahmətullahi aleyhi* - yanında idim. Ona (Misirin) Səid bölgəsindən: ***"Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!". (əl-Mutaffifin 15)*** ayəsilə bağlı bir məktub gəldi. İmam: "Onlara qəzəb edildiyi üçün (Rəbblərilə) aralarında pərdələnmiş olacaqlar. Bu Onun razı olacaq kimsələrin Onu görəcəklərinə dəlildir". Ər-Rabi dedi: "Ey Abu Abdullah! Sən bu fikirdəsənmi?" dedim. İmam: "Bəli, mən bu etiqadımın Allaha bağlılığımın ifadəsi olan dinimin bir hissəsi olaraq görürəm"[122].

İbn Əbdil Bərr, əl-Carudidən[123] nəql edir ki, İmam Şəfiinin - *rahmətullahi aleyhi* - yanında İbrahim İbn İsmail İbn Uleyyənə[124]

---

[120] Siyer 20/341.

[121] əl-İntiqa s. 79.

[122] Lələkai "Şərhu Usuli Etiqadi" 2/506.

[123] Musa İbn Əbul Caruddur. Nəvəvi - *rahmətullahi aleyhi* - deyir ki: "Şəfiinin yoldaşlarından və ondan elm alan və rəvayət edən kimsələrdəndir". İbn Hibətullah - *rahmətullahi aleyhi* -

barəsində söz açdılar: “Mən hər bir məslədə ona müxalifəm. Hətta **<u>*Lə İləhə illəllah*</u>** sözündə də belə. Mən onun dediyi kimi demirəm. Mən Musa - *əleyhissəlam* - ilə pərdə arxasından danışan Allahdan başqa ibadətə layiq heç bir ilah yoxdur deyirəm. O, isə pərdə arxasından Musaya - *əleyhissəlam* - yaratdığı bir kəlamı eşitdirən Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur deyir”[125].

Lələkai, ər-Rabi İbn Suleymandan rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - dedi: “Kim Qurana məxluqdur deyərsə kafir olar”[126].

Beyhəqi, Əbu Muhəmməd əz-Zubeyridən rəvayət edir ki, bir nəfər İmam Şəfiiyə - *rahmətullahi aleyhi* - dedi: “Mənə Quran barəsində xəbər ver. O, yaradandırmı?”. İmam: “Xeyr” dedi. Adam: “O, yaradılmışmıdır” dedi. İmam: “Xeyr” dedi. Adam: “O, yaradılmamışdır?” dedi. İmam: “Bəli” dedi. Adam: “Bəs onda onun yaradılmamış olduğunun dəlili nədir?” deyə soruşdu. İmam başını qaldıraraq dedi: “Sən Quranın Allahın kəlamı olduğunu qəbul edirsənmi?”. Adam: “Bəli” dedi. İmam: “Bu hal səndən öncədə dilə gətirilmişdir. Uca Allah buyurur: **<u>*“Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!”. (ət-Tövbə 6), “Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı”. (ən-Nisa 164).*</u>** Şəfii: “Sən Allahın əzəldən bəri var olduğunu və kəlamının da eyni şəkildə var olduğunu qəbul edirsənmi? Yoxsa Allahın əzəldən bəri var

---

deyir ki: “Bu şəs Şəfii məzhəbinə uyğun Məkkədə fətva verirdi”. “Təhzibul Əsmə Vəl Luğət” 2/120, İbn Hibətullah “Tabaqatuş Şəfii” s. 29.

[124] Zəhəbi - *rahmətullahi aleyhi* - deyir ki: “Cəhmiyyəyə mənsub həlak olmuş birisidir. Quranın məxluq olduğunu söyləyənlərdəndir”. H. 218-də vəfat etmişdir. “Mizanul İtidal” 1/20, “Lisanul Mizan” 1/34-35.

[125] əl-İntiqa s. 79, “Lisanul Mizan” 1/35.

[126] Lələkai “Şərhu Usuli Etiqadi” 2/252.

olduğuna, lakin kəlamı yoxdur deyirsən" deyə soruşdu. Adam: "Xeyr, Allah vardı, kəlamı da vardı" dedi. Şəfii gülümsədi və dedi: "Ey Kufəlilər! Sizlər həqiqətən təhlükəli bir söz söyləyirsiniz. Çünki Allahın hər şeydən öncə var olduğuna, kəlamının da Onunla var olduğunu qəbul etdiyinizə görə kəlam Allahın özüdür, Allahdan ayrıdır, Allahdan başqadır və ya Ondan fərqlidir sözlərini haradan çıxardırsınız?". Adam susdu və getdi"[127].

Əbu Talib əl-Uşarinin[128] rəvayəti ilə İmam Şəfiiyə - *rahmətullahi aleyhi* - nisbət edilən etiqada aid cüzdə bunları söyləyir: Əziz və Cəlil olan Allahın sifətləri və iman edilməsi lazım olan məsələlərə dair ona sual verildikdə dedi: "Uca və böyük olan Allahın İsim və Sifətləri vardır. Bunlar Allahın kitabında zikr edilmiş, Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* – bunları ümmətinə xəbər vermişdir. Qurani Kərimin bunları bildirdiyinə, Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – ədalətli şəxslərin (səhabələrin) rəvayət etdiyi sözlərinin səhih olduğuna dair əlində dəlil olan Allahın yaratdığı hər hansı bir kimsənin buna müxalif olması mümkün deyildir. Onun nəzdnində hüccət sabit olduqdan sonra buna müxalif olarsa o kimsə Allahı inkar etmiş bir kafirdir. Lakin xəbərin ona çatması, ona qarşı dəlilin sübutundan öncə isə bilmədiyinə görə üzürlü sayılır. Çünki belə bir bilik (Allahın İsim və Sifətləri) ağıl ilə, düşünmək ilə də idrak edilməz. Uca Allahın hər bir şeyi eşidən olduğuna, iki əlinin olduğuna dair buyurduqları da bu qəbildəndir: ***"Əksinə, Onun hər iki Əli açıqdır...". (əl-Maidə 64).*** Sağ əlinin olduğuna: ***"...Göylər isə Onun sağ əli ilə büküləcəkdir...". (əz-Zumər 67).*** Onun üzünün olduğuna: "***Onun Üzündən başqa hər***

[127] "Mənakibuş Şafii" 407-408.

[128] Muhəmməd İbn Əli əl-Uşari doğru sözlü və tanınan bir elm adamıdır. Şəfiidən "əl-İtiqad" cüzünü tək başına rəvayət etmişdir. Lakin bu Şəfii adına uydurulmuşdur. O, da yaxşı niyyətlə bunu nəql etmişdir. Bu açıqlamanı Zəhəbi "Mizan" 3/656 zikr etmişdir. Lakin bir çox Sələf imamları əqidə ilə bağlı məsələlərdə bu cüzə etimad etmişlər. İbn Qudamə "Sifətul Uluv" s. 124, İbn Əbi Yala "Tabaqat" 1/283, İbn Qeyyim "İctimaul Cuyuş" s. 165, Zəhəbi "Siyer" 10/79.

***şey məhv olacaqdır". (əl-Qasas 88). "Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir". (ər-Rahmən 27).*** Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – buyurduğu kimi Onun ayağı da vardır: Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «….Allah Cənnətə sən mənim rəhmətimsən, mən səninlə qullarımdan istədiyimə rəhmət edirəm». Cəhənnəmə də: «Sən mənim əzabımsan. Mən səninlə qullarımdan istədiyimə əzab edirəm. Hər birinizə dolusu qədər var. Amma Cəhənnəm dolmaq bilməz. Nəhayət Allah ayağını onun üzərinə qoyar, o da: Bəsdi, Bəsdi! Deyib Cəhənnəm dolar. (Cəhənnəmi doldurmaqla) Allah heç bir kəsə zülm etməz. Cənnətə gəlincə Allah onun boşluqlarını doldurmaq üçün bir neçə varlılıqlar yaradır»[129]. Ayrıca Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – buyurduğu kimi Allah yolunda öldürülmüş kimsə barəsində buyurmuşdu: O, Allahın hüzuruna Allah ona güldüyü halda çıxar"[130]. Uca Allah Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – verdiyi xəbərə görə hər gecə dünya səmasına enər. Uca Allahın gözü Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – buyurduğu kimi tək (kor) deyildir. Çünki o, Dəccəldən söz açarkən buyurdu: "Ənəs İbn Məlik - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Elə bir Peyğəmbər yoxdur ki, ümmətini yalançı, bir gözü kor Dəccəldən çəkindirməsin. Diqqət edin. Dəccəlin bir gözü kordur[131]. Sizin Rəbbiniz isə tək göz deyildir»[132]. Möminlər on dördüncü günü ayı gördükləri kimi Qiyamət günü gözləriylə Rəblərini görəcəklər. Uca Allahın Peyğəmbərinin buyurduğu kimi barmaqları vardır. Abdullah İbn Amr İbn əl-As - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və*

---

[129] Buxari, Müslim.
[130] Buxari 2826, Müslim 1504, 1890.
[131] Hədislərdə Dəccəlin sağ gözünün kor olduğu haqqında məlumatlar vardır. Lakin sol gözünün kor olması haqında da hədislər vardır. Sağ gözünün kor olduğu haqqında olan hədislər sənəd baxımından daha sağlamdır.
[132] Buxari 7131,7408, Müslim 2933, Tirmizi 2245, Əbu Davud 4316, əl-Albani "Səhih Cəmius Sağir" 3402,5578,5789, "Şərh Əqidətul Təhaviyyə" s. 500.

*səlləm* – buyurdu: «Adəm oğullarının qəlbləri Rahmənin barmaqlarından iki barmağı arasında tək bir qəlb kimidir. Onları istədiyi kimi çevirir»[133]. Uca Allahın zatını, Rəsulunun – *sallallahu aleyhi və səlləm* – onu vəsf etdiyi sifətləri ağlla, idrak ilə qavranılması mükün deyildir. Bu xüsuslara dair xəbər çatmayan kimsə bunları bilmədiyinə görə təkfir edilməz. Şəriət xəbərlərini eşidən kimsə isə bunlara itaət etməsi və sanki Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – dilindən eşidiyi və gördüyü kimi bunlara şahidlik etməsi vacibdir. Bizlər də bu sifətləri qəbul etməklə bərabər Təşbih (bənzətməyi) də rədd edərik. Uca Allah da özü barəsində Təşbihi qəbul etməyərək buyurur: ***"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11)[134].***

İmam Şəfii - *rahmətullahi aleyhi* - deyir ki: "Özü özünü vəsf etdiyi kimi olan Allaha həmd olsun, yaratdıqlarının Onu vəsf etməsindən Uca olan Allaha həmd olsun"[135].

## Qədər Barəsində Etiqadı

Beyhəqi, ər-Rabi İbn Suleymandan rəvayət edir ki, İmam Şəfiidən - *rahmətullahi aleyhi* - Qədər barəsində sual verildikdə dedi: "Sənin dilədiyin olur, baxmayaraq ki, mən diləməmişdim. Sənin diləmədiyin isə olmaz, baxmayaraq ki, mən onu istəmişdim. Sən qullarını tanıyaraq yaratdın, gənci də, yaşlısı da elminə görə hərəkət edər. Birinə lütf (himayə) etdin, digərini köməksiz

---

133 Müslim 2654, Əhməd 2/168,173, Tirmizi 2140, İbn Məcə 3834, əl-Albani «Səhih Hədislər Silsiləsi» 1689, "Ziləlul Cənnə" 1/100,103,222, "Mişkət" 89,102, "Sahih Cəmius Sağir" 1685. Lakin bu o, demək deyil ki, Adəm övladının qəlbləri Allahın barmaqları ilə təmas edib (bitişib).

134 Muhəmməd əl-Xumeyyis deyir ki: "Mən bu etiqadi sözləri originaldan fotokpiya edilmiş və Hollandiyada Leyden Universitetində saxlanılmış nüsxədən sitat gətirirəm".

135 "Risalə" s. 7-8.

buraxdın, Mənə yardım etdin, digərinə etmədin. Kimisi xöşbəxtdir, kimisi bədbəxt, kimiləri gözəl, kimiləri də çirkindir"[136].

İmam Şəfii - *rahmətullahi aleyhi* - deyir ki: "Qulların diləməsi Uca Allaha aiddir. Aləmlərin Rəbbi olan Allah dilədikcə onlar diləməzlər. İnsanlar öz əməllərini yaratmazlar. Onların əməlləri Uca Allahın yaratdıqları arasındadır. Qulların felləri Onun tərəfindən yaradılmışdır. Qədər xeyri və şərilə Allahdandır. Şübhəsiz qəbr əzabı haqdır, qəbirdə olanların sorğu-sual olunması haqdır, ölümdən sonra dirilmək haqdır, hesab olunmaq haqdır, Cənnət və Cəhənnəm haqdır və buna aid olan sünnətdə zikr edilən digər xüsuslar da haqdır"[137].

Ləlakai, Muzənidən rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - dedi: "Qədəri nə deməkdir bilirsinizmi?". Bu o, kəsdir ki: "Allah əməlləri yaratmamışdır ta ki, əməl baş verənə qədər" deyən kimsədir[138].

İmam Şəfii - *rahmətullahi aleyhi* - deyir ki: "Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – haqlarında: "Bu ümmətin məcusiləridir" dediyi kimsələr Allah, günahlar icra olunana qədər bilməz deyən kimsələrdir"[139]. İbn Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Qədəriyyə bu ümmətin məcusiləridir. Xəstələnəcək olurlarsa onları ziyarətə getməyin, ölürlərsə cənazələrində iştirak etməyin»[140].

---

[136] Mənakibuş Şəfii 1/412-413, Ləlakai "şərhu Usuli Etiqadi" 4/777.
[137] Mənakibuş Şəfii 1/415.
[138] "Şərhu Usuli Etiqadi" 4/776.
[139] Mənakibuş Şəfii 1/413.
[140] Əbu Davud «Aunul Məbud» 12/452, 4691, Həkim 1/85, əl-Albani «Səhihul Cəmi» 5039, «Şərhu Təhaviyyə» s 273 həsən hədis.

Beyhəqi, Rabi İbn Süleymandan rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - Qədəriyyə mənsub bir kimsənin arxasında namaz qılmağı məkruh (haram)[141] görərdi"[142].

## İman Barəsində Etiqadı

İbn Əbdi Bərr, Rabidən rəvayət edir ki, İmam Şəfiinin - *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "İman – söz, əməl və qəlb ilə etiqaddı. Allah: ***"Allah sizin imanınızı (bundan əvvəl Beytulmüqəddəsə üz tutaraq qıldığınız namazlarnızı) əvəzsis buraxmaz. (əl-Bəqərə 143)*** buyurduğuna diqqət etmirsinizmi? Burada məqsəd Beytul Məqdisə doğru qıldığınız namazlarınız puç olmayacaqdır. Beləliklə namaza iman adı verilmişdir. Namaz isə söz, əməl və bir etiqaddır"[143].

Beyhəqi, Rabi İbn Süleymandan rəvayət edir ki, İmam Şəfii - *rahmətullahi aleyhi* - dedi: "İman – söz və əməldir, artar və əskilər"[144].

Beyhəqi rəvayət edir ki, Əbu Muhəmməd əz-Zubeyri dedi ki, Bir nəfər İmama: "Allah dərgahında hansı əməl daha fəzilətlidir" deyə sual verdi. İmam: "O, olmadan heç bir əməlin qəbul olunmayacağı şey" deyə cavab verdi. Adam: "O, nədir?" dedi. İmam: "Ondan başqa ibadətə layiq heç bir İlah olmayan Allaha iman etmək, dərəcə etibarıyla əməllərin ən yüksəyi, mövqe etibarıyla ən şərəflisi, dəyər etibarıyla ən ucasıdır". Adam: "Mənə

---

[141] Burada məkruhdan qəsd edilən haramdır. Çünki: "Əgər bir kimsə qəbirə doğru namaz qılarsa namzını qılmış olur, lakin çox pis bir iş etmiş olur" sözü haram etdi mənasındadır. Quran üslubunda da pislik ***Seyyiə*** deməkdir. Allah uşaqlarınızı öldürməyi, zinaya yaxınlaşmağı, can almağı və s. şeyləri qadağan etdikdən sonra buyurur: ***"Bütün bunlar Rəbbinin dərgahında bəyənilməyən (məkruh), pis şeylərdir". (əl-İsra 23, 33, 36-38).***

[142] Mənakibuş Şəfii 1/413.

[143] əl-İntiqa 82.

[144] "Mənakibu əş-Şəfii" 1/387.

İman haqqında xəbər ver. O, söz və əməldirmi, yoxsa əməlsiz sözdən ibarətdir?" dedi. İmam: "İman Allah üçün bir əməldir, söz də bu əməlin bir parçasıdır". Adam: "Mənə bunu açıqla ki, yaxşı başa düşüm?" dedi. İmam: "İmanın bir neçə halları, dərəcələri, şöbələri vardır. Bunların kimisi tam imandır, kamilliyə çatmışdır. Naqis iman vardır, hansıki naqis olduğu görüləcək şəkildə naqisdir. Bir də var üstün iman, xeyiri daima artan imandır". Adam: "Tam olmayan İman artıb azalırmı?" dedi. İmam: "Bəli" dedi. Adam: "Bunun dəlili nədir" dedi. İmam: "Allah Adəm oğullarının əzaları üzərinə imanı fərz etdi və bunu əzalar arasında paylaşdırdı. Elə bir əza yoxdur ki, onun üzərində məsuliyyət düşsün digərinə isə yox. Bu əzalardan biri də onun anlayıb, qavradığı, bildiyi qəlbidir. O, bədənin (bütün əzaların) əmiridir. Bütün orqanlar onun əmrindədir. Digər əzaları isə: Gördüyü iki gözü, eşitdiyi qulaqları, tutduğu əlləri, yeridiyi ayaqları, əlaqə qurduğu cinsiyyət orqanı, danışdığı dili, üzünün olduğu başıdır. Bütün bu orqanların üzərlərinə düşən fərzlər ayrı-ayrıdır. Qəlbin üzərinə düşən fərz, dilin daşıdığı fərzdən, qulağın fərzi gözlərin fərzindən, əllərin fərzi ayaqların fərzindən, cinsiyyət orqanının üzərinə düşən fərz üzə düşən fərzdən ayrıdır.

Allahın qəlbə fərz etdiyi iman: Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, oxşarı, bənzəri və şərikinin olmadığına, Muhəmmədin onun qulu və Rəsulu olduğunu iqrar etmək, buna inanmaq, rıza və təslimiyyət göstərməkdir. Həmçinin Allah trəfindən göndərilən bütün Peyğəmbərləri və kitabları qəbul etməkdir. Allahın qəlbə fərz etdiyi iman və qəlbin əməli budur. ***"Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən) şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu ağır təhlükə gözləyir). Lakin qəlbən küfrə razı olanlara (qəlbində könüllü surətdə küfrə yer verənlərə) Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!". (ən-Nəhl 106). "O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki,***

***qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!". (ər-Rəd 28). "Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. (Allah) istədiyini bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir!". (əl-Bəqərə 284). "Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!"– deyən kimsələrdən...". (əl-Maidə 41).*** Qəlbin imanı və əməli budur. İmanın başıda budur.

Allahın dilə fərz etdiyi qəlbin qəbul etdiyi etiqadı söyləmək və ifadə etməkdir. ***"Deyin: "Biz Allaha iman gətirdik...". (əl-Bəqərə 136). "...insanlara xoş söz söyləyin...". (əl-Bəqərə 83).*** Allahın dilə fərz etdiyi bunlardır və bunlar dilin əməlidir. İmandan ona fərz olan qisimdir.

Uca Allah qulağa Allahın haramlarını dinləməkdən uzaq olmağı qadağan etdiyi şeylərdən özünü qorumağı fərz etmişdir. ***"Allah Kitabda (Quranda) sizə nazil etmişdir (bildirmişdir) ki, Allahın ayələrini inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə bir yerdə toplayacaqdır!". (ən-Nisa 140).*** Allah unutqanlığı burada istisna (üzürlü) etmişdir: ***"(Ya Rəsulum!) Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan (bu qadağan əmrini) sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma". (əl-Ənam 68). "...Qullarımı müjdələ! O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır". (əz-Zumər 17-18). "Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslərdir ki, sözbazlıqdan qaçırlar, o kəslərdir ki, zəkat verirlər". (əl-Muminun 1-4). "Onlar boş (yersiz) bir söz eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. (Hərə öz əməlinə***

***cavabdehdir). Sizə salam olsun! (Salamat qalın. Bizimki bizdə, sizinki də sizdə!) Biz cahilləri (cahillərlə yoldaşlıq etmək, onların söz-söhbətinə qulaq asmaq, sonra da onlarla çənə-boğaz olmaq) istəmirik!" – deyirlər. (əl-Qəsəs 55). "O kəslər ki, yalan yerə şahidlik etməz, faydasız bir şeylə rastlaşdıqları (lağlağı bir söhbət eşitdikləri) zaman onlardan üz çevirib vüqarla keçər (özünü ləyaqətlə aparıb onlara əhəmiyyət verməz)". (əl-Furqan 72).*** Uca Allahın qulaq üçün halal olmayan şeylərdən uzaq durması üçün fərz etdikləri bunlardır. Bunlar da qulağın əməlidir və bu da imandandır.

Gözlərə Allahın haram etdiyi şeylərə baxmağı və Allahın baxmağı qadağan etdiyi şeylərdən çəkinməyi fərz etmişdir. ***"(Ya Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar). Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!". (ən-Nur 30).*** Bu ayə ilə ondan sonrakı ayədə Allah bir-birilərinin məhrəm yerlərinə baxmalarını qadağan etmiş və hər kəsin öz məhrəm yerini başqasının baxmasına qarşı qorumasını əmr etmişdir. ***"Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar); öz-özlüyündə görünən (əl, üz) istisna olmaqla, zinətlərini (zinət yerləri olan boyun, boğaz, qol, ayaq və s. naməhrəmə) göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər (boyunları və sinələri görünməsin); zinət yerlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından (qayınatalarından), yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz (müsəlman) qadınlarından, yaxud sahib olduqları (müşrik) cariyələrdən, yaxud kişiliyi qalmamış (onlarla birlikdə yemək yeyən) xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ***

***anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız! (Mətləbinizə çatasınız!)". (ən-Nur 31).*** Allahın kitabında məhrəm yerinin qorunmasını ifadə edən hər bir buyuruq zinadan qorunmaq mənasındadır. Bu ayə müstəsnadır. Bu baxmaqdan qorunmaq haqqındadır. Allahın gözə fərz etdiyi budur. Bu da gözün əməli və imandandır.

Daha sonra qəlbə, qulağa və gözə fərz etdiyini bir ayədə zikr edərək Allah buyurur: ***"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qular, göz və ürək–bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır". (əl-İsra 36).***

Allah məhrəm yerinə, Allahın haram etdiyi şeyləri edərək onun məhrəmiyətini pozmamağı fərz etmişdir. ***"o kəslərdir ki, öz cinsi orqanlarını həmişə qoruyurlar...". (əl-Muminun 5). "Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərinizdən qorxub (günah işləməkdən) çəkinmir, etdiyiniz əməllərin çoxunu isə Allahın bilməyəcəyini zənn edirsiniz". (əl-Fussilət 22).*** Burada dərilərinizdən məqsəd məhrəm yerləri və iffət yerləridir. Allahın məhrəm yerinə fərz etdiyi budur və bu da məhrəm yerlərinin əməlidir.

Allah əllərə Allahın haram etdiyi şeyləri tutmamağı və onlarla Allahın əmr etdiyi sədəqə, qohumluq əlaqələri, Allah yolunda cihad, namaz üçün təharətli olmaq kimi şeyləri etməyi əmr etmişdir. ***"Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun...". (əl-Maidə 6). "(Ey möminlər!) Kafirlərlə (döyüş meydanında) qarşılaşdığınız zaman boyunlarını vurun. Nəhayət, onları məğlub (əzib şil-küt) etdikdə, (qaçmasınlar deyə, əl-ayaqlarını) kəndirlə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə onları ya (boyunlarına minnət qoyub) məccani, ya da fidyə müqabilində azad edin! (İstəsəniz əsirləri bağışlayıb pulsuz-***

***parasız azad edər, ya onları mübadilə edər, ya da müəyyən məbləğ pul, mal müqabilində buraxarsınız). (Əmr) budur! Əgər Allah istəsəydi, onlardan (başqa cür – müharibəsiz də) intiqam ala bilərdi. Lakin O sizi biri-birinizlə imtahana çəkmək üçün (vuruşmağınızı əmr etdi). Allah Öz yolunda öldürülənlərin əməllərini əsla puç etməz". (Muhəmməd 4).*** Çünki kafirlərlə döyüşmək, vurmaq, qohumluq əlaqələrini qurmaq və sədəqə vermək əllərin işləri arasındadır.

Allah ayaqlarla haram etdiyi şeylərə doğru getməməyi əmr etmişdir. ***"Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən". (əl-İsra 37).***

Uzə də gecə və gündüz namaz vaxtlarında Allaha səcdə etməyi fərz etmişdir. ***"Ey iman gətirənlər! (Namaz qıldıqda) rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız! (Mətləbinizə yetişəsiniz!)". (əl-Həcc 77). "Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!". (əl-Cinn 18).*** Burada məscidlər ilə Adəm oğullarının namaz əsnasında səcdə etdiyi alnı və digər əzaları qəsd edilir. Allahın bu əzalara olan fərzləri bunladır.

Allah kitabında dəstnamaza və namazlara iman – adını vermişdir. Bu da uca Allahın Peyğəmbərini Beytul Məqdisə doğru namaz qıldıqdan sonra Kəbəyə doğru namaz qılmasını əmr etdiyi zaman olmuşdur. O, zaman müsəlmanlar Beytul Məqdisə doğru namaz qılmaları əmr edilmişdir. On altı ay Beytul Məqdisə doğru namaz qılmışdılar. Qiblənin dəyişməsindən sonra müsəlmanlar Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – yanına gələrək: "Ey Allahın Rəsulu! Bəs Beytul Məqdisə doğru qıldığımız namazlarımız necə olacaqdır" deyə soruşdular. Allah: ***"Allah sizin imanınızı (bundan əvvəl Beytulmüqəddəsə üz tutaraq qıldığınız namazlarnızı) əvəzsis buraxmaz. (əl-Bəqərə 143).*** Göründüyü kimi namaza İman adı verilmişir. Kim də namazlarını və əzalarının üzərinə düşən fərzləri mühafizə edərək yerinə yetirərək Allahın

hüzuruna gedərsə imanı kamil və Cənnət əhli olaraq qovuşmuş olar. Kim də bunlardan bəzisini qəsdli olaraq tərk edərək Allaha qovuşaqsa naqis bir imanla qovuşmuş olar". Adam : "İmanın naqis və tam olmasını öyrəndim. Bəs, artması necədir?" dedi. İmam: "Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: ***"Bir surə nazil edildiyi zaman onlardan (münafiqlərdən): "Bu sizin hansınızın imanını artırdı?" – deyənlər də var. Möminlərə gəlincə, (hər bir surə) onların imanını artırar və onlar (bu surələrin nazil olmasına) sevinərlər. Qəlblərində mərəz (şəkk-şübhə, nifaq) olanlara gəldikdə isə, (hər bir surə) onların murdarlığı (küfrə, nifaqı) üstünə bir murdarlıq da gətirər və onlar kafir olaraq ölərlər!". (ət-Tövbə 124-125). "(Ya Rəsulum!) Biz onların xəbərini sənə doğru söyləyirik. Onlar Rəbbinə iman gətirmiş bir neçə gənc idi. Biz də onların hidayətini (imanını, səbatını və bəsirətini) artırmışdıq". (əl-Kəhf 13).*** Əgər imanın artıb azalması olmasaydı bir kimsənin üstünlüyü olmaz, insanlar bir-birilərinə (imanda) bərabər olardı. Fəzilət məsələsi də aradan qalxardı. Lakin imanın artması ilə möminlər Cənnətə, yalnız imanla bir-birilərinə qarşı fəzilət sahibi olurlar. İmanlarında olan üstünlüyə görə Cənnətdə dərəcə qazanırlar (dərəcələri bir-birindən üstün olur). İmanlarında olan naqislik səbəbilə də Cəhənnəmə girəcəklər. Uca Allah atların bir-birilə yarışdıqları kimi qulları arasında iman və əməldə bir yarış etmişdir. Bu yarışda heç kəsin haqqı tapdalanmaz. Bu yarışmaya görə dərəcə və mükafat alırlar. Hər bir kimsə imanına görə bir dərəcədə olacaqdır. Allah o dərəcədə onun haqqından bir şey əskiltməz. Başqası tərəfindən keçilən bir kimsə əsla onu keçənin önünə gətirilməyəcəyi kimi. Buna görə də ümmətin Sələfini onlardan sonra gələnlərdən daha fəsilətli və xeyirli etmişdir. Əgər iman məsələsində ilk Sələflərin (önə keçənlərin) imanda onlardan geri olanlara hər hansı bir üstünlüyü (fəziləti) olmasaydı bu ümmtin sonradan gələnləri ilə Sələfin imamları arasında heç bir dərəcə fərqi qalmazdı"[145].

---

[145] əl-İntiqa s. 81, "Mənakibuş Şəfii" 1/387-393.

## Səhabələr Haqqında Etiqadı

İmam Şəfii – *rahmətullahi aleyhi* - deyir ki: "Uca Allah Quranda, Tövratda və İncildə Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrini tərif etmişdir. Peyğəmbəərdə – *sallallahu aleyhi və səlləm* – onların fəzilət və üstünlüklərindən danışmış və heç kimsənin onların dərəcəsinə çatması mümkün deyildir. Allahın rəhməti onların üzərinə olsun. Onları sıddıqların, şəhidlərin və əməlisalehlərin mətrəbəsinə yüksəltmişdir. Onlar vəhyin nazil olmasını görmüş, Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – sünnətini bizə çatdırmışlar. Onlar Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – sünnətləri içində bizim bildiyimiz və bilmədiyimiz sünnətləri bilirdilər. Onlar hər cür elimdə, ictihadda, təqvada və ağılda bizdən üstündürlər. Bizim üçün onların görüşləri öz görüşlərimizdən daha üstündür. Doğrusunu Allah bilir!"[146].

Beyhəqi, Rabi İbn Süleymandan rəvayət edir ki, İmam Şəfiinin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: Fəzilətdə öncə Əbu Bəkr, Sonra Ömər, sonra Osman, sonra da Əlidir – *Allah onlardan razı olsun* -"[147].

Beyhəqi, Muhəmməd İbn Abdullah İbn AbdulHəkimdən rəvayət edir ki, İmam Şəfiinin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – sonra insanlar arasında ən fəzilətli (xeyirli) olanlar Əbu Bəkr, sonra Ömər, sonra Osman, sonra Əlidir – *Allah onlardan razı olsun* -"[148].

əl-Hərəvi, Yusuf İbn Yəhyə əl-Buveytidən rəvayət edir ki, İmam Şəfiidən: "Bidət əhli bir kimsənin arxasında namaz qılınırmı" dedik. O, xeyr. Nə Bidət əhli, nə Qədəri, nə də Murciyə etiqadında

[146] Mənakibuş Şəfii 1/442.
[147] Mənakibuş Şəfii 1/432.
[148] Mənakibuş Şəfii 1/433.

olan heç bir kimsənin axasında namaz qılma". Mən: "Bizə onları vəsf et!" dedim. İmam: "Kim iman yalnız sözdən ibarətdir deyərsə Murciədir. Kim Əbu Bəkr və Ömər haqq xəlifə deyildir deyərsə bidət əhlidir, kim də Allahın diləməsini özünə aid edərsə Qədəridir (Yəni, mən istədikdən sonra Allah bilir)"[149].

## Kəlam Elmi Və Din Barəsində Mübahisəni Qadağan Etməsi

əl-Hərəvi, Rabi İbn Süleymandan rəvayət edir ki, İmam Şəfiinin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Bir adam bir kimsəyə dini kitablarını vəsiyyət etmiş olarsa və kitabları arasında kəlam barəsində kitablar olarsa bu kitablar vəsiyytin içinə daxil olmaz. Çünki kəlam elm deyildir"[150].

əl-Hərəvi, Həsən əl-Zəfəranidən rəvayət edir ki, İmam Şəfinin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Mən kəlam barəsində bir kimsə ilə mübahisə etdikdən sonra buna görə mütləq Allahdan məğfirət diləmişəm (və ya: Kəlam barəsində bir dəfə cədəl etdim, bundan ötrü Rəbbimdən məğfirət diləyirəm)"[151].

əl-Hərəvi, Rabi İbn Süleymandan rəvayət edir ki, İmam Şəfii – *rahmətullahi aleyhi* - dedi: "Mən hər hansı müxalif bir kimsəyə qarşı (və ya şəriətə müxalif olan bir şey barəsində) kitab (rədd) hazırlamaq istəsəm bunu edə bilərəm. Lakin kəlam ilə mənim işim yoxdur, kəlamdan da hər hansı bir şeyin mənə nisbət edilməsini də arzu etmirəm"[152].

---

149 Zəmmul Kəlam vr. 215, Zəhəbi "Ziyer" 10/31.
150 Zəmmul Kəlam vr. 213, Zəhəbi "Siyer" 10/30.
151 Zəmmul Kəlam vr. 213, Zəhəbi "Siyer" 10/30.
152 Zəmmul Kəlam vr. 215.

İbn Batta, Əbu Sevrdən rəvayət edir ki, İmam Şəfii – *rahmətullahi aleyhi* - mənə dedi: “Kəlamdan hər hansı bir şeyə baş vurub sonra da ondan qurtulan kimsə görmədim”[153].

əl-Hərəvi, Yunus əl-Misridən rəvayət edir ki, İmam Şəfii – *rahmətullahi aleyhi* - dedi: “Allahın bir kimsəni şirk istisna hər hansı bir (günahla) imtahan etməsi onun üçün kəlamla imtahan etməsindən yaxşıdır”[154].

(Yunus İbn Abdil Əla) demişdir: əş-Şəfii – *rahmətullahi aleyhi* - dedi: “Kəlam əhlinin elə şeylər etdiyini gordum ki, Allahın nəhy etdiyi hər şeyi edən birisini gorməyim mənə onları gorməkdən xoş gəldi”. (Yunus İbn Abdil Əla) dedi: Ona belə dedim: “Bilirsənmi iki sahibimiz – *Maliki və Leysi* - nə deyərdilər? Deyərdilər ki əgər “Kəlam” sahibi birisini su uzərində yeriyən gorsən şərindən əmin olma”. İmam: “Az deyiblər, hətta onu səma ilə yer arasında havada gəzən gorsən şərindən əmin olma”[155].

İbnu Əbil Həkəm dedi: əş-Şəfiini – *rahmətullahi aleyhi* - belə deyərkən eşitdim: “İnsanlar “kəlam”da nə olduğunu bilsələrdi, ondan şirdən qacdıqları kimi qacardılar”[156].

Yenə Rabi bin Suleyman dedi: əş-Şəfiini – *rahmətullahi aleyhi* - pilləkənlə enərkən gordum. Bu an bir topluluq məsciddə “kəlam”la bağlı sohbət edirdi. Qışqıraraq belə dedi: “Ya yanımızda xeyirlə qalın, ya da bizi tərk edin”.

Əbu Sevr dedi ki, İmam Şəfiini – *rahmətullahi aleyhi* - belə dediyini eşitdim: “Kəlam əhli haqdakı hokmum budur ki cubuqla

---

[153] İbanətul Kubra s. 535-536.
[154] İbn Əbu Hətim “Mənakibuş Şəfii” s. 182.
[155] İmam Zəhəbi “Siyer”.
[156] İmam Zəhəbi “Siyer”.

vurulsunlar, (bu halilə) dəvə uzərində tayfalar və qəbilələr arasında dolaşdırılaraq belə deyilsin: "Quranı və sunnəti tərk edib "kəlam"a yönələnin cəzası budur".

İmam Şəfii – *rahmətullahi aleyhi* - deyir ki: "Şirk xaric, heç bir günah kəlamdan böyük deyildir"[157].

İmam Şəfii – *rahmətullahi aleyhi* - deyir ki: "Şirk xaric, qulun Allaha bütün günahları ilə qovuşması həvasından bir şeylə qovuşmasından daha yaxşıdır"[158].

## Təqlid Barəsində Sözləri

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsə Peyğəmbər - *səllallahu aleyhi və səlləm* – dən nəql edilən bir Sünnəti açıq-aydın bilindiyi halda onu bir başqasının sözündən ötrü tərk etməsinin halal olmadığını müsəlmanlar ittifaq etmişlər»[159].

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Mənim Kitabımda Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in sünnəsinə zidd bir şey tapsanız Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in sözünü götürün və mənim sözümü tərk edin. Sünnətə uyun və başqa birisinin sözünə etibar etməyin»[160].

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Hədis səhih olduğu zaman mənim görüşüm odur»[161].

---

[157] Fətava 5/53, İctimau Cuyuş s. 165.
[158] Zəhəbi "Siyer" 10/31.
[159] İbn Qeyyim 2/363, İbn Həzm «Fullani» s. 68.
[160] Hərəvi «Zəmmul Kəlam» 3/47/1, Xatib Bağdadi "İhticac Biş Şafii" 8/2, İbn Əsakir 15/9/10, Nəvəvi «Məcmu» 1/163, İbn Qeyyim 2/361, Əbu Nuaym «Hilyə» 9/107.
[161] Şarani s. 107.

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Mən bir söz söylədiyimdə mənə zidd olaraq Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən səhih bir hədis gəldiyini görsəniz, mənə ağlımın getdiyini xəbər verin»[162].

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Hər hansı bir məsələdə bir söz söyləmiş olsam və Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən buna zidd bir xəbər gəlmişsə, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in hədisi daha doğrudur. Məni təqlid etməyin»[163].

İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – dən nəql edilən hər hansı bir hədisi məndən eşitməmiş belə olsanız mənim görüşüm deməkdir»[164].

## Əbu Bəkr Abdullah əl-Humeydi
### *– rahmətullahi aleyhi -*

Hafiz Əbu Bəkr Abdullah İbnn əz-Zubeyr əl-Qureyşi əl-Humeydi. Hüccət bir imam idi. İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "Humeydi, Şəfii və İbn Rahaveyh hər biri imamdır". İmam Şəfii – *rahmətullahi aleyhi* - ilə yoldaşlıq etmiş və H. 219-cu ildə vəfat etmişdir. Buxari və digər imamlar ondan hədis rəvayət etmişlər[165].

Bişr İbn Musa dedi ki, bizə əl-Humeydi – *rahmətullahi aleyhi* - dedi ki: "Sünnət – bir kimsənin xeyri və şərilə, şirini və acısı ilə qədərə iman etməsi, başına gələn bir şeyin ondan yan keçməyəcəyinə, ondan yan keçən bir şeyin başına gəlməyəcəyini

---

[162] Əbu Nuaym 9/107, İbn Qeyyim «İlamul Muvakkin» 2/163, Fullahi s. 104.
[163] İbn Əbu Xatim «Adab» s. 93, İbn Əsakir 15/10/1.
[164] İbn Əbu Xatim s. 93-94.
[165] Şəzərətuz Zəhəbi 2/45-46.

bilməsi və bütün bunların Uca Allahdan bir lütf olmasını bilməsidir”.

əl-Humeydi – *rahmətullahi aleyhi* - deyir ki: “İman – söz və əməldir, artar və azalar. Əməlsiz sözün faydası olmadığı kimi niyyət olmadan söz və əməlində faydsı olmaz. Sünnətə uyğun olmadıqca sözün də, niyyət ilə edilən əməlin də faydası olmaz”.

əl-Humeydi – *rahmətullahi aleyhi* - deyir ki: “Muhəmmədin – *sallallahu aleyhi və səlləm* – bütün səhabələrinə rəhmət oxumaq lazımdır. Çünki Allah buyurur: ***“Onlardan (Səhabələrdən - mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla...”. (əl-Həşr 10).*** Çünki onlara məğfirət diləməkdən başqa bir şeylə kimsə əmr olunmamışdır. Buna görə də onlara söyən və ya onlardan hər hansısa birinin şərəfini alçaldan bir kimsə Sünnət üzərə hərəkət etmiş olmaz və onun feydən hər hansısa bir payı yoxdur. Bunu bizə İmam Məlik – *rahmətullahi aleyhi* - bir neçə nəfərdən xəbər vermiş və demişdir. Uca Allah Feyi paylaşdıraraq buyurdu: ***“Onlardan (Səhabələrdən - mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!”. (əl-Həşr 10).*** Burada Allah: ***“Onlardan (Səhabələrdən - mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla...”. (əl-Həşr 10).*** Buna görə də kim onlara bu şəkildə dua etməzsə Feydən haqq sahibi olan kimsə deyildir”.

əl-Humeydi – *rahmətullahi aleyhi* - deyir ki: “Quran Allahın Kəlamıdır. Sufyanın – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim:

Quran Allaın kəlamıdır. Kim "Məxluqdur" deyərsə bidətçidir. Biz kimsənin belə dediyini eşitmədik".

əl-Humeydi, Sufyanın – *rahmətullahi aleyhi* - belə dediyini dinlədi: "İman – söz və əməldir, artar və əskilər. Qardaşı İbrahim İbn Uyeynə – *rahmətullahi aleyhi* - ona: "Ey Əbu Muhəmməd! Sən azalır demə" dedi. O, qəzəbləndi və dedi: "Sus, ey uşaq. Azalır – hətta heç bir şey qalmayana qədər azalır" dedi.

əl-Humeydi – *rahmətullahi aleyhi* - dedi ki: "Ölümdən sonra Ruyətullahı (Allahı görmək) qəbul etmək". Quran və Sünnətin dediklərini qəbul etmək. ***"Yəhudilər dedilər: "Allahın Əli bağlıdır!" Onların öz əlləri bağlandı və dedikləri sözə görə lənətə gəldilər...". (əl-Maidə 64). "(Müşriklər) Allahı lazımınca qiymətləndirmədilər (uca tutmadılar). Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. (Allah müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!". (əz-Zumər 67). "Mərhəmətli Allah Ərşə İstiva (etdi) ucaldı". (Ta ha 5)*** kimi deyirik. Bundan başqa bir iddiada olan bir kimsə sifətləri tətil edən Cəhmidir". Biz – Xaricilərin dediyi kimi: Kim böyük günah edərsə kafir olur" demirik. Hər hansı bir günah etdi deyə bir kimsənin kafir olduğunu söyləmirik. Küfr ancaq Rəsulullahın dilə gətirdiyi bu beş əsasın tərk edilməsi ilə baş verir: İslam beş təməl üzərində bina edilmişdir. Allahdan başqa ibadətə layiq heç bir ilah olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etmək, namazı qılmaq, zəkatı vermək, Ramazan ayının orucunu tutmaq və Beyti həcc etmək"[166].

## Bişr İbn əl-Həris

***– rahmətullahi aleyhi -***

---

[166] Usulu Sünnə 2/546-548.

Əbu Nasir Bişr İbn əl-Həris əl-Mərvəzi, Bişr əl-Həfi kimi tanınan zahid bir kimsədir. Bağdatda H. 227-ci ildə Rabiul Əvvəl ayında vəfat etmişdir[167].

Əbu Hafs Ömər İbn Yəsir əl-Attar, Bişr İbn əl-Hərisin – *rahmətullahi aleyhi* - yazısı olduğunu iddia etdiyi bir səhifə çıxarıb bizlərə verdi və dedi: Bunu əzbərləyin və öyrənin. Beləliklədə imanın əsaslarını öyrənmiş olarsınız. Bunlardan: Bir və tək olan, şəriki olmayan Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin Allahın qulu və Rəsulu olduğuna şəhadət etmək, Rəsulların və Peyğəmbərlərin gətirdiklərini iqrar və qəbul etmək, diliylə söylədiyini, qəlbi ilə qəti olaraq inandığı imanına heç bir şübhə etməyəcəkdir. Tövhid əhli olan hər hansı bir kimsəni bir günah səbəbiylə təkfir etməyəcək, qeyb olan bütün məsələləri Allaha həvalə edəcəkdir. Hər bir şeyin Allahın qəza və qədəri ilə olduğuna, xeyrin və şərin də Allahdan gəldiyini qəbul edəcəkdir. Muhəmmədin – *sallallahu aleyhi və səlləm* – ümmətindən olub gözəl işlər edən bir kimsə üçün ümüd vardır və qazandığı hər hansı bir günah səbəbiylə də onu Cəhənnəmlik görməz. Çünki qullarını dilədiyi yerə qoyan Allahdır. Uca Allahın Peyğəmbərinə – *sallallahu aleyhi və səlləm* – səhabə olsun deyə seçdiyi Sələfin haqqını bilib, Əbu Bəkr əs-Sıddıq, Ömər əl-Faruq, Osman İbn Əffan və Əli İbn Əbu Talibi – *Allah onladan razı olsun* - hamıdan öndə görmək, istər kiçik istərsə də böyük səhabələrdən rəhmətlə söz açar, onların fəzilətindən danışar, aralarında baş verən anlaşılmazlıqlardan bir şey danışmaz. Cümə, iki bayram namazı və Ərafatda olan namazları yaxşı və günahkar hər bir əmirin arxasında qılar. Səfərdə və evdə corablar üzərinə məsh edər, səfərdə namazını qısaldar. Cihad – Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – Peyğəmbər olaraq göndərildiyi gündən zalımın zülmünün və Dəccəl ilə döyüşəcək ən xeyirli topluluq gəlincəyə qədər davam edəcəkdir. Quran Allahın kəlmı və Onun nazil etdiyi kitabdır, yaradılmış

[167] Şəzəratuz Zəhəbi 2/60-62.

deyildir. Alış-veriş sünnətə uyğun olaraq Qiyamətə qədər halaldır. İman – söz və əməldir, artar və əskilər. Cənazə namazında dörd təkbir gətrilir, müsəlmanların rəhbərlərinin islahı üçün dua edər, qılınca əl ataraq onlara qarşı çıxmaz. Fitnələr zamanı döyüşə cıxmayıb evində oturar. Qəbr əzabına, Munkər və Nəkira, Hovuza, şəfaətə və Mizana iman edər. Muvahhidlərdən bir topluluğun Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – gələn xəbərlərdə dediyi kimi Cəhənnəmdən çıxarılacaqlarına da inanar. Biz bunların hamısına iman edər və sünnət əhlinin xüsusiyyətlərindən bəzilərinə Allahın kitabının, Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – hədislərinin və səhabələrinin sözlərini qəbul etmək, bidəti isə tərk etməkdir. Bizlər Allahın söz söylədiyinə, yaratdığına şahidlik edirik. Onun sözü bir söz, yaratması da bir yaratmaqdır. Sözü yaratdıqlarından ayrıdır, yaratdıqları da Onun sözündən ayrıdır. ***"Allah yanında İsa da (İsanın atasız dünyaya gəlmiş də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "(Bəşər) ol!" – dedi, o da oldu". (Ali İmran 59).*** Burada "Ol" buyuruğu yaradılmış deyildir. Həmd heç bir ortağı, bənzəri, oxşarı, ziddi, hökmünə kimsəni şərik etməyən Allaha məxsusdur. Əbu Amr əl-Xattab dedi ki, mən Muhəmməd İbn Yəhyə əz-Zuhrini vəfatından sonra yuxumda gördüm. Ona: "Allah səninlə necə müamələ etdi?" dedim. O: "Mənə və mənim cənazə namazımı qılanlara məğfirət etdi. Mənim kitablarımı İlliyuna qaldırdı və qızıl su ilə yazdı".

## Əli İbn Əl-Mədini

***- rahmətullahi aleyhi -***

Əbul Həsən Əli İbn Abdullah İbn Cəfər İbn Nəcih əs-Sədi əl-Mədini. Bəni Sad nəslindəndir. Bəsrəlidir, hədis hafizi olub bir çox əsərlər təlif etmişdir. H. 161-ci ildə dünyaya gəlmişdir. Tələbələrindən Buxari, Əbu Davud, İbn Məhdi – *rahmətullahi aleyhi* - deyirlər ki: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – hədislərini ən gözəl şəkildə başa düşən birisi olmuşur». Buxari – *rahmətullahi*

*aleyhi* - dedi ki: "Mən İbnul Mədinidən başqa kimsənin qarşısında özümü kiçik görmədim". Əbu Davud – *rahmətullahi aleyhi* - deyir ki: "İbnul Mədini hədis ixtilafını İmam Əhməddən daha yaxşı bilirdi". H. 234-cü ildə 73 yaşında Zülqadə ayında Samirə şəhərinin yaxınlığında yerləşən Katiba əl-Qaka adlanan yerdə dünyasını dəyişmişdir[168].

Lələkai – *rahmətullahi aleyhi* - deyir ki: Bizə Muhəmməd İbn Rızqullah xəbər verdi ki: Bizə Əbu Muhəmməd Cəfər İbn Muhəmməd İbn Nusayr xəbər verdi ki: Bizə Əbu Muhəmməd Abdullah İbn Ğannam İbn Hafs İbn Ğıyas ən-Nəhai dedi ki: Bizə Əbu Səid Yəhyə İbn Əhməd dedi ki: Mən Əbu Abdullah Muhəmməd İbn Abdullah İbn Bastamı belə deyərkən dinlədim: Mən Səhl İbn Muhəmmədi, Əli İbn Abdullah İbn Cəfər İbn əl-Mədiniyə – *rahmətullahi aleyhi* - bunu oxuyarkən dinlədim. Ona dedi ki: Xeyri və şərilə Qədərə iman etmək, Quran Allahın kəlamıdır, yaradılmış deyildir. Onun yaradılmış olmadığını söyləməkdə zəiflik göstərmə. Çünki Əziz və Cəlil olan Allahın kəlamı ondan ayrı bir şey deyildir. O, kəlamın heç bir parças yaradılmış deyildir. Qiyamət günü olan mizana iman edər, Allah Qiyamət günü qulları ilə danışacaq, onları aralarında bir tərcüməçi olmadan hesaba çəkəcək. Buna da iman edilir və təsdiq edilir. Şübhəsiz Qiyamət günündə Rəsulullaha – *sallallahu aleyhi və səlləm* – aid bir Hovuz vardır. Ümməti o, Hovuza gələcəkdir. Uzunluğu bir aylıq məsafə, üzərində olan qabların sayı səmada olan ulduzların sayı qədərdi. Buna da iman edilir. Ümməti qəbirlərində sorğu-sual olunar. Peyğəmbəri – *sallallahu aleyhi və səlləm* – barəsində sual verilir. Munkər və Nəkir Allahın dilədiyi şəkildə onun yanına gələr. Buna da iman və təsdiq edilir. Atəşdə yanıb kömürə döndükdən sonra bir qrup kimsələrin Cəhənnəm atəşindən çıxarılaraq Cənnət qapısında bir çaya salınacağına iman edilir. Bu da Allahın dilədiyi kimi olacaqdır. Məsih Dəccəlin

---

168 Şəzəratuz Zəhəbi 2/81.

gözləri arasında “Kafir” yazılacağına iman etmək. Çünki bu barədə varid olan hədislərlidə bunlar qeyd olunmuşdur. Bunun baş verəcəyinə iman edilir. Məryəm oğlu İsanın nazil olaraq Lud qapısı yanında onu öldürəcəyinə də iman edilir.

İman – sünnətdə doğrunu isbat etmək və niyyət üzərə söz və əməldir. İman artar və əskilər. Möminlər arasında imanı ən mükəmməl kişi əxlaqı etibarıyla ən gözəlidir. Namazın tərk etmək küfürdü. Onu tərk edən bir kimsə kafirdir və öldürülməsi halaldır.

Bu ümmətin ən xeyirlisi Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – sonra Əbu Bəkr, sonra Ömər, sonra Osmandır – *Allah onlardan razı olsun* -. Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – səhabələri arasında bu barədə bir ixtilaf olmadan bu üçünü önə keçirdikləri kimi bir də onları önə keçirərik. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə söhbət edib gözləriylə onu görən, ona iman edən, bir an belə ona səhabəlik edən bir kimsə bu səhabəliyi sayəsində hər cür xeyirli əməlləri etmiş olsalar da belə bütün tabiinlərdən daha fəzilətlidir.

Pis və ya yaxşı imamlara, möminlərin əmirlərinə və insanların icması və istəyi ilə xəlifəlik məqamına keçənləri dinləyib itaət edilməlidir. Allaha və axirət gününə iman edən hər hansı bir kimsə pis və ya yaxşı imam olmadan bir gecə belə keçirməsi halal deyildir. Onların başında olan imam möminlərin əmiridir. İstər pis, istərsə də yaxşı əmirin arxasında döyüşə getmək Qiyamətə qədər tərk edilməz. Feyləri paylaşdırmaq, Hədləri qoymaq,. Sözləri dinlənilən imamların haqlarıdır. Bu bardə kimsənin onlara dil uzatması və ya onlarla anlaşmazlıq və çəkişməyə qalxması haqqı yoxdur. Zəkatını onlara ödəyən kimsə borcundan qurtulmuş və öhdəliyinə düşəcyi yerinə yetirmiş olar. Bu imam pis və ya yaxşı olsun fərq etməz. Belə bir imamın və onun təyin etdiyi kimsənin arxasında namaz caizdir və qılınmış olur. İki rükət qılınır. Buna rəğmən həmən namazı gedib yenidən qılan bidətçidir. İmanı tərk etmiş və müxalif olmuş bir kimsdir. Belə bir kimsə imamın arxasında Cümə namazını qılanmaz deyənlərin görüşündədirsə o,

kimsə Cümənin fəzilətindən heç bir payı yoxdur. Sünnət bunların arxasında namaz qılmağı və bundan ötrü qəlbdə heç bir narahatlıq olmamalıdır. İnsanların ətrafında toplanaraq seçdikləri və ya qələbə yolu ilə xəlifəliyini qəbul etdikləri müsəlman imamlardan hər hansı birinə qarşı çıxan kimsə bu imama qarşı itaətsizlik etmiş, ayrılıq etmiş və bu haqda Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – gəlmiş xəbərlərə müxalif olmuşdur. Əgər bu imama qarşı çıxan kimsə ölürsə cahiliyyə ölümüylə ölür. Sultan ilə vuruşmaq və ona qarşı çıxmaq heç bir kimsəyə halal deyildir. Belə bir şeyi edən kimsə birdətçidir. Sünnət üzərə deyildir. Xaricilər və üsyançılar bir kimsənin canına, malına və ya bundan aşağı olan şeylərinə qəsb etmək istəyərlərsə canını və malını qorumaq üçün onlarla döyüşməsi halaldır. Lakin ondan ayrılıb uzaqlaşarlarsa onları təqib etmə haqqı yoxdur. Onlardan qurtulmuşsa izlərindən getməz. Çünki belə bir iş imamlara aid bir haqdır. O, sadəcə özünü və malını qoruyur. Bu qoruma əsnasında da kimsəni öldürməyi niyyət etməməlidir. Əgər döyüş əsnasında kimsəni öldürərsə Allah öldürmüş kimsəni uzaqlaşdırmış olar. Əgər malını və canını qoruyarkən öldürülərsə şəhid olacağını ümüd edərik. Belə birisinə hədd təyin etməsi düzgün deyildir. Əksinə bunu üzərinə imam təyin edilən kimsəyə təslim edər. Onun haqqında hökm verəcək də odur.

Qiblə əhlindən hər hansı bir kimsə haqqında etdiyi bir əmələ görə Cənnətlik və Cəhənnəmlik olduğuna dair şahidlik etmərik. Bizlər saleh əməl edən haqqında ümüd etdiyimiz kimi günahkar və pis bir kimsə üçün də qorxarıq. Bununla bərabər onun üçün Allahın rəhmətindən ümüd edərik. Cəhənnəmi vacib edən bir günah ilə Allahın hüzuruna o, günahdan tövbə etmiş və onun üzərində israr etmədən qovuşan kimsənin Allah da tövbəsini qəbul edər. Çünki o qulların tövbəsini qəbul edər və günahları əff edər. Etdiyi günah ilə Allahın hüzuruna gedən bir kimsə üçün tətbiq olunan cəza o, günahının kəffarəsidir. Tövbə etmədən və günahda israr edərək Rəbbinin hüzuruna gedən kimsənin işi Allaha

qamışdır. Dilərsə onu cəzalandırar, dilərsə ona məğfirət edər. Allahın hüzuruna şirk ilə gedən bir kimsəni Allah əzab edər və ona məğfirət etməz.

Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – səhabələrindən hər hansı bir kimsənin dəyərini əskiltən və ya ona nifrət edən bir kimsə bidətçidir ta ki, onların hamısından rəhmətlə danışana qədər və qəlbində hamısına qarşı kiçik (cüzi) bir pislik hissləri qalmayana qədər.

Nifaq küfrün özüdür. Bu da içində Allahı inkar edib, ondan başqasına ibadət edən, zahirdə imanı göstərən kimsədir. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – zamanında olan münafiqlər kimi. Aşağıda zikr etdiyimiz hədislər bu əməllərin ağırlığını göstərmək üçündür: Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurur: «Dörd şey vardır ki, bunlar kimdə olarsa o, kimsə xalis münafiqdir. Lakin bu dörd xislətdən biri bir kimsədə olarsa onu tərk edincəyə qədər onda münafiqlikdən bir xislət vardır: **1)** Ona bir şey əmənət edildikdə əmanətə xəyanət edər, **2)** Söz söylədiyi zaman yalan söyləyər, **3)** Söz verdiyi zaman yerinə yetirməz, **4)** Mübahisə etdiyi zaman biyabırçı sözlərə yol verər»[169]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Müsəlmanı söymək fasiqlikdir, onunla vuruşmaq isə küfrdür»[170]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İki müsəlman qılıncları bir-birilə toqquşduqları zaman ölən də öldürülən də Cəhənnəmdədir». Səhabələr: «Ya Rəsulullah! Öldürənin Cəhənnəmdə olduğunu başa düşdük. Bəs öldürülən nəyə görə?» deyə soruşdular. Peyğəmbər: «Çünki o da müsəlman qardaşını öldürməyə can atmışdır» deyə buyurdu[171]. Peyğəmbər - *səllallahu aleyhi və səlləm* – in: «Məndən sonra bir-birinizin boynunu vuran kafirlərin halına bənzəməyin»[172]. Peyğəmbər – *sallallahu*

---

[169] Buxari, Müslim.

[170] Buxari 1/110, Müslim 2/54.

[171] Buxari, Müslim.

[172] Buxari.

*aleyhi və səlləm* – buyurdu: «Hər hansı bir kimsə öz müsəlman qardaşına ey kafir deyə müraciət edərsə bu sözə o, ikisindən biri layiq olar»[173].

Cənnət və Cəhənnəm Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – gələn rəvayətlərdə söylənildiyi kimi yaradılmışdır. Onların yaradılmadığını iddia edən bir kimsə bu rəvayətləri yalan saymışdır. Hətta mən belə bir kimsənin Cənnət və Cəhənnəmə iman etdiyini düşünmürəm. Ayrıca "Şəhidlərin ruhları Cənnətdə dolaşırlar" buyurduğu və bu şəkildə gələn bütün hədislərə biz iman edirik.

Qiblə əhlindən olub Muvahhid və namaz qılan birisi olaraq ölən kimsənin biz də Cənazə namazını qılarıq. Onun üçün məğfirət diləyirik. Kiçik və ya böyük günahına görə namazını qılmağı tərk etmərik. İşi də Allaha qalmışdır. Bir kimsənin Əbu Hureyrəni – *radıyallahu anhu* - sevdiyini, ona rəhmət oxuduğunu görsən o, kimsənin xeyirni ümüd edə bilər və onun bidətdən uzaq olduğunu bilərsən. Birinin Ömər İbn AbdulƏzizi – *rahmətullahi aleyhi* - sevdiyini, onun yaxşılıqlarından söz açıb danışdığını görsən bil ki, bunun arxasında Allahın izniylə bir xeyir gəlir. Bir kimsənin Bəsrə əhlindən Əyyub əs-Sahtiyani, İbn Aun, Yunus və ət-Teymiyə etimat etdiyini, onları sevdiyini, onlardan çox-çox danışdığını, onlara uyduğunu görsən o kimsədən xeyir gözləyə bilərsən[174].

## Əbu Sevr İbrahim İbn Xalid əl-Kəlbi
### *– rahmətullahi aleyhi -*

Əbu Sevr İbrahim İbn Xalid əl-Kəlbi əl-Bağdadi. İraqlı alim, fəqih bir kimsədir. İmam Şəfiinin – *rahmətullahi aleyhi* - İraqlı tələbələrindən və ilk məzhəbini yayanlardandır. Muctəhid, huccət bir imamdır. H. 170-ci ildə anadan olmuşdur. Sufyan İbn Uyeynə, Ubeydə İbn Humeyd, Əbu Muaviyə əd-Darir, Vəki İbn əl-Cərrah,

---

173 Buxari, Müslim.

174 "Şərhu Usuli Etiqadi" 2/185.

İmam Şəfii və başqalarından rəvayət etmiş, eləcə də Əbu Davud, İbn Macə və başqa bir cox hədis alimləri ondan rəvayət etmişlər. Hədisdə siqadır. İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "Elimdə çox yüksək bir dərəcəyə çtmışdır. Mən əlli ildən çox onu Sünnətə bağlı birisi olaraq tanıyıram. Mənə görə o, Sufyan əs-Sovri – *rahmətullahi aleyhi* - kimi saleh bir kimsədir". Həmcinin İmam Əhməddən – *rahmətullahi aleyhi* - bir məsələ baəsində soruşulmuş və demişdir: "Bizdən başqasından soruş, fəqihlərdən soruş, Əbu Sevrdən soruş". H. 240-cı ildə vəfat etmişdir[175].

Ləlәkai – *rahmətullahi aleyhi* - deyir ki: bizə Muhəmməd İbn Rızqullah xəbər verdi ki: Bizə Əhməd İbn Həmdan xəbər verdi ki: Bizə Əbul Həsən İdris İbn AbdulKərim dedi ki: Xorasan əhlində bir kişi Əbu Sevr İbrahim İbn Xalidə – *rahmətullahi aleyhi* - yazdığı məktubda: İmanın mahiyyəti nədir? Artarmı əskilərmi? Sözdürmü, yoxsa həm söz, həm də əməldirmi? Yoxsa söz, təsdiq və əməldirmi? Deyə soruşdu. Cavab: İman qəlb ilə təsdiq, dil ilə iqrar, əzalarla əməl etməkdir. Ona Qədəriyyə kimlərdir? Deyə soruşdu. İmam: "Qədəriyyə - Allah qulların fellərini yaratmamışdır. Allah qullara günahları etməyi təqdir etmədiyi kimi onları yaratmamışdır deyən kimsələrdir. Bunlar Qədəriyyədir. Arxalarında namaz qılınmaz, xəstələndikləri zaman ziyarətinə gedilməz, cənazələrində iştirak edilməz. Bu fikirlərinə görə tövbə etmələri istənilir. Tövbə edərlərsə nə gözəl, əksi təqdirdə boyunları vurulur". Quran məxluqdur deyən kimsələrin araxasında namaz barəsində soruşdum". İmam: "Belə bir kimsə sözünə görə kafir olur. Arxasında namaz qılınmaz. Çünki Quran Allahın kəlamıdır və elm əhli arasında bu haqda heç bir görüş ayrılığı yoxdur. Allahın kəlamı yaradılmışdır deyən bir kimsə kafir olur və Allahın zatında daha öncə olmayan bir şeyin sonradan olmuşdur deyə iddia etmiş olur". Tövhid əhlindən bir kimsə Cəhənnəmdə əbədi

---

[175] Şəzərətuz Zəhəbi 2/93.

olaraq qalacaqdırmı?". İmam: "Bizlər heç bir Muvahhid əbədiyyən Cəhənnəmdə qalmaz deyirik"[176].

## Əhməd İbn Hənbəl
*- rahmətullahi aleyhi -*

Əbu Abdullah Əhməd İbn Hənbəl əş-Şeybani. İmam, Muhəddis, Mutlaq mücdəhid Hicri 164/778-ci il Rəbiul Əvvəl ayında Bağdadda dünyaya göz açmışdır. Atası Muhəmməd İbn Hənbəl otuz yaşında ölmüş, anası Səfiyyə Binti Meymunə böyütmüşdür. Ərəb olub, Şeyban qəbiləsinə mənsubdur və kökü Nizar qəbiləsində Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – kökü ilə birləşməkdədir. Hələ kiçik yaşlarında ikən şəriət elmərini öyrənmiş, sonra təhsilini davam etdirmək üçün Şama, Hicaza, Kufəyə və Yəmənə gələrək burada olan uləma və muhəddislərlə görüşmüş, raviləri taparaq onlardan hədis almışdır. Ömründə beş dəfə həcc etmiş. Bunun üçünü isə piyada həccə getmişdir. İlk dəfə İmam Şəfii – *rahmətullahi aleyhi* - ilə Hicazda tanış olmuş, Yəməndə muhəddis AbdurRazzaq İbn Hammamdan hədis almaq üçün Yəmənə gəlmişdir. Ravilərdən hədislərlə bərabər səhabə və tabiinlərdən gələn bütün rəvayətləri də almışdır. Fiqhi biliklərini və Üsul fiqhini Əbu Yusuf və İmam Şəfiidən almışdır. Qırx yaşından sonra 5000 minə yaxın tələbəyə dərs deyərdi. Tarixdən də bilindiyi kimi bir çox alimlər daima təziqlərə, zülmə məruz qalmışlar. İmam Əhməd – *rahmətullahi aleyhi* - də bu qrupdandır. Abbasilərin xilafəti zamanı *Xalqul Quran* – Quran məxluqdur fitnəsi Mutəzilə əqidəsi və xristian alimi Yuhanna əl-Diməşqi tərəfindən yayılmışdır. Xəlifə Məmunun (813-833) dövründə insanlara, xüsusən də alimlərə bu əqidə zorla qəbul etdirilirdi. H. 218-ci ildə İmam Əhməd, Muhəmməd İbn Nuh, əl-Kavarırı, Sucadə kimi bir qrup alimlər Quran məxluqdur – fikirlərini qəbul

---

[176] "Şərhu Usulu Etiqadi" 2/193.

etmədiklərinə görə zəncirlərlə həps edilərək həpsxanalara atılmışlar. Bu arada Kavarırı, Sucadə bu fikirləri qəbul etdiklərinə görə azadlığa buraxılmışlar. Xəlifə Məmun fikirlərindən dönməyən İmam Əhməd və Muhəmməd İbn Nuhla görüşmək üçün onları həps edilərək hüzuruna gətirilmələrini əmr etmişdir. Lakin bu vaxtı xəlifə dünyasını dəyişmiş, Muhəmməd İbn Nuhda yolda dünyasını dəyişmiş, İmam Əhməd – *rahmətullahi aleyhi* - Bağdada həps edilərək Mötəsimin (833-842) xəlifəliyi dövründə qazı İbn Əbu Duadın təşviqi ilə işkəncələrə məruz qalmışdır. İyirmi səkkiz ay həpsdə yatdıqdan sonra İmam Əhməd azad edilmiş. Bundan sonra iqtidara əl-Vasiq gəlmiş. Onun dövründə də bu fikirlər hökm sürmüşdür. Nəhayət Mutəvəkkil hakimiyyətə gəlmiş və Quran məxluqdur fikirlərinə son qoyularaq yenidən Quran və Sünnə hökm sürməyə başlamışdır. İmam Əhməd – *rahmətullahi aleyhi* - bu çətinlikklərə sinə gələrək səbr etməsi 14 il davam etmişdir. Məşhur hədis alimlərindəndir. Sünnənin atası adını da daşıyır. Rəvayət etdiyi hədislər məşhur "əl-Musnəd" adlı kitabında toplanmışdır. Bu kitabda 14 cilddə 28000 min hədis toplanmışdır ki, bunlarda 750000 min hədisin içindən seçilərək bu kitaba yerləşdirilmişdir. Kitabı səhabələrin rəvayətləri ilə tərtib etmişdir. Əsərdə 904 səhabənin rəvayəti vardır. H. 241/855-ci il Rəbiul Əvvəl ayının 12 cümə günü Bağdadda dünyasını dəyişmişdir. İbrahim əl-Hərbi – *rahmətullahi aleyhi* - deyir ki: "Əhmədi gördüm. Sanki Allah keçmişdə və gələcəkdə yaşayan bütün insanların elmini onda cəm etmişdir". Əbu Zura, Abdullah İbn Əhmədə deyərdi: "Sənin atan miliyon hədis bilirdi". Əli İbn əl-Mədini – *rahmətullahi aleyhi* - deyir ki: "Allah bu dini iddə günü Əbu Bəkr əs-Sıddıq ilə, Mihnə günü isə İmam Əhməd vasitəsilə qorumuşdur".

Lələkai – *rahmətullahi aleyhi* - deyir ki: Bizə Əli İbn Muhəmməd İbn Abdullah əs-Sukəri xəbər verdi ki: Bizə Osman İbn Əhməd İbn Abdullah İbn Bureyd əd-Dəqiqi dedi ki: Bizə Əbu Muhəmməd əl-Həsən İb AbdulVəhhab və ya əl-Əmbəri 293-cü ildə öz kitabından

oxuyaraq dedi ki: Bizə Əbu Cəfər Muhəmməd İbn Suleyman əl-Minkari dedi ki: Mənə Abdus İbn Malik əl-Attar dedi ki, mən Əbu Abdullah Əhməd İbn Muhəmməd İbn Hənbəlin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Bizə görə Sünnətin əsasları bunlardır: Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrinin izlədiyi yola sımsıxı sarılmaq, onlara uymaq və bidətləri tərk etməkdir. Hər bir birdət də əsasən bir sapıqlıqdır. Düşmənləri tərk etmək, həva əhli ilə oturmağı tərk etmək, mübahisələri və dinlə bağlı münaqişələri tərk etməkdir. Sünnət bizə görə Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – gələn nəqillərdir. Sünnət Quranı açıqlayar və Quranın dəlilləridir. Sünnətə qiyas yoxdur. Ona nümunə göstərilməz, ağıllarla, həvalarla idrak edilməz. Sünnət sadəcə tabe olmaq və həvanı tərk etməkdir. Xeyri və şərilə Qədərə iman etmək. Bu haqda varid olan hədisləri təsdiq etmək və onlara inanmaq. Nə üçün və necə demədən bunlar təsdiq edilir və iman gətrilir. Bir hədisin təfsirini bilməyən və ya ağlıyla onu qavrayamayan bir kimsə bu xüsusda mükəlləfiyət altında deyildir. Belə bir kimsə buna iman edib, ona təslimiyyət göstərməklə yükümlüdür. *əs-Sadiq vəl-Məsduq* – hədisi və buna bənzər qədərə dair digər hədislərdə olduğu kimi.

Qiyamət günü Rəbbimizi görəcəyimizə dair bütün hədislər də belədir. Bunlar qulaqlara qəribə gəlsədə, bunları eşidən, bunlardan təəccüblənsən belə bu hədislərə iman etmək, onların birini belə rədd etməmək. Qədər, Allahı görmək, Quran və bunlara bənzər məsələlərdə Sünnətdə varid olan hədislər barəsində mübahisə etmək məkruhdur, qadağandır. Bu şəkildə hərəkət edən bir kimsə mübahisəni tərk edib təslimiyyət göstərmədikcə Əhli Sünnətdən olmaz.

Gələn rəvayətlərə iman edilir, Quran Allahın kəlamıdır, yaradılmış deyildir. Quran yaradılmamışdır deməkdə heç vaxt zəiflik göstərmə. Çünki Allahın kəlamı Allahdandır. Allahın kəlamından yaradılmış heç bir şey yoxdur. Əsla bu barədə daha öncə söylənməmiş fikirləri irəli sürən, ləfz və başqa şeylər haqında

danışanlarla mübahisə etmə. Quran barəsində bir şey söyləməyərək yaradılmışdırmı, yoxsa yaradılmamışdırmı bilmirəm? Deyən kimsələrlə də mübahisə etmə. O, Allahın kəlamıdır, yaradılmamışdır. Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – rəvayət edilən səhih hədislərdə deyildiyi kimi Qiyamət günüdə Allahın görülməsinə də iman etməlidir.

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Rəbbini görmüşdür və bu Peyğəmbərdən səhih olaraq rəvayət edilmişdir. Bunu Qatadə, İkrimədən, o da İbn Abbasdan – *radıyallahu anhu* - rəvayət etdiyi kimi əl-Həkə İbn Əban, İkrimədən, o da İbn Abbasdan – *radıyallahu anhu* - rəvayət etmişir. Əli İbn Zeyd, Yusuf İbn Mehrandan, a da İbn Abbas – *radıyallahu anhu* - yolu ilə rəvayət etmişdir. Bizə görə hədis Peyğəmbərə – *sallallahu aleyhi və səlləm* – gəldiyi kimi zahiri üzərə başa düşülür. Onun haqqında söz söyləmək də bidətdir. Biz ona gəldiyi şəkildə zahirinə görə iman edirik və bu barədə kimsəylə mübahisə etmərik.

Qiyamət günü qulların əməlləri tərəzidə çəkiləcəyinə iman edir və bunu təsdiq edirik. Uca Allah Qiyamət günündə qulları ilə aralarında heç bir tərcüməçi olmadan danışacaqdır. Buna da iman etmək və təsdiq etmək lazımdır. Rəsulullahın – *sallallahu aleyhi və səlləm* – Qiyamət günü Hovuzunun olduğuna, ümmətinin o Hovuza gələcəyinə, eni bir aylıq məsafə olduğuna, üzərindəki qabların səmadakı ulduzların sayı qədər olduğuna iman edirik.

Qəbr əzabına, bu ümmətin qəbirlərində sorğu sual ediləcəyinə, imana, İslama, Rəbbinin və Peyğəmbərinin – *sallallahu aleyhi və səlləm* – kim olduğuna dair sual soruşulacağına, bir kimsənin qəbrində Munkər və Nəkirin Uca Allahın dilədiyi və murad etdiyi şəkildə gələcəyinə iman və təsdiq edirik.

Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – şəfaətinə, bir topluluğun yanıb kömür olduqdan sonra Cəhənnəm atəşindən çıxarılaraq Allahın dilədiyi kimi və dilədiyi şəkildə Cəhənnəm qapısındakı çaylara salınacaqlarına da iman edərik.

Məsif Dəccəlin mütləq çıxacağına, gözləri arasında "Kafir" yazılacağına, haqqında varid olan hədislərə və bunların həqiqət olacağına, Mərəm oğlu İsanın - *əleyhissəlam* - nazil olaraq onu Lud qapısında öldürəcəyinə iman etmək lazımdır.

İman – söz və əməldir, artar və əskilər. Hədisdə deyildiyi kimi: "Möminlərin iman baxımından ən kamil olanları əxlaq etibarıyla ən gözəl olanlardır". Namazı tərk edən kimsə kafir olur. Namazdan başqa tərk edilməsi küfr olan başqa bir əməl yoxdur. Onu tərk edən kafir olur və Allah onun öldürülməsini halal etmişdir.

Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – sonra bu ümmətin ən xeyirlisi Əbu Bəkr əs-Sıddıq, sonra Ömər İbn Xattab, sonra Osman İbn Əffandır – *Allah onlardan razı olsun* -. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələri bu haqda hər hansı bir anlaşılmazlıq olmadan bu üçünü önə keçirdikləri kimi biz də onları irəli keçirməliyik. Sonra bu üçünün ardıyca şurada olan beş nəfər gəlir. Bunlar da Əli İbn Əbu Talib, Təlhə, Zubeyr, AbdurRahman İbn Auf və Saddır – *Allah onlardan razı olsun* -. Hamısı da Xəlifə olabiləcək kimsələrdir və hamısı da imamdır. İbn Ömərin – *radıyallahu anhu* - dediyi kimi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həyatda ikən və səhabələrinin çoxu sağ ikən bizlər öncə Əbu Bəkri, sonra Öməri, sonra Osmanı – *Allah onlardan razı olsun* - sayar və sonra da susardıq. Şura səhabələrindən sonra Mühacirlərdən olub Bədirdə iştirak edənlər, sonra ənsardan olub Bədirdə iştirak edənlər, sonra da hicrət və birinciliklərinə görə fəzilətli qəbul edərik. Kimisi onunla bir il, kimisi bir ay, bir gün, bir an söhbət etmiş və ya onu sadəcə görmüşdür. Hamısı da onn səhabələrindəndir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə söhbət edən, onu görən, ondan bir şeylər eşidən, gözləriylə onu görüb ona iman edənlər səhabə olması səbəbiylə istər bütün xeyir əməlləri etmiş olsunlar bütün Tabiinlərdən daha fəzilətlidir.

İmamlara, yaxşı və ya günahkar olsun möminlərin əmrinə və Xəlifəlik vəzifəsinə gəlib insanların ətrafında toplanıb xəlifəliyinə

razı olduqları kimsələrə itaət və dinləmək lazımdır. Qılıncıyla onlara qələbə çalıb nəhayət xəlifə olan və möminlərin əmiri deyə adlandırılan kimsəyə də dinləyib itaət etmək lazımdır. Günahkar və ya yaxşı olsun bütün əmirlərlə döyüşə çıxmaq Qiyamət gününə qədər davam edər və tərk edilməz. Qənimətin paylaşdırıl-ması və hədlərin tətbiq edilməsi imamların vəzifəsidir. Bu belədir, bir kimsənin bu barədə onlara dil uzatması ya da onlarla çəkişmə haqqı yoxdur. Onlara zəkatları vermək caizdir. Zəkatını onlara verən bir kimsənin zəkatı öz yerini tapar. Əmirləri və onların təyin etdikləri kimsələrin arxasında cümə namazı qılmaq caizdir və iki rükət qılınır. Kim bu iki rükəti qaytararsa (yenidən qılarsa) bidətçidir. Bu barədə rəvayətləri tərk etmiş və sünnətə müxalif olmuşdur. İstər yaxşı istərsə də pis imamlar arxasında namaz qılmağı uyğun görməyən kimsə cümənin fəzilətindən heç bir şey əldə etməz. Sünnət bu namazın onlarla birlikdə iki rükət qılmasıdır. Bu iki rükəti qaytaran kimsə bidətçidir. İki rükət qıldığı zaman tam olduğuna və bu barədə qəlbində hər hansı bir şübhə olmamalıdır.

İnsanlar istər könül xoşluğuyla, istərsə də qalib gəldiyi üçün xəlifəliyini qəbul edib ətrafında toplanmış olduqları müsəlmanların imamına qarşı çıxan bir kimsə müsəlmanların birliyini parçalamış və Rəsulullahdan – *sallallahu aleyhi və səlləm* – gələn rəvayələrə müxalif olmuşdur. Əgər bu Qiyam qaldıran öləcək olarsa cahiliyyə ölümü ilə olmüş olar. Sültan ilə döyüşmək halal olmadığı kimi, hər hansı bir kimsənin ona qarşı çıxması da halal deyildir. Kim belə edərsə o sünnətdən və doğru yoldan çıxan bidətçidir.

Oğru və Xuruc edənlərlə döyüşmək - bir kimsənin canına və malına qəsd varsa – caizdir. Belə bir kimsə öz canını və malını qorumaq üçün döyüşə bilər və gücü çatdığı hər bir şeylə müdaiə oluna bilər. Bu oğru və qiyam qaldıran o kimsədən ayrılıb və ya onu tərk edəcək olarsa onların ardıyca getməz, onların izlərini təqib etməz. Bunu yalnız imam və ya müsəlmanların rəhbərləri edə

bilər. O, kimsənin olduğu yerdə özünün müdafiə etməsi və var gücüylə kimsəni öldürməməyi niyyət etməsi lazımdır. Əgər mübarizə əsnasında kimsəni öldürərsə Allah öləni uzaqlaşdırmış olar. Lakin öz canını və malını qoruyarkən öldürülərsə hədislərdə keçdiyi kimi şəhid olduğu ümüd edilir. Bu barədə olan rəvayətlər yalnız onunla mübarizə aparmağı, öldürməyi və arxasından təqib etməyi əmr etmir. Əgər yerə yıxılarsa və yaralanarsa onu öldürməz. Əsir olaraq götürərsə yenə də öldürməz, həd də tətbiq etmək. Onun barədə Uca Allahın təyin etdiyi əmirlərə xəbər verər, onlar da onun barəsində hökm verirlər.

Qiblə əhlindən kimsəni etdiyi bir əməl səbəbiylə onun Cənnətlik və ya Cəhənnəmlik olduğuna şəhadət etməz. Bununla bərabər saleh kimsə üçün ümüd bəslər və qorxar, günahkar və pislik edən kimsə üçün də qorxar, Allahın rəhmətini də onun üçün ümüd edər. Bir kimsə Cəhənnəmi haqq edən günaha görə tövbə edər və o günah üərində israr etmədən Allahın hüzuruna çıxacaq olursa Allah onun tövbəsini qəbul edər. O qullarının tövbəsini qəbul edən, günahları bağışlayandır. Bu günaha görə dünyada ikən ona hədd tətbiq olunduğu halda Allahın hüzuruna çıxan kimsəyə gəldikdə isə o həd Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – gələn rəvayətlərdə olduğu kimi onun günahına kəffarə olar. Cəzalanmağı haqq edən günahdan tövbə etmədən, günahının üzərində israr edərək Allahın hüzuruna gedərsə işi Allaha qalmışdır. Allah istəsə onu əzab verər, istəsə məğfirət edər. Kim də kafir olaraq Allahın hüzuruna çıxarsa Allah onu cəzalandırar, məğfirət etməz. Muhsin olduğu halda zina edən bir kimsə zina etdiyini etiraf edər və ya zina etdiyinə dair ona qarşı dəlil ortaya qoyularsa rəcm ediməsi haqdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – rəcm etdiyi kimi Rəşidi xəlifələr də rəcm etmişlər.

Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrindən hər hansı bir kimsənin dəyərini alçaldan, etdiyi hər hansı bir işdən ötrü ona nifrət edən və ya pisliklərini dilinə gətirən kimsə hamısına

rəhmət oxumadıqca və onlara qarşı qəlbində olan bütün pis hissləri silmədikcə bidətçi bir kimsədir.

Münafiqlik küfrün özüdür. Münafiqlik bir kimsəni Allahı inkar etməsi və Ondan başqasına ibadət etməsi, bununla bərabər zahirdə müsəlman olduğunu göstərməsidir. Peyğəmbərin zamanındakı münafiqlər kimi. Bu hədislədən: Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurur: «Dörd şey vardır ki, bunlar kimdə olarsa o, kimsə xalis münafiqdir. Lakin bu dörd xislətdən biri bir kimsədə olarsa onu tərk edincəyə qədər onda münafiqlikdən bir xislət vardır: **1)** Ona bir şey əmənət edildikdə əmanətə xəyanət edər, **2)** Söz söylədiyi zaman yalan söyləyər, **3)** Söz verdiyi zaman yerinə yetirməz, **4)** Mübahisə etdiyi zaman biyabırçı sözlərə yol verər»[177]. İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Müsəlmanı söymək fasiqlikdir, onunla vuruşmaq isə küfrdür»[178]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «İki müsəlman qılıncları bir-birilə toqquşduqları zaman ölən də öldürülən də Cəhənnəmdədir». Səhabələr: «Ya Rəsulullah! Öldürənin Cəhənnəmdə olduğunu başa düşdük. Bəs öldürülən nəyə görə?» deyə soruşdular. Peyğəmbər: «Çünki o da müsəlman qardaşını öldürməyə can atmışdır» deyə buyurdu[179]. Peyğəmbər - *səllallahu aleyhi və səlləm* – in: «Məndən sonra bir-birinizin boynunu vuran kafirlərin halına bənzəməyin»[180]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər hansı bir kimsə öz müsəlman qardaşına ey kafir deyə müraciət edərsə bu sözə o, ikisindən biri layiq olar»[181]. Bu hədisləri təslimiyyətlə qəbul edərik. Onlar barəsində söz söyləməz və mübahisə etmərik. Bu hədislər gəldikləri kimi təfsir edilir və bunları yalnız onlarda olan haqqa görə açıqlayarıq.

---

[177] Buxari, Müslim.

[178] Buxari 1/110, Müslim 2/54.

[179] Buxari, Müslim.

[180] Buxari.

[181] Buxari, Müslim.

Cənnət və Cəhənnəm Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – gələn rəvayətlərdə olduğu kimi yaradılmışdır. "Cənnətə girdim orada bir köşk gördüm", "Orada Kövsəri gördüm", "Cənnətə baxdım, oranın əhalisinin çoxu filan və filankəsləri gördüm", "Cəhənnəmə baxdım oranın çoxsunu filankəslər filankəslər gördüm" və s. Cənnət və Cəhənnəmin yaradılmamış olduğunu iddia edən bir kimsə Quranı və Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – hədislərini yalanlamış olar. Belə bir kimsənin Cənnətə və Cəhənnəmə də iman eməsini zənn etmirəm.

Qiblə əhlindən olub Muvahhid olaraq ölən bir kimsənin cənazə namazı qılınır. Onun üçün məğfirət dilənilir və namazı kiçik və ya böyük olsun etdiyi hər hansı bir günah səbəbiylə qılınır. İşi də Allaha qalmışdır.

## Tövhid Barəsində Etiqadı

İmam Əhmədə – *rahmətullahi aleyhi* - təvəkkül barəsində sual verildi. O, dedi: "Çətin vəziyyətdə olsan da belə yaradılmışlardan ümüd kəsmək"[182].

İmam Əhməd – *rahmətullahi aleyhi* - dedi: "Əziz və Cəlil olan Allah əzəldən bəri Mutəkəllimdir. Quran da Əziz və Cəlil olan Allahın kəlamıdır. O, heç bir vəchlə yaradılmamışdır. Allah özünü vəsf etdiyindən artıq heç bir şeylə vəsf etmək olmaz"[183].

İbn Əbu Yəla, Əbu Bəkr əl-Mərvəzidən rəvayət edir ki, İmam Əhmədə – *rahmətullahi aleyhi* - Cəhmiyyənin rədd etdiyi Allahın sifətlərinə, onun görülməsinə, İsraya və Ərşə aid hədislər

---

[182] "Təbəqatul Hənəbilə" 1/416.

[183] Hənbəli İbn İshaq İbn Hənbəli İbn Hilal İbn Əsəd, Abu Əli əş-Şeybani, İmam Əhmədin Dayısı oğludur. Xatib Bağdadi – *rahmətullahi aleyhi* - deyir ki: "Etibalı ravidir". 273-cü ildə dünyasını dəyişmişdir. "Tarix Bağdadi" 8/286,287, "Təbəqatul Hənəbilə" 1/143, "Kitabul Mihnə" s. 68.

barəsində sual verdim və hamısının da səhih olduğunu söylədi və dedi: "Ümmət bu hədisləri qəbul və təsdiq etmişdir. Bu hədislər (Peyğəmbərdən) gəldiyi kimi də qəbul edilir"[184].

İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "Allahın danışmadığını iddia edən bir kimsə kafirdir. Biz yalnız bu hədisləri gəldiyi kimi rəvayət edirik"[185].

Ləlәkai, Hənbəlidən rəvayət edir ki, İmam Əhməddən – *rahmətullahi aleyhi* - Allahı görmək barəsində sual verildikdə bu cavabı verdi: "Bunlar səhih hədislər olub, bizlər bunlara iman edər və onları iqrar və qəbul edərik. Eyni zamanda Peyğəmbərdən – *sallallahu aleyhi və səlləm* – səhih sənədlərlə rəvayət edilən bütün hədislərə də iman edər və onları qəbul edərik"[186].

İbnul Cevzi "Mənakibu İmam Əhməd" adlı əsərində İmam Əhmədin Musəddədə[187] yazdığı məktubunda bu ifadələr yer alır: "Uca Allah öz zatını nə ilə vəsf etmişsə siz də elə vəsf edin. Öz zatı haqqında nəyi rədd etmişsə siz də Allahdan onların uzaq olduğunu söyləyin"[188].

İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "O – Cəhm İbn Səffan – Allahın kitabında öz zatını vəsf etdiyini və ya Peyğəmbərinin – *sallallahu aleyhi və səlləm* – Onu vəsf etdiyi hər hansı bir sifət ilə vəsf edən kimsənin kafir olduğuna və Müşəbbihə olduğunu iddia etmişdir"[189].

---

184 "Təbəqatul Hənəbilə" 1/56.
185 "Kitabu Sunnə" s. 71.
186 "Şərhu Usuli Etiqadi" 2/507.
187 Musəddəd İbn Musərhəd İbn Musərbəl əl-Əsədi əl-Bəsri. Zəhəbi – *rahmətullahi aleyhi* - deyir ki: "İmam, hafiz, hüccətdir. H. 228-ci ildə dünyasını dəyişmişdir. ""Siyeru Aləmin ən-Nubəla" 10/59, "Təhzibut Təhzib" 10/107.
188 "Mənakibu İmam Əhməd" s. 221.
189 "Rəddu Alə Cəhmiyyə" s. 104.

İbn Teymiyyə “əl-Aqli vən-Nəqli” kitabında İmam Əhmədin – *rahmətullahi aleyhi* - bu sözlərini rəvayət edir: “Hər hansı bir hədd, təsvir etmədən, göstərmədən Allahın Ərşin üzərində dilədiyi şəkildə və dilədiyi kimi olduğuna iman edərik. Allahın sifətləri Ondandır və Ona aiddir. O, öz zatını vəsf etdiyi kimidir. Gözlər Onu idrak etməz”[190].

İbn Əbu Yəla, İmam Əhmədin– *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: “Allahın Axirətdə görülməyəcəyini iddia edən bir kimsə kafirdir və Quranı yalan sayan bir kimsədir”[191].

İbn Əbu Yəla, Abdullah İbn Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: “Mən Atama: Allah Musa - *əleyhissəlam* - ilə danışdıqda səs ilə danışmadı – deyən topluluq barəsində sual verdim. Atam dedi: “Allah bir səs ilə danışdı və biz hədisləri (Peyğəmbərdən) gəldiyi kimi rəvayət edərik”[192].

Ləlakai, Abdus İbn Məlik əl-Attardan rəvayət edir ki, Abdullah İbn Hənbəlin belə dediyini dinlədim: “...Quran Allahın kəlamıdır, yaradılmış deyildir. Əsla o yaradılmamışdır deməkdə yumşaqlıq/zəiflik göztərmə. Çünki Allahın kəlmı Ondandır. Onun da heç bir şeyi yaradılmış deyildir”[193].

## Qədər Barəsində Etiqadı

İbnul Cevzi “Mənakib” əsərində İmam Əhmədin, Musəddədə yazdığı məktubu zikr edərək bu ifadələri qeyd edir: “Xeyriylə

---

[190] “əl-Aqli vən-Nəqli” 2/30.
[191] “Təbəqatul Hənəbilə” 1/59, 145.
[192] “Təbəqatul Hənəbilə” 1/185.
[193] “Şərhu Usuli Etiqadi” 1/157.

şəriylə, acısı və şiriniylə qədərin Allahdan olduğuna iman edərik"[194].

Xəlləl, Əbu Bəkr əl-Mərvəzidən belə ediyini rəvayət edir: Əbu Abdullaha soruşulan bir suala: Xeyir və şər qullar haqqında təqdir edilmişdir – dedi. Ona: "Allah xeyir və şəri yaratmışdırmı?" dedilər. İmam: "Bəli, həm də onu Allah təqdir etmişdir" deyə cavab verdi[195].

İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "Xeyri və şəriylə, acısı və şirini ilə, azı və çoxu ilə, gizli və aşkar olanı ilə, sevimli və sevimli olmayan, pisi və yaxşısı ilə, birinci və axırıncı (əvvəli və axırı) ilə Allahın qədəriləd ir. O, qulları haqqında belə hökm vermiş və belə təqdir etmişdir. Onlardan heç kimə Allahın diləməsindən kənara çıxa bilməz. Heç bir kimsə Onun Qəza və hökmünü aşıb qaça da bilməz"[196].

Xəllal, Muhəmməd İbn Əbi Harundan, o da Əbul Hərisdən belə dediyini rəvayət edir: Əbu Abdullahın belə dediyini dinlədim: Əziz və Cəlil olan Allah itaəti və üsyanları təqdir etdiyi kimi xeyri və şəridə təqdir etmişdir. Xoşbəxt olaraq yazılmış bir kimsə xoşbəxtdir, bədbəxt olaraq yazılmış bir kimsə də bədbəxtdir"[197].

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - dedi ki, Əli İbn Cəhmin ona: Qədəriyyə görüşünü qəbul edən kimsə kafir olurmu? Deyə soruşduğu suala atamın belə cavab verdiyini gördüm: "Əgər Allahın elmini inkar edərək "Allah Alim deyildir", o vaxta qədər ki, Elmi yaratdı və bununla bilmiş oldu" deyib Allahın əzəli elmini inkar edərsə kafir olar"[198].

---

194 "Mənakibu İmam Əhməd" s. 169-172.
195 Xəllal "Sunnə" vr. 85.
196 "Sunnə" s. 68.
197 Xəllal "Sunnə" vr. 85.
198 "Sunnə" s. 119.

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: “Atamdan Qədəriyyəyə mənsub bir kimsnin arxasında namaz qılmağa nə deyirsən?” deyə soruşulduqda atam: “Əgər bu mövzuda mübahisə edən və buna dəvət edən biridirsə arxasında namaz qılma”[199].

## İman Barəsində Etiqadı

İbn Əbu Yəla, İmam Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: “İmanın ən fəzilətli xüsusiyyətlərindən Allah üçün sevmək və Allah üçün nifrət etmkdir”[200].

İbnul Cevzi, İmam Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: “İman bu hədisdə deyildiyi kimi artar və əskilər. “İman baxımından möminlərin ən kamil olanı əxlaqı ən gözəl olandır”[201].[202].

əl-Xəlləl, Suleyman İbn Əşasdan[203] rəvayət edir ki, Əbu Abdullah dedi ki: “Namaz, zəkat. Həcc və yaxşı əməllər imandandır. Günahlar da imanı azaldır”[204].

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - deyir ki, atamdan: “İman – söz və əməldir, artar və əskiər deyib istisna (İnşəallah mən mömінəm) deməyən kimsə Murciyədirmi?” deyə soruşdum. İmam: “Ümid edirəm ki, Murciyə deyildir”. Mən atamın belə dediyini də dinlədim: “İstisna etməyən kimsələrə dəlil

---

[199] “Sunnə” 1/384.
[200] “Təbəqatul Hənəbilə” 2/275.
[201] Əhməd “Musnəd” 2/250, Əbu Davud 5/60/H. 4682, Tirmizi 3/466/H. 1162, əl-Albani “Həsən Səhih”.
[202] “Mənakibu İmam Əhməd” s. 173, s. 153, 168.
[203] Suleyman İbn Əşas İbn İshaq əs-Sicistani. “Sünən” əsərinin müəllifidir. Zəhəbi deyir ki: “İmam, olduqca sağlam və hafizəli bir kimsədir”. H. 275-ci ildə vəfat etmişdir. “Təzkiratul Huffaz” 2/591, “Tarixu Bağdadi” 9/55.
[204] əl-Xəlləl “Sunnə” vr. 96.

Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – qəbirdəkilərə: "İnşəallah! Biz də sizə qovuşacağıq" deyə buyurmasıdır[205].[206].

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - dedi ki, atamdan Murciyə barəsində sual soruşulduqda dedi: "Biz deyirik ki: İman – söz və əməldir, artar və əskilər. Bir kimsə zina edər, içki içərsə imanı əskilər"[207].

## Səhabələr Barəsində Etiqadı

İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: "Sünnətin əsaslarından biri də Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – bütün səhabələrinin gözəlliklərini dilə gətirmək (bu barədə danışmaq), onların qüsurlarını danışmaqdan və aralarında baş verən anlaşılmazlıqları dilə gətirməkdən çəkinməkdir. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrindən hər hansı birini söyən bir kimsə bidətçi, pis və kobud bir Bidətçidir, mədəniyyətsizin biridir. Allah ondan nə bir nafilə, nə də fərz qəbul etməz. Əksinə onları sevmək sünnət, onlara dua etmək Allaha yaxınlaşdırıcı bir əməl, onlara tabe olmaq (Allahın razılığnı) qazandıran bir yol, onların izlərini təqib etmək (yəni onlardan gələn əsərləri qəbul etmək) fəzilətdir". Daha sonra: "Dörd xəlifədən sonra yerdə qalan bütün səhabələr insanların ən xeyirliləridir. Hər hansı bir kimsənin onların pisliklərini söz etməsi, hər hansı bir qüsur və naqislik səbəbilə onlardan birinə dil uzatması qadağandır. Kim belə bir şey edərsə əmirin onu cəzalandırması vacibdir və belə bir kimsəni bağışlaması da caiz deyildir və ya haqqı yoxdur"[208].

---

[205] Müslim 974.
[206] Abdullah "Sunnə" 1/307-308.
[207] Abdullah "Sunnə" 1/307.
[208] İmam Əhməd "Sunnə" s. 77-78.

İbnul Cevzi, Əhmədin – *rahmətullahi aleyhi* - Musəddədə yazdığı məktubunda bu ifadələr olduğunu qeyd edir: "Əbu Bəkr, Ömər, Osman, Əli, Təlhə, Zubeyr, Sad, Səid, AbdurRahman İbn Auf, Əbu Ubeydə İbn Cərrahdan – *Allah onlardan razı olsun* - ibarət olan on nəfərin Cənnətlik olduğuna şahidlik et! Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – Cənnətlik olduğu kimsələrin Cənnətlik olduqlarına biz də şahidlik edirik"[209].

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - dedi ki, atamdan imamlar barəsində sual soruşdum o dedi: "Öncə Əbu Bəkr, sonra Ömər, sonra Osman, sonra Əlidir – *Allah onlardan razı olsun* - "[210].

Abdullah İbn Əhməd – *rahmətullahi aleyhi* - dedi ki, atamdan: "Əli – *radıyallahu anhu* - Xəlifə deyildir" deyən kimsə barəsində soruşdum o: "Bu yaramaz və rədd edilən bir sözdür" dedi[211].

İbnul Cevzi, İmam Əhməddən – *rahmətullahi aleyhi* - rəvayət edir ki: "Hər kim Əlinin – *radıyallahu anhu* - xəlifəliyini qəbul etməzsə (təsdiq etməzsə) öz eşşəyidən də azğın bir kimsədir"[212].

İbn Əbu Yəla, İmam Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: "Əlinin – *radıyallahu anhu* - dördüncü xəlifə olduğunu qəbul etməyən bir kimsə ilə danışmayın və ona qız da verməyin"[213].

## Kəlam Barəsində Sözləri

---

209 İbnul Cevzi "Mənakibu İmam Əhməd" s. 175.

210 "Sunnə" s. 235.

211 "Sunnə" s. 235.

212 "Mənakibu İmam Əhməd" s. 163.

213 "Təbəqatul Hənəbilə" 1/45.

İbn Batta, Əbu Bəkr əl-Mərvəzidən rəvayət edir ki, Əbu Abdullahın belə dediyini dinlədim: "Kim kəlamla məşğul olarsa müvəffəq olmaz və kəlamla məşğul olanın Cəhmi olması uzaq deyildir"[214].

İbn Abdul Bərr, İmam Əhmədin belə dediyini rəvayət edir: "Kəlamla məşğul olan kimsə müvəffəq olmaz və kəlamla məşğul olub qəlbində rahatlıq tapan kimsəni heç görməzsən"[215].

əl-Hərəvi, Abdullah İbn Əhməddən – *rahmətullahi aleyhi* - rəvayət edir ki, atam Ubeydullah İbn Yəhyə İbn Hakana[216] bunları yazdı: "Mən kəlamla məşğul olan bir kimsə (kəlam əhli) deyiləm və mən Allahın kitabında və Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – hədislərində olanlardan başqasını da məqsədəuyğun (faydalı) görmürəm. Bunlardan qeyri şeylər barəsində söz söyləmək isə təriflənən bir şey deyildir"[217].

İbnul Cevzi, Musa İbn Abdullah ət-Tarsusidən rəvayət edir ki, İmam Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini dinlədim: "Kəlam əhli sünnəti müdafiə etsələr belə onlarla oturmayn"[218].

İbn Batta, Əbul Harik əs-Sayığdan rəvayət edir ki: "Hər kim kəlamı sevərsə qəlbindən çıxmaz. Sən kəlamla məşğul olan bir kimsəni heç vaxt müvəffəq olduğunu görməzsən"[219].

---

[214] "əl-İbanə" 2/538.
[215] "Camiul Bəyanil Elm" 2/95.
[216] Əbul Həsən Ubeydullah İbn Yəhyə İbn Hakan ət-Turki əl-Bağdadi. Zəhəbi – *rahmətullahi aleyhi* - deyir ki: "Mutəvəkkil və Mutəamidə yanında vəzirlik etmişdir. Böyük bir vəzirdir. Olduqca comərd və alicənab bir kimsə idi". H. 263-cü ildə vəfat etmişdir. Zəhəbi "Siyer" 13/9, "Təbəqatul Hənəbilə" 1/204.
[217] "Zəmmul Kəlam" vr. 219.
[218] "Mənakibu İmam Əhməd" s. 205.
[219] əl-İbanə 2/539.

İbn Batta, Ubeydullah İbn Hənbəldən rəvayət edir ki, atam mənə dedi ki: "Əbu Abdullahın belə dediyini dinlədim: "Sünnətə və hədislərə sarılın, Allah da sizə xeyir verər. (dini) mövzulada münaqişələrə vararaq dərinliyə dalma, kəlamı sevən heç vaxt müvəffəq olmaz. Kim kəlam ilə məşğul olarsa sonda bidətlərə düşər. Çünki kəlam xeyirə çağırmaz. Mən kəlamı və mübahisni sevmirəm". Sizlərə sünnətə, əsərlərə və fayda aldığınız fiqhə sarılmağı tövsiyə edirəm. Mübahisələri və şübhəli olan kimsələrin sözlərini tərk edin. Bizim bildiyimiz kimsələr bu cür şeyləri bilməz və kəlamdan da uzaq idilər. Kəlamın aqibəti (sonu) xeyir deyildir. Allah bizi də sizi də fitnədən qorusun. Biziləri də sizləri də həlaka aparan hər bir yoldan qorusun"[220].

İbn Batta, İmam Əhmədin – *rahmətullahi aleyhi* - belə dediyini rəvayət edir: "Bir adamın kəlamı sevdiyini görsən ondan uzaq ol!"[221].

İmam Əhmədin – *rahmətullahi aleyhi* - Musəddəd İbn Musərhədə göndərdiyi məktubda deyilir: Allah bizi və sizi razı olduğu şeylər üzərində sabit etsin və qəzəb etdiyi hər şeydən qorusun. Bizi və sizi Onu bilənlərin və Ondan qorxanların əməlləri kimi əməl etməyə müvəffəq etsin! Sizə və öz nəfsimə Uca Allahı təqvasını, Sünnət və Cəmaata sarılmağı tövsiyə edirəm. Buna müxalif olanların başına nə gəldiyini bilirsiniz. Sizə heç bir şeyi Allahın kəlamı olan Quranın qarşısına keçirməməyi əmr edirəm. Allahın kəlamı məxluq deyildir. Keçmiş zamana dair verilən xəbərlər məxluq deyildir. Lövhi Məhfuzda olan şeylər məxluq deyildir. Məxluqdur deyən Allaha küfr etmişdir. Bunlara təkfir etməyənlər kafirdir. Qurandan sonra Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – sünnəti, səhabələrinin və onlardan sonra da Tabiinin rəvayət etdikləri gəlir. Peyğəmbərlərin gətirdiklərini təsdiq etməklə

---

[220] əl-İbanə 2/539.
[221] əl-İbanə 2/539.

məhsuluq. Sünnətə tabe olmaq qurtuluşdur. İman - söz və əməldir, artar və əskilər. Yaxşılıq etdiyin zaman artar, pislik etdiyin zaman da azalır. Kişi İslamdan imana çıxar və tövbə etdiyi zaman təkrar imana qayıdar. ***Laqeyidlik və tənbəllik səbəbilə fərzləri tərk edənlərin işləri Allaha qalmışdır.*** Dilərsə əff edər, dilərsə əzab edər. Xeyir və Şərilə bərabər qəza və qədərə iman edərik. Şirini və acısı da Allahdandır. Cənnətin nemətləri daimidir, Cənnətin daimi olmadığını söyləyən kafirdir. Allah Cəhənnəm və Cənnətin əhlini də yaratdı. Cəhənnəmin əzabı da daimidir. Allah bir topluluğu Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – şəfaəti ilə Cəhənnəmdən çıxaracaqdır. Cənnət xalqı Rəblərini gözləriylə görəcəklər. Allah Musa - *əleyhissəlam* - ilə danışdı. İbrahimi Özünə dost etdi. Mizan haqdır, Sırat haqdır, Peyğəmbərlər haqdır, Məryəmin oğlu İsa Allahın qulu və Rəsuludur, Hovuz və Şəfaətə iman edərik. Ərş və Kursiyə iman edərik. Sura üfürülməsinə iman edərik. Sur İsraflin üfürdüyü buynuzdur. Mədinədə olan və yanında Əbu Bəkr və Ömərin bilinən qəbri Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – qəbridir. Qulların qəlbləri Allahın barmaqlarından iki barmağı arasındadır. Dəccəl bu ümmətin vaxtında çıxacaqdır. İsa - *əleyhissəlam* - onu Lud qapısı yaxınlığında öldürəcəkdir. Əhli Sünnət əhlinin rədd etdiyi şeylər pisdir. Bütün bidətlərdən çəkinin. Peyğəmbərdən - *əleyhissəlam* - sonra gözlər Əbu Bəkrdən xeyirlisini görmdi. Ondan sonra gözlər Öməri. Ondan sonra Osmandan xeyirlisini görmədi. Bunlar Rəşidi Xəlifələrdir. Peyğəmbərin - *əleyhissəlam* - Cənnətlə müjdələdiyi on kişi bunlardır: Əbu Bəkr, Ömər, Osman, Əli, Təlhə, Zubeyr, Sad, Səid, AbdurRahman İbn Auf, Əbu Ubeydə İbn Cərrah – *Allah onlardan razı olsun* -. Namazda əlləri qaldırmaq və imamın "VələdDalin" deməsindən sonra səsli olaraq Amin demək gözəldir. Müsəlmanların imamları üçün dua edilir və onlara qarşı çıxılmaz. Fitnə zamanı döyüşdə iştirak edilməz. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – Cənnətlə müjdələdiyi on kişidən başqa bir kimsə üçün Cənnətlikdir və ya Cəhənnəmikdir deyilməz. Allah Özünü necə vəsf edirsə siz də Onu

elə vəsf edin. Allahın Özündən nəhy etdiyini siz də Ondan nəhy edin. Həva əhli ilə mübahisə etməkdən və Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələri haqqında pis zənn etməkdən çəkin. Onların aralarında baş verən pis hallardan deyil fəzilətlərindən danış. Din barəsində bidət əhli ilə danışmayın və onlarla Səfər etməyin. Vəlisinin izni olmadan və iki şahid olmadan nigah etməyin. Muta nigahı Qiyamətə qədər haramdır. Muttəqi və Facir imamın arxasında beş namaz, cümə və bayram namazlarını qılın. Əhli qiblədən vəfat edən hər kəsin namazını qılın. Onların hesbları isə Allaha qalmışdır. Cihad və ya Həcc edən imamla birlikdə çıxın. Cənazə təkbiri dorddür. Əgər imam Əli İbn Əbu Talib – *radıyallahu anhu* - kimi beş təkbir gətirsə siz də onunla bərabər gətirin. Müsafir üçün məsh üç gün üç gecədir. Muqim olan kimsə üçün bir gün bir gecə. Bayram namazından əvvəl nafilə qılınmaz. Məscidə girdikdə iki rükət Təhiyyət qılmadan oturma. Vitr bir rükət, iqamə də təkdir. Əhli Sünnəti sev! Allah bizi və sizi də İslam və Sünnət üzərə öldürsün. Bizi və sizi də elmlə ruziləndirsin, sevdiyi və razı olduğu əməllər etməyə müvəffəq etsin"[222].

## Təqlid Barəsində Sözləri

İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Məni təqlid etmə. Məliki, Şəfiini, Əvzaini, Söurini təqlid etmə. Sən da onların elm aldığı qaynaqlardan elm al»[223].

İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Dini məsələlərdə alimlərdən hər hansı birini təqlid etmə. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – və Onun Səhabələrindən nə gəlmişsə onu al. Səhabələrdən sonra Tabiin nəsli gəlir ki, bir alim bunların görüşünü alıb, almamaqda sərbəsdir»[224].

---

222 İbn Batta "İbanə", İbnul Cevzi "Mənakibu İmam Əhməd" s. 216.
223 Fullani 113, İbn Qeyyim «İlam» 2/302.
224 Əbu Davud «Məsailul İmam Əhməd» s. 276-277.

İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Kim Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in hədisini rədd edərsə o, həlak yolundadır»[225].

## Muhəmməd İbn İsmail Əl-Buxari
***- rahmətullahi aleyhi -***

Əbu Abdullah Muhəmməd İbn İsmail İbn İbrahim İbn əl-Muğira İbn Bərdizbəh əl-Cufi əl-Buxari. Hədis elmində Muhəddislərin əmiri sayılır. H. 194-ci il Şəvval ayının 11 Buxara şəhərində (Bəzi rəvayətlərdə: Bəhratəng adlı Buxaraya yaxın bir kənddə) dünyaya göz açmışdır. Çox kiçik yaşlarından hədis elmini öyrənməyə başlamış və bu səbəbdən də elm almaq üçün dünyanın bir çox ölkələrini dolaşmışdır. O, uşaq ikən kor olur. Anası gecə-gündüz oğlu üçün dua edir və Uca Allah onun görmə qabiliyyətini qaytarır. Anası hicrətin 210-cu ilində onu və qardaşı Əhmədi Həccə aparır və hədis elminə olan həvəsinə görə onu Məkkə şəhərində qoyub gedir. Tarixçilər qeyd edirlər ki, o zaman Buxari artıq yetmiş min hədis əzbər bilirdi. Artıq 18 yaşında o «Tarix» kitabını yazır. Sonralar hədisləri toplamaq üçün o Şam, Misir, Bəsrə, Hicaz, Kufə, Bağdad və bir çox başqa yerlərə səyahət edir. İbn Kəsir demişdir: «O, bir dəfə kitaba baxmaqla (oxumaqla) onu əzbərləyərdi». İbn Mücahid – *rahmətullahi aleyhi* – demişdir: «Muhəmməd İbn Səlləmin yanında idim. O mənə dedi: – Bir az əvvəl gəlmiş olsaydın, sənə yetmiş min hədis əzbər bilən uşağı göstərərdim». Quteybə İbn Səid – *rahmətullahi aleyhi* – demişdir: «Fəqihlərlə, zahidlərlə və abidlərlə oldum, lakin Muhəmməd İbn İsmail kimisini görmədim. O, öz zamanında Ömər – *radıyallahu anhu* - kimi idi». Tirmizi – *rahmətullahi aleyhi* – demişdir: «Sənəd (Hədisin mətninə qədər sadalanan ravilərin (yəni hədisi rəvayət edən

[225] İbn Abdil Bərr «Cəm» 2/149, İbnul Cövzi s. 182.

kəslərin) silsiləsinin araşdırılması) və iləl (Hədisin sənədində və ya mətnində olan və onu zəiflədə biləcək amillərin araşdırılması) elmində Muhəmməd İbn İsmail kimisini görmədim». Əhməd İbn Hənbəl, Yəhyə İbn Məin, İbn əl-Mədini, əl-Həmidi və s. kimi muhəddislərdən hədis rəvayət etmişdir. Onun tələbələrindən məşhur Müslim, Nəsai, Tirmizi, əl-Firabridir. Əsərlərindən "Tarix əl-Kəbir", "Ədəbul Mufrad" və s. Lakin bu əsərlərin içərisində xüsusi bir yeri tutan "əl-Cəmis Səhih" əsəridir. Bu əsərdə 7563 hədis toplanmışdır ki, müəllif bu hədisləri 600000 min hədisin içərisindən seçmişdir. Imam Buxari – *rahmətullahi aleyhi* – bu əsərinə topladığı hər bir hədisi iki rükət istixarə namazı qıldıqdan sonra yazmışdır. ***Buxari «əs-Səhih» əsərini iki əsas səbəbə görə yazmışdır –*** O rəvayət edir ki, biz İshaq İbn Rəhaveyhin yanında idik. O bizə dedi: «Yaxşı olardı ki, Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – sünnəsi barəsində səhih kitab tərtib edəsiniz». Onun təklifi çox xoşuma gəldi və «əl-Cəmius Səhih» kitabını tərtib etməyə başladım. – O rəvayət edir ki, bir dəfə mən Peyğəmbəri - *sallallahu aleyhi və səlləm* – yuxuda gördüm. Əlimdəki yelpiklə onu yelpikləyir və üzərinə qonan milçəkləri ondan uzaqlaşdırırdım. Alimlərdən gördüyüm yuxu barəsində soruşduqda onlar mənə dedi ki, sən Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – adından istifadə olunaraq uydurulan rəvayətləri ondan uzaqlaşdıracaqsan. Bu da mötəbər hədisləri cəm etməyim üçün bir səbəb oldu. Buxaridə – İbn Salaha – *rahmətullahi aleyhi* – görə təkrarla birlikdə 7275 hədis, təkrarsız 4000 hədis, Muttasıl sənədlərlə gələn hədislər təkrarsız 2602. İbn Həcərə – *rahmətullahi aleyhi* – görə 7397 hədis, 1341 Muallaq, 341 Mutabi hədis. Ümumi olaraq 9082 hədis vardır. Muhəmməd İbn Fuad Abdulbakini təkrarla Muttasıl 7563 hədis vardır. Müxtəsər Buxaridə isə təkrarsız 2226 hədis vardır. Bu kitab Qurani Kərimdən sonra ən səhih və etibarlı kitab sayılır. Müəllif – *rahmətullahi aleyhi* – deyir ki: Mən bu kitabda yalnız səhih olan hədisləri qeyd etmişəm. Halbuki mən 100000 min səhih, 200000 min isə zəif hədis bilirəm. Mən 1000 yaxın şeyxlərdən hədis

toplamışam və elə bir hədis yoxdur ki, mən onun ravilər silsiləsini əzbərdən bilməyim. Hafiz ləqəbli alim Zəhəbi – *rahmətullahi aleyhi* – demişdir: "Buxarinin "Cəmius-Səhih" adlı əsərinə gəlincə o, İslamın ən möhtəşəm kitablarındandır. O, uca Allahın kitabından sonra ən əfzəl kitabdır. İnsan onu dinləmək üçün min fərsəx yol qət etsə belə bu səfərlə vaxtını zay etmiş sayılmaz". H. 256-cı il 30 Ramazan ayında Səmərqəndə dünyasını dəyişmişdir.

Ləlakai – *rahmətullahi aleyhi* – dedi ki: Bizə Əhməd İbn Muhəmməd İbn Hafs əlHərəvi xəbər verdi ki: Bizə Muhəmməd İbn Əhməd İbn Muhəmməd İbn Sələmə dedi ki: Bizə Əbu Huseyn İbn Muhəmməd İbn İman İbn Musa əl-Curcani dedi ki: Mən Əbu Muhəmməd AbdurRahman İbn Muhəmməd İbn AbdurRahman əl-Buxarini Şaşda belə deyərkən dinlədim: Əbu Abdullah Muhəmməd İbn İsmail əl-Buxarini – *rahmətullahi aleyhi* – belə deyərkən dinlədim: Hicaz, Məkkə, Mədinə, Kufə, Bəsrə, Vasit, Bağdad, Şam və Misi elm əhlindən 1000-dən çox kişi ilə qarşılaşdım. Onlarla bir neçə il ərzində dəfələrlə görüşdüm. Bir neçə ilə Şamlılarla, Misir və Cəzirəlilərlə iki dəfə, Bəsrəlilərlə dörd dəfə, Hicazda altı il qaldım. Xorasan, Kuffə və Bağdadda hədis alimləriylə neçə dəfə görüşdüyümün sayını xatırlamıram. Məkki İbn İbrahim, Yəhyə İbn Yəhyə, Əli İbn əl-Həsən İbn Şaqiq, Qutybə İbn Səid və Şihab İbn Məmər – *Allah onlardan razı olsun* - bunlardandır.

Şamda Muhəmməd İbn Yusuf əl-Firyabi, Əbu Mushir AbdulAla İbn Mushir, Əbu Muğirə AbdulQuddus İbn əl-Həccəc, Əbul Yəmən əl-Həkəm İbn Nəfi – *Allah onlardan razı olsun* - və digər bir çoxları ilə qarşılaşdım.

Misirdə Yəhyə İbn Kəsir, Leys İbn Sadın katibi Əbu Salih, Səid İbn Əbi Məryəm, Əşhəd İbn əl-Fərh və Nuaym İbn Həmməd – *Allah onlardan razı olsun* - ilə görüşdüm.

Məkkədə Abdullah İbn Yəzid əl-Mikri əl-Humeydi, Məkkə qazisi Suleyman İbn Hərb və Əhməd İbn Muhəmməd əl-Əzraki – *Allah onlardan razı olsun -*.

Mədinədə İsmail İbn Əbi Uveys, Mutarrif İbn Abdullah, Abdullah İbn Nifa əz-Zubeyri, Əhməd İbn Əbu Bəkr Əbu Musab əz-Zuhri, İbrahim İbn Həmzə əz-Zubeyri və İbrahim İbn əl-Munzir əl-Hizami – *Allah onlardan razı olsun -*.

Bəsrədə Əbu Asim əd-Dahhaq İbn Mahləd əş-Şeybani, Əbul Vəlid İbn Hişam İbn AbdulMəlik, əl-Həccacİbn əl-Minhal və Əli İbn Abdullah İbn Cəfər əl-Mədəni – *Allah onlardan razı olsun -*.

Kufədə Əbu Nuaym əl-Fadl İbn Dukeyn, Ubeydullah İbn Musa, Əhməd İbn Yunus, Kabisa İbn Ukbə, İbn Numeyr, Əbu Şeybənin iki oğlu Abdullah və Osman – *Allah onlardan razı olsun* - ilə.

Bağdada Əhməd İbn Hənbəl, Yəhyə İbn Məin, Əbu Mamər, Əbu Heysəmə və Əbu Ubeyd əl-Qasim İbn Səlləm – *Allah onlardan razı olsun* - ilə.

Cəzirədə Amr İn Xalid əl-Hərrani – *Allah onlardan razı olsun* - ilə.

Vasittə Amr İbn Asim İbn Əli İbn Asim – *Allah onlardan razı olsun* - ilə.

Mərvədə Sadaka İbn əl-Fadl və İshaq İbn İbrahim əl-Hənzəli – *Allah onlardan razı olsun* - ilə qarşılaşdım.

Bunların İsimlərini verməklə kifayətlənməyimizin səbəbi sözü qısa edərək bu kimsələrin aşağıda sizə zikr etdiyim xüsuslada eyni eiqada sahib olmalarıdır.

Din söz və əməldir. Bunun səbəbi də Uca Allahın buyurduğu: ***"Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, batildən haqqa (islama) dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!". (əl-Bəyyinə 5).*** Quran Allahın kəlamıdır və məxluq deyildir. Allah: ***"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur.***

***Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır". (əl-Əraf 54).*** Uca Allah yaratmağın əmirdən olduğunu bəyan etməsidir. Allah buyurdu: ***"Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır". (əl-Əraf 54).*** Xeyir və Şər qədər səbəbilə meydana gəlir. Allah buyurdu: ***"De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən". (əl-Fələq 1,2). "Halbuki sizə də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!". (əs-Saffət 96). Allah buyurur: "Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq". (əl-Qəmər 49).***

Qarşılaşdığım elm adamları hər hansı bir günah səbəbilə qiblə əhlindən heç kimsəni təkfir etməzlər. Uca Allah buyurdu: ***"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əvf etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur". (ən-Nisa 48).***

Onlardan hər hansı birisinin də Muhəmmədin - *sallallahu aleyhi və səlləm* – səhabələrinə dil uzatdığını da görmədim. Aişə - *radıyallahu anhu* - dedi ki: "Onlara möminlərə, onlara səhabələrə məğfirət diləmələri əmr edilmişdir. Uca Allah buyurdu: "Səhabələrdən sonra gələnlər deyirlər: ***"Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!". (əl-Həşr 10).***

Yenə qarşılaşdığım bu kimsələr Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – və səhabələrinin etmədikləri bidətlərdən (insanları) çəkindirirdilər. Uca Allah buyurdu: ***"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir". (Ali İmran 104). "...Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız...". (ən-Nur 54).***

Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – və ona uyanların izlədikləri yolu izəməyi onlara təşviq edirlər. Allah buyurdu: ***"Bu,***

***şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın. (Allah) sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!". (əl-Ənam 153).***

Əmr sahibləri ilə çəkişməməyi də tövsiyə edirdilər. Çünki Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "Bir kimsənin qəlbi bu üç xislətə sahib olmadıqca iman etmiş olmaz: Əməli sadəcə Allah üçün ixlasla etmək, Əmir sahibləri olan kimsələrə itaət etmək və onların cəmaatlarından ayrılmamaq. Çünki onların dəvətləri (duaları) digərlərini əhatə edir"[226].

Daha sonra buyurdu: ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır". (ən-Nisa 59).*** Muhəmmədin - *sallallahu aleyhi və səlləm* – ümmətinə qarşı qılınc qaldırmaq fikirlərini daşımamalıdır. Fudeyl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: "Əgə mənim qəbul ediləcəyini bildiyim bir duam olsaydı mən onu yalnız əmr sahibi üçün edərdim. Çünki əmr sahibi düzələrsə ölkə və insanlar da əmin olarlar (düzələrlər)". Xaricilər itaətdən çıxmış kimsələrdir.

Qurani Kərimin məxluq olduğunu iddia edən kimsə dindən çıxacaq şəkildə inkar etmiş bir kafir olur. Məsələni başa düşən birisidirsə onun kafir olmasında şübhə edən kimsədə kafir olar. Allahın kəlamı haqqında şübhə edib, yaradılmışdırmı, yoxsa yaradılmamışdırmı bilmirən deyən kimsə də Cəhmidir. Quran barəsində biliksiz qalan bir kimsəyə öyrədilir, bidətçi olduğu qəbul edilir, lakin təkfir edilməz.

Mənim Quranı tələffüz etməyim məxluqdur deyən Cəhmidir. Əbu Muhəmməd dedi ki: "Atam belə deyərkən dinlədim: Bidət əhlinin əlaməti haqq əhlinə dil uzatmasıdır". Zındıqların əlaməti Əhli Sünnətə Haşaviyyə adını vermələridir". Cəhmilərin əlaməti

[226] Trimizi 2658.

Əhli Sünnətə Müşəbbihə adını verməleridir. Qədərilərin əlaməti Əhli Sünnətə müxalifə və nöqsaniyə adını verməleridir. Bidət əhlinin əlaməti Əhli Sünnətə Nəsibi deməleridir. Əhli Sünnətə isə yalnız bir İsim yaraşır. (Əhli Sünnə Vəl Cəmaat Sələfi Saleh).

## Muhəmməd İbn Yəhyə Əz-Zuhli
***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Abdullah Muhəmməd İbn Yəhyə İbn Abdullah İbn Xalid İbn Haris Əbu Abdullah əz-Zuhli. Bəni Zuhl nəslindəndir. Hədis elmində əmir, Nisapurun Şeyxulİslamı, hafizidir. H. 170-ci ildə dünyaya gəlmişdir. Məkkədə, Mədinədə, Şam, İraq, Misir, Xorasan, Yəmən və Cəzirədə hədis elmini öyrənmişdir. Xorasanın tanınmış alimlərindəndir. Əbu Bəkr İbn Əbu Davud dedi ki: "O, hədisdə əmirul Muminindir". H. 258-ci ildə Rəbiul Əvvəl ayında dünyasını dəyişmişdir. "Şəzərətuz Zəhəbi" 2/138.

Əbu Amr Əhməd İbn Muhəmməd İbn Həfs əl-Hərbi dedi ki: Muhəmməd İbn Yəhyə əz-Zuhri – *rahmətullahi aleyhi* – bizə bunları yazdırdı: Bizə görə sünnət budur: İman – söz və əməldir, artar və əskilər. Biz elm əhlini bu etiqadda gördük. Qədər – xeyri və şərilə Allahdandır. Qiyamətə qədər olacaq şeyləri yazdıqdan sonra qələmin mürəkkəbi qurumuşdur. Uca Allah qullarının nə edəcəyini və haraya doğru gedəcəklərini bilir. Onlara əmrlər vermiş, qadağalar qoymuşdur. Uca Allahın əmrinə bağlanıb, ona itaət edib, onu üstün tutan Allahın istəyi (köməyi) ilə bunu edər. Uca Allahın əmrini tərk edib, onun qadağalrını edən bir kimsəni də Allah köməksiz buraxar. İstitaa - *əməli etmək* - əzalarıyla etməmişdən öncə özünə aid olduğunu, diləsə o əməli edəcəyini, diləməzsə etməyəcəyini iddia edən bir kimsə qədəri yalan saymış, Allahın kitabının dəlilini rədd etmiş, Uca Allahın dilədiklərini edə biləcəyini iddia etişdir. Bizlər isə belə bir görüşdən uzaq olduğumuzu bildiririk. Lakin deyirik ki: İstitaa - *əməli etmək gücü* –

qulada əməl ilə birlikdə olur. Hansısa pis və ya yaxşı əməli etmək üçün gücü çata biləcəyini biz bilirik. Lakin işi etməmişdən öncə bizlər bilmərik əməli etdiyi zaman onun istəyi ilə işin arasına bir maneə qoyular. Uca Allah da qulların əməllərini yaratmağı murad edər.

Qurani Kərim Uca Allahın kəlamıdır. O, yaradılmamışdır. Hər tərəfdən Onun kəlamıdır. Onun yaradılmış heç bir qismi yoxdur. Allahın kəlamının yaradılmış olduğunu iddia edən bir kimsə Uca Allahın zatında yaradılmış bir şeylər olduğunu iddia etmiş olar, Uca Allah isə bundan munəzzəhdir. Uca Allah buyurur: ***“Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır”. (əl-Əraf 54).*** Bununla Allah yaratmanın əmirdən ayrı olduğunu bildirir. O, verdiyi əmr ilə məxluqatı yaratmış, əşyanı var etmişdir. Uca Allah buyurur: ***“Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: “Ol!” deməkdir. O da dərhal olar”. (ən-Nəhl 40).*** Məxluqatını “Ol” buyuruğu ilə yaradılmış olduğunu söyləyən kimsə kafir olar. Bir şey deməyib: Mən nə yaradılmışdır, nə də yaradılmamışdır deyirəm” deyən bir kimsənin halı da Qurana məxluq deyənin halı kimidir. Çünki belə bir kimsə daha əvvəl Sələfdən heç kəsin söyləmədiyi bir iddianı irəli sürüb uydurmuşdur. Bunu bir nəfər hədis oğrusu əl-Kərabisi adı ilə bilinən biridir. İmam Əhməd – *rahmətullahi aleyhi* – onun bidətçi olduğunu, ondan uzaq olmağı, onunla oturub-durmağı qadağan etmişdir. Bu kimsə sonda özünü həlaka sürükləmiş, xüsrana uğrayıb, Allahın yardımından məhrum qalaraq ölmüşdür. Allahdan bizləri doğu yola yönəltməsini diləyirik. Şübhəsiz o, dilədiyini Sıratal Mustəqimə yönəldir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: “Quran barəsində şübhəli mübahisələrə girişmə. Quran barəsində şübhəli mübahisələrə girişməyin. Çünki onun haqqında mübahisə etmək küfrdür”[227]. Səhabələr qədər barəsinə mübahisə edərkən Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – onların yanına gəldi və onların nə barədə mübahisə etdiklərini

[227] Əhməd 4/170.

eşitdi. Qəzəbdən üzü qızardı və buyurdu: "Sizlər buna görəmi yaradıldınız (və ya əmr edildiniz). Sizdən əvvəlkilər də bu səbəblə həlak oldular. Onlar kitabın bir qismini digəri ilə vuruşdurdular. Sizlər onun bir qismini digər bir qismi ilə yalanlamayın. Bildiklərinizi deyin, bilmədiklərinizi isə bilənlərə həvalə edin"[228]. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – Uca Allahın: "Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: ***"Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər". (Ali İmran 7)*** buyurduğunu oxuyaraq: "Bunlar Allahın qəsd etdiyi kimsələrdir. Onardan uzaq olun"[229]. İbn Abbas - *radıyallahu anhu* - dedi ki: ***"Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz...". (Ali İmran 7)*** Quranın bir qismini digər qismi ilə vuruşdurmayın. Çünki belə bir şey qəlblərinizə şübhənin yerləşməsinə səbəb olur". Əbu Musa dedi ki: "Kim dinə dair bir elmi varsa onu insanlara öyrətsin. Bilmədiyi bir şeyi söyləməkdən də çəkinsin. Əgər belə etsə özünü çətinə salmış və dində çətinliklə qarşılaşır. Allah bizləri də sizləri də azdırıcı fitnələrdən qorusun.

İdarə edən imamlara itaət edər, onları dinləyərik. Bununla birlikdə Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – səhabələrinin hamısını sevərik. Gizlidə və açıqda da cəmaata öyüd verər və itaətdən kənara çıxmarıq. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – səhabələrindən önə keçənlər: Əbu Bəkr, Ömər, Osman və sonra da Əlidir - *Allah onlardan razı olsun*.

---

[228] Əhməd 2/195, 196, İbn Məcə 85, əl-Albani "Həsən Səhih".
[229] Buxari 4547, Müslim 2665, Əhməd 6/48.

Hər hansı bir günah səbəbilə qiblə əhlini təkfir etmərik. Onlar haqqında müşrikdirlər deyə şahidlik etmərik. Yalnız Cəhmin və onun tərəfdarlarının söylədikləri bundan müstəsnadır.

Bizim üçün qeyb olan xüsusları Allaha həvalə edərik. Muhəmmədin - *sallallahu aleyhi və səlləm* – ümmtindən olub yaxşılıq edənlər üçün ümüd edər, pislik edənlər üçün də qorxarıq. Günahlarına görə bağışlanma diləyərik. Zahirdə olan hallarını qəbul edər, batində olanları isə Allaha həvalə edərik. Yaxşı əməlləri səbəbilə Cənnətə girəcəkdir və ya günahlarına görə Cəhənnəmlikdir dəmərik. Bu barədə Uca Allah Qiyamət günü aralarında hökm edəcəkdir. O, hökm verənlərin ən yaxşısıdır.

Cihad Allahın Peyğəmbərini - *sallallahu aleyhi və səlləm* – göndərdiyi gündən etibarən davam edəcəkdir. Zalımın zülmünün ona zərəri olmadığı kimi, ədalət sahibinin ədalətinin də ona faydası olmaz. Qiyamətə qədər bu belədir.

Xeyrilə şərilə qullarrın bütün əməlləri yaradılmışdır. Levhi Məhfuzda sətir sətir yazılmışdır. Bunların yazılmadıqlarını iddia edən kafir olar. Çünki Allahın kitabında olan ayəni rədd etmişdir. Allah buyurdu: ***"Elə bir məmləkət yoxdur ki, qiyamət günündən əvvəl Biz onun əhalisini məhv etməyək və ya onu şiddətli əzaba düçar etməyək. Bu, kitabda (lövhi-məhfuzda) yazılmışdır!". (əl-İsra 58).*** Allah: ***"Bəli, bu şanlı Qurandır. O, mühafizə edilən lövhədədir". (əl-Buruc 21-22). "Hər bir kiçik və böyük əməl yazılmışdır". (əl-Qəmər 53).*** Yenə Allah: ***"Dostlarınıza yaxşılıq etmək isə istisnadır. Bunlar Kitabda yazılmışdır...". (əl-Əhzab 6).***

Namazın tərki küfrdü. Çünki bu barədə Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – hədisləri vardır. Kişi ilə küfr arasında sadəcə namazı tərk etmək vardır.

On Cənnətlə müjdələnən kimsə - *Allah onlardan razı olsun* – Cənnətlikdir. Biz onların Cənnətdə olduqlarına şahidlik edərik. Çünki bu barədə Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – hədis vardır. Zina edən kimsələrin rəcm edilməsi bir haqdır, çünki bu

hədd həm Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* –, həm də sonra gələn Xəlifələrdən səhih olara nəql edilmişdir.

Cənnət və Cəhənnəm yaradılmışdır. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "Mən Cənnətdə ikən orada bir köşk göstərildi. Bu köşk kimindir deyə soruşdum? Ömərindir dedilər"[230]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «….Allah Cənnətə sən mənim rəhmətimsən, mən səninlə qullarımdan istədiyimə rəhmət edirəm». Cəhənnəmə də: «Sən mənim əzabımsan. Mən səninlə qullarımdan istədiyimə əzab edirəm. Hər birinizə dolusu qədər var. Amma Cəhənnəm dolmaq bilməz. Nəhayət Allah ayağını onun üzərinə qoyar, o da: Bəsdi, Bəsdi! deyib Cəhənnəm dolar. (Cəhənnəmi doldurmaqla) Allah heç bir kəsə zülm etməz. Cənnətə gəlincə Allah onun boşluqlarını doldurmaq üçün bir neçə varlılıqlar yaradır»[231]. Kim hər ikisinin də yaradılmamış olduğunu və ya yaradılmış olduğunu lakin digər məxluqlar kimi yox olacaqlarını iddia edən bir kimsə yalan danışmış və dini inkar etmişdir.

Uca Allah Axirətdə gözlərlə görüləcəkdir. Cənnət əhli Onu görəcəkdir. Onlardan başqa digər Adəm oğulları görməyəcəkdir. Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – bu barədə bir çox hədislər vardır. Əbu Səid əl-Xudri - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullahın - *sallallahu aleyhi və səlləm* – zamanında bir qurup insanlar: «Ya Rəsululah! Qiyamət günü Rəbbimizi görəcəyikmi?» Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: «Yanında bulud olmayan açıq bir havada günəşi görməyə çətinlik çəkirsinizmi? Bədirlənmiş ayı **14-**cü günündə yanında bulud olmayan açıq havada görməyə çətinlik çəkirsinizmi?» Xeyr, Ya Rəsulullah! O, buyurdu: «Günəşi və ayı görməkdə əziyyət çəkmədiyiniz kimi Allahı görməkdə də əziyyət çəkməyəcəksiniz»[232]. Peyğəmbərin

---

[230] Əhməd 2/159, 188.
[231] Buxari, Müslim 5084.
[232] Buxari 4581, Müslim 183, Darimi "Sünən" 6/81, H.2804.

səhabələrindən və onlardan sonra gələn Tabiindən Uca Allahın: ***«O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!». (əl-Qiyamət 22-23).*** Buyurduğunda məqsəd Allahın vəchinə baxmaqdır – deyə açıqlamışlar. Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurur: «Qiyamət günü Allah ilə qulun arasında heç bir tərcüməçi (vasitə) olmadan Allahın danışmadığı heç bir qul yoxdur»[233]. Tövhid əhli cəzalansa belə cəzadan sonra Cənnətə girəcəkdir. Uca Allah Əff edəndir. Dilədiyi kimsələri Əff edər, dilədiyini də əzab edər. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Rəsulullah - *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allahın doxsan doqquz – yüzdən bir əskik İsmi vardır. Kim bu İsimləri sayarsa Cənnətə daxil olar"[234]. Uca Allah Kitabında buyurdu: ***"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin. Onun adları barəsində küfr edənləri (əziz sözündən Uzza, Allah sözündən əl-Lat, mənnan sözündən Mənat kimi adlar düzəldib haqq yoldan azanları) tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar!". (əl-Əraf 180).***

Kim bunlara iman edər və bunları təsdiq edərsə qurtular və Uca Allahın əmrinə bağlanmış olar. Hər kim də hər hansı bir təvil və ya bunları yalan sayarsa sapmış, haqdan uzaqlaşmış, dünya və axirətdə həlak olmuş olar. Səmimi bir tövbə etməsi müstəsnadır.

Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – Rəbbimizi Qiyamət günü görməyimiz barəsində rəvayət etdiyi hədislərə iman edirik. Qədərə, şəfaətə, qəbr əzabına, Hovuza, Mizana, rəcmin haqq olduğuna, Allahın dünya səmasına enməsinə, hesaba, Cənnətə və Cəhənnəmə və s. Buna bənzər hədislərə inanır və bunları təsdiq edirik.

Cəfər İbn Muhəmməd, atasından, o da babasından o, da Əli İbn Əbu Talibdən - *radıyallahu anhu* – rəvayət edir ki, sabaha çıxdıqda dedi: "Gecənin ardıyca gündüzü gətirən Allaha həmd olsun. Bu günün başında Allahın adıyla hansıki Ondan başqa ibadətə layiq

---

[233] Buxari, Müslim.
[234] Buxari 6410, Müslim 2677.

haqq ilah olmayan Allahı şahid tuturam. Zatən Allah şahid olaraq kifayətdir. Sizi də bu anımda, bu sözlərimə şahid tuturam ki: Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, bir və tək olduğuna, doğmamış, doğulmamış olduğuna, oxşarı, bənzəri, şəriki olmadığına şəhadət edirəm. Yenə şəhadət edirəm ki, Muhəmməd - *sallallahu aleyhi və səlləm* – Onun qulu və Rəsuludur, Allahın əmini, əmirlərini qüsursuz erinə ytirən Rəsuludur. Allahın yaratdıqları arasında seçdiyidir. Şəhadət edirəm ki, o Peyğəmbərlərin sonuncusudur. Ondan başqa heç bir Peyğəmbər gəlməyəcəkdir.

Şəhadət edirəm ki, Qiyamət gələcəkdir və bunda şübhə yoxdur. Şübhəsiz Allah qəbirdəkiləri öldükdən sonra dirildəcəkdir. Uca Allah hər bir şeyə gücü çatan və hər bir şeyi elmi ilə əhatə etmişdir. Hər bir şeyin sayını bilir və bunu söyləyir və qəbul edirəm. Rəbbimin mənə nemət etdiyi hər bir neməti, ayətləri və isimləri sayı qədər Allaha həmd olsun. Yerdə və göydə olanların say qədər Allaha həmd olsun. Mələkləri və yaratdıqlarının sayı qədər Allaha həmd olsun. Dünya və Axirətdə olanların sayı qədər Allaha həmd olsun. O, ölümdən sonra dirildəndir, o bütün varlıqların mirasçısıdır. Ölüləri dirildir, diri olanları öldürür. Çürümüş sümüklərə həyat verir. Allahı təsbih və təmhid edirəm. Allah mənə kifayətdir. O, məni öz ixtiyarıma buraxmayandir, gecə və gündüz məni qoruyandır. Anamın bətnində ikən məni bəsləyən, güclü və qüvvətli ana çatana qədər məni qoruyandır. Mən ölüydüm, O məni diriltdi. Həyatımdan sonra da məni öldürəcəkdir. Rəbbim olan Allah mənə kifayətdir. Mən Ona heç bir şeyi şərik qoşmaram. Ondan başqa heç bir haqq ilah yoxdur. Bir və tək olan, şəriki olmayandır. O, mənimdən Rəbbimdir, məndən əvvəlkilərin də Rəbbidir. Ey Uca olmaqla bərabər yaxın olan, yaxınlığı ilə Uca olan, Ey səmaları və yerləri düşməsin deyə tutub saxlayan Allahım, Ey Rəbbim! Ey Rəbbim! Ey Rəbbim! Sənin şərikin yoxdur, həmd, təsbih, təkbir, təhlil, nemətlər, qüdrət, böyüklük, əzəmət, Sənindir. Əgər bir pislik və ya özümə zülm etmişəmsə Sən əff edənsən, Məni

əff et! Sən məğfirət edənsən, məni bağışla. Sən təvbələri qəbul edənsən, təvbəmi qəbul et! Səndən başqa ibadətə layiq haqq ilah yoxdur. Ey aləmlərin Rəbbi həmd Sənədir. Qürur və Əzəmət də Sənindir. Ey Allahım! Ey Allahım! Ey Allahım! Ey Ramən! Ey Rahim! Ey Muheymin! Səndən başqa ibadətə layiq haqq ilah yoxdur. Sənin yaratdığın hər bir şeyi Qiyamət gününə qədər də yaratdıqlarını bu anda söylədiyim sözlərimə şahid tuturam. Şübhəsiz Sən Allahsan, Mənim Haqq və açıq olan Rəbbimsən. Səndən başqa ibadətə layiq haqq ilah yoxdur. Sən Allah, Rahmən, Rahimsən. Muhəmməd - *sallallahu aleyhi və səlləm* – Sənin qulun və Rəsulundur. Rəhmət Peyğəmbərindir. İslam mənim dinimdir. Qiyamət gələcəkdir. Onda heç bir şübhə yoxdur və Sən qəbirdəkiləri dirildəcəksən. Sən hər bir şeyə gücü çatan və hər bir şeyi elminlə əhatə etmisən. Hər bir şeyin sayını da bilirsən. Sənin dediyin hər bir şey olur. Allaha həmd olsun ki, Onunköməkliyi ilə səhərə ölü, xəstə, haqsızlığa görə cəzalanan, ən pis şəkildə tutularaq əli kəsilmiş, dinindən dönmüş, Rəbbini inkar etmiş, ağlı başından alınmış, keçmiş ümmətlərdən hər hansı birinin əzabıyla əzaba uğramış olaraq səhərə çıxmadıq. Eyni şəkildə başqasının köləsi və nəfsinə zülm etmiş olaraq səhərə çıxmadıq.

Sənin mənə qarşı dəlilin vardır, lakin mənim leyhimə dəlilim yoxdur. Sənin verdiyindən başqa alacaq bir gücüm yoxdur. Məni qoruduqlarından başqa özümü bir şeydən qoruya bilmərəm. Allahım! Məndən razı olmağına səbəb olacaq şeyləri etməyə məni müvəffəq et! Sən lütf edənlərin ən böyüyüsən. Biz nəyə sahib olduqsa Səninlə sahibik. İşlərimizi düzüb qoşub səhmana sal! Ey mənim üzərimdə olan gözəllikləri ortaya çıxaran, çirkin olanları gizlədən, qüsurlarım səbəbilə məni məsul tutmayan, gizli (günahlarımı) aşkara çıxartmayan, Ey əff etməsi böyük olan, məğfirəti çox olan, rəhməti sonsuz olan, hər bir gizli danışığa şahid olan, qeybləri və qəlibin gizli olanlarını bilən, Ey köləri azad edən, əzabdan uzaqlaşdıran, nemətlərilə hidayətə yönəldən Allahım.

# Əbu Xatim Ər-Razi Və Əbu Zura Ər-Razi

***- rahmətullahi aleyhi -***

Muhəmməd İbn İdris İbn əl-Munzir əl-Hənzəli ər-Razi. Hədis elmində hafizdir. Ravilərin səhih və zəif olması barəsində bir çox elmi əsərləri vardır. H. 195-ci ildə dünyaya gəlmiş və H. 277-ci il Şaban ayında dünyasını dəyişmişdir[235].

Ubeydullah İbn AbdulKərim İbn Yəzid İbn Faruh Əbu Zura ər-Razi əl-Qureyşi. Qureyş nəslindəndir. Hədis elmində hafizdir. Hədis elmində ravilərin öyrənilməsi sahəsində məşhur alimlərdəndir. Tələbələrindən məşhur Müslim, Tirmizi, Nəsai və İbn Məcə olmuşlar. H. 264-cü ildə 64 yaşında dünyasını dəyişmişdir[236].

Ləlakai – *rahmətullahi aleyhi* – dedi ki: Bizə Muhəmməd İbn əl-Muzəffər əl-Mukri xəbər verdi ki: Bizə əl-Huseyn İbn Muhəmməd İbn Həbəş əl-Mukri dedi ki: Bizə Əbu Muhəmməd AbdurRahman İbn Əbi Xatim dedi ki, Atama və Əbu Zuraya – *rahmətullahi aleyhi* – dinin əsasları ilə bağlı Əhli Sünnətin əqidəsi barəsində sual verdim. Hər ikisi də mənə bu cavabı verdilər: Bizlər Hicaz, İraq, Şam və Yəmən kimi ölkələrdə elm adamları ilə qarşılaşdıq. Onların etiqadı: İman söz və əməldir, artar və əskilər. Quran Allahın kəlamıdır, heç bir tərəfi yaradılmamışdır. Xeyri və şərilə qədər Allahdandır. Bu ümmətin ən xeyirliləri Peyğəmbərlərindən - *sallallahu aleyhi və səlləm* – sonra: Əbu Bəkr, sonra Ömər, sonra Osman, sonra Əlidir – *Allah onlardan razı olsun* -. Bunlar eyni zamanda Rəşidi xəlifələridir. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – isimlərini sayaraq Cənnətlik olduqlarına şəhadət edən on kimsə haqqında Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – kimi şahidlik edərik və onun sözü haqdır. Muhəmmədin - *sallallahu aleyhi və səlləm* – bütün

---

[235] "Şəzəratuz Zəhəbi" 2/171.

[236] "Şəzəratuz Zəhəbi" 2/148.

səhabələrinə rəhmət oxunur və aralarında baş verən anlaşılmazlıqlar hqqında da susmaq lazımdır.

Əziz və Cəlil olan Allah Ərşi üzərində olub, məxluqatından ayrıdır. Özü özünün və Peyğəmbərinin - *sallallahu aleyhi və səlləm* – Onu vəsf etdiyi kimidir. Hər hansı bir şəkildə Onu keyfiyətləndirməyimiz doğru deyildir. O, elmilə hər bir şeyi ehtiva etmişdir. ***"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11).*** Uca Allah axirətdə görüləcəkdir. Cənnət əhli onu gözləriylə görəcəkdir, onun sözünü – O dilədiyi şəkildə, dilədiyi kimi – eşidəcəkdir. Cənnət haqqdır, Cəhənnəm haqqdır. Hər ikisi də yaradılmışdır. Əbədiyyən yox olmayacaqlar. Cənnət Allahın dostlarının mükafat görəcəkləri, Cəhənnəm isə Ona üsyan edənlərin cəzalanacaqları yerləridir. Allahın rəhm etdiyi kimsələr müstəsna. Sırat haqdır, Mizan haqdır, qulların yaxşı və pis əməllərinin çəkiləcəyi və iki dənə çəkiləcək gözü olacağı Mizan haqdır. Peyğəmbərə - *sallallahu aleyhi və səlləm* – ikram olaraq verilən Hovuz haqdır, Şəfaət haqdır, ölümdən sonra dirilmək haqdır. Böyük günah edənlər Allahın istəyi altındadırlar.

Günahları səbəbilə qiblə əhlini təkfir etməz, batində olan gizli hallarını Allaha həvalə edərlər. Cihad fərzini və Həcci hər zaman və hər vaxtda müsəlmanların rəhbərlərilə birlikdə yerinə yetirərik. Əmirlərə qarşı çıxmağı görmədiyimiz kimi, fitnə zamanı döyüşməyi də doğru görmürük. Uca Allahın üzərimizə təyin etdiyi kimsələrin əmirlərini dinləyib, onlara itaət edər, itaətdən də əl çəkmərik. Sünnətə və Cəmaata tabeyik. Şaz görüşlərdən, ixtilafdan və ayrılmaqdan uzağıq.

Allah Peyğəmbərini göndərdikdən sonra Qiyamət gününə qədər müsəlmanların əmirlərindən olan əmr sahiblərilə cihad davam edəcəkdir. Heç bir şey onu ləğv edə bilməz. Həcc də eyni şəkildədir. Heyvanlardan alınan zəkatlar da müsəlman əmr sahiblərinə - *paylanmaq* – üçün verilir. Özünün həqiqi mömin olduğunu söyləyən bir kimsə bidətçidir. Özünün Allah dərgahında

bir mömin olduğunu söyləyən də yalançıdır. Özünün həqiqi Allaha iman edən bir kimsə olduğunu söyləyən də isabət etmişdir.

Murciə sapıqdırlar, bidətçidirlər. Qədərilər sapıqdırlar, bidətçidirlər. Hər hansı bir kimsə Uca Allahın daha əvvəl və baş verməyən bir şeyin bilmədiyini söyləyərsə kafir olar. Cəhmilərin başçıları kafirdirlər, Bidət əhli İslamı rədd etmişlər. Xaricilər isə itaətdən kənara çıxmışlar.

Quranın məxluq olduğunu iddia edən bir kimsə böyük olan Allaha iftira etmişdir. Beləliklə kişi dindən çıxaraq kafir olur. Bunu bilən kimsələr arasında onun küfrünə şübhə edən bir kimsə də kafirdir. Bilmirəm yaradılmışdır, yoxsa yaradılmamışdır? Deyən kimsə də Cəhmidir. Cahilliyindən Quran haqqında bir şeylər söyləməyən kimsəyə elm öyrədilir, bidətçi olduğu deyilir, lakin tkfir edilməz. Mənim Quranı tələffüzüm məxluqdur deyən bir kimsə Cəhmidir və Quran mən onu tələffüz etdikdə məxluq olur deyən də Cəhmidir.

Əbu Muhəmməd dedi ki: Atamın belə dediyini dinlədim: Bidət əhlinin əlaməti hədis əhlinə dil uzatmaqlarrıdır. Zındıqların əlaməti Əhli Sünnətə Haşaviyyə adını vermələridir. Bununla sünnət və hədisləri ləğv etmək istərlər. Cəhmilərin əlaməti – Əhli Sünnətə Müşəbbihə, Qədərilərin əlaməti – Əsər əhlinə Cəbəri demələri, Murciənin əlaməti – Əhli Sünnətə müxalif olanlar və nöqsanlılar demələridir. Bidət əhlinin əlaməti – Əhli Sünnətə Nasibi demələridir. Əhli Sünnə haqqında yalnız bir isim hallanır: (Əhli Sünnə vəl Cəmaat Sələfi Saleh). Atamın və Əbu Zuranın sapıq və bidət sahiblərini tərk etdiklərini və bu barədə ağır sözlər işlətdiklərini dinlədim. Kəlam ilə məşğul olmamağı, kəlam əhlinin kitablarını oxumağı qadağan edir və kəlam ilə məşğul olan bir kimsə əbədiyyən qurtulmaz.

Bizim yolumuz və seçdiyimiz, Peyğəmbərə - *sallallahu aleyhi və səlləm –*, onun səhabələrinə, tabiin və onlardan sonra gələnlərin yoluna sarılmaqdır. Bidətlərdən uzaq olmaq və əsər əhlinin görüşlərinə sarılmaqdır. Məs: Əbu Abdullah İbn Hənbəl, İshaq İbn

İbrahim, Əbu Ubeyd əl-Qasım İbn Səlləm və Şəfii – *Allah onlardan razı olsun* - kimi. Bundan başqa Kitab və Sünnət sarılan Sələfin yolunu təqib edən imamları qoruyub, Əhli Sünnətin tərcih etdiklərini tərcih etməkdir.

Mədinədə Məlik İbn Əsən, Şamda Əvzai, Misirdə Leys İbn Sad, İraqda Sufyan İbn Sevri ilə Həmməd İbn Ziyad – *Allah onlardan razı olsun* - bunlara misaldır.

Quran Allahın kəlamı, məxluq deyildir. Onun məxluq və yaradılmış olduğunu iddia edən bir kimsə dindən çıxaran Allahı inkar edən kafirdir. Məsələni bilən və cahillərdən olmayan birinin kafir olduğunda şübhə edən kimsə də kafirdir. Quran məxluqdur, məxluq deyil bilmirəm deyən də Cəhmidir. Bunların Cəhmi olduqlarını Əbu Abdullah Əhməd İbn Hənbəl demişdir.

Rəsulullahdan - *sallallahu aleyhi və səlləm –*, səhabələrindən və onlardan sonra gələnlərin rəvayətlərinə tabe oluruq. Kəlamçıların kəlamını tərk edərik, onlarla oturub durmaz və onlardan uzaqlaşarıq. İman söz və əməldir, dil ilə iqrar, qəlb ilə təsdiq və rükunları etməkdir. Namaz, malı olan kimsələrin zəkat, yol tapa bilənlərin Həcc, Ramazan ayında oruc tutmaq və Allahın qullarına fərz etdiyi bütün fərzlərə əməl etmək imandandır. İman artar və əskilər.

Qəbr əzabına iman edərik, Peyğəmbərə - *sallallahu aleyhi və səlləm* – ikram olunan Hovuza da iman edərik. Qəbirdə olan sorğu-suala iman edər, Kiramən Kətibin və Peyğəmbərə - *sallallahu aleyhi və səlləm* – xas olan şəfaətə iman edərik. Peyğəmbəin - *sallallahu aleyhi və səlləm* – səhabələrini rəhmətlə yad edər, Onlardan hər hansı birinə söymərik. Çünki Allah buyurdu: "Səhabələrdən sonra gələnlər deyirlər: ***"Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!". (əl-Həşr 10).***

Biz iman edirik ki, Allah Ərşi üzərində məxluqatından ayrıdır. ***“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir”. (əş-Şura 11).*** Əmr sahiblərinə qarşı çıxmağı doğru görmürük. Fitnə zamanı qarışmarıq. Uca Allahın üzərimizə təyin etdiyi kimsələri dinləyər və onlara itaət edərik. Əmr sahiblərilə namaz qılar, həcc edib, cihad edərik. Kiçik böyük baş heyvanlarının zəkatını da onlara verərik.

Səhih hədislərə əsasən Muvahhid olan bir toplumun şəfaət ilə Cəhənnəmdən çıxacağına iman edərik. Bizlər Əziz və Cəlil olan Allaha iman edərik. Sufyan əs-Sovri – *rahmətullahi aleyhi* – bir kimsənin: “Mən Allah dərgahında həqiqi və imanı əksik olmayan bir mömInəm” deməsini yaxşı görməzdi. Əvzaidə – *rahmətullahi aleyhi* – bu görüşdədir.

Bidət əhlinin əlaməti Əhli Sünnətə Müşəbbihə adını verməléridir. Qədərilərin əlaməti Əhli Sünnətə Cəbəri adını veməléri, Zındıqların əlaməti hədis əhlinə Haşaviyə verməléridir. Onlar bu sözləriylə Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – gələn rəvayətləri zəif görmək istərlər. Allahın Muhəmmədə - *sallallahu aleyhi və səlləm* –, onun ailəsinə salam və salavatı olsun![237]

# Əbu Cəfər Muhəmməd İbn Cərir Ət-Təbəri

***– rahmətullahi aleyhi –***

Təbəri “Təfsir”, “Tarix” və bir çox əsərlərin müəllifidir. Müctəhid bir kimsə olub heç kimi təqlid etməzdi. İbn Huzeymə – *rahmətullahi aleyhi* – deyir ki: “Mən yer üzündə Muhəmməd İbn Cərirdən daha alim bir kimsə olduğunu bilmirəm”. H. 310-cu ildə dünyasını dəyişmişdir[238].

Lələkai – *rahmətullahi aleyhi* – dedi ki: Bizə Ubeydullah İbn Muhəmməd İbn Əhməd xəbər verdi ki: Bizə Qadı Əbu Bəkr Əhməd İbn Kamil xəbər verdi ki: Əbu Cəfər İbn Muhəmməd İbn

---

[237] “Şərhu Usuli Etiqadi” 2/197.

[238] “Şəzərətuz Zəhəbi” 2/260.

Cərir – *rahmətullahi aleyhi* – dedi ki: Bu barədə söz açacağımız Uca Allahın kitabı və Onun nazil etdikləridir. Bizə görə doğru söz də budur. Quran Allahın kəlamı olub yaradılmamışdır. Necə yazılırsa yazılsın, necə oxunursa oxunsun, səmada və ya yerdə olsun, istər Lövhi Məhfuzda hifz edilsin, istər ilk məktəb uşaqlarının lövhələrində yazılsın, istər daş üzərində və ya bir kağız üzərində yazılsın, qəlblərdə hifz edilsin və ya dildə tələffüz edilsin (məxluq deyil, Allahın kəlamıdır). Kim bundan qeyri sözlər söyləyərsə, yerdə və ya səmada olsun bizim dillərimizlə oxuduğumuz, mushaflarda yazdığımız Qurandan başqa bir quran olduğunu iddia edər və qəlbi ilə buna etiqad edərsə, istər içində saxlasın, istərsə də dili ilə bunu söyləsin əgər bunu din olaraq qəbul edərsə o kimsə Allahı inkar edən bir kafirdir, qanı halaldır. Allahdan uzaqdır, Allah da ondan uzaqdır. Çünki Allah buyurdu: *"__Bəli, bu şanlı Qurandır. O, mühafizə edilən lövhədədir". (əl-Buruc 21-22). "Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!". (ət-Tövbə 9).__* Beləliklə Uca Rəbbimiz bizlərə onun Lövhi Məhfuzda yazılı olduğuna və Muhəmmədin - *sallallahu aleyhi və səlləm* – dilindən eşitmiş olduğunu xəbər verir. Hər ikisi də eyni Qurandır.

Qiyamət günü möminlərin Rəbblərini görəcəkləri barəsində doğru inanc və dinimizin bir vacibi olaraq Əhli Sünnə Vəl Cəmaatın qəbul etdiyi Cənnət əhlinin Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – verdiyi səhih xəbərlərə görə Rəbblərini görəcəklər.

Hər bir şeyi təqdir edən və tədbir edən Allahdır. Onun iradəsi olmadan heç bir şey olmaz, Onun məşiəti olmadan heç bir şey meydana gəlməz. Yaratmaq da, əmr etmək də Onundur. İman – söz və əməldir. Artar və əskilər[239].

---

[239] "Şərh Usuli Etiqadi" 2/206.

# Əbu Bəkr İbn Əbu Davud

***– rahmətullahi aleyhi –***

Əbu Bəkr Abdullah İbn Əbu Davud Suleyman İbn Əşəs. Hafizdir, Sicistanlıdır. “Sunnənin” müəllifi Əbu Davudun oğludur. H. 230-cu ildə dünyana gəlmiş, H. 316-da dünyasını dəyişmişdir[240].

İmam, hüccət, alim, hafiz. ŞəmsudDin Muhəmməd İbn Əhməd İbn Osman əd-Dəməşqi əz-Zəhəbi “əl-Uluv” kitabında deyir ki: Bizə Əhməd İbn AbdulHəmid xəbər verdi ki: Bizə Muhəmməd İbn Qudamə 618-ci iləd bildirdi ki: Bizə Əlinin qızı Fatimə xəbər verdi ki: Bizə Əli İbn Bəyan dedi ki: Bizə Huseyn İbn Əli ət-Tənahiri xəbər verdi ki: Bizə Əbu Həfs İbn Şahin xəbər verdi ki: Əbu Bəkr Abdullah İbn Suleyman bu qəsidəni söylədi:

Rahmən və Rahim olan Allahın adıyla,
Allahın ipinə sarıl və tabe ol hidayətə,
Bidətçi olma, çəkin ki, qurtulasan,
Allahın Kitabı ilə Allahın Rəsulundan gələn Sünnətə tabe ol!
Dinin olsun onlar qurtulur və qazanırsan.
Malikimizin sözü məxluq deyildir,
Çünki Allah dostlarının dindəki yolu bu idi və bunu bu cür dilə gətirirdilər.
Quran barəsində heç bir zaman tərəddüt etmə,
Cəhmilərə uyanların söylədikləri kimi,
Quranın oxunması məxluqdur demə,
(Mənim Quranı tələffüzüm də məxluqdur demə),
De ki: Allah qullarına açıq-aydın görünəcəkdir,
Gizlənməyən on dördüncü ay kimi, hətta Rəbbin daha açıq görünəcəkdir,
O, doğmamış, doğulmamış,

---

240 “Şəzərətuz Zəhəbi” 2/273.

Onun bənzəri də yoxdur. Ucadır, hər cür əskiklikdən münəzzəhdir.

Cəhmi olan birisi bunu rədd edə bilər, lakin yanımızda

Söylədiklərimizi təsdiq edən açıq aydın hədis vardır.

Bunu Cərir, Muhəmmədin sözü olaraq rəvayət etmişdir.

Sən də onun dediyi kimi söylə ki, qurtulasan.

Yenə Cəhmi olan birisi Onun sağ əlini inkar edə bilər,

Lakin Onun hər iki əli də sağdır, ondan istədiyi kimi lütf edər.

Hər gecə Cabbar olan Allah enər,

Keyfiyyətsiz olaraq hər cür tərifə layiq olan, bir və tək olan Allah Ucadır.

Dünya səmasına enər və lütfünü yayar.

Səmanın qapıları açılar.

Deyər ki: Yoxmu məğfirət diləyən, məğfirət edənlə qarşılaşır,

Xeyir, bağışlanma diləyən, ruzi istəyən yoxmu ona verilir,

Bunu hədisləri rədd olunmayan bir topluluq rəvayət etmişdir.

Diqqət et! Onları yalan sayan bir toplum xüsrana uğrayar və çirkin bir iş edər.

Bütün səhabələr haqqında ən xeyirli sözü söylə, tənqid etmə, eyib və qüsurlarını dilə gətirmə. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm –* səhabələrini sevmək fərzdir, Onları tərif etmək yaxınlıq və fərzdir.

Təqdir edilmiş Qədərə iman et!

Cahillik edərək Munkər və Nəkiri inkar etmə, Hovuzu da, Mizanı da.

Qulu Musa - *əleyhissəlam* - ilə danışdığına,

O əzəldən bəri hər şeyi tədbir edən, hakimdir.

Onun kəlamı da, sözü də Əzəlidir və O böyük Ərşin üzərindədir.

İman saleh əməllərlə artdığı kimi, kimi zaman asiliklərdən ötrü əskilər.

Səhabələrin fəzilətlisi Sıddıqdır, Ondan sonra gözəl əxlaqlı Ömərdir.

Bizə gələn səhih xəbərlərdən, insanlar arasında yayılanlardan, Rəbbimiz heç şübhəsiz enər,

Hər gecə səmaya, hər hansı bir hədd və keyfiyyət olmadan,

O hər cür əskiklikdən munəzzəh, muqtədir və lətifdir.

Bizlər Onu gözlərimizlə görəcəyik,

Qiyamət günündə izdiham olmadan, Bulud olmayan havada on dördüncü ayın görülməsi kimi,

Qəbrin qəbirdəkiləri sıxması da, Munkər və Nəkirin sorğu sual etməsi də (haqdır),

De ki: Böyük Allah lütfüylə çıxardır,

Cəhənnəmdə yanaraq kömürə dönmüş bir qrup kimsələri,

Firdovsda olan çaya salınırlar və dirilirlər suyula,

Heç şübhəsin Allah Rəsulu Şəfaət edəcəkdir,

Qəbir əzabı da bir haqdır,

Namaz qılanlara kafir demə, asi olsalar belə,

Çünki hamısı da üsyan etmişdir, Ərşin sahibi əff edər.

Xariciləri görüşünə inanma, çünki bu görüşdə olan rəzil olub həlak olar.

De ki: İman həm söz, həm də niyyətdir, Həm də əməldir. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – sözüylə bu açıq ifadə edilmişdir. Bəzən üsyanlar səbəbilə əskilər, bəzən də itaətlərlə artar.

Allah Rəsulunun - *sallallahu aleyhi və səlləm* – sözü daha təmiz və qəlbi daha çox rahat edər,

Bu qəsidə təvatür yolu ilə gəlmişdir. əl-Acurri – *rahmətullahi aleyhi* – rəvayət etmiş və ona şərh də yazmışdır. İbn Batta "əl-İbanə" əsrində rəvayət etmişdir. İbn Əbu Davud – *rahmətullahi aleyhi* – dedi ki: "Bu mənim və atamın görüşüdür. Müəllimlərimizin də görüşüdür. Görmədiyimiz elm əhlinin də görüşü budur. Kim başqa şey söyləyərsə yalan söyləmişdir[241].

---

241 Zəhəbi "Siyer" 18/81-83.

# Nəsr əl-Məqdisi

***– rahmətullahi aleyhi –***

Əbul Fəth Nəsr İbn İbrahim İbn Nasr İbn İbrahim İbn Davud Əbul Fəth əl-Məqdisi ən-Nablusi, zahid, Şam diyarında Şafiilərin başı, bir çox əsərlərin müəllifirdir[242].

Uca Allahın bir və tək olduğuna, ortağı və şəriki olmadığına, Saməd olduğuna, doğmamış və doğulmamış, heç kimsənin Onun bənzəri də olmadığına inanmaqdır. Aləmi yaratmış, Peyğəmbərləri, Rəsulları göndərmiş, kitabları nazil etmiş, qulları üçün şəriətlər göndərmiş, onlara əmr və qadağalar qoymuşdur. Onların hamısını (vaxtı çatdıqda) öldürər, sonra da Qiyamət günü dirildər və nə etdiklərindən ötrü onları hesaba çəkər. Hər bir şeyin qarşılığını onlara verir. Onun kitabları nə deyirsə haqq odur. Rəsulları nəyi bildirdisə doğru da odur. Heç bir kimsənin Uca Allahın əmrinə müxalif olmağı və əmrini aşması doğru deyildir. Kitabında və Peyğəmbərinin - *sallallahu aleyhi və səlləm* – dili ilə özünü necə vəsf etmişsə biz də Onu belə vəsf edər və bunda həddi aşmarıq. Ona bir şeylər əlavə etməz, ağıllarımızla başqasını Ona qiyas etmərik. Əksnə bu işi Ona həvalə edər və təslimiyyət göstərərik. Xeyir əldə etmək üçün Ona təvəkkül edərik.

İman – söz, inanc və əməldir, itaətlə artar, asiliklə azalar.

Quran Əziz və Cəlil olan Allahın kəlamı vəhy və nazil etdiyi kitabıdır. Yaradılmamışdır, nə cür oxunursa oxunsun, yazılırsa yazılsın.

Xeyri və şərilə, şirini və acısıyla Qədər Allahdandır. O, qulların bütün əməllərini təqdir edib hökmünə bağlamışdır. Onların əməllərini yaratmadan öncə bunu etmişdir. Onlar da özləri üçün etmələrini təqdir edib hökmünə bağladığı, yazdığ və etibar etdiyi şeyləri edərlər. Bu Onun təqdirini aşmaz və Onun tərtibindən

---

[242] "Şəzərətuz Zəhəbi" 3/395.

ayrılmaz. Onun elmindən kənarda qalmaz və hökmündən ayrılmaz.

Bu ümmətin ən xeyirlisi Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – sonra Əbu Bəkr əs-Sıddıq, sonra Ömr İbn əl-Xəttab, sonra Osman İbn Əffan, sonra Əli İbn Əbu Talibdir – *Allah onlardan razı olsun* -. Bunlar Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – itaət etmələrini əmr etdiyi və müxalif olmağı qadağan etdiyi Rəşidi və hidayət Xəlifələridir.

Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – Cənnətlik olduqlaına şahidlik etdiyi on kişinin biz də Cənnətlik olduğuna şahidlik edərik. Onlardan başqa haqlarında xəbər verildiyi və ya etdiyi hər hansısa bir əməl, səbəbilə Cənnət vəd edilən kimsələr haqqında da eyni sözü söyləyirik. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – səhabələrinin hamısını Rəhmətlə yad edir, onların fəzilətlərini yayarıq. Aralarında baş verən anlaşmasızlığı xırdalamadan tərk edərik.

Uca Allah Ərşi üzərinə İstiva etmişdir. O, yaratdqlarından ayrıdır. Əziz və Hakim olan Allah buyurdu: ***"Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə". (ət-Talaq 12). "(Allah) onlarda olanların hamısını (peyğəmbərlərin əhvalatını və bütün əməllərini Öz elmi ilə) ehtiva etmişdir. O, hər şeyi bir-bir sayıb yazmışdır (təsbit etmişdir)!". (əl-Cinn 28). "Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11).*** Uca Allah Axirətdə görüləcəkdir. Möminlər onu gözləriylə görəcəklər. Kafirlər isə onu görməkdən məhrum ediləcəklər.

Cənnət haqdır, Cəhənnəm haqdır. Hər ikisi də yaradılmışdır və əbədiyyən yox olmazlar. Mizan haqdır, Peyğəmbərə - *sallallahu aleyhi və səlləm* – ikram olaraq verilən hovuz haqdır, Şəfaət haqdır, Tövhid əhli olan kimsələr Cəhənnəmdən çıxarılacaqlar. Orada qəlbində imandan bir şey olan heç kimsə qalmayacaqdır. Qəbr əzabı haqdır, Munkər və Nəkir haqdır, Kiramən Katibin haqdır, böyük günah edən kimsələrin halı Allahın diləməsinə qalmışdır. Qiblə əhlindən heç kimi hər hansı bir günahı səbəbilə təkfir

etmərik. Əksinə onların mömin olduqlarına, möminlərə aid hökümlərlə hökm edərik. Batində olanlarını isə Allaha həvalə edərik.

Həcc, ümrə, cuhad, cümə, namazla və bütün itaətlərin müsəlmanların imamları ilə birlikdə Qiyamət gününə qədər yerinə yetrilməsi görüşündəyik. Uca Allaha itaət olan xüsuslarda əmr sahiblərinə itaət edər, əmirlərini dinləyərik.

Allah bizə də sizədə Onu razı salacaq şeyləri etməyə müvəffəq etsin. Sevdiyi və razı qaldığı xüsuslarda bizə əməl etdirsin. Çünki biz yalnız Onunla bunları edə bilər və Ona qaytarılacağıq.

AbdurRahman əl-Ammi, atasından, o da babasından, o da Tabiindən qırx kişidən, onlar da Rəsulullahın - *sallallahu aleyhi və səlləm* – səhabələrindən rəvayət edirlər ki, Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "Doqquz şey Sünnətdəndir, cəmaat olmaq da bunları içərisindədir. Bunlardan kənara çıxan cəmaatdan ayrılmışdır. Qiblə əhli olna kimsə haqqında küfr, şirk və münafiqdir deyə şahidlik etmərik. Onların batinini Allaha həvalə edin, qiblə əhlindən ölənin cənazəsini qılın. Beş vaxt namaz və cümə namazlarını cəmaatla birlikdə qılın. Pis və ya yaxşı imamla birlikdə bunları qılın. Hər Xəlifə ilə bərabər müşriklərlə cihad edin. Sizin cihadınız sizin lehinizə, günahları da onların əleyhinədir. İmamlara qarşı qılıncla çıxmayın. İstər zülm etsinlər, islah olmaları üçün dua edin. Onlara bəd dua etməyin. Bütün bidətlərdən uzaq olun, çünki onların əvvəlidə axırı da batildir".

## Xatib əl-Bağdadi
***– rahmətullahi aleyhi –***

Əbu Bəkr əl-Xatib Əhməd İbn Əli İbn Sabit İbn Əhməd İbn Mehdi əl-Bağdadi. Hafiz, elm adamlarındandır. H. 392-ci ildə Cumədəl Axir ayında dünyaya gəlmişdir. İbn Məhkul – *rahmətullahi aleyhi* – dedi ki: "Daraqutnidən sonra Bağdadlılar onun

kimi elm adamı görməmişlər". "Tarixi Bağdad" əsərinin müəllifidir. H. 463-cü ildə dünyasını dəyişmişdir[243].

Bizə Hafiz Əbul Fadl Muhəmməd İbn Nasr İbn Muhəmməd İbn Əli əl-Bağdadi dedi ki: Bizə Əbu Huseyn əl-Mubarək İbn AbdulCabbar İbn Əhməd əs-Sayrafi 494-cü ildə Şəvval ayında xəbər verdi ki: Əbu Bəkr Əhməd İbn Əli İbn Sabit əl-Xatib xəbər verdi ki: Bizə Əbu Mənsur Muhəmməd İbn İsa əl-Bəzzar xəbər verdi ki: Bizə Saleh İbn Əhməd əl-Hafiz dedi ki: Mən Abdullah İbn İshaq İbn Siyamerdə belə deyərkən dinlədim: Mərvəzi ilə Tasusda qarşılaşdım. Ona Ey Əbu Bəkr dedim: Sən Əbu Abdullahın Quran barəsində nə söylədiyini dinlədin: Bəli, o belə deyərkən dinlədim: Quran Allahın kəlamı olub, məxluq deyildir. Hər kim Məxluqdur deyərsə kafir olur". Mən: "Bəs bu barədə heç bir şey söyləməyib qərasız qalan kimsə haqqında nə eşitdin" dedim. O: "Belə birisi pix insandır. Onun da Quranın yaradılmışdır görüşünə dəvət edəcəyindən qorxulur". Mən: "Ey Əbu Bəkr, Əbu Abdullahın Ləfz haqqında nə dediyini dinlədinmi?" dedim. O: "Quran tələffüzünün məxluq olduğunu söyləyən bir kimsə Cəhmidir". Allahın İsim və Sifətləri barəsində Sələfin izlədiyi yol onları qəbul etmək, onları zahiri üzərə dəyərləndirmək, sifətlərin keyfiyyət və təşbihlərini rədd etməkdir.

## Əhməd İbn Muhəmməd Ət-Tahavi
***- rahmətullahi aleyhi -***

Əbu Cəfər Əhməd İbn Muhəmməd Sələmə İbn Sələmə İbn Abdulməlik əl-Əzdi əl-Misri ət-Tahavi əl-Hənəfi. Hənəfi məzhəbinin dahilərindəndir. Misirdə Səid bölgəsindəki qəsəbələrdən Tahaya nisbət edilmişdir. H. 228-ci ildə (H. 239) dünyaya gəlmişdir. Əsərlərindən Şərh əl-Məani əl-Asar, Şərhu

---

243 "Şəzərətuz Zəhəbi" 3/311-312.

Muşkilil Asar, Muxtəsər Tahavi, Əqidətul Təhaviyyə və s. H. 321-ci ildə Zul Qədə ayında Bənul Əşas qəbristanlığında dəfn edilmişdir.

Rahman və Rəhim olan Allahın adıyla. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Ən gözəl sonluq, hər bir pisliklərdən çəkinən möminlərindir. Xeyir dualar, Pyğəmbərimiz Muhəmməd - *sallallahu aleyhi və səlləm* – və onun bütün ailə əhlinin üzərinə olsun. İmam Təhavi – *rahmətullahi aleyhi* – deyir ki: "Bu kitab Əbu Hənifə Numan İbn Sabit əl-Kufi, Əbu Yusuf Yaqub İbn İbrahim əl-Ənsari və Əbu Abdullah Muhəmməd İbn Həsən əş-Şeybaninin məzhəbinə: Aləmlərin Rəbbi Allaha olan imanları və yaşadıqları etiqad əsaslarına uyğun olaraq Əhli Sünnə Vəl Cəmaatın etiqadını açıqlamaqdan ibarətdir. Allahın bizi müvəffəqiyyətə çatdıracağına qəti olaraq inanaraq deyirik ki: "Allah birdir və heç bir şəriki də yoxdur. Oxşarı və bənzəri də yoxdur, Onu aciz edəcək də heç bir şey yoxdur. Ondan başqa ibadətə layq haqq ilah yoxdur. Allah başlanğıcı olmayan Qədim[244] və sonu olmayan şəkildə davamlıdır. Allahın varlığı heç bir şəkildə son olmaz və yox olmaz. Ancaq Onun dilədiyi olur. Qorxular və zənlər Ona aid edilməz. Düşüncələr Onu idrak etməz. Allah heç ölməyəcək Həyy (Diri), heç yatmayan Qayyumdur. Yaratdığı şeylərə ehtiyac olmadan yaradan və yaratdıqlarının ruzisini çətinə düşmədən verəndir. Allah qorxuya qapılmadan öldürən (Mumit) və heç bir gücə düşmədən yenidən dirildəndir. Allah yaratdıqlarından öncə də sifətlərilə

---

[244] ***<u>Qidəm –</u>*** qədim sözündəndir. Bəqa - əbədilikdir. Sələflər bu ismi qəbul eməmişlər. Çünki Quranda dəlili yoxdur. Allah barəsində Xəbər formasında gəlmişdir. Əsməul Husnədən deyildir. Allahın İsimi olan Əvvəl və Əxir vardır ki, bu daha gözədlir. Əzəli - Əbədi - əvvəli olmayana deyilir. Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "...Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumu ödə və məni yoxsulluqdan qurtarıb zənginləşdir!". İbn Məcə 3831, Tirmizi 3481, İbn Hibban 966, əl-Albani "Səhih". Çünki Qədim köhnə oln bir şeyə də deyilir. ***<u>"Nəhayət, o tədricən dönüb xurma ağacının qurumuş (Urcunul Qadim) budağı kimi əyri olur". (Yəsin 39)</u>*** İkincinin varlığı zamanına qədər qala bilər, yenisi ortaya çıxan kimi birincisinə qədim deyilir. ***<u>"Onlar bununla doğru yola gəlmədikləri üçün: "Bu, köhnə yalandır!"– deyəcəklər". (əl-Əhqaf 11).</u>*** Bu söz ən çox kəlam əhli araında məşhur olan bir kəlimədir. Sələflər bu sözü işləməyiblər.

birlikdə Qədim idi. Allahın sifətlərindən, öncə yox ikən sonradan məxluqatın xəlq edilməsilə var olan heç bir sifəti yoxdur. O, sifətlərilə əzəli olduğu kimi eyni şəkildə bu sifətləri üzərə əbədidir. Allah məxluqatı xəlq etdikən sonra Xaliq ismini, yoxdan var etdikdən sonra Bəri ismini almamışdır. O, bundan əvvəl də Xaliq və Bəri idi. Allah heç bir şeyə möhtac deyildir. Allahın heç bir bənzəri yoxdur. O, Səmi və Bəsirdr. Hər şeyi haqqıyla eşidir və görür. Allah məxluqatı əzəli elminə uyğun olaraq yaratmışdır. Allah məxluqatın qədərini təyin etmiş, onlar üçün müsəyyən ölçülər qoymuşdur. Məxluqatın əcəllərini də təyin etmişdir. Yaradılmışlar yaradlmamışdan öncə etdikləri əməllərindən heç bir şey Allaha gizli qalmamışdır. Allah məxluqatı yaratmamışdan öncə onların etdikləri şeyləri bilir. Bununla bərabər Allah onların itaət etmələrini və Ona qarşı günah (üsyan) etməkdən də qadağan etdi. Hər şey Onun diləməsi ilə meydana gəlir. Allahın diləməsindən başqa qulların heç bir iradəsi yoxdur. Allahın insanlar üçün dilədiyi olur, diləmədiyi isə olmaz. Allah özündən bir fəzilət olaraq dilədiyini doğru yola yönəldir, qoruyur və afiyət bəxş edər və yenə də ədalətli olaraq dilədiyini yardımdan məhrum edər, imtahan edər və azdırar. Bunların hamısı Allahın məşiəti (istəməsi) altındadı. Allah ona zid və bənzər ola biləcək şeylərdən çox çox Uca və Böyükdür. Allahın qəzasını rədd edə biləcək, hökmünü təxira salacaq və əmrinə üstün gələn heç bir kimsə yoxdur. Biz bunların hamısına iman etdik və hamısının Allah tərəfindən olduğuna kəsinliklə iman etdik. Tövhiddə olduğu kimi deyirik ki: Muhmməd Allahın seçdiyi qulu, nəbisi və razı olduğu Rəsuludur. Muhəmməd Peyğəmbərlərin sonuncusu, Muttəqilərin imamı, Peyğəmbərlərin lideri və aləmlərin Rəbbi olan Allahın Xəlilidir. Onun Peyğəmbərliyindən sonra kim Peyğəmbərlik iddiası edərsə sapıqlıq və nəfsə uymaqdır. Muhəmməd - *sallallahu aleyhi və səlləm* – cinlərin və insanların hamısına göndərilmiş haqq və hidayət, nur ilə gələn iki cahan Peyğəmbəridir. Quran Allahın kəlamıdır və Ondan necəliyi bilnmədən söz olaraq çıxmış, Allahın bunu

Peyğəmbərinə vəhy olara endirmiş və möminlər də bu minvalla təsdiq etmişlər və Quranın Allahın kəlamı olub *Məcaz* [245] olmadığına iman etmişlər. Kim Quranı dinləyib və dinlədiyi Quranın insan sözü olduğunu iddia edərsə küfrə girmiş olar. Allah bu cür iddia sahibini: ***"Mən onu Səqərə salacağam" (əl-Mudəssir 26).*** deyərək qınamış, ayıblamış və onu Cəhənnəmlə təhdid etmişdir. Allah Quran üçün: ***"Bu, adi insan kəlamıdır!". (əl-Mudəssir 25)*** deyəni Cəhənnəm ilə təhdit edib o, kimsənin Cəhənnəmlik olduğunu bildikdə biz başa düşürük ki, Quran bəşərin yaradıcısının sözüdür və insan sözü Qurana əsla

[245] ***Məcaz –*** İbn Qeyyim "Səvaqul Mursələ", İbn Teymiyyə "İman", "Məcaz" kitablarına bax. Əbul Həşim əl-Cubbəi ilk olaraq məcazdan danışıb. Mötəzilə olub. Bütün bu bidətlər, fəlsəfə, məntiq Abbasi Xəlifəsi əl-Məmunun dövründə Yunan fəlsəfə kitablarının ərəb dilinə tərcümə edilməsi ilə başladı. Bu da Kəlam (məntiq) elminin yayılmasına, müsəlmanlar arasın firqə və məzhəblərin yaranmasına səbəb oldu. Bu cəmaat məntiqə Quran və Sünnədən daha çox üstünlük verirlər. Bu isə Peyğəmbərin və səhabələrin olduqları yola ziddir. Bütün Sələf alimlər Kəlamdan insanları çəkindirmişlər. Yunan fəlsəfə kitabları ərəb dilinə tərcümə olunadan sonra kəlam elmi ilə bərabər ortaya Quranda Məcaz vardır deyilən fikirlərdə ortaya çıxdı. Kəlam 2 qismdir: 1) Birinci qoyulan məna üçün - Həqiqət. 2) İkinci qoyulan məna üçün isə - Məcaz deyiblər. Həmçinin ilk ağla gələn məna məs: İnsanın ağzında Diş görüb və adını diş qoyublar, sonra da açarın dişlərini görüb adını yenə də Diş qoyublar və deyiblər ki: İlk qoyduğumuz həqiqət, ikinci isə məcaz. Həmçinin vəhşi heyvan üçün deyiblər Əsəd, sonra cəngavəri gördükdə ona da Əsəd deyiblər. Buna da məcaz deyiblər. Bu iddianın heç bir əsası və dəlili yoxdur. Bunun əksini də iddi etmək olar Məs: Birinci İnsana Əsəd deyiblər, sonra isə şirə Əsəd deyiblər. Bəziləri deyiblər ki: Quran və Sünnədə yoxdur, lakin qramatikada var. Bəziləri deyiblər ki, heç birində yoxdur. İbn Teymiyyə - *rahmətullahi aleyhi* - deyir ki: "Bütün cumhurun əksəriyətinin rəyidir ki, heç birində yoxdur". Hicrətin ilk 3 əsrində Heç bir qramatika miminə rast gəlməzsən ki, Məcazdan danışsınlar. Sibaveyh kimi qramatikanın atası bu barədə bilməyib? Məs: Allah Qurani Kərimdə buyurur: "Kəddən soruş?". Bu həqiqətdir məcaz deyil? Nə üçün? Ərəb dilinin qrammatikasında olan cümlə üzvlərinə görə İrab (təhlil) etdikdə ***Lə İləhə İlləllah –*** beş sözdən (kəlmədən) ibarətdir. Əslən isə ***Lə İləhə İlləllah –*** kəlməsi dörd kəlmədən ibarətdir. Bəs ***Haqq –*** kəliməsinin ərəb dilində gizlədilməsinə səbəb nədir? Ərəb dilində (***Lə Nəfiyə Lil Cins*** - Babında) Xəbər (***Haqq –*** kəliməsi) gizlədildikdə məna Ərəblərə aydın olduğu üçün bu şəkildə söyləmək olar. Yalnız və yalnız Ərəb dili qrammatikasında söhbətin nədən getdiyi aydın olduqda xəbər gizlədilir. Həm də bizim dilimizdə də var: "Kəndə xəbər çatdır", yəni kəndin əhlinə. Digər bir ayədə Allah buyurur: "Həblullah – Allahın ipi". Onlar ip dedikdə ağıllarına ilk gələn bizim gördüyümüz ipdir. Lakin, Vallahi ki, Allahın ipi vardır. Quran və Sünnə, Lə İləhə İllələh. *Allah daha doğru bilir!* [246] Müəllif bu mövzuda İmam Əbu Hənifənin görüşünə tabe olmuşdur. Həqiqətdə isə insanlar imanda bir-birilərindən fərqlidirlər.

bənzəməz. Kim Allahı insanda olan sifətlərlə vəsf edərsə küfrə girər.

Cənnət əhlinin Möminlərin Allahı görməsi, Rəbbimizin Quranda: ***"O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!". (əl-Qiyamə 22-23).*** buyurduğu kimi əhatə və keyfiyyət olmadan haqdır. Bu ayənin təfsiri Allahın murad etdiyi və bildiyi şeydən ibarətdir. Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – bu barədə varid olan səhih hədislər kimi. Bunların mənası Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – bunlardan nə qəsd etdisə ondan ibarətdir. Bu barədə görüşlərimizlə təvil edərək və zənn edərək girmərik. Çünki dini məsələlərdə salamat olan kimsə Allah və Rəsuluna təslim olan və bu məsələni daha yaxşı bilənə həvalə edən kimsədir. İslamın varlığı ancaq təslimiyyət və itaət ilə mümkün olur.

Merac səfəri haqdır, Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – gecə səfərinə ruhu və cəsədilə çıxmasıdır. Daha sonra Allahın dilədiyi Uca məqamlara çıxarıldı. Allahın Peyğəmbərinə - *sallallahu aleyhi və səlləm* – bir rahmət olaraq ikram etmiş olduğu Hovuz haqdır. Ümməti Muhəmməd - *sallallahu aleyhi və səlləm* – üçün hazırladığı şəfaət də hədislərdə deyildiyi kimi haqdır. Allahın Adəmdən və zurriyətindən almış olduğu Misaq haqdır. Allah əzəldən bəri Cənnətə və Cəhənnəmə girənlərin sayını bilir və elmi ilə əhatə etmişdir. İnsanların edəcəkləri əməlləri də Allah əzəldən bilir. Hər kəs özü üçün yaradılan işləri etməyə imkan verilir. Əməllər isə son edilən əmələ görə dəyərləndirilir. Allah bir şeyi nə üçün belə yaratdı deyə souşan kimsə kitabın hökmünü rədd etmiş olardı. Kitabın hökmünü rədd edən isə artı kafirlərdən sayılır. Lövhi Məhfuza, Qələmə və orada yazılanların hamısına iman edərik. Məxluqatın hamısı bir yerə toplansalar belə Allahın Lövhi Məhfuzda var olacağını yazdığı şeyin yox olması üçün çalışsalar belə gücləri çatmaz. Yenə də Allahın var olmasını yazmadığı bir şeyin olması üçün toplansalar belə müvəffəq olmazlar. Qiyamətə qədər olacaq şeyləri qələm yazmışdır.

Allahın Quranda bəyan etmiş olduğu Ərş və Kursi haqdır. Uca Allahın Ərşə və aşağı olan şeylərə ehtiyacı yoxdur. Allah İbrahimi - *əleyhissəlam* - dost etdiyi kimi, Musa - *əleyhissəlam* - ilə danışdığına da iman, təsdiq və təslimiyyət olaraq ifadə edərik. Mələklərə, Peyğəmbərlərə və Peyğəmbərə nazil olan kitablara iman edərik. Quran barəsində müadələ etmərik. Bilrik ki, Quran Aləmlərin Rəbbinin kəlamıdır. Onu Ruhul Əmin olan Cəbrail - *əleyhissəlam* - endirmiş və Peyğəmbərlərin seyyidinə Muhəmmədə - *sallallahu aleyhi və səlləm* – öyrətmişdir. Əhli Qiblədən heç kimsəni günahı halal saymadığı müddətdə təkfir etmərik. Möminlərdən saleh əməl edən kimsələri Allahın əff etməsini və onları Rəhməti ilə Cənnətə salmasını umarıq. Onlar haqqında əmin olmarıq və Cənnətə girmələrinə şəhadət etmərik. Günah edənlərin əff edilməsini dilər, onlara görə qorxar və ümüd edərik. Qul onu iman dairəsinə salan şeyləri inkar etməklə imandan çıxar. İman – Allaha, mələklərinə, kitablarına, peyğəmbər-lərinə, axirət gününə, öldükdən sonra dirilməyə, Xeyir və şərin, acı və şirin hər bir şeyin Allahın qədəri ilə olduğuna iman etməkdir. Biz bunların hamısına iman edər və Allahın Peyğəmbərlərindən - *sallallahu aleyhi və səlləm* – heç birini digərindən ayırd etmərik. Allahdan gətirdiyi şeyləri təsdiq edərik. İman təkdir, iman edən kimsələr də imanın əslində bərabərdirlər[246].

Əhli Qiblədən olan hər bir yaxşı kimsənin arxasında namaz qılmağı və bunlardan ölənlərin cənazə namazını da qılmağı caiz görərik. Əhli qiblədən heç kimsəni nə Cənnətə, nə də Cəhənnəmə salmarıq. Onlardan şirk, küfr, nifaq kimi bir şey meydana çıxmadığı müddətdə kafir olduqlarına, şirk qoşduqlarına və münafiq olduqlarına şəhadət etmərik. Onların gizli qalan hallarını Allaha buraxarıq. Üzərimizə təyin edilmiş idarəçilər zülm etsələr belə onlara qarşı çıxıb üsyan etmərik. Onlara itaət etməkdən əl çəkməz, günah etməyi əmr etmədikləri müddətdə onlara itaət etməyi Uca Allaha itaət etmək kimi fərz bilərik. Onların islah

---

[246] Müəllif bu mövzuda İmam Əbu Hənifənin görüşünə tabe olmuşdur. Həqiqətdə isə insanlar imanda bir-birilərindən fərqlidirlər.

olmaları və düzəlmələri üçün dua edərik. Sünnətə və Əhli Sünnət camaatına uyar, ayrılmaqdan, ixtilafdan və parçalanmaqdan qaçarıq. Hədisdə deyildiyi kimi səfərdə və muqim ikən corablar üzərinə məsh etmək caizdir.

Həcc və Cihad müsəlmanların imamlarından istər yaxşı, istər facir olsun Qiyamətə qədər davamlı olaraq ediləcək iki fərzdir. Bu iki fərz ibadətini heç bir şey ləğv etməz və qaldırmaz. Kiramən Kətibin mələklərinə və Allahın onları üzərimizə qoruyucu və etdiklərimizi yazan şərəfli varlılıqlar olaraq təyin etdiyinə iman edərik. Bütün canlıların ruhlarını almaqla görəvli olan ölüm mələyinə iman edərik. Qəbr əzabına, qəbirdə ölüyə Munkər və Nəkir mələklərinin Rəbbindən, Dinindən və Peyğəmbərindən sual verməlәrinə iman edərik. Qəbr ya Cənnət baxçalarından bir baxça, ya da Cəhənnəm çüxurlarından bir çüxurdu. Öldükdən sonra dirilməyə, Qiyamət günü əməllərin qarşılığının veriləcəyinə, əməl dəftərlərinin oxunmasına, savaba, əzaba, Sırata və Mizana iman edərik. Cənnət və Cəhənnəm yaradılmış olub əbədiyyən yox olmaz. Allah Cənnət və Cəhənnəmi məxluqatdan öncə yaratmışdır. Bu ikisinə girəcək olanları da yaratmışdır. Beləki bu kimsələrdən dilədiyini fəzilətilə Cənnətə salar, dilədiyini də ədalətilə Cəhənnəmə salar. İnsanlar da onlar üçün təqdir edilmiş Cənnət və ya Cəhənnəmi haqq edəcək əməlləri edərlər. Allah qulları ancaq gücü çata biləcək şeylərdən məsul tutar. Onlar da Allahın onları müqtədir etdiyi şeylərə gücləri çatır. Bu da ***Lə Həulə Vələ Quvvətə İllə Billəh –*** sözünün təfsiridir. O hər cür pislik və zülmdən uzaqdır. Hər cür ayıb və qüsurdan uzaqdır. Allah etdiklərindən soruşulmaz, qulları isə etdiklərində məsuldurlar. Kim Allahdan bir an belə mustəğni qalacaq olarsa küfrə girər və xüsrana uğrayar. Allah həm qəzəb edər həm də razı qalır. Onun qəzəbi və rızası insanların qəzəb və razılığına bənzəməz.

Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – səhabələrini sevər, onlardan heç birindən uzaqlaşmaz və sevgidə həddi aşmarıq. Onlara nifrət edənlərə, ağız əyənlərə biz də nifrət edərik. Biz

səhabələri yalnız xeyirlə yad edərik. Onları sevmək din, iman və səmimiyyətdir. Onlara nifrət isə küfr, nifaq və azğınlıqdır. Allah Rəsulundan - *sallallahu aleyhi və səlləm* – sonra Ümməti Muhəmmədin ən fəzilətlisi və öndə olanı Əbu Bəkr, sonra Ömər, sonra Osman. Sonra da Əlidir – *Allah onlardan razı olsun* -. Bunlar Rəşidi Xəlifələri və insanları hidayətə yönəldən imamlardır. Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – Cənnətlik dediyi və müjdələdiyi on kişinin Rəsulullahın - *sallallahu aleyhi və səlləm* – şəhadəti üzərində Cənnətə girəcəklərinə şahidlik edərik. Bu barədə Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – sözü haqdır. Bu on kişi: Əbu Bəkr, Ömər, Osman, Əli. Təlhə, Zubeyr, Sad, Səid, AbdurRahman İbn Auf, Əbu Ubeydə İbn Cərrahdır – *Allah onlardan razı olsun* -. O, bu ümmətin əminidir. Səhabə, Tabiin və onlardan sonra gələn xeyir və əsər sahibləri olan Sələf alimləri də yalnız xeyirlə yad edilir. Kim onları pisliklə yad edərsə doğru yoldan çıxmış olar. Övliya qullarını heç bir Peyğəmbərdən – *Allah onlardan razı olsun* - üstün tutmarıq. Bizə görə bir Peyğəmbər – *Allah onlardan razı olsun* - bütün vəlilərdən üstündür. Dəccəlin çıxması, İsanın - *əleyhissəlam* - göydən enməsinə iman edər və Qiyamət əlaməti olaraq günəşin batdığı yerdən çıxacağına və Dəbbətul Ardın çıxmasına iman edərik. Allahdan İslam üzərində davamlı qalmağımızı və son nəfəsimizi İslam ilə yaşamağımızı diləyir, batil istəklərdən, səhf fikirlərdən, Müşəbbihə, Mutəzilə, Cəhmiyyə, Qədəriyyə saparaq Əhli Sünnə Vəl Cəmaatdan uzaqlaşmaqdan Allaha sığınırıq. Biz onlardan uzağıq, onlar bizə görə sapıqdırlar”[247].

## Əbu Osman əs-Sabuni

***- rahmətullahi aleyhi -***

[247] İmam Təhavi “Əqidətul Təhaviyyə”.

Subki "Tabaqatuş Şəfii" adlı əsəində İsmail İbn AbdurRahman İbn İsmail Əbu Osman əs-Sabunini – *rahmətullahi aleyhi* – vəsiyyətini söyləyir: Bir və tək olan Allahdan başqa ibadətə layiq heç bir haqq İlah olmadığına, şərikinin omadığına, bir, tək və Saməd olduğuna, nə doğmuş, nə də doğulmamış olduğuna, hökmünə kimsəni şərik etmədiyinə, Əvvəl, Axır, Zahir, Batin, Həyy, Qayum, məxluqaının yox olmasından sonra Bəqi, qullarından xəbərdar, qeybləri bilən, qəlblərin gizlətdiklərini bilən, məğfirəti sonsuz, (mömin qullarını) sevən, Uca Ərşin sahibi olan dilədiyini edən: ***"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (əş-Şura 11)*** şəhadət edirəm. O, bizim mövlamız, o nə gözəl dost və gözəl yardımçıdır. Bütün bunlara şahidlik edənlərlə birlikdə şəhadət edər. Doğru bir etiqad və sağlam bir yəqin ilə şəhadəti iqrar və etiraf edirik. ***"O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!". (əş-Şuəra 88-89). "O gün dostun dosta heç bir faydası olmaz, onlara kömək də edilməz! (Heç kəs heç kəsdən Allahın əzabını dəf edə bilməz!) Allahın rəhm etdiyi kimsədən başqa! Şübhəsiz ki, O, yenilməz qüvvət, mərhəmət sahibidir!". (əd-Duxan 41-42).*** Muhəmməd - *sallallahu aleyhi və səlləm* – Allahın qulu və Rəsulu olduğuna, onu hidayət ilə və müşriklər xoş görməsə belə bütün dinlərin üstünə çıxarmaq üçün haqq din ilə göndərdiyinə şəhadət edərik.

Cənnətin haqq olduğuna, Uca Allahın orada həqiqi dostları üçün hazırladığı hər bir şeyin haqq olduğuna şahidlik edərik. Cəhənnəmin və Allahın orada düşmənləri üçün hazırladığına da inanırıq. Mövlam olan Allahdan Cəhənnəmdən məni qorumasını, oradan uzaqlaşdırmasını və qurtuluşa çatanlardan etməsini diləyirəm. Allah buyurdu: ***"Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar...". (Ali İmran 185).***

Namzımın, ibadtlərimin, həyatımın, ölümüm, şəriki olmayan aələmlərin Rəbbi olan Allaha aid olduğuna şahidlik edirəm. Mən

bununla əmr olundum və mən müsəlmanlardanam. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Rəbb olaraq Allahdan, din olaraq İslamdan, Peyğəmbər olaraq Muhəmmədən, öndər olaraq Qurani Kərimdən razıyam. Bununla yaşayar, bunla ölərəm.

Mələklərin haqq, Peyğəmbərlərin haqq, Qiyamətin heç şübhəsiz gələcək olduğuna və Allahın qəbirdəkiləri dirildəcəyinə şahidlik edirəm. Şahidlik edirəm ki, Uca Allah xeyri təqdir buyurmuş və xeyri əmr etmişdir. Ondan razı olmuş və xoş olmuşdur. Xeyir edənin o, işi etməsini iradə etmiş və xeyir etməyə qarşılıq gözəl mükafat var etmişşdir. Şəri də təqdir etmiş, lakin ondan uzaq olmağı əmr etmişdir. Ondan razı olmaz, onu sevməz. Şər işləyəndə şərin vücuda gəlməsini murad etmiş, lakin o şəri sevməz. Uca Allah zalımların söylədiklərindən uca və böyükdür. Bir günahı əmr etməkdən, onu sevməkdən və ya o günahdan razı olmaqdan ucadır. Allah təqdi etmədiyi bir işə qulun güc etirməsi, Onun iradə etmədiyi və diləmədiyi bir şeyi qulun etməsi mümkün deyildir.

Şəhadət edirəm ki, Quran Allahın kitabı, onun kəlamı, vəhyi və nazil etdiyidir. Məxluq deyildir. Mushaflarda yazılı olan, dillərdə oxunan, qəlblərdə əzbələnən, qəlblərdə əzbərlənmiş, qulaqların eşitdiyidir. Uca Allah buyuru: ***“Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!”. (ət-Tövbə 6). “Xeyr, bu (Quran) elm verilmiş kəslərin sinələrində (əzbər) olan açıq-aydın ayələrdir. (Və ya: sənin yazıb oxumaqla məşğul olmadığını kitab əhlindən olan elm sahibləri öz ürəklərində açıq-aşkar bilirlər). Bizin ayələrimizi yalnız zalımlar (kafirlər) inkar edərlər”. (əl-Ənkəbut 49). “Allahın Kitabını oxuyanlar...”. (Fatir 29). “Biz ona (Muhəmməd əleyhissəlama) şer öyrətmədik və bu ona heç yaraşmaz da (lazım da deyildir). Ona vəhy olunan ancaq öyüd-nəsihət və (haqla batili ayırd edən) açıq-aşkar Qurandır ki,”. (Yəsin 69).***

Şəhadət edirəm ki, İman Allahın təsdiq edilməsini əmr etdiyi şeylərin qəlb ilə təsdiqi, Allahın inkar edilməsini əmr etdiyi şeylərin dil ilə iqrar edilməsi, Allahın edilməsini emr etdiyi şeylərin əzalar ilə edilməsi, onun qəlbin təsdiqi, dilin sözü, əzaların etməsidir.

Şəhadət edirəm ki, uca Allah Ərşinin üzərinə İstiva etmişdir. ***"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır...". (əl-Əraf 54). "O, göyləri, yeri və onların arasındakıları altı gündə yaratdı, sonra da Ərşə ucaldı...". (əl-Furqan 59).*** Allahın Ərşinin üzəinə İstivanın necəliyi bilinməz. Zamanında müsəlmanların imamı İmam Məlik – *rahmətullahi aleyhi* – İstivanın keyfiyyəti barəsində sual verən kimsəyə verdiyi cavabında demişdir: "İstiva bilinən bir şeydir, keyfiyyəti isə məchuldur. Ona iman etmək fərz, bu barədə sual vermək isə bidətdir. Səni isə bir bidətçi olaraq görürəm – dedi və məclisdən çıxarılmasını əmr etdi".

Şəhadət edirəm ki, Uca Allah kitabında özünü Peyğəmbərinin - *sallallahu aleyhi və səlləm* – dili ilə vəsf etdiyi üstün sifətlərə sahibdir və bunu tam bir təslimiyyətlə qəbul edirəm. Bu sifətlərin heç birini rədd etmirəm. Heç birinin də yaratdıqlarının sifətlərinə bənzəmədiklərinə inanırıq. Bunu söylüyürük: Onun sifətləri heç bir zaman qulların sifətlərinə bənzəməz, Onun zatının yaradılmışlara bənzəmədiyi kimi. Muattıla və Müşəbbihənin dedilərində O ucadır.

Uca Allahın sifətləri ilə bağlı varid olan ayələr bu xüsusda Rəsulullahdan - *sallallahu aleyhi və səlləm* – səhih olaraq nəql edilmiş xəbərlər – Qiyamət günü Rəbbimizin gəlməsini, Adəmi əli ilə yaratmasını, Ərşin üzərinə istiva etdiyini açıqlayan ayələri, hər gecə dünya səmasına enməsini, gülməsini və s. Xəbərlər imi – Uca yaradıcının sifətlərinin varid olduğu ayələr və xəbərlər haqqında Sələfi Salihin və din imamlarının izlədiyi yolu izləyirik.

Kəlama baş vurmağı, kəlam elmində dərinləşməyi, Sələfin uzaq olduğu, qadağan etdiyi şeyləri də qəbul etmirik. Kəlam

məsələlərində mübahisələr, dərinliyə varmaq qəlbi pozar. Qəlbdə Uca Allahın heybətini qalrırar, qəlbə böyük şübhələr salar. Dininə və Peyğəmbərinin - *sallallahu aleyhi və səlləm* – sünnətinə bizləri yönəltdiyi üçün həmd Allahadır. Allahın salat və salamı Onun Peyğəmbərinə - *sallallahu aleyhi və səlləm* – olsun, Ona həmd edərik.

Şəhadət edirəm ki, Qiyamət haqdır, Qiyamətin əlamətləri, dəhşətli halları, Hovuza, Mizana, Sırata, əməl dəftərlərinin oxunması, hesaba çəkilmək, əməllərin ərz edilməsi, Allahın hüzurunda durmaq, Məşhərdə Cənnətə və ya Cəhənnəmə girmək, Tövhid əhlinə vəd olunmuş şəfaət və daha başqa şeylər hansıki Kitabda və hədislərdə açıqlanmışdır haqq olduğuna şəhadət edərik. Uca Allahdan da şahidlik etdiyim bütün bunların üzərində sabit olmaq üçün Allahdan yardım diləyirəm. Şəhadət edirəm ki, Allah dostları parlaq üzlərlə Rəbblərinə baxmağı Allah lütf və ehsan edəcəkdir. Onlar əbədiyyat yurdunda açıq gözləriylə Onu görəcəklər. Onu görmək üçün hər hansı bir sıxıntı və çətinlik ilə qaşılaşmayacaqlar. Uca Allahdan üzümüzü Ona bu şəkildə baxan üzlərdən etməsini, hər cür bəladan, xoşa getməyən hər bir şeydən qorumasını diləyirəm.

Şəhadət edirəm ki, Peyğəmbərdən - *sallallahu aleyhi və səlləm* – sonra insanların ən xeyirlisi Əbu Bəkr əs-Sıddıq, sonra Ömər, sonra Osman, sonra da Əlidir – *Allah onlardan razı olsun* -. Bütün səhabələrə rəhmət oxuyur, onları vəli və dost edərik. Onlara məğfirət diləyərik. Eyni şəkildə onun nəslindən gələnləri, möminlərin anaları olan zövcələrini ilə birlikdə həşr etməsini dilərik. Çünki Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kişi sevidkləri ilə bərabərdir".

Müsəlmanlar aralarını düzəltmələrini, qohumluq bağlarını düzəltməyi, qonşularına, yaxınlarına, böyüklərin haqqını verməyi, kiçiklərə də rəhm etməyi tövsiyə edirəm. Bir-birilərinə nifrət etməməyi, arxa çevirməməyi, həsəd aparmamağı tövsiyə edirəm. Xeyirdə bir-birinə yardımçı olmalarını, cəmaat şəkilində Allahın ipinə sarılmağı, kitaba, sünnətə, ümmətin alimlərinin və İmam

Məlik, Şəfii, Sovri. Sufyan İbn Uyeynə, İmam Əhməd, İshaq İbn İbrahim, Yahyə İbn Yəhyə – *Allah onlardan razı olsun* - və buna bənzər İslam alimlərinin izlədikləri yolu izləməyi diləyirəm.

## İbn Əbul İzz Əl-Hənəfi

***- rahmətullahi aleyhi -***

Sədrəddin Əbu Həsən Əli İbn Alaiddin Əli İbn Şəmsəddin Əbu Abdullah Muhəmməd İbn Şərəfiddin Əbul Bərəkət Muhəmməd İbn İzziddin Əbul İzz Saleh İbn Əbul İzz İbn Vuheyb İbn Ata İbn Cubeyr İbn Cabir İbn Vəhb. Hənəfi məzhəbinin dahilərindəndir. Dəməşqlidir. H. 731-ci il 22 Zul Hiccədə dünyaya gəlmişdir. H. 792-ci ildə Zul Qədə ayında dünyasını dəyişmişdir.

## İmam Cəfər Sadiq

***- rahmətullahi aleyhi -***

İmamiyyə məzhəbinin qəbul etdiyi on iki imamın altıncısı. Kunyəsi Cəfər əs-Sadiq Muhəmməd Bakir İbn Əli İbn Hüseyn İbn Əli İbn Əbu Talibdir. H. 83/700-ci ildə dünyaya gəlmişdir. Tələbələrindən Cabir İbn Həyyan ondan bir çox elmləri mənimsəmişdir. Əbu Hənifə, İmam Məlik, Sufyan əs-Souri kimi böyük elm xadimləri ondan elm öyrənmişlər. Əbu Hənifə – *rahmətullahi aleyhi* – Hicazda Cəfər Sadiqin yanında iki il qalmış və demişdir: «Əgər bu iki il olmasaydı Nüman məhv olurdu»[248]. Bəzi məzhəblər tərəfindən həddən artıq şişirdilərək onların məsum olduqları söylənilmiş, qeybdən xəbərləri olduqları, hətta bəzi Peyğəmbərlərdən üstün olduqları da söylənilmişdir. Lakin bu xətadır. Çünki ismət (məsumluq) sifəti yalnız Peyğəmbərlərə xasdır. Peyğəmbərlərdən sonra olan bütün bəşər övladları məsum deyil xəta edəndirlər. İmam Məlik – *rahmətullahi aleyhi* – onun

---

[248] Muhəmməd Əbu Zəhra "İmamus Sadiq" 37-39.

haqqında deyir ki: «Onu üç halda daima görərdik. Ya namaz qılar, ya oruc tutar, ya da Quran oxuyardı»[249]. H. 148/769-ci ildə dünyasını dəyişmişdir.

## İmam Əbu Yusuf
### *- rahmətullahi aleyhi -*

Yaqub İbn İbrahim əl-Ənsaridir. İraq bölgəsinin fəqihi sayılan Yaqub 113/731-ci ildə Kufədə dünyaya gəlmişdir. Hənəfi məzhəbinin İmamı Əbu Hənifədən – *rahmətullahi aleyhi* – sonra gələn böyük hənəfi uləması. Yusuf adlı bir oğlu olduğu üçün ona nisbət edilərək Əbu Yusuf (Yusufun oğlu) ləqəbiylə məşhur idi. Ailəsi fəqir idi. Əbu Hənifənin – *rahmətullahi aleyhi* – köməyi ilə elmə başlayır. Ata İbn əs-Səid, Muhəmməd İbn İshaq İbn Yəsar və Leys İbn Sad kimi böyük hədisçilərdən hədis oxudu. Əbu İshaq əş-Şeybani, Suleyman ət-Təmimi, Yəhya İbn Səid Əməşdən dərs aldı. Ən çox dərs aldığı müəllimi isə Əbu Hənifə – *rahmətullahi aleyhi* – idi. 16 il onun yanında dər almış Müctəhid mutlaq dərəcəsinə kimi gəlib çatmışdır. Əbu Hənifənin – *rahmətullahi aleyhi – rahmətullahi aleyhi* – vəfatından sonra Bağdada gələrək xəlifə Mehdi tərəfindən qazı təyin edilir. Harun əl-Rəşidin dövründə isə Qazılar qazısı adını almışdır. 16 il qazılıq etdikdən sonra dünyasını dəyişir. Yerinə isə oğlu Yusuf keçir. H. 183/798-ci ildə dünyasını dəyişir. Əsərləri "İxtilaful Əmsar", "Ədəbul Qadi alə Məzhəbi Əbu Hənifə", "Emali fil Fiqh", "Kitabul Buyu", "Kitabul Cevami", "Kitabul Hüdud", "Kitabul Harac", "Kitabus Salat", "Kitabus Siyam", "Kitabul Vəsaya" və s. Əbu Yusufun – *rahmətullahi aleyhi* – yazdığı "Məbsut" Hənəfi fiqhinin əsas qaynaqlarındandır. Müəllimləri arasında Əbu Leyla, Əbu Hənifə, İmam Məlik, Sufyan İbn Uyeynə, İsmail İbn Uleyyə, İbn Cureyc, Həsən İbn Dinar, Hənzələ İbn Əbu Sufyan – *Allah onlardan razı olsun* - və s.

---

[249] Muhamməd Əbu Zəhra "İmamus Sadiq" 77.

## Müslim İbn Həccac
***- rahmətullahi aleyhi -***

Müslim İbn əl-Həccac əl-Kuşeyri ən-Nisapuri. Hədis elmində İmam Buxaridən sonra ikinci böyük şəxsiyyət sayılır. H. 204-cü ildə Məşədin yaxınlığında yerləşən Nisapur şəhərində dünyaya gəlmişdir. Kuşeyr adlı böyük və məşhur bir qəbiləyə məxsusdur. Bu qəbilənin adı isə Kuşeyr İbn Kəbdən gəlir. Çox kiçik yaşlarından hədis elmini öyrənməyə başlamış və bu səbəbdən də elm almaq üçün dünyanın bir çox ölkələrini İraq, Hicaz, Şam və Misri dolaşmışdır. Böyük hədis alimləri olan İmam Buxari, Əhməd İbn Hənbəl, Yəhyə İbn Məin, Əbu Heysəmə, İbn Əbu Şeybə – *Allah onlardan razı olsun* - və s. dərs almışdır. Öz növbəsində də Tirmizi, İbn Əbu Xatim, İbrahim İbn Muhəmməd İbn Sufyan – *Allah onlardan razı olsun* - kimi muhəddislərə dərs vermişdir. Alimlər İmam Müslim haqda yüksək tərifəlayiq sözlər demişlər. Əbu Zura və Əbu Hətim – *rahmətullahi aleyhi* – Muslimi onun zamanında yaşayan digər alimlərdən üstün tutmuşlar. Şeyx Məhəmməd İbn Əbdülvahhab əl-Fərra – *rahmətullahi aleyhi* – deyir: “Müslim insanların ən savadlısı və elm dəryası idi. Onun haqqında xeyirdən başqa heç nə bilmirəm”. Məsləmə İbn Qasim – *rahmətullahi aleyhi* – deyir: “Onun alimlər arasında qədir-qiyməti yüksəkdir”. İmam Nəvəvi – *rahmətullahi aleyhi* – isə demişdir: “Onun (bu elmdə) imam, alim olmasına, yüksək məqamına, elmdə dəqiqliyinə və öncüllüyünə hamı ittifaq etmişdir”. Ən məşhur əsəri əl-Cəmi əs-Səhihdir ki, bu əsərdə 7275, təkrarsız 4000 hədis toplanmışdır. Bu kitab İmam Buxarinin – *rahmətullahi aleyhi* – səhihindən sonra ikinci səhih əsər sayılır. H. 261-ci il Rəcəb ayında Nisapur şəhərində dünyasını dəyişmişdir.

## Əbu Davud Süleyman İbn Əl-Əşas
***- rahmətullahi aleyhi -***

Əbu Davud Süleyman İbn əl-Əşas İbn İshaq əl-Əzdi əs-Sicistani. Məşhur muhəddislərdəndir. H. 202-ci ildə dünyaya gəlmişdir. Əhməd İbn Hənbəlin tələbəsi olmuş, sonradan isə Tirmizi, Nəsai kimi alimlərin müəllimi olmuşdur. Öz sözlərinə görə 500000 min hədis toplayıb. Bir çox əsərlərin müəlifidir. Ən məşhuru isə əs-Sünən əsəridir ki, burada 4800 hədis toplanmışdır. Muhəmməd İbn Ishaq əs-Sağani və İbrahim əl-Hərbi – *rahmətullahi aleyhi* – demişdir: "Hədislər Əbu Davuda asanlaşdırılmışdı. Necə ki, Davud - *əleyhissəlama* - dəmir yumuşaldılmışdı". Hafizlik rütbəsinə ucalmış Musa İbn Harun – *rahmətullahi aleyhi* – demişdir: "Əbu Davud dünyada hədis üçün, axirətdə isə Cənnət üçün yaradılıb. Mən (bu sahədə) ondan üstün insan görmədim". Hakim rütbəsi ilə tanınan Əbu Abdulla – *rahmətullahi aleyhi* – demişdir: "Şübhə yoxdur ki, Əbu Davud öz əsrində hədis əhlinin imamı idi". H. 275-ci il Şəvval ayında Bəsrə şəhərində dünyasını dəyişmişdir.

## Muhəmməd İbn İsa Ət-Tirmizi
***- rahmətullahi aleyhi -***

Əbu İsa Muhəmməd İbn İsa İbn Sura ət-Tirmizi. H. 209-cu il Amudərya çayının yaxınlığında yerləşən Tirmiz şəhərində dünyaya gəlmişdir. İmam Buxari kimi alimdən dərs almış və əl-Cəmi əsərini yazmışdır. Sonralar isə bu əsərin adını dəyişərək Sünən ət-Tirmizi adlandırılmışdır. Əsər özündə 4000 hədis toplamışdır. İmam – *rahmətullahi aleyhi* – deyir ki: "Kimin evində bu kitab olarsa elə bil ki, o evdə danışan Peyğəmbər vardır". Allahı çox yad etdiyinə görə çox da ağlayardı. Buna görə də ömrünün sonlarına yaxın gözləri tutulur. Imam Şövkəni – *rahmətullahi aleyhi* – deyir: "Tirmizinin bu əsəri kitablar içərisində ən yaxşısı, ən çox faydalısı, tərtib baxımından ən gözəli və təkrara ən az yer verilənidir. Həmçinin bu kitabda başqalarında qeyd olunmayan məzhəb nəzər nöqtələri, hədislərdən nəticə çıxarma metodikaları, fəslə münasib digər hədislərin də olduğuna işarə etmə, hədislərin

səhih, həsən, ğərib və ya zəif kimi növlərinin bəyanı və "tənqid və tərif" (cərh və tədil) elminə aid müzakirələr vardır". Ibn Salah – *rahmətullahi aleyhi* – deyir: "Əbu Isa Tirmizinin kitabı həsən hədislərin əsas mənbəyidir. Ilk olaraq bu termini o işlətmiş və əl-Cəmi əsərində ondan cox istifadə etmişdir". H. 279-cu il Rəcəb ayının 13 dünyasını dəyişir.

## Əhməd İbn Əli Ən-Nəsəi
***- rahmətullahi aleyhi -***

Əhməd İbn Şuayb İbn Əli İbn Bəhr İbn Sinan İbn Dinardır. Ləqəbi Əbu AbdurRahmandır. Nəsa adlanan yerdəndir. Hədisdə hafizlik dərəcəsinə çatmışdır. H. 214 və ya 215-ci ildəndir. Xorasanda Nəsa adlanan bir qəsəbədə doğulmuşdur. Nəsa – Sərahsə iki günlük, Mərvə beş günlük, Əlyurda bir günlük, Nişapura altı və ya yeddi günlük bir məsafədədir. Bu qəsəbədən çox məşhur alimlər yetişmişdir. Bu qəsəbəyə Nəsa deyilməsinin səbəbi bu cür açıqlanır. İslam orduları Xorasana daxil olduqları zaman bu qəsəbəyə doğru irəliyər. Xəbərdar olan xalq qəsəbəni tərk edərdilər. Qəsəbədə qadınlardan başqa heç kimsə qalmazdı. İslam orduları qəsəbəyə daxil olduqları zaman orada bir dənə də belə kişi görməzdilər. Bunlar qadındırlar, qadınlarla da döyüşülməz! Deyərək oranı tərk edərdilər. Buna görə də Nəsa – unudulan və içində sadəcə qadınların olduğu şəhər adlanır. Buna nisbət edilərək də Nəsa adlandırılmışdır. Nəsəi – *rahmətullahi aleyhi* – Şəfii məzhəbindəndir. Müəllimləri: İshaq İbn Rahaveyh, İshaq İbn Həbib İbn Şəhid, Süleyman İbn Əşas, İsalə İbn Şahin, əl-Xaris İbn Miskin, İsahq İbn Mənsur əl-Kevsec, Mahmud İbn Ğaylan, Quteybə İbn Səid, İshaq İbn Musa əl-Ənsari, İbrahim İbn Səid əl-Cevheri, İbrahim İbn Yaqub əl-Cuzcani, Muhəmməd İbn Bəşir, Əli İbn Həcər, Əbu Davud əs-Sicistani, Əli İbn Həşrəm, Mücahid İbn Musa, Əhməd İbn Bəkkar İbn Əbu Meymunə, əl-Həsən İbn Muhəmməd İbn əz-Zəfərani və Əhməd İbn Abde – *Allah onların*

*razı olsun* - dən hədis öyrənmişdir. Şama gəlmiş Hişam İbn Ammar və Duhaym – *Allah onlardan razı olsun* – hədis öyrənmişdir. Həmçinin Xorasan, Hicaz, İraq, Cəzirə, Şam və Misir mühəddislərindən də dərs almışdır. Bir çox kimsə İmam Nəsəidən hədis öyrənmiş və rəvayət etmişdir. İmam Əbul Qasım ət-Təbərani, Əbu Əli əl-Hüseyn İbn Əli əl-Hafiz ən-Neyamuzi ət-Təbərani, Əhməd İbn Umeyr İbn Cevsə, Muhəmməd İbn Cəfər İbn Kilas, Əbul Qasım İbn Əbul Ukb, Əbul Meymun İbn Rəşid, Əbul Həsən İbn Həzləm, Əbu Səid əl-Arabi, İmam Cəfər ət-Tahavi, Muhəmməd İbn Harun İbn Şuayb, İbrahim İbn Muhəmməd İbn Saleh İbn Sinan, Əbu Bəkr Əhməd İbn İshaq əs-Sünni əl-Hafiz hədis öyrənib və rəvayət etmişlər. Ət-Tacus Subki müəllimi Hafiz Zəhəbidən və atası Şeyx İmam Subkidən – *rahmətullahi aleyhi* – rəvayət edir ki: «İmam AbdurRahman Nəsəi Səhihin müəllifi olan İmam Müslimdən daha çox hədis əzbərdən bilirdi. Nəsəinin Sünnəni Buxari və Müslimin səhihindən sonra ən az zəif hədis olan hədis kitabıdır». ***Müctəba*** – İbnul Əsir – *rahmətullahi aleyhi* – deyir ki: Bir hökmüdar İmam Nəsəiyə: «Kitabdakı hədislərin hamısı səhihdir?». O: Xeyr» deyə cavab verdi. Hökmüdar Nəsəidən kitabdakı hədislərin səhih olanlarını ayırmasını istədi. O, da Sünnənul Kubradakı hədisləri əl-Muctəba adını verdiyi bir kitabda topladı. Bu kitab altı böyük hədis kitabından biridir. Muhəddislərin Kutubu Xamsə – beş kitab, Usulul Xamsə - Beş ana kitab dedikləri hədis kitabları Buxari, Müslim, Əbu Davud, Tirmizi, Muctəba Nəsaidir. İmam Nəsəi H. 303-cü ilində Şaban ayında 88-89 yaşında ikən dünyasını dəyişmişdir. Harada öldüyü ixtilaflıdır. Fələstinin Rəmlə şəhərində vəfat etdiyi söylənilir. Bəziləri isə Məkkədə vəfat etdiyini və Səfa və Mərva arasında dəfn edildiyini də söyləyirlər. İmam Nəsəi H. 302-ci ildə Misirdən Şama gəlmişdir. Şamdakı Muaviyə tərəfdarları Muaviyənin, Əlidən üstün olub-olmadığını soruşurlar. Bundan sonra Muaviyə tərəfdarları tərəfində döyülmüş və Rəmləyə gətrilərək orada da dünyasını dəyişmişdir. Əbul Həsən Daraqutni deyir ki: «İmam

Nəsəi Şamda Muaviyə tərəfdarları tərəfindən döyülmüşdür. Bundan sonra Məkkəyə gətrilməsini istəmiş və orada da dünyasını dəyişmişdir».

## İmam Nəvəvi

***- rahmətullahi aleyhi -***

Yəhyə İbn Şərəf İbn Murri Həsən İbn Hüseyin İbn Nizam ən-Nəvəvidir. Kunyəsi Əbu Zəkəriyyə Muhyiddindir. Nəvəvi Şamın şərq tərəfində Havran qəsəbəsində Nəva adlanan yerdə hicrətin 631-ci ili, Məhərrəm ayında dünyaya gəlmişdi. Hələ kiçik yaşlarında ikən Allah onun qəlbində din və elm sevgisini yerləşdirmiş, buna görə də Qurani Kərimi hifz etmişdi. Elm öyrənməkdə atasının böyük rolu olmuşdur. İmam Nəvəvi – *rahmətullahi aleyhi* – rəbbani bir alimdir. Dünya həyatında zahid, ağır, təvəzökar, heybətli bir kişi idi. Allaha itaətdə bir an belə haqq yoldan əyilməzdi, yaxşılığı əmr edib, pislikdən çəkindirərdi. Əmirlərə öyüd-nəsihət verib, Allahın yolunda qınayanın qınamasından qorxmazdı. İmam Nəvəvi hicrətin 676-cı ilində Rəcəb ayının 24-cü günü Nəvada vəfat etmişdi. Qəbri hələ də bilinməkdədir. Vəfat etdiyi vaxt yaşı 45-ə çatmışdı. Bu az bir ömür ərzində mübarək bir həyat sürmüş, ömrünü ibadət, itaət, öyrənmək və oyrətməklə keçirmişdi. Nəvəvi bilindiyinə görə evlənməmiş dünyasını dəyişmişdi. Çünkü çox kasıb idi. İmam Nəvəvi – *rahmətullahi aleyhi* – bu mübarək həyatında olduqca dəyərli əsərlər yazmışdı. Bu əsərləri oxuyan hər bir şəxs, bu alimin dahiliyinin vurğunu olur. Bizə gəlib çatan əsərlər arasında bunları qeyd etmək olar. 1. «Əl-Minhəc fi Şərhi Səhihi Muslim ibnul-Həccac». 2. «əd-Dəqaiq». 3. «Təhzibul Əsmai vəl Lüğət». 4. «Minhəcut Talibin». 5. «Bustanul Arifin». 6. «Riyadus Salihin min Kələmi Seyyidil Mursəlin». 7. «əl-Məqasid». (Tövhidə aid əsər). 8. «əl-Mənsurat». (Fiqh və Fətvalara aid). 9. «Muxtasarut Tibyən». 10. «Ravdatul Talibin». (Fiqhə aid əsər) və s.

## Muhəmməd İbn Yəzid İbn Məcə

***- rahmətullahi aleyhi -***

Əbu Abdullah Məhəmməd İbn Yəzid İbn Məcə əl-Qəzvini. H. 207-ci ildə dünyaya gəlmişdir. Sünən İbn Məcə əsərinin müəllifidir. H. 273,275-ci ilə Ramazan ayında dünyasını dəyişmişdir. Böyük alim Əbu Yəla əl-Xəlili – *rahmətullahi aleyhi* – demişdir: "Ibn Macə bütün alimlərə görə mötəbər, hamı tərəfindən qəbul edilən və hədis elmlərinə malik olan böyük alimdir". Kitabın təhqiqçisi doktor Məhəmməd Fuad AbdulBaqi, bu kitabda 4341 hədis olduğunu deyir. Bu hədislərdən 3002-sini sünnəsinin əsas məxəzi olan digər beş kitabdan hər birində və yə bəzilərində mövcuddur. Yerdə qalan 1339 hədis isə bu beş kitabda yoxdur. Onları aşağıdakı qisimlərə bölmək olar:

## İshaq İbn İbrahim İbn Rahaveyh

***- rahmətullahi aleyhi -***

Əbu Yaqub İshaq İbn İbrahim ət-Təmim əl-Hənzəli əl-Mərvəzi. Hədis elmində hafizdir. H. 161, 166-cı ildə dünyaya gəlmişdir. Nisapurda yaşamış və şərqin böyük alimlərindən sayılmışdır. İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Mən İraqda İshaq ilə müqayisə ediləcək bir kimsə tanımıram». Əbu Zura ər-Razi – *rahmətullahi aleyhi* – deyir ki: «İshaqdan daha çox hədis bilən kimsə yoxdur». H. 238-ci il Şaban ayının 15 dünyasını dəyişmişdir.

## Əhməd İbn İbrahim Əl-İsmail

***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Əhməd İbn İbrahim İsmail İbn əl-Abbas əl-İsmail əl-Curcani. Öz dövrünün Şeyxulİslamı, hafiz. H. 277-ci ildə dünyaya gəlmişdir. H. 371-ci ilə Rəcəb ayında dünyasını dəyişmişdir.

## Əhməd İbn Amr Əl-Bazzar

***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Əhməd İbn Amr Abd əl-Xaliq əl-Bəsri. Dövrünün alimi, hafiz, bir çox əsərlərin Musnəd əl-Kəbir, əl-İlyal müəllifi. Təbərani və s. kimi məşhur hədis alimlərindən dərs almışdır. H. 292-ci ildə dünyasını dəyişmişdir.

## Abdullah İbn Ali İbn Əl-Carud

***- rahmətullahi aleyhi -***

Muhəmməd Abdullah İbn Ali İbn əl-Carud an-Nisapuri. Muntaqa fi əl-Əhkam əsərinin müəllifi. Məkkə yaxınlığında yaşamış və insanları Qurani Kərimin oxunuşunu öyrədərdi. Öz dövrünün dahilərindən sayılır. H. 307-ci ildə dünyasını dəyişmişdir.

## Əl-Xaris İbn Əbu Usamə

***- rahmətullahi aleyhi -***

Əbu Məhamməd əl-Xaris İbn Əbu Usamə Məhəmməd Dəhir ət-Təmim əl-Bağdadi. H. 186-cı ildə dünyaya gəlmişdir. əl-Musnəd əsərinin müəllifidir. İbrahim əl-Hərbi və Əbu Xatim – *rahmətullahi aleyhi* – onu etibarlı, Daraqutni – *rahmətullahi aleyhi* – isə sadiq adlandırmışdır. H. 282-ci il Ərafə günü dünyasını dəyişmişdir.

## Əbu Abdullah Əl-Həkim

***- rahmətullahi aleyhi –***

Əbu Abdullah Muhəmməd İbn Abdullah İbn Hamuduveyh İbn Nuaym b. əl-Həkim, Əbu Abdullah b. əl-Bəyy əd-Dabbi ən-Nişapuri əş-Şafii. ən-Nisapuri əl-Həkim. Həmçinin İbn Bəyy adı ilə

də məşhurdur. H. 321-ci ildə Nisapurda dünyaya gəlmiş, əl-Mustədrək, Tarixi Nisapur əsərlərinin müəllifidir. 2000 minə yaxın alimdən dərs almışdır. Tələbələri Daraqutni, Əbu Yəla, Beyhəqi və s. məşhur alimlərdir. H. 405-ci il Səfər ayında dünyasını dəyişmişdir.

## Muhəmməd İbn Hibban

***- rahmətullahi aleyhi -***

Əbu Xatim İbn Muhəmməd İbn Hibban İbn Əhməd İbn Hibban əl-Busti. Sicistan yaxınlığında yerləşən (Əfqanıstandakı) Bust adlanan yerdəndir. H. 270 dən sonra dünyaya gəlmişdir. İbn Xuzeymə, İbn Quteybənin ən yaxşı tələbələrindəndir. Əsərləri "əs-Siqat", "Musnədus Səhih alə Təqasim vəl Ənva", "Ravdatul Uqala" və "Nuzhətul Fudala" kimi bir çox əsərləri vardır. H. 354-cü il 80 yaşında Səmərqənd şəhərində dünyasını dəyişmişdir.

## Muhəmməd İbn İshaq İbn Xuzeymə

***- rahmətullahi aleyhi -***

Muhəmməd İbn İshaq. Hafiz, Muhəddis, Şeyxulİslam. H. 223-ci ildə Nişapur şəhərində dünyaya gəlmişdir. Xorasanın ən məşhur alimlərindən sayılırdı. 140 yaxın əsərin müəllifidir. H. 311-ci ildə nişapur şəhərində dünyasını dəyişmişdir.

## İbn Əbu Heysəmə

***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Əhməd İbn Əbu Heysəmə Zuheyr İbn Hərb ən-Nəsai əl-Bağdadi. Hədis elmində məşhur hafizlərdəndir. Müəllimləri İmam Əhməd və Yəhyə İbn Məin – *rahmətullahi aleyhi* – kimi

dahilər olmuşlar. "Tarix əl-Kəbir" əsərinin müəllifidir. H. 289-cu ildə 94 yaşında dünyasını dəyişmişdir.

## Əli İbn Ömər Əd-Daraqutni
***- rahmətullahi aleyhi -***

Əbu əl-Həsən Əli İbn Ömər İbn Əhməd İbn Məhdi əl-Bağdadi. Bu ləqəbi Bağdad yaxınlığında yerləşən böyük bir bazarın adından götrülərək Dar əl-Qutn adlandırılmışdır. Hədisdə hafizdir. H. 306-ci ildə dünyaya gəlmişdir. "əs-Sifət", "Əhədisu Sifət", "Əhədisu Nuzul", "Fadailus Səhabə", "Nususul Mutəallika Bi Ruyətil Bərii Subhənəhu" əsərləri vardır. H. 385-ci ildə Zul Qədə ayının 8 dünyasını dəyişmişdir[250].

## AbdurRahman İbn Mehdi
***- rahmətullahi aleyhi -***

AbdurRahman İbn Mehdi. H. 198-ci ildə vəfat emişdir. İmam Şəfii – *rahmətullahi aleyhi* – onun barəsində demişdir: "Dünyada onun bənzərini bilmirəm" Əli İbn əl-Mədini – *rahmətullahi aleyhi* – dedi ki: "İnsanlar içərisində hədisi ən yaxşı bilən AbdurRahman İbn Mehdidir".

## Abdullah İbn ƏbdurRahman Əd-Darimi
***- rahmətullahi aleyhi -***

Muhəmməd Abdullah İbn ƏbdurRahman İbn əl-Fadl İbn Bəhram ət-Təmimi əd-Darimi əs-Səmərqəndi. Səmərqəndin ŞeyxulİsIamı, hafiz. H. 181-ci ildə dünyaya gəlmişdir. "əl-Musnəd əl-Ali" əsərinin müəllifidir. Tələbələri məşhur hədis alimləri

[250] "Təzkiratul Huffaz" 3/396, "Tarixu Bağdadi" 2/243, "Tarihut Turas" 1/314.

Müslim, Əbu Davud, Tirmizi, Nəsaidir. H. 255-ci ildə dünyasını dəyişmişdir[251].

## Əbu Davud Ət-Tayalisi

*- rahmətullahi aleyhi –*

Süleyman İbn Davud İbn əl-Carud əl-Farisi əl-Bəsri. əz-Zubeyrin nəslindəndir. Hədisdə hafizdir. 1000 yaxın alimdən dərs almışdır. H. 204-cü ildə 80 yaşında dünyasını dəyişmişdir.

## İbn Əbi Dünya

*- rahmətullahi aleyhi -*

Əbu Bəkr Abdullah İbn Muhəmməd İbn Ubeyd İbn Sufyan İbn Əbu əd-Dunyə əl-Qurayşi əl-Bağdadi. Bəni Umeyyə nəslindədndir. H. 208-ci ildə dünyaya gəlmiş və bir çox əsərlərin müəllifidir. H. 281-ci il Cumadaul Ula ayında dünyasını dəyişmişdir.

## Səid İbn Mənsur

*- rahmətullahi aleyhi -*

Səid İbn Mənsur İbn Şuba əl-Mərvəzi (və ya ət-Talikani) əl-Bəlxi. Sünən əsərinin müəllifidir. Məkkə yaxınlığında yaşamışdır. Hər İbn Kərmani deyir ki: «O, 10 min hədisi əzbərdən bizə demişdir». H. 227-ci ildə 90 yaşında dünyasını dəyişmişdir.

## Səid İbn Osman İbn Əs-Sakan

*- rahmətullahi aleyhi -*

[251] “Təhzibut Təhzib” 6/279.

Əbu Ali Səid İbn əs-Sakan əl-Bağdadi. Hədis alimlərindəndir. H. 294-cü ildə dünyaya gəlmişdir. H. 353-cü ildə dünyasını dəyişmişdir.

## İbn Əbi Şeybə

***- rahmətullahi aleyhi –***

Əbu Bəkr Abdullah İbn Muhəmməd İbn Əbu Şeybə İbrahim İbn Osman İbn Həvasi əl-Ənsi əl-Kufi. "əl-Musnəd", "əl-Musənnəf" və s. əsərlərin müəllifidir. Tələbələri məşhur hədis alimləri Buxari, Əbu Zura ər-Razi, Müslim və Əbu Davud – *Allah onlardan razı olsun* - olmuşlar. H. 235-ci ildə Məhərrəm ayında dünyasını dəyişmişdir.

## Süleyman İbn Əhməd Ət-Təbərani

***- rahmətullahi aleyhi -***

Əbul Qasım Süleyman İbn Əhməd İbn Əyub İbn Mutayyir əl-Ləhmi ət-Təbərani. Hədis alimlərindəndir. H. 260-cı ildə Şamın yaxınlığında yerləşən Təbəriyə adlanan yerdə dünyaya gəlmişdir. 1000 yaxın alimdən dərs almış, şamda hədis toplamağa başlamış və bundan sonra 30 ilə yaxın elm öyrənmək üçün səfərlər etmişdir. Ən məşhur əsərlərindən "Mucəmul Kəbir", "Mucəmul Ausat", "Mucəmul Sağir". H. 360-cı ildə Zul Qadə ayının 27 İsfəhan şəhərində dünyasını dəyişmişdir[252].

## Əbu Bəkr Əhməd İbn Muhəmməd İbn Həni

***- rahmətullahi aleyhi -***

Əsrəm olaraq tannıq. İmam Əhmədin – *rahmətullahi aleyhi* – tələbələrindəndir. İmam Zəhəbi – *rahmətullahi aleyhi* – deyir ki:

---

[252] "Təzkiratu Huffaz" 3/786, İbn Kəir "əl-Bidayə" 11/148.

"Yazdığı kitablar onun Sünnəyə bağlılığına, elminin dərinliyinə dəlalət edir"[253].

## Əhməd İbn Muhəmməd İbn Harun Əl-Həllal

***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Əhməd İbn Muhəmməd İbn Harun, Həllal olaraq məşhurdur. "Sünnət və Cəmii" kitablarının müəllifidir. H. 311-ci ildə vəfat etmişdir[254].

## İbn Abdul Bərr

***- rahmətullahi aleyhi -***

Əbu Ömər Yusuf İbn Abdullah İbn Muhəmməd İbn Abdul Bərr İbn Əsım ən-Namari əl-Qurtubi. Məğribin hafizi, Şeyxulİslamı. H. 368-ci ildə Rəbiul Əvvəl ayında dünyaya gəlmişdir. "əl-İtisab" əsərinin müəllifidir. H. 463-cü ildə Rəbius Sani ayında dünyasını dəyişmişdir.

## Abdul Haqq İbn AbdurRahman

***- rahmətullahi aleyhi -***

Əbu Muhəmməd Abdul Haqq İbn Abdurrahman İbn Abdullah İbn Huseyn İbn Səid əl-Əzdi əl-İşbili. H. 510-cu ildə dünyaya gəlmiş İspaniyada Bidjiya adlanan yerdə yaşayırdı. Gözəl xatib və hafizdir. H. 581-ci ildə Rabius Sani ayında dünyasını dəyişmişdir.

## AbdurRazzaq İbn Humam

***- rahmətullahi aleyhi -***

---

[253] "Tabaqatul Şafiiyə" 2/302, "Miratul Cinan" 2/193.

[254] "Tabaqatul Hənəbilə" 1/180, "Təhzibut Təhzib" 5/141-143.

AbdurRazzaq İbn Humam İbn Nəfi əl-Himyari əs-Sənani. Hədisdə hafizdir. Tələbələrindən İmam Əhməd, İshaq, Yəhyə İbn Main, əz-Zuhli. Ömrünün sonuna yaxın yaddaşını və görmə qabiliyyətini itirir. H. 211-ci ildə 85 yaşında dünyasını dəyişir.

## Abdullah İbn Adiyy

***- rahmətullahi aleyhi -***

Əbu Əhməd Abdullah İbn Adiyy əl-Curcani. İbn əl-Kisar adı ilə də məşhurdur. H. 279-cu ildə dünyaya gəlmiş, H. 365-ci il Cumədəl Axır ayında isə dünyasını dəyişmişdir.

## Muhəmməd İbn Amir Əl-Əqili

***- rahmətullahi aleyhi -***

Əbu Cəfər Muhəmməd İbn Amr İbn Musa İbn Həməd əl-Aqili. Hədis elmində hafizdir. "Duafa əl-Kəbir" ən məşhur əsərlərindəndir. Hicazda yaşamış H. 322-ci ildə isə dünyasını dəyişmişdir.

## Əbu Avanə

***- rahmətullahi aleyhi -***

Yaqub İbn İshaq İbn İbrahim İbn Zeyd ən-Nisapuri əl-İsfəhani. Məşhur muhəddis, hədis elmində hafiz, əl-Musnəd əs-Səhih əsərinin müəllifidir. H. 316-cı ildə İsfahanda dünyasını dəyişmişdir.

## İbn Əl-Kattan

***- rahmətullahi aleyhi -***

Əbul Həsən Əli İbn Muhəmməd İbn Abdulməlik əl-Fasi. Hədisdə hafizdir. H. 562-ci ildə dünyaya gəlmişdir. H. 628-ci ildə Rəbiul Əvvəl ayında dünyasını dəyişmişdir.

## İbn Məndə

*- rahmətullahi aleyhi -*

Əbu Abdullah Muhəmməd İbn İshaq İbn Muhəmməd İbn Yəhyə İbn Məndə. Hədisdə hafizdir. H. 310-cu ildə dünyaya gəlmişdir. H. 395-ci ildə Zul Qədə ayında dünyasını dəyişmişdir.

## Əbu Nueym Əl-İsfəhani

*- rahmətullahi aleyhi -*

Əhməd İbn Abdullah İbn Əhməd İbn İshaq İbn Musa İbn Məhran əl-İsfəhani. H. 334-cü ildə Rəcəb ayında dünyaya gəlmişdir. Məşhur hədis alimlərindəndir. Bir çox əsərlərin müəllifidir. "Mustəxrəc alə Buxari", "Mustəxrəc alə Muslim", "Hilətul Auliya", "Fadailus Sahabə". H. 430-cu ildə Məhərrəm ayının 20 İsfəhanda dünyasını dəyişmişdir[255].

## Abdullah İbn Muhəmməd Əbu Şeyx əl-İsfəhani

*– rahmətullahi aleyhi –*

Əbu Muhamməd Abdullah İbn Muhamməd, Əbu Şeyx əl-İsfəhani olarak bilinir. Hafız, imam, siqa, muhaddis və məşhur müfəssir. "əl-Izzə" kitabının ve başka eserlerin sahibi. H.369 yılında vefat etti[256].

## Əhməd İbn Əli Əbu Yala

255 "Təzkiratul Huffaz" 3/1098, Şəzəratuz Zəhəb" 3/243-244.
256 "Vəfiyatul Ayan" 2/407, "Təzkiratul Huffaz" 3/912.

*- rahmətullahi aleyhi -*

Əhməd İbn Əli İbn əl-Musənnə İbn Yəhyə İbn İsa İbn Hilal ət-Təmimi. Hədisdə hafizdir. H. 210-cu ildə Şəvval ayında dünyaya gəlmişdir. "Musnəd əl-Kəbir" əsərinin müəllifidir. əs-Səməni deyir ki, mən eşitdim necə ki, İsmail İbn Muhəmməd İbn əl-Fədl əl-Hafiz dedi: "Mən əl-Adani, əl-Məni kimi muhəddislərin hədis kitablarını oxudum. Bütün bu hədis kitabları çaylara bənzəyir. Əbu Yəlanın hədis kitabı isə dənizə bənzəyir hansı ki, bu çaylar ora tökülür». H. 307-ci ildə dünyasını dəyişmişdir.

## İbn Həcər Əl-Əsqəlani

*- rahmətullahi aleyhi -*

Əhməd İbn Əli İbn Muhəmməd əl-Kinani əl-Əsqəlani Əbul Fadl Şihabiddin İbni Həcər əş-Şafii. H. 773/1372-ci ildə Misirdə Qahirə Şaban ayında dünyaya gəlmişdir. Ailəsi fələstinin Əsqəlan şəhərindəndir. 150 yaxın əsərin müəllifidir. Hədisdə hafizdir. H. 852/1449-ci ildə Zul Hiccə ayının 18 dünyasını dəyişir. Əsərlərindən "ət-Təqrib", "Buluq əl-Məram min Aədillət əl-Əhkam", "Təxric əl-Kəşşəf", "Lisanul Mizan" və s. Ən məşhur və ona şöhrət gətirən əsəri isə "Fəthul əl-Bəri fi Şərh Səhih əl-Buxaridir". Bu əsərə ön sözü H. 813-cü ildə vermişdir. Dörd ildən sonra isə bu əsəri yazmağa başlayır və H. 842-ci ildə 24 ilə bu əsəri bitirir.

## İbn Kəsir

*- rahmətullahi aleyhi -*

İmaməddin Əbul Fida İsmail İbn Ömər İbn Kəsir. Dəməşqdə, Bəsrənın kəndlərinin birində H. 701-ci ildə dünyaya gəlmişdir. Görkəmli elm xadimləri olan əl-Qasım əl-Əsakir, Muhəmməd İbn Zirad, İbnur Radi, İbn Teymiyyə və s. dərs almışdır. Tələbələrindən

ən məşhuru İbn Həcərdir. Əsərləri "Təfsirul Quranil Azim", "əl-Bidayə vən Nihayə fit Tarix". Ömrünün sonlarına yaxın gözlərini itirmiş H. 774-cü ildə 74 yaşında Şamda dünyasını dəyişmişdir.

## İbni Rəcəb

***- rahmətullahi aleyhi -***

Zeynuddin Əbul Fərəc AbdurRahman İbn Şihabuddin Əhməd İbn Rəcəb əl-Hənbəli əl-Bağdadi. H. 736-cı ildə Rəbiul Əvvəl ayında Bağdadda dünyaya gəlmişdir. Əsərləri "Qavaidul Fiqhiyyə", "Ulumul vəl Hikəm" və s. H. 795-ci il Rəcəb ayında Şamda dünyasını dəyişmişdir.

## İbnul Cövzi

***- rahmətullahi aleyhi -***

Əbu Fərəc Abdurrahman b. Əli. H. 511-ci ildə dünyaya gəlmişdir. Əbu Bəkrin nəslindəndir. H. 597-ci ildə Bağdadda dünyasını dəyişmiş və Babu Hərb qəbristanlığında dəfn edilmişdir.

## İbn Qudamə

***- rahmətullahi aleyhi -***

Şeyx Allamə Muvaffəquddin Əbu Muhəmməd Abdullah İbn Əhməd İbn Muhəmməd İbn Qudamə İbn Miqdam İbn Nəsr İbn Abdullah əl-Məqdisi. H. 541/1146 dünyaya gəlmiş H. 620/1233 dünyasını dəyişmişdir. Əsərləri "əl-Muğni", "əl-Kəfi", "əl-Umda", "Muxtəsər əl-Hidayə" və s.

## Əhməd İbn Əl-Huseyn Əl-Beyhəqi

***- rahmətullahi aleyhi -***

Əbu Bəkr Əhməd İbn əl-Huseyn İbn Əli İbn Musa əl-Beyhəqi. İmam, Hafiz, Alləmə. İmam Zəhəbi – *rahmətullahi aleyhi* - deyir ki: "Daha öncə bənzəri yazılmamış kitablar yazmışdır". H. 374-cü ildə Şaban ayında Nisapur şəhəri yaxınlığında kiçik bir qəsəbədə dünyaya gəlmişdir. "Sünən əl-Kubra", "Sünən əs-Suqra", "Şuabul İman", "əl-Mabsut", "Tərğib vət Tərhib", "əl-Əsmə vəs Sifət", "Ərbəin əl-Kubra", "Ərbəin əs-Suqra", "Mənakib İmam Əhməd", "Mənakib İmam Şafii" və s. əsərlərin müəllifidir. H. 458-ci il Cumadal Ula aytının 8 dünyasını dəyişmişdir.

## İbn Batta
### *– rahmətullahi aleyhi -*

Əbu Abdillah Ubeydullah İbn Muhamməd əl-Əkbəri: İbn Batta olaraq tanınır. "İbanətul Kubra" və "İbanətus Suğra"-nın sahibidir. H. 387 ilində vəfat etmişdi[257].

## Həsən İbn Mənsur əl-Ləlakai
### *– rahmətullahi aleyhi -*

Əbul Qasım Hibətullah İbn Həsən İbn Mənsur əl-Ləlakai: İmam, hafız, fəqih və Bağdadın muhəddisi. H.418 yılında vefat etti[258].

## İbn Həzm Əl-Əndəlusi
### *- rahmətullahi aleyhi -*

Əli İbn Əhməd İbn Səid İbn Həzm İbn Ğalib İbn Saleh İbn Əbu Sufyan İbn Yəzid. H. 384-cü ildə dünyaya gəlmişdir. Atası Əndəlus dövlətində mühüm vəzifələrin birində çalışırdı. Özünün isə İran əsilli olduğu da söylənilir. Əməviləri sevər, sevməyənlərə isə nifrət

---

[257] "Tarixul Bağdad" 14/70-71, Təzkiratul Huffaz": 3/1083, "Tarixut Turas" 2/194.
[258] "Təzkiratul Huffaz" 3/1031, "Lisanul Mizan" 5/70-71, "Tarixut Turas" 1/353.

edərdi. Ailəsi əməvilərə xidmət etmiş, bu nəsil İsapaniyaya getdikdə isə onlarla bərabər ora köç etmişdir. H. 456-cı ildə isə dünyasını dəyişmişdir.

## Muhəmməd İbn Həsən Əş-Şeybani

***- rahmətullahi aleyhi -***

Muhəmməd, kunyəsi Əbu Abdullah, atası Həsən İbn Faxaddır. Hənfi məzhəbinin üç imamından biri. Əbu Yusufla birlikdə onlara İmameyn deyilir. H. 132/749-cu ildə Vasitdə doğulmuş, Kufədə isə boya-başa çatmışdır. İlk dərslərini Əbu Hənifədən – *rahmətullahi aleyhi* - almış. Onun ölmündən sonra isə Əbu Yusufun – *rahmətullahi aleyhi* - yanında dərs almışdır. Bundan sonra elm almaq üçün bir çox yerlərə səyahətlər etmiş Şamda Əvzainin, Məkkədə Sufyan İbn Uyeynənin, Xorasanda Abdullah İbn Mubarəkdən dərs almışdır. Mədinə də isə üç ilə yaxın İmam Məlikdən dərs almışdır. Öz vətəninə döndükdə tələbələr hazırlamağa başladı. Tələbələrindən Əsəd İbn Furat, Əbu Hafs əl-Kəbir, Suleyman əl-Curcani, Əbu Ubeyd Qasım İbn Səllam, Yəhyə b. Əksəm, İsmail İbn Təvbə və s. Digər tələbəsi isə İmam Şafiidir. H. 189/805-ci ildə vəfat etmişdir.

## İmam Suyuti

***- rahmətullahi aleyhi -***

AbdurRahman İbn Əbu Bəkr İbn Muhəmməd İbn Cəlaluddin İbn Fəhr Osman İbn Nazuriddin Muhəmməd İbn Seyfəddin Həd İbn Nəcməddin Əbussalah İbn Nasıruddin Muhəmməd İbn Şeyh Humamuddin İbn əl-Hudayrdır. Bağdadın Hudayriyyə adındakı məhəlləsinə nisbət edilmişdir. H. 849/1145-cu ildə Rəcəb ayında Misrin Asyutta şəhərində dünyaya gəlmişdir. Yetim olaraq böyümüş. 8 yaşında ikən Quranı hifz etmiş. Sonralar isə Umdeyi, Minhəcul Fiqhi, Minhəcul Usulu, İmam Məlikin "Əlfiyyəsini"

əzbərləmişdir. Elm öyrənmək üçün Şama, Hicaza, Yəmənə, Məğribə və Sudana səfərlər etmişdir. Görkəmli ədib, tarixçi və hafizlərdən biridir. Ensiklopedik biliyə malik olmuş bu alim irili-xırdalı minə yaxın kitab yazmışdır. Qahirədə yetim böyümüş və elə orada da elm öyrənməyə başlamışdır. Kitablarının əksəriyyətini qırx yaşına çatdıqdan sonra insanlardan uzaqlaşaraq yazmışdır. H. 911/1505-ci il Cumədəl Ula ayının 19 cümə gecəsi dünyasını dəyişmişdir. "əl-Əlam" cild 3, səh. 302.

## Şeyx AbdurRahman Əs-Sədi

***- rahmətullahi aleyhi -***

Əbu Abdullah AbdurRahman İbn Nəsir İbn Abdullah İbn Nəsir əl-Sədi. Təmim nəslindəndir. H. 1307-ci il Məhərrəm ayının 12 Unayza şəhərində dünyaya gəlmişdir. Gənc yaşlarında ikən valideyinlərini itirən Sədi yetim böyüyür. Müəllimlərindən İbrahim İbn Xamad İbn Casir, Muhəmməd İbn AbdulKərim əş-Şibal, Şeyx Saleh İbn Osman və s. Tələbələrindən iki dahi şəxsiyyət Şeyx Useymin və Şeyx İbn Bazz – *rahmətullahi aleyhi* -. H. 1376-cı il 69 yaşında dünyasını dəyişir.

## İbn Teymiyyə

***- rahmətullahi aleyhi -***

AbdulHəlim İbn AbdusSalam İbn Abdullah İbn əl-Xıdır İbn Muhəmməd əl-Xıdır İbn Əli İbn Abdulah İbn Teymiyyə əl-Hərrani. H. 661-ci il (M. 1263) Rəbiul Əvvəl ayın 10 Şam torpaqlarından sayılan Hərranda dünyaya gəlmişdir. ŞeyxulÏslam Təquyuddin ləqəbi ilə adlandırılmış, kunyəsi isə Əbul Abbasdır. Teymiyyə – Onun ulu babalarından olan Muhəmməd İbn əl-Xıdır Teymə yolu üzərində həccə getmişdir. Orada kiçik bir qız uşağı görmüş və geri qayıtdıqda zövcəsinin bir qız uşağı doğduğunu gördükdə Teymiyyə nisbət edərək Teymiyyə adlandırmışdır. Ona bu ləqəb

buradan verilmişdir. Şeyxulİslam – ləqəbinə gəldikdə isə deyirlir ki: «Müsəlman olaraq yaşamış (şeyx, ixtiyar olmuş) kişi deməkdir». Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər kim müsəlman olaraq bir saçı ağararsa bu onun üçün Qiyamət günü bir nur olacaqdır»[259]. Ailəsi elmə və dinə bağlı olmuşdur. Atası Əbul Bərəkət Məcduddin Hənbəli, qardaşı Əbu Muhəmməd Şərəfuddin Hənbəli məzhəbinin alimlərindən sayılırlar. 200 artıq müəllimi vardır. Ən məşhurları Şəmsuddin Əbu Muhəmməd AbdurRahman İbn Qudamə əl-Məqdisi H. 682 dünyasını dəyişmiş, Əminuddin Əbul Yəmən AbdusSaməd İbn Əsakir əd-Diməşqi əş-Şafii 686-cı ildə dünyasını dəyişmiş, Şəmsuddin Əbu Abdullah Muhəmməd İbn Abdul Kavi İbn Berdan əl-Mədavi 703-cü ildə dünyasını dəyişmişdir. Tələbələri Şəmsuddin İbn Abdulhədi, Şəmsuddin əz-Zəhəbi H. 748-ci ildə dünyasını dəyişmiş, Şəmsuddin İbnul Qeyyim, Şəmsuddin İbnul Muflih, İmaduddin İbn Kəsir və s. İmam Zəhəbi – *rahmətullahi aleyhi* - deyir ki: «ŞeyxulİslamIn əsərlərini topladım. Bunların 1000 əsər olduğunu gördüm. Daha sonra başqalarını da gördüm»[260]. Öz iti qılıncı və qələmi ilə bidətçilərə və kəlamçılara qarşı daima mübarizə aparmışdır. İbn Batuta kimiləri – *Allah layiqli cəzasını versin* – tərəfindən çoxlu böhtanlara məruz qalmışdır. Lakin Allaha şükrlər olsun ki, Allah daima onu qorumuş və təmizə çıxarmışdır. Günümüzə kimi onun əsərləri oxunur və İnşəallah bundan sonra da böyük oxucu kütləsi tərəfindən də oxunacaqdır. Dəfələrlə həps olunmuşdur. İlk dəfə 26 Ramazan H. 705-ci ildə həps edildi. Daha sonra 23 Rəbiul Əvvəl ayında H. 707-ci ilində həpsdən çıxdı. Həmçinin 726-cı il 10 Şaban cümə günü də həps edildi. Dəməşq qalasında H. 728-ci il (M. 1328) Zül Qədə 20 vəfat etdi. Cənazəsində iştirak edənlərin sayı-hesabı yox idi. Bəzi rəvayətlərdə 60 minə yaxın adam olmuşdur. Cənazəsi əs-Sufiyyə qəbristanlığında qardaşı Şərəfuddin Abdullahın yanında dəfn edildi. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: «Həqiqətən də

---

[259] əl-Albani «Səhihul Cəmi» 6183.
[260] Rəddul Vafir s. 72.

dünyada bir Cənnət vardır ki, kim o Cənnətə girməzsə axirətin Cənnətinə daxil olmaz. Düşmənlərim mənimlə nə edə bilər? Mənim Cənnətim, bağım qəlbimdədir. Hara getsəm o, da mənimlədir. Məndən ayrılmazdır. Həbs olunmağım, Allah ilə tək qalmağımdır, öldürülməyim şəhidlikdir, sürgün olunmağım isə mənim üçün səfərdir». İmam Əhmədin – *rahmətullahi aleyhi* - sözləri necə də gözəldir: «Bidət əhlinə deyin ki: Bizimlə sizin aranızda fərq cənazədə iştirak edənlərdən bilinsin».

İbn Teymiyyə – *rahmətullahi aleyhi* - Quran haqqında bildikləri ilə kifayətlənməyərək Rəbbinə yönələrək Quranı haqqıyla öyrənməyi ona nəsib etməsi üçün ona dua edər və deyərdi: «Bir ayə üçün 100 (120) yaxın Təfsirə baxar sonra Allahdan başa düşmək üçün dua edər və: Ey Adəmə və İbrahimə öyrədən Allahım mənə də öyrəd! Bəzən də daha tənha bir məscidə gedər torpağa üzümü sürtər və dua edərək deyərdim: Ey İbrahimə elm verən mənə də elm ver!». Kutubi Sittə və Muvattanı çox gözəl bilərdi. Haqqında deyilmişdir: «İbn Teymiyənin bilmədiyi hədis hədis deyildir». İmam Zəhəbi – *rahmətullahi aleyhi* - deyir: «İbn Teymiyyə – Şeyx, İmam, Böyük alim, Hafiz, Tənqidçi, Fəqih, Müctəhid, Müfəssir, ŞeyxulİsIam, Zahidlərin başçısı, dövrünün tək alimi, Təqiyuddin Əbul Abbas Əhməd İbn əl-Mufti Şihabuddin Abdulhəlim İbn əl-İmam əl-Muctəhid ŞeyxulİsIam Məcduddin AbdusSalam İbn Abdullah İbn Əbul Qasım əl-Hərrani». İbn Dəqiqlid – *rahmətullahi aleyhi* - deyir ki: «Mən İbn Teymiyyə ilə qarşılaşdıqda elə bir şəxsiyyət gördüm ki, sanki bütün elmlər onun gözünün qaşısında cəmləşmişdir. İstədiyini oradan götürür, istədiyini isə orada saxlayırdı».

## İbn Qeyyim
***- rahmətullahi aleyhi -***

Muhyiddin İbn əl-Məhasin Yusuf İbn AbdurRahman İbn Əli İbn əl-Cövzi. Atası Covziyyə adlı mədrəsənin Qeyyimi (rəhbəri) idi.

Ona nisbət edilərək də İbn Qeyyim əl-Covziyyə adlanır. H. 691-ci ildə Səfər ayında Şamın 55 km məsafəsində yerləşən Havran kəndlərindən Zər kəndində dünyaya gəlmişdir. Hədis elmini əl-Şihab Nablusi, əl-Qadi Taqiyyəddin İbn Süleyman, İsmail İbn Məktum, İbn Teymiyyə İsmail İbn Muhəmməd əl-Harrandan almışdır. H. 712-ci ildə İbn Teymiyyə – *rahmətullahi aleyhi* - Misirdən qayıtdıqdan sonra H. 728-ci il ölənə qədər onun yanından ayrılmayaraq ondan elm almışdır. H. 751-ci il Rəcəb ayında 23 dünyasını dəyişmişdir. Əl-Cirəh məscidində cənazə namazı qılınmış və dəfn edilmişdir. Əsərləri "İləm əl-Muvakkin Rəbb əl-Aləmin", "Furusiyyə", "Zədul Məad", "Mədaricus Salikin", "əd-Da vəd Dəva", "Bədai əl-Fəvaid" və s. Tələbələri Əhməd İbn Hənbəl əl-Dəməşqi H. 797-ci ildə dünyasını dəyişmiş, İsmail İbn Ömər İbn Kəsir əl-Dəməşqi, Muhəmməd İbn Quddamə əl-Məqdisi H. 774-cü ildə dünyasını dəyişmiş, Osman İbn AbdurRahman əl-Nablusi əl-Hənbəli H. 797-ci ildə dünyasını dəyişmiş, oğlu İbrahim və Şərafəddin Abdullahdır.

## Muhəmməd İbn AbdulVahhab

***- rahmətullahi aleyhi -***

Muhəmməd İbn AbdulVahhab İbn Süleylman İbn Əli İbn Muhəmməd İbn Əhəd İbn Rəşid ət-Təmimi. H. 1115 (1703) ildə Uyeynə şəhərində dünyaya gəlmişdir. H. 1206-cı ildə Riyadın yaxınlığında yerləşən əd-Dəriyyə şəhərində dünyasını dəyişmişdir.

## Şeyx Albani

***– rahmətullahi aleyhi –***

Alban dövlətinin keçmiş mərkəzi olan Aşkodra şəhərində hicri 1332-ci ildə (miladi tarixi ilə 1914-cü ildə) dünyaya gəlmişdir. Əsli Albaniyadan olduğuna görə ləqəbi də əl-Albanidir. Kunyəsi isə Abu AbdurRahməndir. Çox kasıb bir ailədən idi. Atası Məhəmməd

Nəsrəddin İbn Nuh Nəcətiy İbn Adəmdir. Nuh Nəcəti Osmanlı dövlətinin mərkəzi olan (İstambul) Astana şəhərinin şəriət mədrəsəsində dini təhsil aldıqdan sonra Allahın dininə xidmət etmək üçün öz ölkəsinə qayıdır. Lakin o, vaxtlar Albaniyada ateizim (Allahsızlıq) ideyası çox yayıldığına görə ailəsi ilə birlikdə Suriyanın Dəməşq şəhərinə hicrət edirlər. Dəməşqə köçdükdə gənc alimin 9 yaşı vardır. İlk təhsilini də elə bu şəhərdə alaraq Qurani Kərimi öyrənməyə başlayır. Quranı oxumaq qaydalarını (təcvidi), ərəb dili ilə bağlı bir çox məsələləri, həmçinin Hənəfi məzhəbinin qanunları ilə yaxından tanış olur (Məraqil Fərəh[261]). Bütün bulara Dəməşqin şeyxlşəri olan Muhəmməd Səid əl-Burhani və Məhəmməd Bəhcə əl-Beytərinin dərslərində iştirak edərək nail olur. Həmçinin bu işdə onun atasının da böyük rolu olmuşdur. Bundan başqa atasından saatsazlıq sənətini də öyrən-məyə başlayır. Bu sənətdə yüksələrək sənətkar səviyəsinə çatır. Onun saat köşkü indi də Dəməşqin yaxınlığında yerləşən Əməvi Məscidinin yaxınlığındadır. İyirmi yaşından başlayaraq Şeyx Albani hədis elmi ilə dərindən məşxul olmağa başlayır və ilk olaraq Hafiz əl-İrakinin «əl-Muqni ən-Həmlil Əsfər fil Əsfər fi Təhrici mə Filhiyə Minəl Əkbər» kitabını geniş şəkildə şərh və tədqiq edir. Hədis elmi ilə məşğul olmağına səbəb Misirdə çıxan «əl-Mənər» jurnalı olmuşdur[262]. Özüdə həmişə deyərdi ki, Məhəmməd Rəşid Rzanın bu jurnalını oxumağım mənə çox köməyi olub. Hədis elminə olan məhəbbəti o, qədər artır ki? atasının (əsas hissəsi) Hənəfi məzhəbinin kitablarından təşkil edilmiş kitabxanası belə onun hədis elminə olan təlabatını elm öyrənmək alovunu söndürə bilmirdi (ödəmirdi). Lakin atası onun bu elmlə məşğul olmasına narazı idi və deyərdi ki, bu elm müflislərin elmidir. Maddi çətinlik gənc alimə kitabları əldə etməyə çətinlik törətdiyinə görə o, Dəməşqin böyük kitabxanası

---

[261] Hənəfi məzhəbinin məşhur kitablarındandır.

[262] Bu jurnalda Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hədisləri haqqında geniş məlumat verilirdi.

olan «əl-Məktəbətul əz-Zahriyyə» gedər və oradan kitabları götürərdi. Şeyx Albani hədis elmi ilə o, qədər aludə olur ki, öz saat dükanını bağlayaraq 8-12 saat və bəzən də daha çox vaxtını kitabxanada keçirərdi. Yalnız namazdan-namaza kitabxanadan çıxardı. Hətta bəzən o, qədər elmə bağlanardı ki. nahar etməyə də getməzdi. Özü ilə gətirdiyi bir tikə çörək ilə kifayətlənərdi. Kitabxananın müdriyyəti onun elmə olan həvəsini gördükdən sonra onun üçün müəyyən bir otaq ayırırlar və kitabxananın açarlarını ona verirlər. Bu müddət ərzində gənc alim fiqhə, əqidəyə dair bir çox əsrlər yazır. Bu əsərlərin bəziləri hələ indiyə qədər də nəşr edilməmişdir. Gənc alim bu yolda çoxlu çətinliklərlə qarşılaşır. Lakin bütün bunlara baxmayaraq səbr və ixlasla bütün bu çətinlikərdən qalib çıxır. Bu işdə ona Dəməşqin bir çox tanınmış şeyxləri olan Baxcatul Baycar, İmam AbdulFəttah və Taufiq əl-Bərzaq – *Allah onlardan razı olsun* – ona nəsihətlər verərək bu işdə daha da iradəli və qəti olmağı tövsiyə etmişlər. Bir müddətdən sonra gənc alim həftədə iki dəfə dərslər verməyə başlayır. Moizələrlə, elmi çıxışlarla Suriya, İordaniya, Misir, Qatar, Kuveyt, İspaniya, İngiltərə və s. dövlətlərə səfərlər edir. Hicri 1381-1383-cü illər ərzində Mədinə İslam Universitetinə hədis elmindən dərs vermək üçün dəvət alır. Bu illər ərzində Universitetin fəxri üzvü, bir müddətdən sonra isə Universitetin fəxri professoru adını alır. Hədis elmi ilə bağlı yüzlərlə əsərləri və araşdırmaları vardır.

Şeyx Albaninin – *rahmətullahi aleyhi* - təhqiq etdiyi kitablardan: «Buxari, Müslim, Tirmizi, Əbu Davud, Nəsəi, İbn Məcə və s Səhih və Sünnən kitabları, Cəmius Səğir, Mişkətul Məsabih, Seyid Sabiqin «Fikhus Sünnə», Şeyx Kardavi «İslamda halal və Haram», İmam Nəvəvi «Riyadus salihin», İmam Buxari «Ədəbul Mufrad», İmam Zəhəbi «əl-Uluv» və s məşhur kitabların təhqiqini etimişdir. Həmçinin 10-12 cilddən ibarət olan «Səhih Hədislər Silsiləsi» isimli kitabında yalnız səhih hədislər və eyni ilə də «Zəif Hədislər Silsiləsi» isimli kitabında isə yalnız zəif hədisləri toplamışdır. Bütün bu işlərin nəticəsidir ki, hər bir müsəlman onun təhqiq

etdiyi kitabları oxuduqda asantlıqla səhih hədisi zəif və uydurma hədislərdə ayıra bilir. Bundan başqa Şeyx Albani nin İslamın əsaslarına dair gözəl əsərləri vardır. Bunların içərisində «Sifətu Salətu ən-Nəbiyyə min Təkbir ilə Təslim» (Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in namaz qılma şəkili), «Mənasikul Həcc vəl Umrah fi Kitabi və sunnah və Asari əs-Sələf» (Həcc və Ümrə ehkamları Kitab, Sünnə və Sələflərin gözü ilə) və s.

Özündən sonra bir çox görkəmli İslam alimlərini qoyub getmişdir. Bunlardan Şeyx Həmdi AbdulMəcid, Şeyx Məhəmməd Abbasi, Ömər Süleyman əl-Aşkar, Şeyx Muqbil b. Hadi əl-Vadii, Şeyx Məhəmməd İbrahim Şakra, Şeyx Ali Xuşşah, Şeyx Məhəmməd Cəmil Zinu, Şeyx AbdurRahman AbdusSaməd, Şeyx Səlim əl-Hilali, Şeyx Ali Həsən AbdulHəmid əl-Hələbi, Şeyx Məhəmməd Saleh əl-Munəccid və s. Hicri 1420-ci il 22 Cumada əs-Səniyyə ayında (miladi tarixi ilə 2 oktyabr 1999-cu ildə) 87 yaşında mübarək və xeyirli bir ömür sürərək dünyasını dəyişmişdir. Allah ona rəhmət etsin!

## Şeyx İbn Bazz

***- rahmətullahi aleyhi –***

H. 1330-cu ildə gözəl bir ailədə dünyaya gəlmişdir. Çox gənc yaşlarında Quranı hifz etdikdən sonra elm öyrənmək üçün bir çox ölkələrə səfərlər edir. Atrıq 19 yaşında xəstəlik səbəbidndən görmə qabiliyyətini itirir. Tələbələrindən biri deyir ki: «Doğrusunu Allah bilir, lakin mənə elə gəlir ki, bu şəxsiyyət Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – hədisdə buyurduğu insanların sırasına daxildir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah buyurdu – İki gözünü alaraq qulumu imtahan etdiyim zaman səbr edərsə, onların yerinə ona Cənnəti verərəm»[263]. O, həm imam, həm də mücahid idi. İslam hüququ cəmiyyətinin (Məcmə əl-Fiqh əl-İslam)

---

[263] Buxari 5653.

böyüyü idi. H. 1381-ci ildə Mədinə İslam Universitetində administrator vəzifəsində çalışır. Bu ildən başlayaraq Universitetdə çalışan və oxuyan müəllim və tələbələrin qayğısına qalır. Elm almaq üçün başqa dövlətlərdən gələnlərə köməkliklər göstərir. Onların elm almaları üçün hər cür şərait yaradır. Bir müddətdən sonra şeyxi Elmi tədqiqat və fətvalar (İdarət əl-Buxus əl-İlmiyyə əl-İfta) H. 1395-ci ildə üzrə büronun sədri qoyurlar. Ən çox işlətdiyi kəlmələr ***Lə Haulə Vələ Qüvvətə İllə Billəh*** – Güc və Qüvvət yalnız Allahdadır. Kimsə onun yanında boş söhbətlər edərdisə ona deyərdi: Səbbih, Səbbih (Allahı zikr et!). Qatarda Taifdən ər-Riyada onu müşayət edən tələbələrindən biri deyir ki: Gecənin yarıdısı idi. Saat təxmini 02:00 göstərirdi. Şeyx bizə dedi: «Çox yorulmuşuq gəlin dincələk». Gözümüzü yumub yatdıq. İçərimizdən olan bəzi xeyirlilərimiz isə yatmazdan qabaq bir-üç rükət namaz qıldılar. Şeyxdə onlarla bərabər namaz qılırdı. Lakin səhəri hamı sübh namazına oyandıqda gördük ki, Şeyx yatmayıb və hələ də namaz qılırdı. Tələbəsi: «Doğrusunu Allah bilir, mənə elə gəlir ki, o üç sinif insanlardandır ki, hansına ki, Allah təbəssüm edər: O, kimsə ki, döyüş meydanında düşmənlə üz-bəüz gələrək cəsarətlə vuruşur o, vaxta qədər ki, ya öldürülər, ya da öz dostları üçün irəli getmək üçün yol açar. Səfərdə olan bir qrup insanlardır ki, dincəlmək üçün gecənin bir aləmi dayanırlar. İçərilərindən biri kənara çəkilərək ibadətə başlayır vaxta qədər ki, səfəri davam etmək üçün vaxt gəlib çatır və bir də qonşusu tərəfindən əziyyət görən lakin buna səbr edən kimsə ta ki, onları bir-birindən ölüm ayırana qədər və ya köçüb başqa yerə gedənə qədər»[264]. Gün ərzində 4-5 saat yatardı. Ömrünü İslam dinini öyrənməyə həsr etmişdir. H. 1420-ci il Məhərrəm ayının 27 dördüncü günü 89 yaşında (13.05.1999) Taif şəhərində dünyasını dəyişir. *Allah rəhmət etsin!*

## Şeyx Useymin

[264] İmam Əhməd.

*- rahmətullahi aleyhi -*

Əbu Abdullah Muhəmməd İbn Saleh İbn Muhəmməd İbn Useymin əl-Muqbil əl-Vuheybi ət-Təmimi. H. 1347-ci il Ramazan ayının 27 Qasım bölgəsi şəhərlərindən biri olan Uneyzə şəhərində dinə bağlı olan bir ailədə dünyaya gəlmişdir. Müəllimlərindən böyük təfsir və fiqh alimi Şeyx AbdurRahman İbn Nasir əs-Sədidir – *rahmətullahi aleyhi* -. 1372-ci ildə Riyada gələrək burada Seyx AbdulAziz İbn Bazzdan – *rahmətullahi aleyhi* - dərslər alır. Bundan sonra Şeyx Useymin – *rahmətullahi aleyhi* - Uneyzə İnistutunda müəllim vəzifəsində çalışır. Müəllimi AbdurRahman əs-Sədini H. 1376-cı ildə dünyasını dəyişdikdən sonra Uneyzədə 69 yaşında Məscid imamı seçilir. Müəlliminin keçdiyi dərsləri davam edir. Uneyzə İnistutunda dərs verməklə yanaşı Muhəmməd əs-Suud tərəfindən İslam Universitetinin şəriət hüquq, Usulu din fakultələrinə müəllim təyin edilir. Bir zövcəsindən 5 oğlu, 3 qızı vardır. 15.10.1421-ci ildə Ciddədə müalicə aldığı Kral Feysəl xəstəxanasında dünyasını dəyişir. Səhəri isə Kəbədə miliyonlarla onu sevən insanlar tərəfində cənazəsi qılınır və sevdiyi müəllimi Məkkədə Abduaziz İbn Bazzın – *rahmətullahi aleyhi* - yanında dəfn edilir. Allah hər ikisinə də rəhmət etsin.

## Sələf İmamlarının Quran Və Sünnə Barəsində Olan Sözləri

**1.** Əbu Bəkr əs-Siddiq - *radıyallahu anhu* – deyir ki: «Sünnə Allahın sağlam ipidir. Onu tərk edən adam özü ilə Allah arasındakı ipi qoparır»[265].

**2.** İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «Sünnəni tərk edən kafir olur»[266].

---

[265] İbn Batta «Şərhu əl-İbanə»s 120.

**3.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Allah qullarının qəlblərinə baxdı. Muhəmmədin – *sallallahu aleyhi və səlləm* – qəlbini qullarının qəlbləri arasında ən xeyirli qəlb olduğunu gördü. Buna görə də onu özü üçün (bir Peyğəmbər) olaraq seçdi və onu risalətlə göndərdi. Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in qəlbindən sonra yenə də qullarının qəlblərinə baxdı, onun səhabələrinin qəlblərini qullarının qəlbləri arasında ən xeyirli qəlblər olduğunu gördü. Buna görə də onları Peyğəmbərinə dini uğrunda vuruşacaq yardımçılar etdi. Buna görə də müsəlmanların gözəl gördükləri bir şey Allah dərgahında da gözəldir, pis gördükləri bir şey də Allah dərgahında da pisdir»[267].

**4.** Ömər - *radıyallahu anhu* – deyir ki: «Qurani Kərimin mütəşabihləri ilə sizlərlə mübahisə edəcək bir qrup kimsələr gələcəkdir. Siz də onları sünnətlərlə susdurun. Çünki sünnətə tabe olan kimsələr Allahın Kitabını ən gözəl bilən kimsələrdir»[268].

**5.** İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «Sizlərdən hər kimsə birinin sünnətini (yolunu) izləmək istəyərsə, ölmüş olanların (sünnətini) yolunu izləsin. Bunlar da Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in səhabələridir. Onlar bu ümmətin xeyirliləri idilər. Qəlbləri ən yaxşı, elmləri ən dərin, əbəs yerə özlərinə zülm etməkdən ən uzaq olan kimsələr idilər. Allah onları Peyğəmbərinə yoldaşlıq etməyə, dinini (daşımaq) başqalarına çatdırmaq üçün seçdi. Buna görə də sizlər də onların əxlaqı ilə əxlaqlanmaya və onların getdikləri yolla getməyə çalışın. Onlar Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in səhabələridirlər. Onlar Kəbənin Rəbbi olan Allaha and olsun ki, doğru yolda idilər»[269].

---

[266] İbn Batta «Şərhu əl-İbanə».

[267] İmam Əhməd «Musnəd» 1/379, Əhməd Şakir səhih.

[268] Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat», İbn Batta «əl-İbanə».

[269] Əbu Nuaym «əl-Hilyə» 1/305.

**6.** Xuzeyfə İbn Yəmən - *radıyallahu anhu* – deyir ki: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrinin ibadət deyə etmədiyi heç bir şeyi siz də ibadət deyə etməyin. Çünki əvvəl gələn, sonra gələnə söyləyəcək bir söz buraxmamışdır. Ey Alimlər topluluğu! Allahdan qorxun. Sizdən əvvəlkilərin izlədiyi yolu tutun»[270].

**7.** İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «İnsanlar əvvəlkilərin izlədikləri (yolu) izlədikcə doğru yolla getməyə davam edəcəklər»[271].

**8.** Əbu Dərda - *radıyallahu anhu* – deyir ki: «Sən əvvəlkilərin izini (yolunu) izlədiyin müddətdə əsla azmazsan»[272].

**9.** İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Sünnət əhli olan bir kimsəyə baxmaq, sünnətə dəvət edər, bidəti isə qadağan edər»[273].

**10.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Bizə Uca Allahın Kitabından və ya Allahın elçisinin sünnəsi ilə bağlı bildiyimiz hər hansı bir məsələ haqqında soruşsanız biz onu sizə çatdırarıq. Lakin sizin sonradan uydurduğunuz şeylərə biz cavab vermirik»[274].

**11.** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah hər bidət sahibinin tövbəsini o, bidətini tərk edincəyə qədər pərdə ilə əngələmişdir»[275].

---

[270] İbn Batta «əl-İbanə».
[271] Ləlәkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[272] İbn Batta «əl-İbanə».
[273] Ləlәkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[274] Darimi 1/46.
[275] əl-Albani «Səhih Tərğib vət Tərhib» 1/26 hədis 52.

**12.** Əbu İdris əl-Həvlani – *rahmətullahi aleyhi* – deyir ki: «Bir ümmət dində bir bir bidət ortaya çıxarsa mütləq Allah bu səbəbdən onlardan bir sünnəni götürər»[276].

**13.** Ubeyy İbn Kəb - *radıyallahu anhu* – deyir ki: «Sizə o, yola və sünnəyə möhkəm sarılmağınızı tövsiyə edirəm. Çünki kim o, yolda və sünnədə olarsa Rəhmanı xatırladığı vaxt Onun qorxusundan gözləri yaşla dolarsa həmin adama Allah əzab verməz»[277].

**14.** Ömər - *radıyallahu anhu* – deyir ki: «Rəy əhli (Kitab və Sünnəyə əsaslanmayaraq öz rəyləri ilə hökm edənlər) sünnəyə müxalif olanlardır. Hədisləri yadda saxlamaq onlara çətin gəlmişdir. Onlar hədisləri tərk etdiklərinə görə onları yadda saxlaya bilməmişlər. Bunun nəticəsində öz fikirlərinə əsaslanaraq öz ağıllarına uyğun söz söyləmişlər. Bununla da həm özləri azmışlar həm də başqalarını azdırmışlar»[278].

**15.** Əli - *radıyallahu anhu* – deyir ki: «Nəfsin istəyi sünnəyə müxalif olanın qənaətinə görə haqdır»[279].

**16.** İbn Məsud, Ubey İbn Kəb - *radıyallahu anhum* – deyirlər ki: «Sünnədə iqtisad, bidətlərdə ictihad etməkdən xeyirlidir (yəni: az da olsa sünnə ilə əməl etmək çox bidətlə əməl etməkdən xeyirlidir)[280].

**17.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Siz (sünnəyə) tabe olun. Bidət ortaya çıxarmağa çalışmayın. Çünki sünnə sizə kifayət edər, bidətə ehtiyac yoxdur»[281].

---

[276] İbn Vaddah «əl-Bidə» səh 36.
[277] Əbu Nueym «Hiylə» 1/352-353, əl-LəlƏkai 1/54.
[278] İbn Batta «Şərhu əl-İbanə» səh 121, İbn Həcər «Fəthul Bəri» 13/289, Laləkai 1/123.
[279] İbn Batta «Şərhu əl-İbanə» səh 122.
[280] Darimi 1/72, əl-Bəğavi «Şərhu Sünnə» 1/208, Həkim «Mustədrək» 1/103.
[281] Darimi 1/69.

**18.** İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Bir il keçməmiş insanlar bidəti ortaya çıxarmağa və sünnəni məhv etməyə başladılar. Nəhayət bidətlər yayılmağa, sünnə isə tərk olunmağa başladı»[282].

**19.** Əbu Zərr - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizə üç şeyi tərk etməməyi əmr etdi: «Yaxşılığı əmr edib pislikdən çəkindirmək və insanlara sünnəni öyrətməyi»[283].

**20.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Camaat Allaha itaətə uyğun gələn şey deməkdir, sən tək qalsan da belə»[284].

**21.** İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Biz hədis əhli deyərkən sadəcə onu duyan, yazan və rəvayət edənləri deyil, hədisi qorumağa çalışan, onun bilgisinə sahib olmağa, zahirdə və batində onu anlamağa və ona haqqıyla uymağa çalışanları qəsd edirik»[285].

**22.** İbn Məsud - *radıyallahu anhu* – rəvayət edir ki: «Camaatın içində xoşlanmadığınız bir şey şübhəsiz ayrılıq halında sevdiyiniz bir şeydən xeyirlidir»[286].

**23.** Usamə İbn Şərik - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın əli camaatın üzərindədir»[287].

---

[282] İbn Vaddah «əl-Bidə» səh 38.
[283] Darimi 1/136.
[284] Ləlakai 1/109.
[285] Fətava 4/91-95.
[286] Lalakai 1/108, əş-Şatibi «əl-İtisam» 2/261.
[287] İbn Əbu Asim «əs-Sünnə» 1/40, əl-Albani səhih.

**24.** İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allahın əli cəmaatla birlikdədir»[288].

**25.** İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim əmrindən xoşuna gəlməyən bir şey görərsə, ona səbr etsin. Çünki şübhə yoxdur ki, cəmaatdan bircə qarış ayrılandan sonra ölən kimsə mütləq cahiliyyə ölümü ilə ölər»[289].

**26.** Zeyd İbn Sabit - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər –*sallallahu aleyhi və səlləm* – buyurdu: «Üç xislət vardır ki, heç bir müsəlmanın qəlbi bunları yerinə yetirərkən qüsur göstərməz: «Əməli səmimi olaraq Allah üçün etmək, idarəçilərə nəsihət etmək və cəmaata bağlı qalmaq…»[290].

**27.** Ömər - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir yerdə yemək yeyin və dağılmayın. Çünki şübhə yoxdur ki, bərəkət cəmaatla birlikdədir»[291].

**28.** İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Kim uydurma adlardan birini qəbul edərsə, həmin adam İslam boyunbağısını boynundan çıxarmış sayılır»[292].

**29.** Bir nəfər bayram günü qəbristanlığda bayram namazından əvvəl namaz qılmaq istədi. Əli - *radıyallahu anhu* – isə ona mane oldu. Adam: «Ey möminlərin əmri! Mən bilirəm ki, Allah namaz qılmaqdan ötrü əzab etməyəcəkdir. Əli: «Mən də bilirəm ki, Allah,

---

[288] Tirmizi «Sünnən» 7/2166 həsən-qərib.
[289] Buxari, Müslim.
[290] İbn Əbu Asim «əs-Sünnə» 1/45, əl-Albani səhih.
[291] İbn Məcə 3287, 2/1093,1094, əl-Albani «Səhih əl-Cəmi» 4/168.
[292] İbn Batta «Şərhu əl-İbanə» səh 137.

Allahın Rəsulu bir işi etmədikcə, yaxud da o, işin edilməsi üçün təşviq etmədikcə edənə savab verilmir. Bu durumda sənin qılacağın namaz əbəs bir iş olmuş olur. Əbəs iş etmək də haramdır. Bəlkə də Uca Allah Peyğəmbərə müxalif olduğun üçün bu əbəs işdən ötrü səni cəzalandırsın»[293].

**30.** Ummu Dərda - *radıyallahu anhə* – deyir ki, bir gün Əbu Dərda - *radıyallahu anhu* – qəzəbli halda mənim yanıma girdi. Mən: «Sənə nə olub ki, belə qəzəblisən?» dedim. O: «Allaha and olsun ki, mən bilmirəm bu insanlarda cəmaat namazına yığılmaqdan başqa Peyğəmbər – *sallallahu aleyhi və salləm* – dən nə qalıb»[294].

**31.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Sonradan ortaya çıxan bidətlərdən özünüzü qoruyunuz. Çünki din qəlbdən heç bir zaman bir dəfəyə silinməz. Lakin şeytan sizlər üçün qəlbdən imanı büstbütün silənə qədər bidətlər ortaya qoyar».

**32.** İbn Abbas - *radıyallahu anhu* – deyir ki: «Bidət əhli olanlarla oturub qalxma, çünki onlarla oturub qalxmaq qəlbləri xəstə edər»[295].

**33.** Muaz İbn Cəbəl - *radıyallahu anhu* – deyir ki: «Ey insanlar! Elm qaldırılmadan əvvəl elm öyrənməyə çalışın. Onu da bilin ki, elmin qaldırılması elm əhli olan kimsələrin getməsidir. Bidətlərdən, bidət ortaya qoymaqdan çəkinin. Həddi aşmaqdan çəkinin, siz öz halınıza baxın»[296].

**34.** İbn Ömər - *radıyallahu anhu* – deyir ki: «Hər bir bidət sapıqlıqdır. İstərsə insanlar onu gözəl görsünlər»[297].

---

293 «Məcmuul Bəhreyn».
294 Buxari.
295 Ləlakai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».
296 İbn Vaddah «əl-Bidə».
297 Laləkai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».

**35.** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim bidət etsə və ya bidətçini gizlətsə onu Allah, mələkləri və bütün insanlar lənətləyəcəklər»[298].

**36.** Əli - *radıyallahu anhu* – deyir ki: «Əgər din ağıla görə olsaydı (xufun) alt tərəfinin məst edilməsi, üst tərəfin məst edilməsindən daha uyğun olardı. Lakin mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in (xufun) üst tərəfinə məst etdiyini gördüm»[299].

**37.** Abdullah İbn Ömər - *radıyallahu anhu* – ya bir məsələ haqqında sual verib sonra da atan (Ömər) bunu qadağan etmişdir deyən bir kimsəyə belə cavab vermişdir: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in əmrinə uymaq daha uyğundur, yoxsa atamın əmrinə?»[300].

**38.** Abdullah İbn Ömər - *radıyallahu anhu* – səhabələr içərisində sünnətə çox bağlı bir kimsə idi. Bir nəfər asqırıb: «***Əlhəmdulilləhi Vəs Salətu Vəs Saləmu Alə Rəsulullah***» dedikdə İbn Öəmr: «Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizə belə öyrətdi. Sizdən biri asqıranda ***"Əlhəmdulilləhi Alə Kulli Hal"*** desin. Peyğəmbərə salət və salam gətirsin demədi»[301].

**39.** İbn Abbas - *radıyallahu anhu* – sünnətə qarşı ona təməttu həcci haqqında soruşana demişdir: «Belə getsə çox keçməz ki, səmadan üzərinizə daşlar yağar. Mən sizə deyirəm ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – belə buyurdu deyirəm, sizlər də mənə Əbu Bəkr və Ömər belə dedilər, deyirsiniz»[302].

---

[298] Buxari 4/73, Müslim 1371.
[299] İbn Əbi Şeybə «Musənnəf»
[300] İbn Qeyyim «Zədul Məad».
[301] Tirmizi 2738, əl-Albani "Həsən".
[302] AbdurRazzaq «Musənnəf».

**40.** Ömər - *radıyallahu anhu* – deyir ki: «Mən insanların nə zaman islah olub, nə zaman işlərinin pozulacağını bilirəm. Əgər kiçik yaşdakılar anlayış sahibi olurlarsa böyüklər bu işin içindən çıxmazlar. Lakin yaşı ötmüş kimsələr məsələləri qavrayarlarsa, kiçiklərdə onlara uyarlarsa hər iksi də hidayət taparlar»[303].

**41.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «İnsanlar elmi böyüklərdən öyrəndikləri müddətdə xeyir içində qalmağa davam edərlər. Onu kiçiklərdən və şərlilərdən öyrənməli olarlarsa onda həlak olurlar»[304].

**42.** İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Möminə hər cür damğa vurula bilər, yalnız xainlik və yalançılıq damğası vurulmaz»[305].

**43.** Ubey İbn Kəb - *radıyallahu anhu* – deyir ki: «Mömin dörd şeyin arasındadır. Bəla və müsibətlə qarşılaşarsa səbr edər, ona bir şey verilərsə şükr edər, bir şey söyləyərsə doğru söyləyər, bir hökm verərsə ədalətli olar»[306].

**44.** Abdullah İbn Məsud - *radıyallahu anhu* – deyir ki: «Cəmaat haqqa uyğun olandır. Tək də olsan haqqa uyğun hərəkət edirsən. Bil ki, cəmaat sənsən»[307].

**45.** Qudayf İbn əl-Hərisdən - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir qövm bir bidət ortaya çıxarsa mütləq sünnədən bir o, qədəri yox olar»[308].

---

303 İbn Əbdil Bərr «Cəmiu bəyanil ilm» s. 247.
304 İbn Əbdil Bərr «Cəmiu bəyanil ilm» s. 248.
305 İbn Əbi Şeybə «Kitabul İman» s. 35 əl-Albani səhih.
306 Əbu Nuaym əl-Əsfəhani «Hiylətul Övliya» 1/255.
307 Ləlәkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/108-109.
308 Əhməd «Musnəd» 4/105, Süyuti «Cəmius Səğir» 2/480 № 7790, əl-Albani «Daifu Cəmius Səğir» 5/78 № 4985 - zəif. Lakin Həsən İbn Atiyyədən gələn rəvayət isə səhihdir əl-Albani «Mişkətul Məsabih» 1/66.

**46.** Sufyan əs-Səuri – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnəyə tabe ol və bidəti tərk et»[309].

**47.** Avn İbn Abdullah – *rahmətullahi aleyhi* – deyir ki: «Hər kim İslam və Sünnə üzrə ikən ölərsə artıq hər cür xeyrin müjdəsi onun üçündür»[310].

**48.** Sufyan əs-Sövri – *rahmətullahi aleyhi* – deyir ki: «Gün çıxan tərəfdən olan bir adamın sünnətə bağlı olduğuna dair sənə bir xəbər çatarsa, sən də ona salam göndər. Çünki sünnət əhli (sünnətə bağlı) kimsələr azalmışdır»[311].

**49.** Malik İbn Miğəl – *rahmətullahi aleyhi* – deyir ki: «Əgər bir kimsə İslam və Sünnədən başqa bir adla xatırlanarsa sən onu istədiyin dinə nisbət edə bilərsən»[312].

**50.** əl-Auzai – *rahmətullahi aleyhi* – deyir ki: «Beş şey var ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələri ondan ayrılmamışlar. Cəmaata qatılmaq, sünnəyə tabe olmaq, məscidi abadlaşdırmaq, Quran oxumaq və Allah yolunda cihad etmək…»[313].

**51.** əz-Zuhri – *rahmətullahi aleyhi* – deyir ki: «Bizim gəlib getmiş elm adamlarımız Sünnəyə möhkəm sarılmaq qurtuluşdur – deyərdilər»[314].

---

[309] əl-Bəğavi «Şərhu Sünnə» 1/217.
[310] Ləlәkai 1/67.
[311] Ləlәkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[312] İbn Batta «Şərhu əl-İbanə» səh 153.
[313] əl-Bəğavi «Şərhu Sünnə» 1/217.
[314] Darimi «Sünnən» 1/45, Ləlәkai 1/94.

**52.** Əyyub əs-Şahtiyani – *rahmətullahi aleyhi* – deyir ki: «Mənə sünnət əhlindən olan bir nəfərin ölüm xəbəri gəlib çatdıqda sanki orqanlarımdan birini itirmiş kimi oluram»[315].

**53.** Abdullah İbn Mübarək – *rahmətullahi aleyhi* – dən cəmaat haqqında soruşduqda o, belə cavab vermişdir: «Əbu Bəkr və Ömər» – dir demişdir. Ona: «Əbu Bəkr və Ömər» vəfat ediblər deyə soruşanda, bu dəfə: «Filan və filankəsdir» demişdir. Yenə onların vəfat etdiyini xəbər verdikdə o: «Həmzə əs-Sukkəri bir cəmaatdır»[316].

**54.** Abdullah İbn Mubarək – *rahmətullahi aleyhi* – deyir ki: «Ey qardaşım! Bunu da bil ki, bu gün sünnətə sarılaraq ölmək Allahın hüzuruna çıxacaq hər bir müsəlman üçün bir lütf, bir mərhəmətdir»[317].

**55.** Əbu Məsud əl-Əşaridən - *radıyallahu anhu* – dan fitnə ilə bağlı sual soruşduqda demişdir: «Sən cəmaatla birgə olmağa çalış. Şübhəsiz Allah Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in ümmətini zəlalət üzrə bir yerə yığmaz. Təfriqəçilikdən çəkin, şübhəsiz təfriqə zəlalətin özüdür»[318].

**56.** Fudayl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Şübhəsiz Allah onların vasitəsi ilə ölkələrə hidayət verdiyi qulları vardır. Bunlar sünnət əshabı olan kimsələrdir»[319].

**57.** Abidə İbn Ömər əs-Sələmi – *rahmətullahi aleyhi* – Əli - *radıyallahu anhu* – belə demişdir: «Cəmaat halında sənin və Ömərin

---

315 Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
316 Bəğavi «Şərhu Sünnə» 1/216.
317 İbn Vaddah «əl-Bidau vən Nəbyu Anhə».
318 əş-Şatibi «əl-İtisam» 2/261.
319 Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».

fikri, ayrılıq halında sənin tək başına olan fikrindən daha çox xoşuma gəlir»[320].

**58.** əl-Albani – *rahmətullahi aleyhi* – deyir ki: «İslam dövlətini qəlbinizdə qurun ki, Allah da onu sizin üçün yer üzündə qursun».

**59.** İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Mən hədis əhlindən bir kimsəni gördümmü sanki Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrindən birini görür kimi oluram»[321].

**60.** Amr İbn Qeys əl-Mulai – *rahmətullahi aleyhi* – deyir ki: «Əgər sən bir gəncin əvvəldən (ilk yetişdiyi andan etibarən) Əhli Sünnə vəl Cəmaatla birlikdə yetişdiyini görsən bil ki, ondan (xeyirli şeylər) uma bilərsən. Əgər bidət əhli ilə birlikdə olduğunu görsən ondan ümüdünü kəs. Çünki gənc adam birinci dəfə necə yetişərsə o, cür də olacaq»[322]. Başqa bir yerdə: «Cavan yetişir. Əgər elm əhli ilə oturub durmağı seçirsə, qurtulması ehtimalı böyükdür. Əgər başqalarına meyl edəcəksə, həlak olma ehtimalı böyükdür»[323].

**61.** İmam Malik – *rahmətullahi aleyhi* – deyir ki: «Bu ümmətin başı nə ilə islah olunmuşsa, bu ümmətin sonu da ancaq onunla islah olunur (düzəlir). O, gün din olmayan heç bir şey bu gün də din olmaz»[324].

**62.** Abdullah İbn Mubarək – *rahmətullahi aleyhi* – deyir ki: «Güvənib dayandığın əsər (əvvəlkilərin yolu) olsun»[325].

---

320 «Fəthul Bəri» 7/73.
321 Xatib «Şərəfu Əshəbu Hədis».
322 Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat», İbn Batta «Şərhu əl-İbanə».
323 İbn Batta «Şərhu əl-İbanə» 1/206.
324 Qadi İyad «əş-Şifa» 2/88.
325 Beyhəqi «Sünənul Kubra».

**63.** İbn Şəvzəb – *rahmətullahi aleyhi* – deyir ki: «Gəncin ibadətə yönəldiyi vaxt sünnə sahibi olan bir insanla rastlaşması Allahın nemətlərindəndir»[326].

**64.** Əbu Sələmə İbn AbdrRahmən Həsənul Bəsriyə demişdir: «Mənə sənin özündən fətva verdiyini söylədilər. Allah Elçisinin – *sallallahu aleyhi və səlləm* – in sünnəsi və ya Allah tərəfindən göndərilmiş kitabın hökmü ilə olmasa heç vaxt öz fikrinə görə fətva vermə»[327].

**65.** İbn Qeyyim – *rahmətullahi aleyhi* – deyir ki: «İmamların birindən sünnə haqqında soruşduqda o, belə demişdir: «Mənim sünnədən başqa heç bir adım yoxdur»[328].

**66.** Muafa İbn İmran – *rahmətullahi aleyhi* – deyir ki: «İnsanı öləndən sonra tərif et. Çünki ölənə qədər onun sünnə və ya bidət üzərə öləcəyi bilinməz»[329].

**67.** Meymun İbn Mihran – *rahmətullahi aleyhi* – deyir ki: «İslamdan başqa adlandırılan hər bir addan çəkin»[330].

**68.** Əbu Bəkr əl-Əyyaş – *rahmətullahi aleyhi* – dən sünnə əhli kimdir? deyə soruşduqda o, dedi: «Nəfsin müxtəlif istəklərindən bəhs ediləndə onların heç birinə tərəfdər olmayandır»[331].

**69.** Əyyub əs-Səhtiyani – *rahmətullahi aleyhi* – deyir ki: «Əhli Sünnənin ölümünü istəyən adamlar əslində ağızları ilə Allahın

---

326 İbn Batta «Şərhu əl-İbanə» səh 133, «əl-İbanə» 1/205.
327 Darimi 1/59.
328 «Mədaricus Salihin» 3/174.
329 Ləlәkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
330 İbn Batta «Şərhu əl-İbanə» səh 137.
331 Ləlәkai 1/60,65.

nurunu söndürmək istəyənlərdir. Ancaq kafirlər istəməsələr də Allah nurunu tamamlayacaqdır»[332].

**70.** Həssən İbn Atiyyə – *rahmətullahi aleyhi* – deyir ki: «Cəbrail Allah Elçisinə – *sallallahu aleyhi və səlləm* – ə Quranı gətirdiyi kimi sünnəni də gətirdi»[333].

**71.** Fudeyl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Gördüyüm bütün xeyirli insanlar sünnəyə bağlı kimsələr idilər və bidət sahiblərindən uzaq qalmağı əmr edərdilər»[334].

**72.** İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnətə müxalif olaraq haqqında söz söylədiyim nə qədər məsələ varsa mən ondan həyatımda olsun, ölümümdən sonra olsun vaz keçirəm»[335].

**73.** Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: «Şübhəsiz ki, sünnə əhli olan kimsələr insanlar arasında say etibarı ilə ən az olanlardır. Yerdə qalan insanlar arasında da insanların ən az olanlarıdır. Onlar kef və dəbdəbə içində olanlarla kef və dəbdəbələrində iştirak etməzlər, bidət əhlinin də bidətlərinə qarışmazlar. Rəbblərinə qovuşana qədər sünnə üzərində sabit qalarlar. Siz də Allahın izni ilə belə olun»[336].

**74.** Rabi İbn Süleyman deyir ki: «İmam Şəfii bir gün bir hədis rəvayət etdi. Bir nəfər: «Ey Abdullahın atası! Sən bunu qəbul edirsən?» deyincə Şafii: «Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən gələn səhih bir hədis rəvayət edib və onu qəbul etməmiş olsam siz şahid olun ki, mən ağlımı başımdan itirmişəm»[337].

---

[332] Ləl追kai 1/61.
[333] İbn Batta «Şərhu əl-İbanə» səh 128, İbn Teymiyyə «Məcmuə əl-Fətava» 3/366.
[334] İbn Batta «Şərhu əl-İbanə» səh 153.
[335] Xatib «əl-Fakibu vəl Mutefakkib».
[336] Darimi 1/72.
[337] İbn Batta «əl-İbanə».

**75.** Fudeyl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Bidət sahibi olan bir kimsəyə dinə aid olan məsələlərdə heç vaxt güvənmə. İşlərində onunla istişarə (məşvərət) etmə. Onun yanında oturma. Bidət sahibi olan kimsənin yanına oturan bir kimsənin qəlbini Uca Allah kor edər»[338].

**76.** Abdullah İbn Mubarək – *rahmətullahi aleyhi* – deyir ki: «Allahım bidət əhlindən olan bir kimsənin mənə bir yaxşılıq etməsindən və sonda mənim qəlbimin ona sevgi bəsləməsinə imkan vermə»[339].

**77.** Sufyan əs-Səvri – *rahmətullahi aleyhi* – deyir ki: «Hər kim bir kimsənin bidət sahibi olduğunu bildiyi halda o, kimsəyə qulaq verib (onu dinləyərsə) Allahın onu qoruması üzərindən qalxar və öz halına buraxılar»[340].

**78.** İmam əl-Əvzai – *rahmətullahi aleyhi* – deyir ki: «Bidət sahibi olan bir kimsənin mübahisə etməsinə imkan verməyin. O, vaxtı fitnəsi səbəbiylə qəlbinizə şübhə düşər»[341].

**79.** Məlik İbn Ənəs – *rahmətullahi aleyhi* – deyir ki: «Bidət əhli kimsə ilə nigahlanmaz, bidət əhli kimsəyə qız verilməz və onlara salam verilməz»[342].

**80.** İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Ya xeyir də bizə qonşuluq edərsiniz, ya da qalxıb gedərsiniz»[343].

---

[338] Ləlakai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».
[339] Ləlakai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».
[340] İbn Vaddah «əl-Bidə».
[341] İbn Vaddah «əl-Bidə».
[342] İmam Məlik «Mudəvvənətul Kubra».
[343] Nəsir b. İbrahim Məqdisi «Mubtasaru Kitabil Huccəti alə Tərkil Məbaccəti».

**81.** Abdullah İbn əd-Dəyləmi – *rahmətullahi aleyhi* – deyir ki: «Təcrübəmdən bildiyimə görə dinin yox olması sünnəni tərk etməklə başlanır»[344]. Başqa bir yerdə isə o, demişdir: Bir parçanın süzülməsi kimi, sünnə də yavaş-yavaş unudulacaqdır»[345].

**82.** Həsənul Bəsri və Əbu Sufyan – *rahmətullahi aleyhi* – deyir ki: «Uca Allahın: ***«Sonra səni də dində şəriət sahibi etdik. Sən də o, şəriətə tabe ol…» (əl-Casiyə 18)*** buyurduğunu: «Sünnə üzrə etdik» deyə açıqlamışlar[346].

**83.** İmam Əbu Xatim əl-Hənzəli ər-Razi – *rahmətullahi aleyhi* – deyir ki: «Bidət əhlinin əlaməti rəvayət alimlərinə dil uzatmaqdır. Zındıqların əlaməti isə rəvayət elmi ilə məşğul olanlara Haşaviyə adını vermələridir. Onlar beləliklə rəvayətləri yox etmək istədilər. Cəhmiyənin əlaməti isə Əhli Sünnətə müşəbbih adını vermələridir. Qədəriyənin əlaməti Əhli Sünnətə Cəbriyəçilər adını vermələridir. Murciyənin əlaməti Əhli Sünnətə müxaliflər, nöqsançılar adını vermələridir. Bidət əhlinin əlaməti Əhli Sünnətə Nəvasiv adını vermələridir. Əhli Sünnətə isə yalnız bir ad uyğun düşə bilər. Bütün bu isimlərin onlar haqqında istifadə edilməsinə yer yoxdur»[347].

**84.** Əyyub əs-Sahtiyani – *rahmətullahi aleyhi* – deyir ki: «Şübhəsiz ki, bidət əhli sapıq kimsələrdir. Görüşümə görə onlar ancaq Cəhənnəmə gedəcəklər»[348].

**85.** Qadi Əbu Yusuf – *rahmətullahi aleyhi* – deyir ki: «Mən Cəhmiyənin, Bidət əhli və Qədəriyəçi olan bir kimsənin arxasında namaz qılmaram»[349].

---

344 Darimi 1/45, ibn Vaddah «əl-Bidə» səh 38.
345 İbn Vaddah «əl-Bidə» səh 66.
346 Ləlәkai 1/69.
347 ər-Razi «Aslus Sünnəti Vatiqadud Din».
348 İbn Batta «əl-İbanə».

**86.** İmam AbdurRahmən İbn Mehdi – *rahmətullahi aleyhi* – deyir ki: «İnsanlar müxtəlifdir. Bəziləri sünnədə də hədisdə də imamdır. Bəziləri isə təkcə hədisdə imamdırlar. Sünnə və hədisdə imam olan şəxs isə Sufyan əs-Səuridir»[350].

**87.** İmam əl-Bərbəhari – *rahmətullahi aleyhi* – deyir ki: «Sən bir kimsənin rəhbərə qarşı bəd dua etdiyini görsən bil ki, o bidət sahibidir. Əgər bir kimsənin rəhbərin islah olması üçün dua etdiyini görsən bir ki, o – *Uca Allahın izniylə* – sünnətə bağlı bir kimsədir»[351].

**88.** Fudeyl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Əgər mənim qəbul ediləcək bir duam olsaydı bunu mütləq rəhbər üçün ayırardım. Çünki bizlər onların islah olunmaları üçün dua etməklə əmr olunduq, onlara bəd dua etməklə isə qadağan olunduq. İstərsə haqsızlıq etsinlər, istərsə zülm. Çünki onların zülm və haqsızlıqları öz əleyhlərinədir. Salamat olmaları isə həm özlərinə, həm də müsəlmanların lehinədir. Digər tərəfdən onların islah olunmaları ilə ümmət də islah olur. Çünki mənim salehliyim yalnız özümün, başçıların salehliyi isə bütün müsəlmanların xeyrinədir»[352].

**89.** Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: «Onu da bil ki – *Allah sənə rəhm etsin* – hökmüdarların zülmləri Allahın intiqamlarından bir intiqamdır. Uca Allahın intiqamlarına da qılıncla qarşılıq verilməz. Bu intiqamlar dua, tövbə, Allaha dönüş, günahlardan çəkinmək ilə bir tərəf edilir və silinir. Allahın itiqamı qılıncdan daha da kəskindir»[353]. Başqa bir rəvayətdə: «Həsənul Bəsri – *rahmətullahi aleyhi* – Həccaca bəd dua edən bir kimsənin

---

349 Ləlakai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».
350 «Cərhu ət-Tədil» 1/118, Ləlakai 1/63 müqddimə.
351 «Şərhu Sünnə» s. 116.
352 «Şərhu Sünnə» s. 114, Əbu Nueym «Hiylətul Övliya» 8/91.
353 İbnul Cövzi «Ədəbul Həsənul Bəsri» s. 119.

sözlərini eşitdikdə belə demişdir: «Bunu etmə, Allah sənə rəhmət etsin. Əslində bu müsibətlər sizə öz əllərnizlə etdiklərnizdən ötrü gəlmişdir. Biz qorxuruq ki, Həccac əsr edilir və ya ölürsə, meymunlar və donuzlar gəlib sizə rəhbər olurlar»[354].

**90.** Abdullah İbn əs-Surri – *rahmətullahi aleyhi* – deyir ki: "Biz hava əhlinə rədd verməyi Sünnə saymırıq. Lakin biz sünnə sayırıq onlarla söhbət etməkdən uzaq durmağı"[355]. AbdurRahman İbn Mehdidən – *rahmətullahi aleyhi* – soruşurlar: "Bir nəfər bidət əhlinə rədd üçün kitab yazmışdır". O: "Nə ilə Rədd etmişdir? Quran və Sünnə ilə?". Adam: "Xeyr, ağıl və düşüncələrilə" dedi. İmam: "O, sünnədən uzaqlaşmış, bir bidəti başqa bidətlə rədd etmişdir"[356]. İmam Əhməddən – *rahmətullahi aleyhi* – bidət əhlinə rədd üçün icazə istədilər. İmam: "Biz eşitmiş və görmüşük ki, alimlər bidət və zəlalət əhli ilə münaqişə edib, vaxt keçirməyi qadağan edərdilər. Allahın kitabı və Peyğəmbərimizin Sünnəsində olanla kifayətlənmək, zəlalət və bidət əhlinə rədd üçün onlarla oturmaqdan çəkinmək lazımdır. Həqiqətən onlar səni şübhəyə sala bilər, lakin öz bidətlərində isə əl çəkməzlər. Allahın izni ilə daha yaxşıdır onlardan uzaq olmaq bə onlarla mübahisələrdən qaçmaq"[357].

**91.** İbnul Məcisun deyir ki, İmam Malikin – *rahmətullahi aleyhi* – belə dediyini dinlədim: «Hər kim İslamda gözəl görərək bir bidət ortaya çıxararsa, Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in risalətinə qarşı xainlik etdiyini iddia etmiş olur. Çünki Uca Allah: ***«Bu gün dininizi tamamlayıb mükəmməl etdim….». (əl-Maidə 3)*** deyə buyurdu. Bu baxımdan da o, gün din olmayan heç bir şey bu gün də din olmaz»[358].

---

354 İbnul Cövzi «Ədəbul Həsənul Bəsri» s. 119.
355 İbn Batta "İbanə əs-Suğra" 2/365.
356 Suyuti "Mantiq Va əl-Kələm An İlim əl-Kələm" 131.
357 İbn Batta "İbanə əs-Suğra" 1/44.
358 Şatibi «əl-İtisam».

**92.** İbrahim ən-Nəhai – *rahmətullahi aleyhi* – deyir ki: «Əgər Muhəmmədin səhabələri bir dırnağı belə məst etmişlərsə mən də onlara uymağın fəzilətini əldə etmək üçün (ayağımı) yumazdım»[359].

**93.** Xəlifə Ömər İbn AbdulƏziz – *rahmətullahi aleyhi* – deyir ki: «O, qövmün durduğu yerdə sən də dur. Çünki onlar bilərək durmuşdular. Dərin bir görüş ilə (bidətlərdən) uzaq durmuşdular. O, durduqları nöqtəni açığa çıxarmaqda onlar daha güclü idilər. Əgər bu işdə bir fəzilət olsaydı, onu etməyə daha da layiq idilər. Əgər sizlər - *onlardan sonra meydana gəldi* – deyəcək olsanız, şübhəsiz onların yollarına müxalif olan və sünnətlərindən üz çevirəndən başqası bu yeni şeyi ortaya çıxarmış deyildir. Onlar şəfa üçün yetərli olacaq qədərini söylədilər, yetərli qədər söz söylədilər. Onlardan irəli gedən həddi aşmışdır, onlardan geriyə qalan isə qüsur etmişdir. Bir qrup kimsələr onlardan geriyə qaldılar, buna görə də uzaq düşdülər. Bir qrup kimsələrdə geri qaldılar, buna görə də həddi aşdılar. Onlar isə bu iksi arasında heç şübhəsiz doğru bir hidayət üzərində idilər»[360].

**94.** İmam Əvzai – *rahmətullahi aleyhi* – deyir ki: «İnsanlar səni rədd etsələr də sən sələfin yolu ilə getməyə davam et, səni qınasalarda insanların görüşlərindən uzaq ol. Çünki belə etmiş olsan, sən doğru yolda olduğun halda məsələ sənin üçün açıqlanır»[361].

---

[359] Əbu Davud «Sünnən».
[360] İbn Qudamə «Lumatul Etiqadi Hədi İlə Səbili Rəşad»
[361] Xatib «Şərəfu Əshəbi Hədis».

**95.** İmam Şəfii – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnətə müxalif olaraq haqqında söz söylədiyim nə qədər məsələ varsa mən ondan həyatımda da, ölümümdən sonra da vaz keçirəm»[362].

**96.** Sufyan əs-Souri – *rahmətullahi aleyhi* – deyir ki: «İblis bidəti günahdan daha çox sevir. Çünki günahdan tövbə edilir, bidətdən isə tövbə edilməz»[363]. Günah edən kimsə günah etdiyini bildiyi üçün tövbə etməsi və günahları səbəbilə məğfirət diləməsi umulur. Bidət sahibi isə itaət və ibadət içərisində olduğuna inanır. Tövbə də etməz. Məğfirət də diləməz. İblisdən nəql edilən: «Adəm oğullarının belini günahlarla qırdım. Onlar isə tövbə etməklə, məğfirət diləməklə belimi qırdılar. Mən də onlar üçün məğfirət diləmələri, tövbə etməyəcəkləri günahlar ortaya qoydum. Bunlar isə ibadət şəkilində olan bidətlərdir.

**97.** İmam Əhməd – *rahmətullahi aleyhi* – deyir ki: «Bizə görə sünnətin əsasları Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrinin izlədiyi yola sarılmaq, onlara uymaq və bidətləri tərk etməkdir. Çünki hər bir bidət yol azmaqdır»[364].

**98.** Qazı Şureyh – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnə sizin qiyasınızdan da əvvəldir. Elə isə Sünnəyə tabe o, bidətçi olma»[365].

**99.** İmam Əhməd İbn Sinan əl-Kattan – *rahmətullahi aleyhi* – deyir ki: «Dünyada nə qədər bidətçi varsa mütləq hədis əhlinə ağız əyər. Çünki adam bidət ortaya qoydumu qəlbindən hədisin ləzzəti sökülüb alınır»[366].

---

362 Xatib «Fakibu vəl Mutəfəkkib».
363 Bəğavi «Şərhu Sunnə».
364 LəlƏkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
365 Darimi 1/66, əl-Bəğavi «Şərhu Sünnə» 1/126.
366 Nəvəvi «ət-Təzkirə».

**100.** Fudayl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Hidayət yollarına uy. O, yolu izləyənlərin azlığının sənə zərəri yox. Əyri yollardan isə çəkin. Həlak olanların çoxluğuna da aldanma»[367].

**101.** Sələflər deyillər ki, bağlılığın şəxslərə deyil, dinə olsun. Çünki haqq qalandır, şəxslər isə gedəndir. Haqqı bill, haqq əhlini də bilərsən".

**102.** Abis İbn Rabia dedi ki: «Mən Ömər - *radıyallahu anhu* – nu Həcərul Əsvədi öpərkən belə dediyini eşitdim: «Mən sənin fayda verməyən, zərəri olmayan bir daş olduğunu çox yaxşı bilirəm. Əgər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səni öpərkən görməmiş olsaydım, mən də səni öpməzdim»[368].

**103.** Muhəmməd İbn Sirin – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsə əvvəlkilərin izini (yolu) üzərə yürüməyə davam etdikcə, doğru yol üzərində yürüməyə davam edir deməkdir»[369].

**104.** İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «Bidətlərdən çəkinin». Bidət nədir? Deyə soruşulduqda. O: «Bidətçilər Allahın isimləri, sifətləri, kəlamı, elmi və qüdrəti haqqında danışıb duran, səhabələrin və gözəl bir şəkildə onlara tabe olanların susduqları (mövzuda) yerdə susmayan kimsələrdir»[370].

**105.** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Böyüklərimizə hörmət etməyən, kiçiklərimizə rəhm etməyən və alimlərimizin haqqını ödəməyən bizdən deyildir»[371].

---

[367] Şatibi «əl-İtisam».
[368] Buxari, Müslim.
[369] Lələkai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat».
[370] Bəğavi «Şəhu Sunnə» 1/217.
[371] Musnəd 5/323, Mustədrək 1/211.

**106.** ***«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar. (Lakin pis vəziyyətdə qalar və kədərlənərsiniz). Allah onları (indiyə qədər verdiyiniz bu cür sualları) bağışladı. Allah bağışlayandır, həlimdir! (Bəndələrinə əzab verməkdə tələsən deyildir!)». (əl-Maidə 101). «(Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyildir. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür. (Və ya sənin Məndən onu xilas etmək xahişin yaxşı iş deyildir). Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyə edirəm (məsləhət görürəm)». (Hud 46). «Bir baxın, siz o kimsələrsiniz ki, bildiyiniz şeylər barəsində mübahisə edirsiniz (bu aydındır) Bəs bilmədiyiniz şeylər barəsində niyə mübahisəyə girişirsiniz?! Əlbəttə, (həqiqəti) Allah bilir, siz bilməzsiniz!». (Ali İmran 66).*** Şabi – *rahmətullahi aleyhi* – deyir ki: «Bilmirəm demək elmin yarısıdır». İmam Əhməd – *rahmətullahi aleyhi* – dən insanların fikrincə hər şeyi bilən alim barəsində soruşdular. O: «İnsanların bütün suallarına cavab verən şəxs məcnundur». İbn Sirin – *rahmətullahi aleyhi* – deyir ki: «İnsanın cahil (savadsız) kimi ölməsi onun üçün bilmədiyini danışmasından daha xeyirlidir». Səd b. Cubeyr – *rahmətullahi aleyhi* – deyir ki: «Vay olsun bilmədiyinə bilirəm deyən hər bir kəsə»[372].

**107.** Həsənul Bəsri – *rahmətullahi aleyhi* - deyir ki? «Sizdən birinizin elm öyrənməyi yalnız Alimdir deyilsin deyə olmasın». İbn Sirin – *rahmətullahi aleyhi* – dən bir şey soruşduqda rəngi dəyişərdi». Nəsəi – *rahmətullahi aleyhi* - dən bir şey soruşduqda ikrah hissi oyanardı və deyərdi: «Soruşmağa məndən başqa adam tapmadın». İmam Məlik – *rahmətullahi aleyhi* - deyir ki: «Bir şey soruşulduqda elə bil ki, Cənnət və Cəhənnəm arasında durmusan. Sənin fikrin onu tez başından uzaq etmək olmasın. Dərdin özünü necə xilas etmək olsun. Özün üçün Qiyamət günü bir çıxış yolu olacaqsa onda danış, əks halda sus».

---

[372] «Ədəbuş Şəriyyə» 2/64-69, «Məalimu Fi Tarixi Tələbəi Elm» s. 207,208.

**108.** Sələflər deyərdilər: «Elm rahat bədənlə əldə edilməz. Rahatlıq yalnız yorğunluqla əldə edilir. Nemətlərə çatmaq yalnız o, yolda olan çətinliklərə dözməklə olur. Bu rahatlığa yalnız Cənnətdə çatılır». Rabi b. Xuseym – *rahmətullahi aleyhi* – yə deyirlər ki: «Öz nəfsinə bir az rahatlıq ver». O: «Mən onun rahatlığını istəyirəm» dedi. İmam Əhməd – *rahmətullahi aleyhi* – dən nə vaxt rahatlıq tapırlar. O: «Birinci ayağını Cənnətə qoyduğun zaman». Sələflər deyərdilər: «Dünya var ikən mən yox idim. Dünya qaldığı zaman mən olmayacağam. Buna görə də istəmirəm ki, günlərim zay olsun».

**109.** Cəfər İbn Muhəmməd deyir ki, mən Quteybənin belə dediyini dinlədim: «Bir kimsənin Yəhya b. Səid, AbdurRahman b. Mehdi, İmam Əhməd, İshaq b. Rahaveyh və s. zikr edərək – hədis əhli olan kimsələri sevdiyini görsən heç şübhəsiz ki, o kimsə sünnəyə uyan birisidir. Onlara müxalif olan kimsə də bil ki, o bidətçi birisidir»[373].

**110.** Həsənul Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: «Bir kimsə əgər ilk gedənlərə (sələfə) yetişənlərdən olsaydı və sonra bu gün dirilmiş olsaydı İslamdan tanıdıq bir şey görməzdi. Bu namaz müstəsna»[374].

**111.** İbn Sirin – *rahmətullahi aleyhi* – deyir ki: «Həm bir bidəti qəbul edib, həm də bir sünnəyə əməl edən heç kimsə ola bilməz»[375].

**112.** Əli - *radıyallahu anhu* – deyir ki: «İnsanlarla onların başa düşdükləri tərzdə danışın. Əgər Allah və Rəsulunun təqzib olunmasını istəmirsinizsə»[376].

---

[373] Laləkai «Şərhu Usulu Etiqad Əhli Sünnəti vəl Cəmaat».
[374] İbn Vaddah «əl-Bidau vən Nəbiyyu».
[375] Darimi 1/69, İbn Batta «Şərhu əl-İbanə» səh 133.

**113.** İmam Əhməd – *rahmətullahi aleyhi* – ilə məkkədə İbn Quteylə Əshəbul Hədisdən söz açınca: «Əshəbul Hədis pis bir topluluqdur» dedi. İmam paltarını silkəliyərək qalxdı və: «O, zındıq birisidir, zındıq birisidir» sözlərini evə girənədək təkrar etdi[377].

**114.** Həsənu Bəsri – *rahmətullahi aleyhi* – deyir ki: «Qorxu və ümüd möminin iki miniyidir»[378].

**115.** Fudayl İbn İyad – *rahmətullahi aleyhi* – deyir ki: «Mömin az danışar, çox iş görər. Münafiq isə çox danışar, az iş görər. Möminin danışması hikmətdir, susması təfəkkürdür, baxışı ibrətdir, işi gücü yaxşılıq etməkdir. Belə olduğu zaman daima ibadət içində olmuş olursan»[379].

**116.** Malik İbn Dinar – *rahmətullahi aleyhi* – deyir ki: «Möminin misalı harada olursa olsun gözəlliyi yanında olan inci kimidir»[380].

**117.** Vəhb İbn Munəbbih – *rahmətullahi aleyhi* – deyir ki: «Mömin öyrənmək üçün başqalarına qarışar, səhf etməmək üçün sükut edər, başa düşməsi üçün danışar, rahat və hüzur içində olmaq üçün tək qalar»[381].

**118.** Muhəmməd İbn Munkə – *rahmətullahi aleyhi* – deyir ki: «Allah mömin qulu ilə birlikdə onun uşağını və uşağının uşağını da qoruyar. Onun evini də ətrafdakı evləri də qoruyar. Mömin qul

---

[376] Buxari 1/95.
[377] əl-Bərbəhari «Şərhu Sunnə».
[378] İmam Əhməd «Zuhd» 2/238.
[379] Əbu Nuaym əl-Əsfəhani «Hiylətul Övliya» 3/98.
[380] Əbu Nuaym əl-Əsfəhani «Hiylətul Övliya» 2/377.
[381] Əbu Nuaym əl-Əsfəhani «Hiylətul Övliya» 4/68.

onların arasında olduğu müddətdə onlar daima qorunma içindədirlər»[382].

**119.** Əbul Aliyə – *rahmətullahi aleyhi* – deyir ki: «İslamı doğru olaraq və ən gözəl bir şəkildə öyrənin! Öyrəndikdən sonra da əsla onun sağına və soluna sapmayın! Sıratal-Mustaqim üzərində israrlı və qərarlı olun! Peyğəmbərimizin və səhabələrin Sünnət üzərində yürüdükləri yoldan əsla ayrılmayın. İnsanlar arasında ayrılıq və sapıqlıqlara səbəb olan nəfsi istəklərdən, bidətlərdən çəkinin»[383].

**120.** Abdullah - *radıyallahu anhu* – deyir ki: «Sünnət üzərə olub az əməl etmək, bidət üzərə olub çox əməl etməkdən daha xeyirlidir»[384].

**121.** Zuhri – *rahmətullahi aleyhi* – deyir ki: «Sünnətə sımsıxı sarılmaq qurtuluşdur»[385].

**122.** Tirmizi – *rahmətullahi aleyhi* – deyir ki: «Elm əhlinin nəznində Cəmaat – fiqh, elm və hədis əhlidir»[386]. İbn Sinan – *rahmətullahi aleyhi* – deyir ki: «Onlar, elm əhli və (səhabələrin) nəql etdiklərinə sahib olanlardır»[387].

**123.** əl-Əsbəhani – *rahmətullahi aleyhi* – deyir ki: «Səhih sənədlərlə Allah Rəsulu – *sallallahu aleyhi və səlləm* – dən bizə gələn xəbərləri bir-birindən nəql edərək bizə çatdıran hədis hafizlərinə, hədis əhli deyilir. Onlar hədisi öyrənməyə digər insanlardan daha çox istəkli olan, onunla əməl etməkdə, səhih olanlarına ən yaxşı şəkildə uyan, Kitab və Sünnətə əməl edən kimsələrdir. Allahın

---

382 Əbu Nuaym əl-Əsfəhani «Hiylətul Övliya» 3/148.
383 İbn Batta «əl-İbanə» 1/299.
384 Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/55.
385 Ləlakai «Şərhu Usuli Etiqadi Əhli Sünnə vəl Cəmaat» 1/56.
386 Tirmizi 4/465.
387 Bağdadi «Şərəfu Əshəbul Hədis» s. 26-27.

Rəsulunun sünnətini bir yerə toplamaq üçün ölkə-ölkə dolaşan insanların sadəcə hədis əhlindən olduğunu görürük. Onlar hədisləri qaynaqlarından aldılar. Onları əzbərləyərək də qorumuş oldular. Sünnətlə iftixar edib ona uymağa dəvət etdilər. Ona zidd hərəkət edənləri isə ayıbladılar. Beləcə hədis onların qeyrəti ilə qorundu və onlar da bu adla məşhur oldular»[388].

**124.** Qudeyf İbn əl-Həris – *rahmətullahi aleyhi* – deyir ki: «Bir bidət ortaya çıxan kimi mütləq sünnədən o, qədəri tərk edilir»[389].

**125.** İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «(Bidət fikirlərinə) dəvət edən Qədəriyyə, Xəvariclər və Rafizilərin şahidliyi caiz deyildir»[390].

**126.** Sələflər deyirlər ki: «İslamın ayağı yalnız təslimiyyət körpüsü üzərində sağlam olar»[391].

**127.** İmam Şafii – *rahmətullahi aleyhi* – deyir ki: «Mən Allaha və Allahın muradı üzərə Allahdan gələnlərə, Rəsulullah və Rəsulullahın muradı üzərə Rəsulullahdan gələnlərə iman etdim»[392].

**128.** İmam Məlik – *rahmətullahi aleyhi* – deyir ki: «Kəlam bir elm olsaydı əshab və tabiin də əhkam haqqında danışdıqları kimi o, haqda da danışardılar. Lakin bu bir batilə dəlalət edən bir batildir»[393].

**129.** Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir nəfər ətrafında toplanmış olduğunuz halda sizin birliyinizi pozmaq

---

[388] Huccətu fi Bəyani Məhiccə s. 166-167.
[389] İbn Batta «Şərhu əl-İbanə» səh 143.
[390] Kadi İyad «Tərtibul Mədarik» 2/47.
[391] Bəğavi «Şəhu Sunnə» 1/171.
[392] İbn Qudamə əl-Məqdisi «Lumatul Etiqadi İlə Səbilir Rəşad».
[393] Bəğavi «Şərhu Sunnə».

istəyərək cəmaatınızı dağıtmaq istəyərək gələn kimsəni öldürün»[394].

**130**. Muhəmməd Sirini – *rahmətullahi aleyhi* –, İmam Məlik – *rahmətullahi aleyhi* –, Əmirul Muminin Əli İbn Əbu Talib - *radıyallahu anhu* – deyir: «Bu elmi kimdən öyrəndiyinizə fikir verin, çünki bu elm dinin özüdür»[395]. İbn Ömər - *radıyallahu anhu* – deyir ki: "Din sənindir! Din sənindir! Həqiqətən sənin qanın və canındır. Kimdən götürdüyünə diqqət et!"[396].

**131.** İbn Ömər – *radıyallahu anhu* – məsciddə oturduğu vaxt Şamlı bir nəfər gələrək ondan Təməttu həcci barəsində soruşdu. İbn Ömər: «Gözəldir, xoşdur» deyə cavab verdi. Adam: «Lakin sənin atan bunu qadağan etmişdir» dedi. İbn Ömər: «Vay sənin halına! Atam bunu qadağan etmiş ola bilir. Lakin Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – belə etmiş və bunu əmr etmişdir. Sən atamın sözünü götürəcəksən yoxsa Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in əmrinə tabe olursan?» dedi. Adam: «Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – in əmrinə tabe oluram» dedi. İbn Ömər: «Qalx get!» dedi[397].

**132.** İmam Təhavi – *rahmətullahi aleyhi* – deyir ki: «Təqlidi ancaq başı çatışmayan kimsələr edər»[398].

**133.** İbn Məsud – *radıyallahu anhu* – deyir ki: «Heç kimsə dinində başqa bir kimsəni təqlid etməsin. Çünki əgər o iman edərsə o, da iman edər, küfrə girərsə o, da küfrə girər»[399].

---

[394] əl-Albani «Səhihul Cəmi» 5820.
[395] əl-Xatib «əl-Kifayə fi İlmir Rivayə» s 196.
[396] əl-Xatib "əl-Kifayə" 121.
[397] Tahavi «Şərhu Mənail Asar» 1/372, Əbu Yala «Musnəd» 3/1317, Əhməd 5700, Tirmizi 2/82.
[398] İbn Abidin «Rəsmul Muftu, Məcmuatur Rəsail» 1/32.
[399] Əbu Nuaym «Hilyətul Övliya» 1/136.

**134.** İbn Məsud – *radıyallahu anhu* – deyir ki: «Bu dünyada ya müəllim ol, ya da tələbə. Bu ikisi arasında üçüncü (təqlidçi) olma yoxsa məhv olarsan»[400].

**135.** Sufyan İbn Uyeynə – *rahmətullahi aleyhi* – deyir ki, Rabia başı örtülü halda yanımda uzanaraq ağlayırdı. Ona: «Nəyə görə ağlayırsan?» deyə soruşduqda. O: «Məni ağladan açıq riya, gizli şəhvətdir. İnsanlar alimlərin yanında analarının qucağındakı körpə uşaqlar kimidirlər. Onlar nəyi qadağan edərlərsə ondan əl çəkərlər, nəyi də əmr edərlərsə onu da yerinə yetirərlər»[401].

**136.** Abdulah İbn Muhəmməd əl-Mutəz deyir ki: «Güdülən heyvanla təqlid edilən insan arasında heç bir fərq yoxdur»[402].

**137.** Mucahid İbn Cəbr deyir ki: «Allahın qullarından kim olursa olsun sözü alınır da, tərk də edilir. Yalnız Peyğəmbər - *sallallahu aleyhi və səlləm* – müstəsna»[403].

**138.** İmam Şəfii - *rahmətullahi aleyhi* -, Hafs əl-Fard ilə münaqişə zamanı dedi: "Allaha and olsun! İnsanları əhf qəbul etdikləri bir fətvanı alim üçün vermək daha yaxşıdır nəinki, elə bir söz söyləsin ki, ondan sonra kafir adlandırsınlar. Vallahi! Kəlam və kəlam əhli qədər nifrət etdiyim bir şey yoxdur". Sufyan əs-Sovri - *rahmətullahi aleyhi* - deyir ki: "Kim bir bidət brəsində eşidərsə onu insanlara danışmamalı və onların qəlblərinə salmamalıdır"[404].

**139.** İbn Teymiyyə - *rahmətullahi aleyhi* - deyir ki: "Həqiqətən də insanlar Allahın dininə bidətləri faydalı görüb salmışlar, əgər

---

[400] İbn Abdil Bərr «Camiul Bəyanul Elm və Fadluh» 2/983.
[401] İbn Abdil Bərr «Camiul Bəyanul Elm və Fadluh» 2/984.
[402] İbn Abdil Bərr «Camiul Bəyanul Elm və Fadluh» 2/988.
[403] İbn Abdil Bərr «Camiul Bəyanul Elm və Fadluh» 2/989.
[404] Bəğavi "Şərh Sunnə" 1/227.

faydalı görməsəydilər heç br zaman bunu etməzdilər"[405]. İmam Bərbəhari – *rahmətullahi aleyhi* – haqqı söyləmişdir: "Əməllərdə olan kiçik bidətlərdən uzaq olun. Həqiqətən kiçik bidətlər artaraq böyük olar. Bu ümmətə daxil olan hər bir bidət başlanğıcda kiçik və haqqa bənzər idi. Bu bidətlərdə böyüyərək (insanların) əməl etdikləri dinə çevrildi"[406]. İmam Şatibi - *rahmətullahi aleyhi* - deyir ki: "Hər bir bidət əhli ibadətdə həris olmağı artırır. Məgər sən kilsə əhli olan keşişlri görməmisən. Onlar hər cür ləzzətdən imtina edərək ibadətdə hərisdirlər. Lakin buna baxmayaraq bu keşişlər əbədi olaraq oddadırlar"[407].

**140.** İmam Əvzai – *rahmətullahi aleyhi* – deyir ki: "Əgər bidətlər yayılsa və elm əhli buna qarşı danışmayıb sussa bu zaman bidətlərdən Sünnə edilər"[408]. İmam Əhməd – *rahmətullahi aleyhi* –, Həris əl-Muhasabi haqqında deyir ki: "Qoy onun yumşaqlıq və mülayimliyi (səmimiyyəti) sizləri zəlalətə aparmasın. Çünki o, çox pis bir insandır. Məgər sizlər hər Peyğəmbərin - *sallallahu aleyhi və səlləm* – hədisini danışan bidət əhli ilə oturub-duracaqsınız"[409]. İbn Bazz – *rahmətullahi aleyhi* – deyir ki: "Əgər Əhli Sünnə sussa, Quran və Sünnəyə müxalif olanların səhflərini söyləməsə bu zaman onlar qəzəbə gəlmiş Yəhudilərə və azmış Xristianlara oxşayarlar"[410]. İmam Əhmədin – *rahmətullahi aleyhi* – oğlu Abdullah deyir ki: "Bir gün Əbu Turab atamın yanına gəldi. Atam: Filan ravi etibarlı deyildir, filan ravi isə etibarlıdır" dedi. Əbu Turab: "Ey Şeyx! Alimlər barəsində qeybət etmə!" dedi. Atam: "Vay sənə! Bu qeybət deyil, öyüddür" dedi[411]. Əbu Şama – *rahmətullahi aleyhi* – deyir ki: "Əksər vaxtı insanların bidətə düşmələrinə səbəb hər hansına bir

---

[405] "Məcmuul Fətava" 11/344.
[406] "Şərh Sunnə" 61.
[407] "İtisam" 1/165.
[408] "Şərifu Əshəbil Hədis" 19.
[409] "Tabaqatul Hənəbilə" 1/233.
[410] "əl-Fətava" 3/72.
[411] "Tarixul Bağdadi" 12/316.

kimsəni təqvalı və elmili saymalarına görədir. Halbuki o, kimsə heç də belə deyildir. Onun söz və əməllərinə baxaraq onun etdiklərini və dediklərini sözləyər bununla da öz əməllərini puç edərlər”[412].

**141.** Bir Sufi, İbn Mubaraka – *rahmətullahi aleyhi* – deyir: “Sən qeybət edirsən”. İmam: “Sus! Əgər biz açıqlamasaq bu zaman haradan bilərik batil və haqq haradadır”[413]. İmam Əhməddən – *rahmətullahi aleyhi* – soruşurlar: “Sənin üçün daha üstün hansıdır – insan namaz qılsın, oruc tutsun və etiqaf etsin və ya bidətlərdən (bidətçilərdən) çəkindirsin?”. İmam: “İnsan namaz qıldıqda, oruc tutduqda və etiqaf etdikdə bunu özü üçün edir. Lakin bir kimsə bidətlərdən çəkindirdiyi zaman bu müsəlmanlar üçündür və bu daha üstündür”[414]. Buxari və Muslimin – *rahmətullahi aleyhi* – müəllimi, Yəhyə İbn Yəhyə – *rahmətullahi aleyhi* – deyir ki: “Sünnəni qorumaq Allah yolundan Cihaddan daha yaxşıdır”. Ondan: “İnsan malını Allah yolunda sərf edir, özünü əziyyətə salaraq döyüşürsə digəri bundan üstündür?”. İmam: “Bəli” deyə cavab verdi[415]. Buxarinin – *rahmətullahi aleyhi* – müəllimi, İmam Humeydi – *rahmətullahi aleyhi* – deyir ki: “Allaha and olsun Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – bir hədisini inkar edənlə döyüşməyim mənim üçün kafirlə döyüşməkdən daha üstündü”[416]. İbn Teymiyyə – *rahmətullahi aleyhi* – deyir ki: “Bidət əhlini rdd edən (onlarla döyüşən) Mucahiddir”[417].

## Son Söz

Bunlar Əhli Sünnə vəl Cəmaat, Sələfi Salihin imamlarından olan bəzilərinin söylədikləri sözlərdir. Qeyd olanlardan aydın oldu ki,

---

[412] “əl-Mərifə Vət Tarix” 1/670.
[413] “əl-Kifayə” 1/45.
[414] “Məcmuul Fətava” 28/231.
[415] ”Zammul Kalam” 111.
[416] “əl-Hərəvi” 1/228.
[417] “Naqdul Mantiq” 12.

dörd imam və digər Sələf imamlarının etiqadları eyni olmuşdur. Yalnız iman məsələsində İmam Əbu Hənifə – *rahmətullahi aleyhi* – onu bu cür açıqlamışdır ki, bu da onu digər imamlardan fərqləndirmişdir. Lakin deyilir ki, İmam sonralar bu görüşündən əl çəkmişdir. İnsanlar arasında ümmətlərinin ən çox xeyrini istəyən, ümmətlərinə ən çox xeyirləri toxunan, onların nə ilə düzəldiklərini, harada hidayət tapacaqlarını ən yaxşı bilənlər onlardır. Onlar Allahın Kitabı və Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – sünnətinə sımsıxı sarılmağı tövsiyə edən, sonradan ortaya çıxmış işlərdən bidətlərdən çəkindirməkdə, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – onlara xəbər verdiyi şəkildə qurtuluş yolunu bildirməkdədirlər. Bu yol isə Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – sünnətinə və hidayətinə sımsıxı yapışmaqdır. Allah bizi də onlardan etsin. Amin!

Müsülman qardaş və bacılarım! Allah bizi də sizi də doğru yola yönəltsin. Bunu da bilin ki, Allahın kitabı, Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – Sünnəti və Səhabələrin anlayışından başqa bir yerdə hidayəti axtaran yaxud Allahın qoyduğu şəriətdən başqa bir şəriət ortaya çıxardan kimsə, heç şübhəsiz ki, açıq bir azğınlıq içindədir, doğru yoldan uzaqdır, möminlərin izlədikləri yoldan başqa bir yolu izləməkdədir. İmama Məlik - *rahmətullahi aleyhi* – deyir ki: «Dinin ən xeyrli olanı sünnət olanıdır, ən pis işlər isə sonradan ortaya çıxmış bidətlərdir[418].

Müsəlmanların birlik olmalarının yolu əqidə birliyindən keçdiyində heç bir şəkk-şübhə yoxdur. Tərtəmiz əqidə isə bu ümmətin sələfi olan ilk nəslin inandığı əsaslardır. Uca Allahın bizə bağlanmağı əmr etmiş olduğu doğru yol və sağa-sola sapmayan yol budur. ***«Bu şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapdıracaq yollara uymayın. Allah bunları sizə tövsiyə etdi ki, bəlkə pis əməllərdən çəkinəsiz». (əl-Ənam 153).***

---

418 İmam Şatibi «əl-İtisam».

Allah – *subhənəhu və təalə* – dən Sələfi Salihin yolunu bizə göstərdiyi kimi bizi də onlardan etməsini, yaratdıqlarının ən xeyirlisi olan Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə Qiyamət günü həşr etməsini, bizi hidayətə yönəltdikdən sonra qəlbimizi saptırmamasını, onun yolunda çalışan Muvahhid və saleh qullarından etməsini diləyirəm. Allahdan bu kitabı müsəlmanlar üçün xeyirli və bərəkətli olmasını diləyrəm, Allahdan diləyirəm ki, bu kitab müsəlmanların bir etiqad üzərində birləşməsinə səbəb olsun! Vəkil olaraq Allah biz kifayətdir! O, hər şeyi eşidən və duaları qəbul edəndir. Həmd olsun Aləmlərin Rəbbi olan Allaha!

## İstifadə Olunan Ədəbiyyat


"Əbu Henifenin Beş Eseri" Mustafa Öz 2 Mayis 1981 Bağlarbaşi-Istanbul Marmara Üniversitesi Ilahiyat Fakültesi Vakfi Yayinlari nu:49

"Dört İmamın İtikatları Aynıdır" dr. Nasır Abdullah El- Kıffari Kitabın Orjinal Adı Usulu'ddin İnde Eimmeti'l Erbaa Vahidetun *Tercüme* Oktay Yılmaz

"Dört Mezheb İmamının İtikadı" Tercüme Muhammed Emin Akın, Muhammed İbn Abdurrahman El-Humeyyis, Guraba Yayınları.

"Selef İmamlarının Akidesi - İtiqadu Əimmətis Sələf", Muhammed El-Humeyyis, Çeviren M. Beşir Eryarsoy, Guraba Yayınları.

"Вероубеждение Четырех Имамов Абу Ханифы, Малика, Аш-Шафии И Ахмада" Мухаммад Бин 'Абдуррахман Аль-Хумеййис, Перевод С Арабского: Дамир Хайруддин.